# 6

# ƏDƏBİYYAT

## METODİK VƏSAİT



Aynur Cəfərqızı, Soltan Hüseynoğlu

# ƏDƏBİYYAT

# 6

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün
ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi bn@bakineshr.az və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

B A Ş L I Q L A R


Dərslik komplekti haqqında ................................................ 4
Dərsliyin quruluşu və təlim konsepsiyası ........................... 4
Bədii əsərlərin öyrənilməsi dərslərinin təşkili ..................... 6
Layihələr üzrə işin təşkili ................................................. 10
Ədəbiyyat təlimində inteqrasiya ....................................... 11
Müasir pedaqoji texnologiyalar və ədəbiyyat təlimi .......... 12
Ədəbiyyat fənn kurikulumu ............................................... 18
Məzmun standartlarının reallaşdırılması cədvəli ............... 22
Planlaşdırma ...................................................................... 24
Şagird nailiyyətlərinin qiymətləndirilməsi ......................... 31

**TƏLİM MATERİALLARI ÜZRƏ İŞİN TƏŞKİLİ**

Bədii ədəbiyyat zövq və bilik mənbəyidir ......................... 33

**1. ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN NÜMUNƏLƏR**

Su həsrəti .......................................................................... 36
Qanlı daş ........................................................................... 43
İlyas .................................................................................. 46
*Kiçik summativ qiymətləndirmə vasitələri* ........................ 52
Təsviri inşanın yazması ................................................... 57
Alı kişi (“Koroğlu”dastanından) ...................................... 64

**2. UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ**

Viktor Hüqo. Kozetta. ...................................................... 69
*Kiçik summativ qiymətləndirmə vasitələri* ........................ 75
Təsviri esseni necə yazmalı .............................................. 78
Təsviri essenin yazılması ................................................. 80
Naibə Yusif. Dərs ............................................................. 81
Zahid Xəlil. Dostlar .......................................................... 90
*Kiçik summativ qiymətləndirmə vasitələri* ........................ 92

## 3. YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ


Süleyman Abdulla. Azərbaycan bayrağı ........................... 95
Məmməd İsmayıl. Vətən seçilməz.................................. 100
Nəbi Xəzri. İstiqlal marşı............................................... 102
*Kiçik summativ qiymətləndirmə vasitələri* ...................... 106
Mikayıl Rzaquluzadə. And ........................................... 109
Eyvaz Zeynallı. Tənha nar ağacı .................................. 111


## 4. MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR


Abbasqulu ağa Bakıxanov. Qurd və İlbiz ....................... 119
Seyid Əzim Şirvani. Qaz və Durna ................................ 124
*Kiçik summativ qiymətləndirmə vasitələri* ...................... 126
Rəy inşanı necə yazmalı ................................................ 128
Rəy inşanın yazılması ................................................... 129
Xəlil Rza Ulutürk. Laylam mənim, nərəm mənim........... 131
Mahirə Nağıqızı. Ana dilim .......................................... 136
Səməd Behrəngi. Balaca Qara Balıq .............................. 139
*Kiçik summativ qiymətləndirmə vasitələri* ...................... 154


## 5. TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI


Elçin Hüseynbəyli. Qəsd edilmiş gözəllik ...................... 156
Ramiz Qusarçaylı. Payız ............................................... 163
Rəy esseni necə yazmalı ............................................... 168
Rəy essenin yazılması ................................................... 170
*Kiçik summativ qiymətləndirmə vasitələri* ...................... 172
Rahil Məmməd. İlin qızıl fəsli ....................................... 174
Bayram Həsənov. Bulaq başında .................................. 177
*Kiçik summativ qiymətləndirmə vasitələri* ..................... 185

## DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Altıncı sinif üzrə ədəbiyyat dərslik komplektinə aşağıdakı komponentlər daxildir:

- Dərslik
- Metodik vəsait

*Dərslikdə* kurikulumda əksini tapmış məzmun standartlarının reallaşdırılmasına imkan yaradan və bilavasitə şagirdlər üçün nəzərdə tutulmuş tədris materialları əhatə edilmişdir.

Dərslik bütövlükdə beş bölmədən ibarətdir. Bölmələrə problem-mövzu üzrə qruplaşdırılmış əsərlər daxil edilmişdir. Bölmələrin titul səhifələrində mənimsəniləcək bilik və bacarıqlar haqqında təsəvvür yaradılmışdır. Ayrı-ayrı dərslərə aid olan sual və tapşırıqlar başlıqlarla və rəqəmlərlə fərqləndirilmişdir.

*Metodik vəsait* məlumat xarakterli ümumi hissədən və dərslərin şərhindən ibarətdir. Ümumi hissədə dərsliyin məzmun və struktur xüsusiyyətləri, eləcə də metodoloji konsepsiyası əks etdirilmişdir:

- VI sinifdə ədəbi təhsilin əsas prinsipləri
- Ədəbiyyat təlimində başlıca strategiyalar
- Bədii əsərlərin öyrənilməsi üzrə dərslərin təşkili
- İllik planlaşdırma
- Alt standartların təlim nəticələri üzrə mənzərəsi
- Məzmun standartlarının bölmə və mövzular üzrə reallaşma cədvəli

Hər bir dərsin şərhində aşağıdakılara diqqət yetirilmişdir:

- Standartlar üzrə təlim nəticələri
- Motivasiya üzrə tövsiyələr
- Təlim texnologiyaları üzrə tövsiyələr
- Araşdırma, təhlil prosesində yarana bilən çətinliyin aradan qaldırılması üçün istiqamətləndirici tövsiyələr
- Dərslərin fərqli variantlarda təşkili üzrə tövsiyələr
- Formativ qiymətləndirmə meyarları, üsul və vasitələri

## DƏRSLİYİN QURULUŞU VƏ TƏLİM KONSEPSİYASI

Dərsliyə daxil edilmiş bədii əsərlər beş bölmədə qruplaşdırılmışdır. Bölmələr aşağıdakı kimi adlandırılmışdır:

1. Şifahi xalq ədəbiyyatından nümunələr
2. Uşaq düşüncəsi, uşaq dünyası
3. Yurd sevgisi, qəhrəmanlıq səhifələri
4. Mənəvi dəyərlər, yaşayan hikmətlər
5. Təbiətin gözəlliyi, təbiətə qayğı

Dərslikdə əhatə olunmuş digər məsələlər aşağıdakı başlıqlarla əks etdirilmişdir:

- İnşanı necə yazmalı
- Esseni necə yazmalı
- Layihələr üzrə işin təşkili
- İfadəli oxuda istifadə edilən şərti işarələr
- Lüğət
- Dərslikdəki bəzi terminlərin izahı
- Oxumağı məsləhət görürük

Bölmələrə şifahi xalq ədəbiyyatından nümunələr, klassik və müasir ədəbiyyatımızdan seçmələr daxil edilmişdir. Əsərlər müəyyənləşdirilərkən onların ideya-bədii dəyəri, mənəvi-estetik tərbiyədə rolu, janr müxtəlifliyi, şagirdlərin yaş və qavrama səviyyəsinə, maraq dairəsinə uyğun olması mühüm meyarlar kimi diqqət mərkəzində saxlanmışdır.

Ədəbiyyat nəzəriyyəsi üzrə verilən məlumatlar sinfin səviyyəsinə uyğun olaraq şərh edilmişdir. Fənn kurikulumunun tələbinə əsasən *mübaliğə, bədii sual, dastan* anlayışları haqqında məlumat verilmiş, nümunələr göstərilmiş, möhkəmləndirilməsi istiqamətində iş aparılmışdır. Bədii təsvir və ifadə vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfə təhlil dərslərində tapşırıq qismində müntəzəm izlənilmişdir.

Mövzuların, dəqiq deyilsə, bədii əsərlərin təlim modeli belə müəyyənləşdirilmişdir:

*Oxu-anlama → möhkəmləndirmə-zənginləşdirmə → araşdırma-təhlil → tətbiq-ümumiləşdirmə.*

**Oxu-anlama –** bədii əsərin oxusu, təəssüratın yaranması və ilkin qavranılmasıdır.

**Möhkəmləndirmə-zənginləşdirmə –** oxu prosesində bədii əsərin ideya məzmunu, nitq inkişafı və s. bağlı mənimsənilənlərin fərqli tapşırıqların yerinə yetirilməsi yolu ilə möhkəmləndirilməsi və zənginləşdirilməsidir.

**Araşdırma-təhlil** – mənimsənilənlərin tədqiqat zəminində dərinləşdirilməsi, təhlil üzrə bilik və bacarıqların formalaşdırılmasıdır.

**Tətbiq-ümumiləşdirmə** – mənimsənilmiş bilik və bacarıqların yeni təlim materialı üzrə tətbiq edilməsi və ümumiləşdirilməsidir.

Bu model özünə aralıq tapşırıqları (öyrəndiklərinizi yoxlayın, nitqinizi və düşüncənizi zənginləşdirin və s.) daxil edir.

Tətbiq-ümumiləşdirmə dərslərində mövzuların tədrisi yuxarıda sadalanan mərhələlərin qarşılıqlı əlaqədə tətbiqi ilə reallaşdırılır və o, təhsilalanların maksimum fəallığını və müstəqilliyini təmin edir.

Aşağıdakı izahlar dərslikdəki rubrikaların mahiyyəti haqqında geniş təsəvvür yaradır.

**Yadasalma.** Şagirdlərin mövzu ilə bağlı əvvəlki siniflərdə, xüsusən beşinci sinifdə mənimsədikləri bilik və bacarıqların təkrarına, onlara istinad edilməsinə imkan yaradır. Bu, dərslikdə sual şəklində təklif edilsə də, müəllimin məqsədindən asılı olaraq, tapşırıq kimi də icra etdirilə bilər.

**Oxu. Anlama.** Bədii əsərin ilkin oxusunun həyata keçirilməsi məqsədini daşıyır. O, əsərin ideya məzmunu ilə bağlı ilkin təəssüratın yaranmasına və qavramaya imkan yaradır. Lirik nümunələrdə hiss, həyəcan və düşüncənin, nəsr əsərlərində hadisələrin, ədəbi qəhrəmanların davranış və əməllərinin ilkin qavranılması üzrə təəssüratın konkret suallar əsasında aşkara çıxarılması sonrakı mərhələlərdə işin səmərəli təşkilinə əhəmiyyətli təsir edir. Növbəti addım oxunmuş əsərin ideya məzmununun dərindən qavranılması məqsədini güdür. Bu, dərslikdə təklif edilmiş sualların əsasında gerçəkləşdirilir. Sualların az qismi qapalı, əksəriyyəti açıq tiplidir. İşin bu ardıcıllıqla təşkili şagirdlərdə mətni anlayaraq oxumaq bacarığının inkişafına əhəmiyyətli dərəcədə təsir edir.

**Öyrəndiklərinizi yoxlayın.** Əsərin ideya məzmununun qavranılma səviyyəsini yoxlamaq məqsədilə tətbiq edilən tapşırıq test sualları əsasında hazırlanmışdır. Cavab variantlarında əsərin ideya məzmununun əhatə edilməsinə səy göstərilmişdir.

**Möhkəmləndirmə. Zənginləşdirmə.** Fərqli məzmunda təklif edilmiş tapşırıqlarda yalnız oxunmuş əsərin ideya məzmunu üzrə öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdiriməsi məqsədi güdülmür. Ədəbi-nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqi üzrə müxtəlif tip tapşırıqların yerinə yetirilməsi də nəzərdə tutulmuşdur.

**Xatırlatma. Dərinləşdirmə.** Mənimsənilmiş nəzəri anlayışların dərinləşdirilməsini, yeni bilik və məlumatların izahını özündə əks etdirir.

**Nitqinizi və düşüncənizi zənginləşdirin**. Rəngarəng tapşırıqların əsasında bədii mətnin ideya məzmununun dərindən mənimsənilməsinə, müstəqil yanaşmanın, nitq inkişafı üzrə bacarıqların formalaşmasına xidmət edir.

**Yaradıcı iş.** Bədii-estetik zövqün, yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan yaradan tapşırıqları əhatə edir. Bədii mətnin məzmununa uyğun əlavələrin yazılması bu qəbildəndir.

**Müzakirə.** Fərqli məqsədlər üçün tətbiq edilir. Əsərin məzmununun öyrənilməsində, eləcə də təhlilində müzakirənin müxtəlif formalarının (debat və s.) tətbiqi problemin əməkdaşlıq şəraitində həllinə imkan yaradır.

**Araşdırma. Təhlil.** Tapşırıqları şagirdləri tədqiqatçı mövqeyində olmağa, araşdırma aparmağa, Blum taksonomiyasının ən yüksək səviyyəsinə uyğun işləri icra etməyə istiqamətləndirir. Bədii əsərin öyrənilməsinə həsr edilmiş ilk dərslərdə mənimsənilmiş bilik və bacarıqlara istinad edilir.

**İfadəli oxuya hazırlaşın.** Bədii əsərin öyrənilməsinin yekunu kimi dəyərləndirilə bilər. Əsəri duyan, ondakı hiss və düşüncələrə ortaq olan şagird ideya məzmunu emosional-obrazlı çatdırmaqda çətinlik çəkmir. Bu, əsərin qavranılması və dəyərləndirilməsinin göstəricisi kimi qiymətləndirilir.

**Növbəti dərsə qədər.** Bu başlıq altında şagirdlərə növbəti dərsdə öyrənəcəkləri əsəri asudə vaxtlarında mütaliə etmələri üçün tövsiyələr verilir. Nisbətən irihəcmli əsərlərin – hekayələrdən bəzilərinin dərsə qədər mütaliə edilməsi sinifdə təşkil edilən işin səmərəliliyinə ciddi təsir edir. Belə ki, müstəqil oxunmuş əsərin məzmununun necə mənimsənildiyini qısa vaxtda aşkara çıxaran müəllim dərsdə tapşırıqların yerinə yetirilməsi üçün kifayət qədər vaxt ayıra bilir.

## BƏDİİ ƏSƏRLƏRİN ÖYRƏNİLMƏSİ DƏRSLƏRİNİN TƏŞKİLİ

Ədəbiyyatın tədrisi metodikası üzrə tədqiqatlarda "bədii əsərlərin öyrənilməsi" anlayışının mahiyyəti, təşkili yolları barədə kifayət qədər danışılmışdır. Bu, geniş anlayışdır və bir neçə mərhələni əhatə edir. Bu mərhələlərin sayı, adlandırılması ilə bağlı fərqli fikirlər var. Mərhələlərin sırasında "giriş məşğələsi", "yekun məşğələ", "əsər çərçivəsindən kənara çıxma" və s. göstərilir. Ümumiləşdirmə aparmaqla aşağıdakı mərhələlərin üzərində dayanmaq olar:

– əsərin oxusu;
– məzmunun mənimsənilməsi;
– əsərin təhlili.

Əsərin oxusu ilk mərhələ olub, təşkilindən çox şey asılıdır. Başqa sözlə, oxunun səmərəli təşkili əsərin məzmununun dərindən mənimsənilməsi yolunda ciddi addımdır. Əsərin məzmununun əhatəli mənimsənilməsi isə onun öyrənilməsinin sonrakı mərhələlərinin səmərəli təşkilinə əhəmiyyətli təsir edir. Bir sıra xarici ölkələrdə oxuya böyük üstünlük verilir, əsərin məzmununun bütövlükdə qavranılması məhz bu mərhələdə həyata keçirilir. Bizdə işlənilən "məzmun üzrə iş" anlayışına xarici ədəbiyyatda rast gəlinmir. Məzmunun öyrənilməsi üzrə apardığımız işlərin böyük bir qismi onlarda oxu mərhələsində reallaşdırılır və bu məqamda təhlil xarakterli sual-tapşırıqlardan gen-bol istifadə edilir. Dərsliyin konsepsiyasına uyğun olaraq, oxuda ənənəvi yanaşmadan xeyli fərqli yol seçilmişdir: oxu bilavasitə məzmunun öyrənilməsi vasitəsi kimi dəyərləndirilmiş, sual-tapşırıqlar faktoloji çərçivədən, demək olar, çıxarılmışdır.

Metodikada əsaslandırılmış yol nəzərə alınmaqla əsərin sinifdə ilkin oxusu reallaşdırılır: o, müdaxilə olmadan həyata keçirilir. Əsərlə "təkbətək", "baş-başa" qalan şagirdə ondan səviyyəsinə müvafiq zövq almaq, mütəəssir olmaq imkanı yaradılır. İlkin oxunun yaratdığı təəssürat "Əsər xoşunuza gəldimi?", "Hansı epizod sizə daha maraqlı göründü?", "Obraz sizdə hansı təəssürat yaratdı?", "Sizi heyrətləndirən, yaxud sizin üçün gözlənilməz olan təsvirlərə rast gəldinizmi?", "Əsərdən hansı ovqatla ayrıldınız?" kimi suallarla aşkara çıxarılır.

İlkin oxunun yaratdığı təəssüratın müəyyənləşdirilməsi həqiqi mənzərəni ortaya çıxarır: əsərdəki mühüm hadisələrin mahiyyəti, bir-biri ilə əlaqəsi qədərincə aydın təsəvvür edilmir, ədəbi qəhrəmanlar barədə təsəvvür birtərəfli, yaxud yarımçıq olur, ideya məzmun üçün önəmli olan incəliklərin bir çoxu sezilməmiş qalır… Oxudan əvvəl sualların təqdim edilməsi, eləcə də mətnkənarı sualların tətbiqi də bu vəziyyəti aradan qaldırmır: diqqəti parçalanan, əndişə içində suallara cavab axtaran şagird mətni

bütövlükdə qavraya bilmir, əsərin bədii-estetik təsiri reallaşmamış qalır. Deməli, mətnə yenidən müraciət etməyə ehtiyac yaranır. İlkin oxunun nəticələrinin nəzərə alınması əsasında hazırlanmış suallar ikinci oxudan əvvəl şagirdlərə təqdim olunur. İkinci oxu dərinləşdirilmiş oxu anlamında başa düşülməlidir və onun tətbiqi az vaxt aparır. İlkin oxuda diqqətli olan şagirdlər *qeyri-ardıcıl oxu* formasından istifadə edirlər. Mətni sürətlə nəzərdən keçirən şagird yalnız özünə aid olan məlumatları "görür" və məzmununu dəqiqləşdirir. Başqa şagird *sürətli oxudan* istifadə etməklə aydınlaşdırmaq istədiyi sualların cavablarını dərinləşdirir. Digərləri *qeydlər aparmaqla oxudan* yararlanırlar.

Dərinləşdirilmiş oxudan əvvəl təklif edilmiş sualların əksəriyyəti, qeyd olunduğu kimi, açıq tiplidir. Onlara nümunə olaraq aşağıdakıları göstərmək olar:

*– Səfdər kişinin peşəsi, işinə münasibəti sizdə hansı hiss və düşüncə yaratdı?*
*– Sizcə, onun ağacları, quşlar aləmini, meşə həyatını "beş barmağı" kimi tanıması, bilməsi nəyin sayəsində mümkün olmuşdu?*
*– Ağacları məhv olmaqdan, quşları aclıqdan xilas edən meşəbəyi haqqında sizdə hansı təəssürat yarandı?*
*– Zootexnik kimi fəaliyyəti gənc Səfdər haqqında hansı təəssürat yaradır?*
*– Hansı hadisə onun daha da məşhurlaşmasına səbəb olur?*
*– Meşəbəyi kimi işə başlayan Səfdərin fəaliyyətini necə dəyərləndirərsiniz? Fikrinizi təsdiq edən nümunələr göstərin.*
*– Səfdərin xeyirxah adam kimi tanınması nə ilə bağlı idi? Misallar göstərə bilərsinizmi?*

Dərinləşdirilmiş oxunun səviyyəsinin aşkara çıxarılması həyata keçirilir. Bunun üçün daha çox test tapşırıqlarından istifadə məqsədəuyğun sayılmışdır. Tapşırıq qismində dərsliyə daxil edilmiş test suallarının cavab variantları doğru cavaba maksimum yaxın olmaları ilə seçilir. Bunu aşağıdakı nümunədə müşahidə etmək olar:

### ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Fikirlərdən biri doğrudur.
*A) Səfdər zootexnik olduğu üçün ağacları, bitkiləri tanıyıb öyrənə bilir.*
*B) Ağac və bitkiləri yaxşı tanıyan meşəbəyi quşlar aləminə bələd deyildi.*
*C) Səfdər zootexnik kimi çalışanda meşəbəyi vəzifəsində işlədiyi qədər təşəbbüskar olmur.*
*D) Yaşlaşması, saç-saqqalının ağarması Səfdər kişini çox məyus edir.*
*E) Səfdər kişi həm gəncliyində, həm də yaşlı vaxtında xeyirxah əməlləri ilə seçilir.*

2. Fikirlərdən biri səhvdir.
*A) Səfdər kişi çox işgüzar, diqqətli, həssas adam olduğu üçün uğur qazanır.*
*B) O, meşənin talan olunmasının qarşısını almaqda çətinlik çəkir.*
*C) Səfdər kişiyə həm yaşlılar, həm də gənclər hörmət edirlər.*
*D) Sərt qış günlərində Səfdər kişi kəndə layiqincə yardım edir.*
*E) Səfdər mal-qaranı kütləvi qırğından istedadı və yaşlı nəsildən öyrəndikləri sayəsində xilas edir.*

### MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

Əsərdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin, onların növlərinin müəyyənləşdirilməsi üzrə tapşırıq məzmunun daha dərindən mənimsənilməsi, eləcə də ədəbi-nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi və zənginləşdirilməsi məqsədini güdür.

Bu başlıq altında tapşırıqlara əsərin məzmununa aid suallar və onlara cavabların hazırlanması, əsərdən seçilmiş nümunələrə təsvir və ifadə vasitələrinin artırılması kimi tələblər daxil edimişdir. Dərslikdəki tapşırıqlara aid nümunələr:

*1. Əfsanənin məzmununa aid ikidən az olmayaraq sual və onlara cavab yazın.*

Yaxud:
*1. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.*
*2. Daha maraqlı hesab etdiklərinizi cümlələrdə işlədin. Cümlələrin şeirin məzmunu ilə əlaqəli olmasına diqqət edin.*
*3. İşinizin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.*

Eləcə də:
*1. Əsərdən seçdiyiniz iki cümləyə epitet və ya bənzətmə artırın.*
*2. Cümlələri müzakirə edib dəyərləndirin.*

### XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ

Aşağı siniflərdə öyrənilmiş nəzəri anlayışların sinfin səviyyəsinə uyğun olaraq, dərinləşdirilməsini, yeni bilik və məlumatların izahını özündə əks etdirir. Yeni ədəbi-nəzəri anlayışların tətbiqi il boyu həyata keçirilir.

Nümunəyə nəzər salaq:

*Bədii əsərdə ifadə vasitəsi kimi işlənən mübaliğəyə bir sıra hallarda şişirtmə də deyilir. Şişirtmə, əslində, mübaliğə sözünün lüğəvi mənası anlamındadır. Əsərdə təsvir olunan əşya, hadisə bəzən olduğundan qat-qat artıq, şişirdilmiş şəkildə təqdim olunur. Məqsəd fikrin təsir gücünü artırmaq, oxucuda emosionallıq və maraq oyatmaqdır. Oxuduğunuz əsərdə Qıratda qanadların yaranmasından danışılır. Dastan yaradıcıları bununla Qıratın əvəzsiz bir at olduğunu, qeyri-adiliyini diqqətə çatdırmaq istəmişlər.*

### NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

Bədii əsərin öyrədilməsinə həsr olunan ilk dərslərdən nitq inkişafı üzrə işin təşkilinə ayrıca diqqət yetirilir. Tapşırıqlar mətn üzərində düşünməyi mühüm tələb kimi qarşıya qoyur. Nağıletmənin hər üç forması (yığcam, geniş, yaradıcı) mətnə fərqli yanaşmanı zəruri edir. Onlardan biri (yığcam) əhəmiyyətli ümumiləşdirmə aparmağı, digəri (geniş) mətnin özünəməxsusluğunu nəzərə almaqla yanaşı, öz mövqeyini də ortaya qoymağı – müəyyən əlavələr etməyi, üçüncüsü (yaradıcı) məzmuna uyğun geniş təsvirlər əlavə etməklə nağıletməni nəzərdə tutur.

Bu başlıq altında həmçinin şifahi, yaxud yazılı təqdimatlardan istifadəyə də diqqət yetirilmişdir.

Tapşırıq nümunləri:
*1. "Nazlı bulağ"ın təsvirinə həsr edilmiş parçanın məzmununu yaradıcı nağıletməyə hazırlaşın.*
*2. Əlavələrinizin əsərdəki təsvirə uyğun olmasına çalışın.*
*3. Təqdimatları müzakirə edin.*

Yaxud:
*1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.*
*a) İlqar Əhmədli obrazında diqqətimi cəlb edən başlıca cəhətlər nə oldu.*
*b) Qarabağ hadisələri ilə bağlı yeni nə öyrəndim.*
*2. Çıxışlara münasibət bildirin.*

### YARADICI İŞ

Təhsilalanlarda yaradıcılıq bacarığının inkişafına hesablanmışdır. Tapşırıq bədii mətnə müvafiq yazılı əlavələrin edilməsi üzrə müstəqil işin təşkili şəklində reallaşdırılır. Əlavələr əsərin süjetinin istənilən mərhələsinə daxil edilir. Tapşırıq nümunəsi:

*1. Əsərin əvvəlinə daxil etmək üçün məzmununa uyğun yığcam mətn – əlavə yazın. Bu əlavədə, məsələn: karvanın yola çıxmasının səbəbi, karvandakı insanlar haqqında məlumat və s. əks oluna bilər.*

*2. Yazılmış əlavələri müzakirə edin.*

## MÜZAKİRƏ

Əsərin öyrənilməsinin müxtəlif mərhələlərində fərqli məqsədlər üçün tətbiq edilir. Əsərdəki problemin, yaxud onunla bağlı həyati bir məsələnin müzakirə obyekti kimi seçilməsi məqsədəuyğundur. Məsələn, təbiət mövzusunda əsərin tədrisinə həsr edilmiş dərslərin birində aşağıdakı müzakirənin təşkilinə vaxt ayrılmışdır:

1. *"Təbiətdə nə varsa, insanların rifahı üçün qurban verilməlidir" mövzusunda debata hazırlaşın.*
2. *Lehinə, yaxud əleyhinə olmaqla dəlillərinizi hazırlayın.*
3. *Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.*
4. *Fərqli fikirlərə hörmətlə yanaşın.*

## İFADƏLİ OXUYA HAZIRLAŞIN

Bədii əsərin qavranılması və dəyərləndirilməsi vasitəsi kimi qiymətləndirilən ifadəli oxu lirik şeirlərin, nəsr əsərlərinin tədrisində tətbiq edilmək üçün nəzərdə tutulmuşdur.

Bu oxunun həyata keçirilməsi üçün yığcam təlimatlar əks etdirlilmişdir. Dərslikdən nümunəyə nəzər salaq.

*1. Hekayədən seçilmiş aşağıdakı parçanın ifadəli oxusuna hazırlaşın. Onda əksini tapmış fikir artıq sizə məlumdur. Deməli, onun oxusunda hansı vəzifəni həyata keçirəcəyinizi müstəqil müəyyənləşdirə bilərsiniz. Cümlə daxilində, eləcə də cümlələrin arasında fasilələrin yerini, səsinizin yüksəlib-alçaldığı məqamları, məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin. Unutmayın ki, oxuduğunuz parçanın məzmunundan asılı olaraq, səsinizdə fərqli çalarlar: sevinc, kədər, fərəh duyulacaq. Bunlar isə mətnin kənarında – "səsin aldığı çalarlar" başlığının altında qeyd olunmalıdır.*

| İfadəli oxunacaq mətn | Səsin aldığı çalarlar |
|---|---|
| İndi o, pul sahibinin halına acıyırdı, düşünürdü ki, kim bilir, bəlkə, kədər içində haradasa pulunu axtarır, ya baş sındırır ki, görəsən, harada düşüb qaldı... Birdən fikrindən keçirdi ki, eh, başımı niyə ağrıdım, hardan bilim, kimin puludur?.. Verərəm atama, mənə velosiped alar, qalanını da nəyə xərcləyir, xərcləsin...<br><br>Bir az yüngülləşdi. Amma həyətlərinə çatanda yenə fikirləri qarışdı.Tərəddüd içərisində evə girdi. Pulu anasına göstərməyib, çantasına qoydu. Həyətə çıxdı, oradan da bağçalarının dərinliyinə çəkildi. Həmişə oturduğu, ağacların sıx olduğu yerə çatanda dayandı. İndiyə kimi heç vaxt keçirmədiyi hisslər qəlbini bürümüşdü. Özü-özündən baş açmırdı, alaşıq-dolaşıq fikirlər onu sanki qovurdu, dayanmağa, sakit düşünməyə qoymurdu... | |

*2. İfalara münasibət bildirin.*

Bədii əsərlərin öyrənilməsinə həsr olunmuş dərslərdə tapşırıqlar reallaşdırılması nəzərdə tutulmuş standartlar üzrə tətbiq edilir. Bir dərs saatında yuxarıda sadalanan tapşırıqların hamısının tətbiqi vacib deyildir. Bu tapşırıqlar bir sıra hallarda eyni bir əsərin tədrisinə həsr olunmuş dərs saatlarının arasında bölüşdürülür.

Bədii əsərlərin məzmununun öyrənilməsində nağıletmənin hər üç növündən (yığcam, geniş, yaradıcı) istifadə edilmişdir. Nağıletmə üçün seçilmiş parçanın həcmindən asılı olmayaraq, onların plan əsasında danışılmasına diqqət yetirilməlidir. Dərslikdə bunun hər dəfə təkrarlanması məqsədəuyğun sayılmamışdır.

Dərsliyə daxil edilmiş əsərlərin əksəriyyəti ilə bağlı yoxlama-sınaq dərsləri keçilmişdir. Bakı şəhərindəki 31 və 18 nömrəli məktəblərin VI siniflərində mövzuların çoxunu dərslik müəllifləri tədris etmişlər. Əldə olunan nəticələr, fənn müəllimləri ilə aparılmış müzakirələrdə səsləndirilən tövsiyələr nəzərə alınmışdır.

## LAYİHƏLƏR ÜZRƏ İŞİN TƏŞKİLİ

Layihələr üzrə iş üçün I yarımildə 3 saat, eləcə də II yarımildə 3 saat olmaqla cəmi 6 saat nəzərdə tutulmuşdur. İlk iki saatı layihələrin təqdimatına, sonuncu saatı isə müzakirəyə həsr etmək məqsədəuyğundur. Əlbəttə, müəllim məqsədindən asılı olaraq, fərqli yol seçə bilər. Dərslikdə verilmiş layihə nümunələrinə də yaradıcı yanaşılması arzuolunandır. Məktəbin imkanları, şagirdlərin arzu və istəkləri müəllimin seçim etməsinə təsir edə bilər. Layihənin nəticələri, adətən, şagird portfoliosunda saxlanılır.

Şagirdlərdə fəallığın və müstəqilliyin inkişafında layihələr üzrə işin əhəmiyyəti böyükdür. Bu fəaliyyət növü müəyyən problem, mövzu üzrə tədqiqatın aparılmasını ön plana çəkir. Araşdırılacaq problem, yaxud mövzunun konkret olması faydalıdır. İşin səmərəliliyi ona hazırlığın necə təşkil edilməsindən xeyli dərəcədə asılıdır. Buna görə də əvvəlcədən planlaşdırmanın aparılması vacibdir. Bu mərhələdə şagirdlərə müəllimin istiqamət verməsi məqsədəuyğundur. Layihənin yerinə yetiriləcəyi müddət, dərslikdə təklif olunanlardan fərqlənən vasitələrin (ədəbiyyat, mənbə, şəkil, illüstrasiya. videogörüntü və s.) əldə edilməsi, iş formaları və s. birbaşa müəllimin müşahidəsi, istiqamətləndirici tövsiyələri əsasında müəyyənləşdirilir.

Layihə üçün müəyyənləşdirilmiş mövzu-problemin araşdırılması təlim prosesində mənimsənilmiş bilik və bacarıqlardan istifadəni zəruri edir. Layihə üzrə aparılan iş şagirdləri əlavə bədii əsərləri mütaliə etməyə yönləndirir. Təsadüfi deyildir ki, dərslikdə təklif edilmiş layihələr üzrə işin icrası üçün konkret bədii əsərlərin mütaliə edilməsi tövsiyə olunur. Bununla da ikinci bir vəzifə – sinifdənxaric oxu da reallaşdırılır.

Layihə üzrə işə çoxlu sayda şagirdin cəlb olunması təmin edilir. Xüsusən layihənin icrası üçün nəzərdə tutulmuş bədii əsərləri bütün şagirdlərin mütaliə etməsi gerçəkləşdirilir. Bu isə şagirdlərə öz imkanlarını üzə çıxarmaq, bacarıqlarını sınamaq və təqdim etmək üçün geniş şərait yaradır. Məsələn, VI sinifdə vətən mövzusunda əsərlər öyrənildikdən sonra şagirdlər “Yurd sevgisi” mövzusunda layihənin hazırlanmasına cəlb oluna bilərlər. Layihə üzrə iş aşağıdakı mərhələlər üzrə gerçəkləşdirilir:

**1. Hazırlıq**. Layihənin mövzusu və məqsədi aydınlaşdırılır. Kiçik qruplar yaradılır. Hər qrup layihəyə verəcəyi töhfənin məzmunu barədə konkret təsəvvür qazanır.

**I qrup:** Vətən mövzusunda əsər yazmış məşhur sənətkarlardan bir neçəsi barədə albom-məcmuə hazırlamağı məqsəd kimi seçirlər. Qrupun üzvləri aşağıdakı istiqamətlərdə fəaliyyətə başlayırlar:

- Sənətkarlar haqqında (həyatı, yaradıcılığı, dostları və s.) məlumat toplayırlar.
- Əsərlərindən sitatlar seçirlər.
- Əsərlərinə illüstrasiyalar çəkirlər.
- Albomun bədii tərtibatı ilə məşğul olurlar.

**II qrup:** Ayrı-ayrı sənətkarların əsərlərindən seçdikləri təsvirlərin, epizodların oxşar cəhətlərini müəyyənləşdirib yığcam təqdimatlar hazırlayırlar.

**III qrup:** Müxtəlif sənətkarların əsərlərindən seçilmiş nümunlərin əsasında videosüjet hazırlayırlar.

**IV qrup:** Müxtəlif sənətkarların əsərlərindən seçilmiş bitkin parçaların ifadəli oxusunu hazırlayırlar.

**V qrup:** Bir neçə əsərin əsasında hazırlanmış yığcam süjetin səhnələşdirilməsini həyata keçirirlər.

**2. Təqdimat.** Qruplar gördükləri işlərin nəticələrini təqdim edirlər.

Layihələrin məzmunu, yerinə yetirilməsi və müzakirənin təşkili dərslikdə konkret nümunələrin timsalında əhatəli şərh edilmişdir.

## ƏDƏBİYYAT TƏLİMİNDƏ İNTEQRASİYA

Müasir təlimi interaktivlik olmadan təsəvvür etmək mümkün deyil. Təsadüfi deyildir ki, bu, ədəbiyyat fənn kurikulumunda prinsip səviyyəsinə qaldırılmışdır. Ədəbiyyat fənni üçün interaktivliyin xüsusi önəmi vardır. Bu fənnin ayrı-ayrı mövzularının bir-biri ilə qarşılıqlı əlaqədə olduğu barədə az yazılmamışdır. Məsələnin başqa və daha mühüm cəhəti bədii əsərlərin qarşılıqlı əlaqədə, daha dəqiq

deyilsə, müqayisəli öyrədilməsidir. Bu, fəndaxili inteqrasiyanı zəruri edir. Bu inteqrasiya o dərəcədə çoxcəhətlidir ki, təlim prosesində addımbaşı özünü göstərir. Lakin bu prosesi öz axarına qoymaq olmaz. Məsələnin elmi əsaslar üzrə həlli və idarə olunması diqqət mərkəzində saxlanılmalıdır. Ədəbiyyat fənn kurikulumunda fənndaxili inteqrasiya məzmun xətlərinin qarşılıqlı əlaqələrində nəzərə alınmışdır. Başqa sözlə, bədii əsərlərin öyrənilməsi prosesində formalaşdırılan bilik və bacarıqların (birinci məzmun xətti) şifahi nitq (ikinci məzmun xətti) və yazılı nitq (üçüncü məzmun xətti) üzrə reallaşdırılan işlərin təşkilində geniş tətbiqi nəzərdə tutulmuşdur. Eləcə də, əksinə, şifahi və yazılı nitqlə bağlı formalaşan bilik və bacarıqlar bədii əsərlərin öyrənilməsində geniş tətbiq edilir. Beləliklə, fəndaxili əlaqə məzmun standartlarının inteqrativ reallaşdırılması şəklində özünü qabarıq göstərir. Bunu aşağıdakı cədvəldə müşahidə etmək mümkündür.

| | |
|---|---|
| 1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir. | 1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. |
| 1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir. | 2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı diskussiya və təqdimatlarda istifadə edir. |
| 1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir. | 1.2.1. Bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir. | 1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir. | 3.1.2. Bədii nümunələrdəki başlıca fikri anladığını nümayiş etdirir. |

Fənlərarası inteqrasiyanın reallaşdırılması baxımından da ədəbiyyat fənninin imkanları genişdir. Səriştəli müəllimin hər dərsində bu iki inteqrasiyanın reallaşmasını müşahidə etmək mümkündür. Bəzən bu, epizodik xarakterdə olur, bəzən isə əhəmiyyətli vaxt ərzində gerçəkləşdirilir. Müəllim yeni təlim materialının *öyrənilməsində, möhkəmləndirilməsində,* yaxud *tətbiqində* şagirdlərin digər fənlər üzrə mənimsədikləri bilik və bacarıqlara əsaslana bilər. Məsələn, V-VI siniflərin ədəbiyyat dərslərində *heca vəzni* haqqında məlumatın öyrənilməsi və dərinləşdirilməsi şagirdlərin Azərbaycan dili fənnindən heca haqqında mənimsədikləri bilik və bacarıqlara əsaslanmaqla həyata keçirilir. Yaxud dil dərsində *xitab* haqqında öyrənilənlər V-VI siniflərdə bədii nümunələrin tədrisində yada salınır və tətbiq edilir.

Təbiidir ki, ədəbiyyat dərslərində daha çox müraciət olunan fənlər Azərbaycan dili və tarix olur. Azərbaycan dili ilə ədəbiyyatın əlaqəsi, əsasən, aşağıdakı istiqamətlərdə özünü göstərir:

– danışıq səsləri;
– alliterasiya, assonans;
– ahəng qanunu;
– heca, vurğu, xitab, qafiyə;
– açıq və qapalı heca;
– sözlərin məna qrupları;
– orfoepiya qaydaları;
– poetik sintaksis (bədii sual, bədii nida, bədii təzad və s.);
– bədii təsvir vasitələri;
– cümlə, onun quruluşu, növləri;
– üslublar və s.

Hər iki fənnin tədrisində bu istiqamətlərdəki əlaqələrin reallaşdırılmasına əlverişli imkan yaranır.
Ədəbiyyatın tarix fənni ilə əlaqəsi daha çox aşağıdakı istiqamətlərdə olur:

– icmal mövzular;
– monoqrafik mövzular;
– ayrı-ayrı bədii nümunələr.

Ədəbiyyat təlimində fənlərarası əlaqələrin tətbiqindən danışarkən incəsənətin digər növləri üzrə işin təşkili də nəzərdə tutulur. Buna etiraz edənlər, fikrimizcə, haqlı deyillər. Unudulmamalıdır ki, fənlərarası əlaqələr dedikdə yalnız tədris fənləri nəzərdə tutulmur, incəsənətin digər növlərinin dərsə cəlb edilməsi təbii və məntiqli hesab olunur. Beləliklə:

– ədəbiyyat və rəssamlıq;
– ədəbiyyat və musiqi;
– ədəbiyyat və teatr;
– ədəbiyyat və kino və s.

ədəbiyyat təlimində müraciət olunan faydalı vasitələr kimi dəyərləndirilir.

Deyilənlərdən aydınlaşır ki, fənlərarası əlaqə fənn müəllimi tərəfindən təkbaşına həyata keçirilir və dərsin strukturunda heç bir dəyişiklik baş vermir. Bu da etiraf edilməlidir ki, fənlərarası əlaqələrin tətbiqi, əksər hallarda, geniş, əhatəli hazırlıq işlərinin aparılmasını tələb etmir. Təcrübəli müəllim dərsin planlaşdırılması mərhələsində tədris materialına (mövzuya, problemə, ədəbi hadisəyə, fakta və s.) uyğun digər fənlərə məxsus hansı məlumatlardan necə yararlanacağı barədə düşünür və qeydlər edir. Eləcə də şagirdlərlə aparacağı işin məzmunu üzərində hazırlıq mərhələsində fikirləşən müəllim istifadə edəcəyi sualları, gözlənilən cavabları dəqiqləşdirir.

"Fənlərarası əlaqə" anlayışının bir özəlliyi də digər fənlərdən dərsə cəlb olunanlara münasibətlə bağlıdır. Cəlb olunanlar hansı təlim materialı ilə əlaqəlidirsə, məhz onun dərindən mənimsənilməsinə yardımçı olur. Başlıca məqsəd, niyyət də budur. Əlbəttə, cəlb olunanlar yeni şəraitdə, yeni müstəvidə nəzərdən keçirildiyindən onların da müəyyən incəliklərinin sezilməsinə, başa düşülməsinə imkan yaranır, eləcə də qazanılmış biliklər təkrar olunur və möhkəmlənir. Məsələn, dil dərsində xitabla bağlı mənimsənilmiş biliklərdən ədəbiyyat dərslərində istifadə prosesində cümlənin müxtəlif yerlərində xitabın tələb etdiyi durğu işarərləri barədəki məlumat möhkəmləndirilir və zənginləşdirilir. Yaxud xitab yerində həm canlıların, həm də cansızların işlənə bildiyi konkret bədii nümunələr əsasında nəzərdən keçirilir və s.

Müşahidələrdən aydınlaşır ki, təlim prosesində əlaqələrin müəyyən edilməsi, bu istiqamətdə müstəqil işlərin təşkili şagirdləri ciddi maraqlandırır. Fənlərarası əlaqələrin tətbiqinə alışan şagirdlər, bir müddət sonra müəyyən ədəbi fakt, hadisə və s. səsləşən digər fənn üzrə biliklərini müstəqil olaraq xatırladır, aralarındakı bağlılığı açıqlamağa səy göstərirlər. Belə məqamlarda müəllimdən psixoloji dəstək görən şagirddə daha irəli getmək meyli güclənir.

Məktəb təcrübəsində müşahidə edilən digər özəl cəhət dərsdə yaranan situasiyanın müəllimi fənlərarası əlaqəyə müraciət etməyə yönləndirməsidir. Daha dəqiq deyilsə, belə hallarda əlaqənin yaradılması planlaşdırmada, dərsə hazırlıq mərhələsində nəzərdə tutulmamış olur. Bu gözlənilməz təlimi vəziyyət müəllimdən metodik ustalıq tələb edir; o, sözçülüyə, vaxt itkisinə yol vermədən bu əlaqənin əsas cəhətlərini diqqətə çatdırmaqla şagirdləri fəal olmağa, müvafiq fikirləri sərbəst ifadə etməyə, əhəmiyyətli dərəcədə müstəqillik nümayiş etdirməyə istiqamətləndirməlidir.

Fənlərarası əlaqə üzrə dərsdə aparılan iş, qeyd edildiyi kimi, həmişə qısa vaxt müddətində tamamlanmır. Cəlb olunan materialın tutumundan, müəllimin məqsədindən asılı olaraq, bu işin həcmi geniş, apardığı vaxt çox ola bilər. Belə olan halda işin necə təşkil ediləcəyi barədə dərsə hazırlıq mərhələsində ətraflı götür-qoy etmək və müəyyən edilmiş metodik yanaşmanı dərsin planına daxil etmək vacib olur.

## MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR VƏ ƏDƏBİYYAT TƏLİMİ

Nəticəsindən asılı olmayaraq, təlimdə yenilik axtarışları həmişə olub. Bu axtarışlar həm təlimin məzmununu, həm də öyrətmə və öyrənmə üsullarını əhatə edib. Dövlət müstəqilliyimiz bərpa olunandan sonra bu istiqamətdəki fəaliyyət daha ardıcıl və səmərəli şəkildə gerçəkləşdirilməyə başlandı. Təlimin məzmununda aparılan dəyişiklik texnologiyalarda da yenilənməni tələb edirdi. Başqa sözlə, innovativ

təlim yeni texnologiyaların tətbiqini zərurətə çevirmişdi. Müəyyən zaman fərqi ilə yaranan və daha geniş yayılan yeni texnologiyalar aşağıdakılardır:

– inkişafetdirici təlim;
– problemli təlim;
– tənqidi təfəkkürün inkişafı;
– layihələr metodu texnologiyası;
– təlimə diferensial yanaşma;
– informasiya texnologiyası və s.

Ümumiyyətlə, texnologiyaların üstünlüyü bir sıra tələblərə cavab vermələri ilə müəyyən olunur. Mühüm hesab olunan tələblər, əsasən, aşağıdakılardır.

Texnologiya:

– materialın müstəqil mənimsənilməsi üçün şagirdlərə imkan verməlidir;
– şagirdləri müxtəlif növ fəaliyyətə yönəltməlidir;
– fəaliyyətin təşkili vasitəsi kimi dəyərləndirməklə müxtəlif informasiya mənbələri ilə işləməyi tələb etməlidir;
– qrupların qarşılıqlı fəaliyyətinin təşkilinə şərait yaratmalıdır;
– şagirdlərin idrak fəaliyyətinin müxtəlif sahələr üzrə reallaşmasına rəvac verməlidir;
– çoxlu həcmdə vəzifələrin həllinə imkan yaradan bitkin, tam təlimin təmsilçisi olmalıdır.

Təlim texnologiyası qismində zaman-zaman meydana gələnlərin heç də hamısı bu tələblərə yetərincə cavab verməmiş, bir çoxu məktəbə yol tapmamış, yaxud məktəbdə uzun müddət davam gətirməmişdir. Son dövrlərdə haqqında çox danışılan təlim texnologiyaları ilk növbədə şagird fəallığını və müstəqilliyini ön plana çəkir. Bu yeni yanaşmaların əsasında təhsilalanın tədqiqatçı mövqeyində olması tələbi dayanır və müdafiə edilir. Təlim texnologiyalarını bir-birinə qarşı qoymaq, yaxud onlardan birini digərinin hesabına daha üstün saymaq doğru deyildir. Müasir dərsin uğuru müxtəlif təlim texnologiyalarının qarşılıqlı əlaqədə tətbiqindən asılıdır. Buna nail olmaq üçünsə onların hər birinin mahiyyəti, tətbiqi qaydaları barədə aydın təsəvvürə malik olmaq vacibdir.

Fəal/interaktiv təlim metodlarının tətbiqi ilə bağlı məktəbdə xeyli təcrübə qazanılmışdır. O cümlədən ədəbiyyat dərslərində Venn diaqramı, BİBÖ, fasilələrlə oxu, ikihissəli gündəlik, söz assosiasiyaları, beyin həmləsi, müzakirə, şaxələndirmə və s. metodlardan istifadəyə yer verilir. Ədəbiyyatın tədrisi metodikası üzrə araşdırmalarda bu kimi metodların mahiyyətindən, tətbiqi yollarından kifayət qədər danışılmışdır.

İctimai həyatın müxtəlif sahələrində tətbiq olunan *keys-metoddan* təhsildə, o sıradan ədəbiyyat dərslərində də istifadəyə geniş imkan vardır. Onun mahiyyətində inkişaf dayanır. Yaranmış mürəkkəb vəziyyətdən çıxış yollarının axtarılması idrak fəaliyyətinin aktivliyini tələb edir. Bu, bütövlükdə təfəkkürün inkişafı, zənginləşməsi yolunda səmərəli addımdır. Bütün fənlərin, eləcə də ədəbiyyatın öyrənilməsində keyslərin (problem-tapşırıqların) hazırlanmasına və tətbiqinə geniş imkan vardır. Başqa sözlə, ədəbiyyat fənninin bütün materiallarının, xüsusən bədii əsərlərin öyrənilməsində *təlimi situasiyanın* yaradılması mümkün və faydalıdır. Bu təlimi situasiyadan çıxış yolunun tapılması, problemin həlli variantlarının müəyyənləşdirilməsi, onlardan ən səmərəli olanının seçilməsi keys-metodun başlıca tələbidir. Keysi "sənəd dəsti" şəklində alan şagirdlər situasiya, onun təsviri, əsas və əlavə ədəbiyyat, metodik təminat və s. barədə məlumat əldə edirlər. Araşdırılan problemin birmənalı həlli olmur və bu, şagirdlərdə təkcə idrak fəallığının yox, həm də güclü marağın yaranmasına yol açır. Keyslərin yerinə yetirilməsi prosesində biliklərin əldə edilməsi şagirdlərin müstəqil fəaliyyəti sayəsində mümkün olur. Bu texnologiyanın tətbiqi prosesində aşağıdakı bacarıqların formalaşmasına geniş imkan yaranır:

1. Təhlil bacarıqları:
   – təsnif etmək (qruplaşdırmaq);
   – əhəmiyyətli və ikinci dərəcəli məlumatları müəyyənləşdirmək, təhlil etmək.

2. Praktik bacarıqlar:
   – informasiyalarla iş zamanı bilik, metod və priyomlardan istifadə.
3. Yaradıcılıq bacarığı:
   – problemlərin həllinə yaradıcı yanaşma.
4. Kommunikativ bacarıqlar:
   – diskussiya aparmaq;
   – öz mövqeyini müdafiə etmək.

Keys-metodun üstünlükləri bununla məhdudlaşmır. Keyslərlə iş zamanı, yuxarıda qeyd edildiyi kimi, şagirdlərdən addımbaşı müstəqil qərar qəbul etmək, problemli suallara cavab vermək tələb olunur. Deməli, tədris materialını problem (keys) şəklində alan şagird onun haqqındakı biliyi idraki fəallıq göstərməklə, yaradıcı işin nəticəsində əldə edə bilir.

Keys-metod mahiyyətcə fəal təlim texnologiyası hesab edilir və interaktivlik onun mühüm tələblərindəndir. Bir sıra hallarda (müəyyən mərhələdə) şagirdlərin keys tapşırığı üzrə fərdi işi təşkil edilsə də, son nəticədə onlar kiçik qruplarda birləşir, problemin həllini başa çatdırırlar. Deməli, bu texnologiyanın tətbiqi prosesində əməkdaşlığın təmin edilməsi zəruri tələb kimi özünü göstərir.

Keys-metodun tətbiqi ilə bağlı mənzərəni ümumi şəkildə belə təsəvvür etmək mümkündür: şagirdlərə tapşırıq dəsti (paketi) təqdim edilir. Bu sənəddə birmənalı həlli olmayan problem, onunla bağlı tapşırıqlar, suallar, istifadə olunacaq əsas və əlavə ədəbiyyat, nəticənin ifadə forması, qiymətləndirmə meyarları əks etdirilir. Beləliklə, keysin məzmun və strukturunu aşağıdakı şəkildə ümumiləşdirmək mümkün olur:

– dərsin mövzusu, problemi;
– mübahisəli situasiyanın təsviri;
– suallar, tapşırıqlar;
– əyanilik, digər illüstrativ materiallar;
– əsas və əlavə ədəbiyyat;
– keyslə iş rejimi;
– işin qiymətləndirilməsi meyarları.

Keys-metodun tətbiqi bir-biri ilə qarşılıqlı əlaqədə olan üç mərhələnin reallaşdırılması sayəsində mümkün olur. Bu mərhələlər məşğələdən əvvəl, məşğələ zamanı və məşğələdən sonra icra olunan işləri əhatə edir. Aşağıdakı cədvəldə mərhələlərin ardıcıllığını müşahidə etmək olar.

| *İşin ardıcıllığı* | *Müəllimin fəaliyyəti* | *Şagirdlərin fəaliyyəti* |
|---|---|---|
| Məşğələyə qədər | Keysi seçir, müəyyənləşdirir.<br><br>Şagirdlərin hazırlaşması üçün əsas və yardımçı materialları müəyyənləşdirir.<br><br>Məşğələni planlaşdırır (ssenari hazırlayır). | Keysi və tövsiyə olunan ədəbiyyatı alır.<br><br>Fərdi olaraq hazırlaşır. |
| Məşğələ zamanı | Keysin ilkin müzakirəsini təşkil edir.<br><br>Kiçik qruplar yaradır.<br><br>Kiçik qruplarda keysin müzakirəsinə rəhbərlik edir, şagirdləri əlavə məlumatlarla təmin edir. | Keysin və problemin dərindən başa düşülməsi üçün suallar verir.<br><br>Problemin həlli variantlarını işləyir, yoldaşlarının rəyini nəzərə alır.<br><br>Müstəqil qərarlar qəbul edir, yaxud onların qəbulunda iştirak edir. |
| Məşğələdən sonra | Şagirdlərin işini qiymətləndirir.<br><br>Qəbul edilmiş qərarları və sualları qiymətləndirir. | Təklif edilmiş formada yazılı hesabat hazırlayır. |

Qeyd olunduğu kimi, keys-metodun ədəbiyyat dərslərində tətbiqinə geniş imkan vardır. Bunun uğurla həyata keçirilməsi isə bir sıra vəzifələrin yerinə yetirilməsindən asılıdır. İlk növbədə bu texnologiya ilə bağlı nəzəri biliklər mənimsənilməli, sonra isə praktik tətbiqinə səy göstərilməlidir. Keys-metoddan istifadə etməyi planlaşdıran müəllim unutmamalıdır ki, ədəbiyyat dərslərində bu texnologiyanın tətbiqi tədris prosesini daha effektli edir, şagirdlərdə öyrənilən materiala maraq oyadır, idrak müstəqilliyinin, yaradıcılıq qabiliyyətlərinin, emosional-iradi keyfiyyətlərin inkişafına səbəb olur. Yığcam keys qismində bir nümunənin səciyyəvi məqamlarına nəzər salaq.

*Dərsin mövzusu:* N. Yusif. "Dərs".

ARAŞDIRMA. TƏHLİL.

*Problem:* Muradla Nihadin arasında konflikt olmaya bilərdimi?

*Suallar:*

1. Konfliktin baş verməsinə səbəb nə idi?
2. Konfliktin davam etməsində günahkar kimdir?
3. Konfliktin iştirakçıları özlərini necə aparırlar?
4. Sizcə, bu şagirdlərin arasındakı konflikt hansı yolla aradan qaldırıla bilərdi?
5. Həyatınızda konflikt baş veribmi?
6. Siz bu vəziyyətdən necə çıxmısınız?

*Tapşırıqlar:*

1. Suallara cavab hazırlayın.
2. Obrazların davranış, əməl və nitqlərinə aid nümunələr seçib müqayisə edin.
3. Mövzu ilə bağlı yığcam esse, yaxud inşa yazın.

*Əlavə I.* Qrupda iş qaydaları.

1. Qrup sözçüsünü seçin.
2. Məqsədə çatmağın yollarını müzakirə edin.
3. Qrup üzvlərinin hər birinin vəzifəsinə diqqət edin.
4. Qrup üzvlərinin hər birinin tapşırıq aldığına əmin olun.
5. Tapşırıqlar yerinə yetirilərkən bir-birinizi diqqətlə dinləyin, yoldaşlarınızın sözünü kəsməyin, dil tapmağa, anlaşmağa çalışın.
6. Vaxtın keçməsinə nəzarət edin, kənar söhbətə vaxt sərf etməyin, işdən yayınmayın.
7. İşinizin nəticəsini təqdim etməyə hazır olun. Unutmayın ki, nəticələrin təqdimində hər kəs iştirak etməlidir.

*Əlavə II.* Qrup işinin qiymətləndirilməsi meyarları.

1. Cavabın təqdim olunmuş tapşırığa uyğun olması.
2. Şərhin məntiqiliyi, ardıcıllığı, dəqiqliyi.
3. Qrupların üzvlərinin hamısının keysin tapşırıqlarının yerinə yetirilməsində və nəticələrinin təqdimatında iştirak etməsi.
4. Materialların şərh edilməsi mədəniyyəti.

*Nəticələrin təqdimi.*

Qrup işlərinin nəticələri fərqli formalarda təqdim edilir:

1. Yazılı qeydlər əsasında şifahi təqdimat.
2. Yazılı təqdimat.
3. İnşa.

*Ədəbiyyat*


1. Ədəbiyyat (6-cı sinif üçün dərslik). Bakı: Bakınəşr, 2025.
1. Keys-metod haqqında yığcam məlumat- vərəq.

Fərqli təlim texnologiyalarında təlim vasitələrinə münasibətdə oxşar cəhətlərin çox olduğu məlumdur. Bu və ya digər təlim vasitəsi, o sıradan metod və priyomlar (texnikalar) məhdudiyyətsiz olaraq müxtəlif texnologiyalarda istifadə olunur. Lakin bunu məşğələ formaları, xüsusən dərs haqqında demək mümkün deyildir. Dərsin quruluşu və mərhələlərinə yanaşmada fərqlər müşahidə olunur. Ümumiyyətlə, dərs haqqında formalaşmış, möhkəmlənmiş bir sıra fikirlərin artıq aradan qalxdığını görmək mümkündür. **Xarici ədəbiyyatda dərsin sərt reqlamentinin qorunub saxlanmasının bu gün zərərli olması əsaslandırılır.**

Fərqli təlim texnologiyalarının tətbiqi ilə əlaqədar nəzərə çarpan yeniliklərdən biri də təlimin əsas təşkil forması olan **dərsin** məzmun və quruluşunda baş verən dəyişiklik oldu. Bizdə haqqında ötən yüzilliyin 90-cı illərindən danışılan fəal/interaktiv təlim tədricən məktəblərimizə yol tapdı. Bununla da ənənəvi təlimi yanaşmaya məxsus dərsin fəal/interaktiv dərslə əvəzlənməsi prosesinin bünövrəsi qoyuldu. Zaman ötdükcə məktəb təcrübəsi fəal/interaktiv dərsin uğurlu və qüsurlu cəhətlərini aşkara çıxarmağa imkan verdi. Bu dərsin mərhələlərinin çox və mürəkkəb olmasının təlim prosesində ciddi çətinliklər yaratdığını indi əksəriyyət etiraf edir. Vaxt qıtlığı fəal/interaktiv dərsin ən zəif cəhəti kimi dəyərləndirilir. Metodik ədəbiyyatda çıxış yolu kimi, dərsin mərhələlərinin birləşdirilməsi, tədqiqatın nəticəsinin müsahibə ilə aşkara çıxarılmasının mümkünlüyü və s. barədə maraqlı təkliflər irəli sürüldü.

Fəal/interaktiv təlim kimi tanınan yanaşmanın ikinci mühüm qüsuru təlimin bütövlükdə şagird tədqiqatının əsasında təşkil edilməsi cəhdidir. Bunun fəsadları çox olur. Məsələn, qazanılmış biliklərin sistemsiz və pərakəndə olması, öyrənilməsi vacib olan nəzəri məlumatların şagird tədqiqatında əhatə olunmaması bu qəbildəndir. Buradan aydınlaşır ki, təlim materialının çətin mənimsənilən məsələlərinin şərhini, yaxud izahını müəllimin bir sıra hallarda öz üzərinə götürməsi nəinki faydalıdır, həm də qaçılmazdır.

İnkişaf etmiş ölkələrdə artıq bu gün dərsin sərt reqlament tələblərinə və mərhələlərinə şablon yanaşmalar bir kənara qoyulur. İndi *sərbəst dərs, qeyri-standart dərs* anlayışlarının əsaslandırılması və tətbiqi geniş vüsət almışdır.

Bu baxımdan yeni dərs tiplərinin, növlərinin müəyyənləşdirilməsi, eksperiment yolu ilə sınaqdan keçirilməsi və dəyərləndirilməsi istiqamətində işlərin təşkili vacibdir. Dərs ehkamçılığı, doqmanı qəbul etmir. Bu məqamda dərsin reallıqdan uzaq olan mərhələlərinə kor-koranə tabe olmağı təbliğ və müdafiə etmək günün tələblərini duymamaqdan başqa bir şey deyildir. Fərqli təlim texnologiyalarına məxsus dərsin ən yaxşı cəhətlərinin seçilərək əlaqələndirilməsi və tətbiqi bu günün ən mühüm tələblərindən sayılır. Metodik vəsaitdə təklif edilmiş dərs nümunələrində bu tələb gözlənilmiş, rəngarəngliyə diqqət yetirilmişdir. Mərhələləri fərqli olsa da, bu dərsləri birləşdirən cəhətlər çoxdur. Onların hamısında şagirdlərin araşdırmaya, axtarışlara cəlb olunması, biliklərin qazanılmasında subyekt mövqeyində dayanması, eləcə də əməkdaşlığa geniş meydan verilməsi, qiymətləndirmənin obyektivliyinə nail olunması ön plana çəkilmişdir. Bunu indiyə qədər mövcud olanlarla səsləşən və son vaxtlar populyarlıq qazanmış aşağıdakı dərs modelində də müşahidə etmək olar.

Bu modelin beş mərhələsi vardır:

- Maraqoyatma (motivasiya, cəlbetmə)
- Araşdırma
- İzahetmə
- Möhkəmləndirmə
- Qiymətləndirmə

**Maraqoyatma.** Bu, araşdırılacaq problemə (öyrəniləcək mövzuya) maraq oyatmaq, şagirdlərin diqqətini cəlb etmək məqsədi daşıyır. O, şagirdlərin mövcud biliklərinə əsaslanmaqla suallar əsasında reallaşdırılır və daha çox yığcam müzakirənin aparılması şəklində özünü göstərir. Bu mərhələdə

şagirdlərin ilkin (mövcud) bilikləri ilə dərsin təlim nəticələri arasında əlaqələrin yaradılması, eləcə də növbəti mərhələlərdəki fəaliyyətin səmərəli təşkil edilməsi məqsədi diqqət mərkəzində saxlanılır.

Göründüyü kimi, bu, məlum "motivasiya, problemin qoyuluşu" mərhələsi ilə xeyli dərəcədə səsləşir və burada da bir sıra hallarda tədqiqat sualının formalaşdırılması gerçəkləşdirilir.

**Araşdırma.** Dərsin bu mərhələsində şagirdlərin geniş fəaliyyəti həyata keçirilir. Problemin mahiyyətinin açıqlanması, onun həlli diqqət mərkəzində saxlanılır. Bunun üçün heç də həmişə kiçik qrupların yaradılması vacib deyildir. Araşdırmanın aparılmasında, tapşırıqların yerinə yetirilməsində fərqli iş formalarının (fərdi, cütlük şəklində, kiçik qruplarda, eləcə də bütün siniflə birgə iş) tətbiqi məqsədəuyğun hesab edilir. Əldə edilmiş məlumatın müzakirəsində də rəngarəngliyə diqqət yetirilir: müzakirə yığcam yazılı təqdimatların səsləndirilməsi, yazılı qeydlərin əsasında şifahi təqdimatın edilməsi, qısa məruzələrin dinlənilməsi və s. şəklində reallaşdırılır. Müzakirənin dialoq əsasında təşkili daha çox şagirdin əhatə olunmasına imkan yaradır.

**İzahetmə.** Əldə edilmiş biliyin əlaqələndirilməsi, sistemə salınması, ümumiləşdirilməsi və nəticə çıxarılması bu mərhələnin əsasında dayanır. Bütün bunların uğurlu həlli müəllimin çevik, səriştəli fəaliyyətinin sayəsində mümkün olur. O, istiqamətləndirici suallarla məhdudlaşmır; dərsin təlim nəticələrindən asılı olaraq, anlayışların, qanunauyğunluqların əsaslı şəkildə qavranılması məqsədilə izah və şərhlərdən istifadə edir.

**Möhkəmləndirmə.** Dərsdə bu məqama qədər mənimsənilmiş bilik və bacarıqların möhkəmləndirilməsi, dərinləşdirilməsi üzrə təklif edilən tapşırıqlarda həm də tətbiq tələbinin yer alması nəzərdə tutulur.

**Qiymətləndirmə.** Bu mərhələ dərsin məqsədləri üzrə mənimsənilənlərin səviyyəsini aşkara çıxarmağa xidmət edir. Qiymətləndirmədə altstandartların əsasında müəyyənləşdirilmiş təlim nəticələri tətbiq edilməklə həyata keçirilir.

Konkret şəraitdə hansı texnologiyanın, hansı dərs tipi və növünün tətbiq edilməsi şərtləri çoxdur. İlk növbədə reallaşdırılacaq məzmun standartları, təlim materialının xarakteri, tətbiq etdikləri ilə bağlı müəllimin nə dərəcədə məlumatlı və səriştəli olması, sinfin səviyyəsi nəzərə alınmalıdır. Bütün bunlar ədəbiyyat dərsinin çoxvariantlılığını məqsədəuyğun hesab edir. Bu və ya digər təlim materialının (mövzunun) öyrənilməsində hansı variantın daha faydalı olduğunu müəllim müəyyənləşdirir.

## ƏDƏBİYYAT FƏNN KURİKULUMU

Ədəbiyyat fənni üzrə təhsil proqramının (kurikulumun) başlıca vəzifəsi şagirdlərdə ədəbi inkişafın, əxlaqi-mənəvi keyfiyyətlərin, bədii-estetik zövqün və nitq bacarıqlarının formalaşmasıdır. Müəyyənləşdirilmiş məzmun xətlərinin əsas məqsədi məhz budur. Məzmun xətləri aşağıdakılardır:

– ədəbiyyat və həyat həqiqətləri;
– şifahi nitq;
– yazılı nitq.

Kurikulum sənədinin konsepsiyasına uyğun olaraq, aşağı siniflərdə mənimsənilmiş bilik və bacarıqlar 6-cı sinifdə dərinləşdiriləcək və zənginləşdiriləcəkdir. Bu sinifdə ədəbiyyat fənninin qarşısında duran vəzifələrin reallaşdırılmasına hər üç məzmun xətti öz töhfəsini verir. Bu o vaxt səmərəli olur ki, onların qarşılıqlı əlaqələri təmin edilmiş olsun.

VI sinfin sonunda məzmun xətləri üzrə təlim nəticələri aşağıdakı kimi olacaqdır:

- bədii əsərləri obrazların xarakterinə, hadisələrin məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii əsərlərin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir;
- bədii əsərlərə janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir;
- bədii əsərlərin mövzu və ideyasını aydınlaşdırır, obrazları davranış və əməllərinə görə səciyyələndirir;
- öyrəndiyi yeni söz, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə ədəbi nümunələrlə bağlı fikrini aydın ifadə edir;
- müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini faktlarla əsaslandırır.

VI SİNİFDƏ STANDARTLAR ÜZRƏ REALLAŞDIRILACAQ BACARIQLAR

1. **Ədəbiyyat və həyat həqiqətləri**

Şagird:

**1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.**

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir.

- Heca vəznli şeirlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir.
- Süjetli bədii nümunlərdə tanş olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir.
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir.

1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) ideya məzmununa uyğun ifadəli oxuyur.

- Heca vəznli şeiri ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur.
- Süjetli nümunələri (ondan bitkin parçanı) ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur.

1.1.3. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

- Bədii mətni bitkin hissələrə ayırır.
- Bədii mətnin məzmununa aid plan tərtib edir.
- Bədii mətnin məzmununu plan əsasında yığcam nağıl edir.
- Bədii mətnin məzmununu plan əsasında geniş nağıl edir.
- Bədii mətnin məzmununu plan əsasında yaradıcı nağıl edir.

1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyəşdirir.

- Əfsanə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir.
- Nağıl janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir.
- Dastan janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir.
- Təmsil janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir.
- Hekayə janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir.
- Bədii əsərlərin janr xüsusiyyətlərini müqayisə əsasında müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir.

- Heca vəznli şeirlərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir.
- Heca vəznli şeirlərdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir.
- Süjetli bədii nümunələrdə təsvir və ifadə vasitələrini müəyyənləşdirir
- Süjetli bədii nümunələrdə təsvir və ifadə vasitələrini fərqləndirir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi nitqində istifadə edir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir.
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir.

**1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.**

1.2.1. Bədii nümunləri (əfsanə, nağl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir.

- Bədii nümunələrin janr baxımından oxşar xüsusiyyətlərini müəyyənləşdirir.
- Bədii nümunələrin janr baxımından fərqli xüsusiyyətlərini müəyyənləşdirir.
- Bədii nümunələrin janr baxımından oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirir.

1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

- Bədii nümunələrdəki qəhrəmanların davranışındakı özünəməxsusluğu səciyyələndirir.
- Bədii nümunələrdəki qəhrəmanların əməllərindəki özünəməxsusluğu səciyyələndirir.
- Bədii nümunələrdəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir.
- Bədii nümunələrdəki qəhrəmanları müxtəlif vəziyyətlərdəki davranışlarına görə səciyyələndirir.
- Bədii nümunələrdəki qəhrəmanları müxtəlif vəziyyətlərdəki əməllərinə görə səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır.

- Təsvir və ifadə vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir.
- Təsvir və ifadə vasitələrinin obrazların nitqinə təsirini izah edir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

- Əsərin başlıca mövzusunu şərh edir, aktuallığını əsaslandırır.
- Əsərin başlıca mövzusunu və əsas ideyasını şərh edir.
- Əsərin əsas ideyasını şərh edir.
- Əsərin əsas ideysını dəyərləndirir.

**2. Şifahi nitq**

Şagird:

**2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.**

2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı diskussiya və təqdimatlarda istifadə edir.

- Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı diskussiyalarda istifadə edir.
- Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı təqdimatlarda istifadə edir.
- Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı müzakirə və təqdimatlarda istifadə edir.
- Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı məruzə və çıxışlarında istifadə edir.
- Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı dialoqlarda istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini obrazlı sözlərdən və ifadələrdən istifadə etməklə şərh edir.

- Bədii nümunələrlə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir.
- Bədii nümunələrlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir.
- Bədii nümunələrlə bağlı dialoqlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir.

**2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.**

2.2.1. Müzakirədə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir.

- Müzakirədə səsləndirilən fikirlərə həssas və diqqətli münasibət nümayiş etdirir.
- Müzakirədə deyilən fikirlərə hörmətlə yanaşır.
- Müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir.

**3. Yazılı nitq**

Şagird:

**3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.**

3.1.1. Mətni faktlarla, sitatlarla zənginləşdirir.

- Fakt və dəlilləri müqayisə edərək seçir.
- Faktları müqayisə edərək seçir.
- Seçdiyi sitatların mətnə uyğun olanlarını işlədir.

3.1.2. Bədii nümunələrdəki başlıca fikri anladığını nümayiş etdirir.

- Əsərdəki başlıca fikri digərlərindən fərqləndirir.
- Əsərdəki başlıca fikri dəyərləndirir.

3.1.3. 1-1.5 səhifə həcmində rəy və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

- Rəy xarakterli yığcam inşa yazır.
- Rəy xarakterli yığcam esse yazır.
- Təsvir xarakterli yığcam inşa yazır.
- Təsvir xarakterli yığcam esse yazır.
- Təsvir xarakterli yığcam inşada fikirlərini əsaslandırır.
- Təsvir xarakterli essedə fikirlərini əsaslandırır.
- Rəy xarakterli inşada mövzunu əhatə edir.
- Rəy xarakterli inşada fikirlərini əsaslandırır.
- Rəy xarakterli essedə fikirlərini əsaslandırır.
- Rəy xarakterli essedə şəxsi hiss və düşüncələrinə geniş yer verir.
- Təsvir xarakterli essedə şəxsi hiss və düşüncələrinə geniş yer verir.

MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M.st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| 1. ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN NÜMUNƏLƏR | 1. Bədii ədəbiyyat zövq və bilik mənbəyidir. | + | | | | | | | | | | + | | | | | 1 |
| | 2. "Su həsrəti". Oxu. Anlama | + | | | | + | | | | | + | | | | | | 1 |
| | 3. "Su həsrəti". Oxu. Anlama | | | + | + | | | | | | | + | + | | | | 1 |
| | 4. "Su həsrəti". Araşdırma. Təhlil | | + | | | | | + | | + | | | | | | | 1 |
| | 5. "Qanlı daş" Tətbiq. Ümumiləşdirmə | | | + | | | | + | + | + | | | | | | | 1 |
| | 6. "İlyas". Oxu. Anlama | + | | + | | | | | | | + | | | | | | 1 |
| | 7. "İlyas". Oxu. Anlama | | | | + | + | | | | | + | + | | | | | 1 |
| | 8. "İlyas". Araşdırma. Təhlil | | | | | | | + | + | + | | | | | | | 1 |
| | *9. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 10. Təsviri inşanı necə yazmalı | | | | | | | | | | | | | + | | | 1 |
| | 11. Təsviri inşanın yazılması | | | | | | | | | | | | | | + | + | 1 |
| | 12. "Alı kişi". Oxu. Anlama | | | + | | + | | | | | | | + | | | | 1 |
| | 13. "Alı kişi". Oxu. Anlama | + | | | | + | | | | | | | | | | | 1 |
| | 14. "Alı kişi" Araşdırma. Təhlil | | | | | | | + | + | + | | | | | | | 1 |
| 2. UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ | 15. V.Hüqo "Kozetta". Oxu. Anlama | + | | | | + | | | | | | | | | | | 1 |
| | 16. V.Hüqo "Kozetta". Oxu. Anlama | + | | + | | | | | | | | | | | | | 1 |
| | 17. V.Hüqo "Kozetta". Araşdırma. Təhlil | | | | | | | + | + | + | | | | | | | 1 |
| | *18. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 19. Təsviri esseni necə yazmalı | | | | | | | | | | | | | | | + | 1 |
| | 20. Təsviri essenin yazılması | | | | | | | | | | | | | + | | + | 1 |
| | 21. Naibə Yusif "Dərs". Oxu. Anlama | + | | | | | | | | | | + | + | | | | 1 |
| | 22. Naibə Yusif "Dərs". Oxu. Anlama | + | | + | | | | | | | | | | | | | 1 |
| | 23. Naibə Yusif "Dərs". Araşdırma. Təhlil | | | | | | + | + | | + | | | | | | | 1 |
| | 24. Z.Xəlil "Dostlar". Tətbiq. Ümumiləşdirmə | + | | | | + | | | | + | | | | | | | 1 |
| | *25. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| 3. YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ | 26. S.Abdulla "Azərbaycan bayrağı". Oxu. Anlama | + | | | | + | | | | | + | + | | + | | | 1 |
| | 27. S.Abdulla "Azərbaycan bayrağı". Araşdırma. Təhlil | | | | | | | | + | + | | | | | | + | 1 |
| | 28. M.İsmayıl "Vətən seçilməz". Tətbiq. Ümumiləşdirmə | + | | | | + | | | + | + | | + | + | | | | 1 |
| | 29. N.Xəzri "İstiqlal marşı" Oxu. Anlama | + | | | | + | | | | | + | + | | | | | 1 |
| | 30. N.Xəzri "İstiqlal marşı" Araşdırma. Təhlil | | | | | | | | + | + | + | | | | + | | 1 |
| | 31. Layihələr üzrə təqdimatlar | | | | | | | | | + | | + | + | | | | 1 |
| | 32. Layihələr üzrə təqdimatlar | | + | | | | | | | + | | | | | | | 1 |
| | 33. Layihələr üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | | + | + | | | | 1 |
| | *34. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 35. M.Rzaquluzadə "And". Tətbiq. Ümumiləşdirmə | + | | | | + | | | + | + | | + | + | | | | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 36. E.Zeynallı “Tənha nar ağacı”. Oxu. Anlama | + | | | | | | | | | | + | + | | | | 1 |
| | 37. E.Zeynallı “Tənha nar ağacı”. Oxu. Anlama | | | + | | + | | | | | | | + | | | | 1 |
| | 38. E.Zeynallı “Tənha nar ağacı”. Araşdırma. Təhlil | | | | | | + | + | | + | | + | | | | | 1 |
| **4. MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR** | 39. A.Bakıxanov “Qurd və İlbiz”. Oxu. Anlama | + | | | | + | | | | | | + | | | | | 1 |
| | 40. A.Bakıxanov “Qurd və İlbiz”. Araşdırma. Təhlil | | | | | | | + | | + | + | + | | | | | 1 |
| | 41. S.Ə.Şirvani “Qaz və Durna”. Tətbiq. Ümumiləşdirmə | + | | | | | | + | | + | + | | + | | | | 1 |
| | *42. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 43. Rəy inşanı necə yazmalı | | | | | | | | | | | | | + | | + | 1 |
| | 44. Rəy inşanın yazılması | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 45. X.R.Ulutürk “Laylam mənim, nərəm mənim”. Oxu. Anlama | + | | | | + | | | | | + | | + | | | | 1 |
| | 46. X.R.Ulutürk “Laylam mənim, nərəm mənim”. Araşdırma. Təhlil | | + | | | | | | + | + | | + | | | | | 1 |
| | 47. M.Nağıqızı “Ana dilim”. Tətbiq. Ümumiləşdirmə | | + | | | | | | | + | + | | | | | | 1 |
| | 48. S.Behrəngi “Balaca Qara Balıq”. Oxu. Anlama | | | + | | + | | | | | | + | + | | | | 1 |
| | 49. S.Behrəngi “Balaca Qara Balıq”. Oxu. Anlama | | | + | | + | | | | | | | + | | | | 1 |
| | 50. S.Behrəngi “Balaca Qara Balıq”. Oxu. Anlama | + | | | | | | | | | + | + | | | | | 1 |
| | 51. S.Behrəngi “Balaca Qara Balıq”. Araşdırma. Təhlil | | | | | | | + | | + | | | + | | | | 1 |
| | *52. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| **5. TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI** | 53. E.Hüseynbəyli “Qəsd edilmiş gözəllik”. Oxu. Anlama | | | + | | | | | | | + | + | | | | | 1 |
| | 54. E.Hüseynbəyli “Qəsd edilmiş gözəllik”. Oxu. Anlama | | | | | | | | | | + | | + | | | | 1 |
| | 55. E.Hüseynbəyli “Qəsd edilmiş gözəllik”. Araşdırma. Təhlil | | + | | | | + | + | | + | | | | | | | 1 |
| | 56. R.Qusarçaylı “Payız”. Oxu. Anlama | | | | | + | | | | | + | | | | + | | 1 |
| | 57. R.Qusarçaylı “Payız”. Araşdırma. Təhlil | | + | | | | | | + | + | | | + | | | | 1 |
| | 58. Rəy esseni necə yazmalı | | | | | | | | | | | | | + | | + | 1 |
| | 59. Rəy essenin yazılması | | | | | | | | | | | | | + | | + | 1 |
| | *60. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | 61. R.Məmməd “İlin qızıl fəsli” Tətbiq. Ümumiləşdirmə | + | | | | + | | | | + | + | + | | | | | 1 |
| | 62. B.Həsənov “Bulaq başında”. Oxu. Anlama | + | | | | | | | | | + | | + | | | | 1 |
| | 63. B.Həsənov “Bulaq başında”. Oxu. Anlama | | | + | | + | | | | | + | + | | | | | 1 |
| | 64. B.Həsənov “Bulaq başında”. Araşdırma. Təhlil | | + | | | | | + | + | + | | | | | | | 1 |
| | 65. Layihələr üzrə təqdimatlar | | + | | | | | | | | | + | | | | | 1 |
| | 66. Layihələr üzrə təqdimatlar | | + | | | | | | | | | + | + | | | | 1 |
| | 67. Layihələr üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 68. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

## PLANLAŞDIRMA

Dərslik komplekti VI sinif üçün müəyyənləşdirilmiş altstandartların reallaşdırılmasına geniş imkan yaradır. Komplektə daxil olan bütün komponentlər bu məqsədə xidmət edir, təlimin səmərəliliyinə öz töhfəsini verir. Dərslik komplektinin məzmunu ondan istifadə edən müəllimlərin ədəbiyyatın təlimi prosesini aydın təsəvvür etmələrinə, fərqli situasiyalara hazır olmalarına ciddi yardım edən etibarlı mənbədir. Bu baxımdan müəllimin pedaqoji fəaliyyətinə istiqamət verən illik və gündəlik planın işlənib hazırlanması ön plana çəkilmişdir. Vəsaitin əsasında **gündəlik planlaşdırma** dayanır. Tədrisi nəzərdə tutulmuş bütün mövzuların öyrədilməsi yolları şərh edilmiş, dərsin effektivliyinin təmin edilməsi diqqət mərkəzində saxlanmışdır. Bədii əsərlərin tədrisi, nəzəri anlayışların öyrənilməsi, nitq inkişafı üzrə işlər müasir təlim texnologiyalarından istifadə zəminində şərh edilmiş, fərqli iş növlərindən istifadəyə önəm verilmişdir. Bədii əsərin oxusunu, məzmununun mənimsənilməsini, təhlilini fərqli variantlarda təşkil etməyin üstünlükləri göstərilmiş və nümunələr nümayiş etdirilmişdir.

Vəsaitdə əks etdirilmiş **illik planlaşdırma** müəllimin yaradıcı yanaşmasına mane olmur. O, məqsədindən, sinfin səviyyəsindən asılı olaraq, dəyişiklik edə bilər. İllik planlaşdırmada mövzuların tədrisi ilə bağlı əlavə resurslar, inteqrasiya imkanları, metod və iş formaları, qiymətləndirmənin üsul və vasitələri diqqətə çatdırılmışdır. Plan həftədə iki saat olmaqla 34 həftə üçün nəzərdə tutulmuşdur.

Dərslikdə əksini tapmış **tətbiq ümumiləşdirmə** dərslərinin tədrisi metodikasının şərhinə vəsaitdə ayrıca diqqət yetirilmişdir. Belə dərslərin əhəmiyyəti böyükdür və bütövlükdə təlim prosesinin müxtəlif mərhələlərində tətbiq olunur. Bölmələrin, yarımillərin sonunda reallaşdırılmaqla yanaşı, oxşar mövzu və problemlərin öyrənilməsi də bu cür dərslərin tətbiqi ilə sonuclanır. Bütün hallarda həmin dərslərin qarşısında duran vəzifələr çox olur. Belə ki, tədrisinə bir neçə saat ayrılmış mövzunun (əsərin) mükəmməl öyrənilməsindən sonra mənimsənilmiş bilik və bacarıqlar oxşar bədii nümunə üzrə tətbiq edilir. Deməli, yeni öyrənilən əsərin mövzu, ideya, obrazlarının və s. maksimum müstəqillik nümayiş etdirilməklə mənimsənilməsi, araşdırma və təhlil üzrə bacarıqların təkmilləşdirilməsi, ümumiləşdirilməsi həyata keçirilmiş olur.

### İllik planlaşdırma nümunəsi

Aşağıda tövsiyə xarakterli illik iş planı verilmişdir. İş planı həftədə 2 saat olmaqla, 34 həftə və ya 68 saat üçün nəzərdə tutulmuşdur. Müəllim mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq, tövsiyə olunan illik planlaşdırma nümunəsində dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| 1 | Bədii ədəbiyyat zövq və bilik mənbəyidir. | 1.1.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.2.3<br>X.d.<br>2.1.1<br>2.1.3 | Müsahibə, müzakirə, fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri, görkəmli sənətkarların portretləri, bədii ədəbiyyatın rolu haqqında fikirlər yazılmış plakat və ya slayd | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), çıxış bileti |
| **1. ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN NÜMUNƏLƏR** | | | | | | |
| 1 | "Su həsrəti". Oxu. Anlama | 1.1.1<br>1.1.5<br>2.1.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.1 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə, rəyvermə, tapşırıq, şifahi sual-cavab |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2 | “Su həsrəti”. Oxu. Anlama | 1.1.3<br>1.1.4<br>2.1.2<br>2.2.1 | Təb.<br>3.1.4<br>Az.d<br>1.2.3<br>X.d<br>2.1.1 | Müsahibə, təqdimat, fərdi iş, müzakirə, yığcam nağıletmə, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, Azərbaycan nağıl və əfsanələri, illüstrasiyalar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi |
| | “Su həsrəti”. Araşdırma. Təhlil | 1.1.2<br>1.2.2<br>1.2.4 | X.d<br>2.1.3<br>Az.d<br>1.2.3<br>1.2.4 | Təqdimat, problemin həlli, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri | Müşahidə, rəyvermə, özünüqiymətləndirmə |
| 3 | “Qanlı daş”. Tətbiq. Ümumiləşdirmə | 1.1.3<br>1.2.2<br>1.2.3<br>1.2.4 | Az.d<br>1.2.3<br>1.2.4<br>2.2.1 | Təqdimat, problemin həlli, müzakirə, cütlük şəklində iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə Yoldaş qiymətləndirməsi |
| | “İlyas”. Oxu. Anlama | 1.1.1<br>1.1.3<br>2.1.1 | Az.d<br>2.1.1<br>X.d<br>2.1.1 | Əqli hücum, Fasilələrlə oxu, müzakirə, təqdimat, bütün siniflə birgə iş | Dərslik, Nağılın məzmununa uyğun şəkillərin əks olunduğu slayd | Müşahidə (müşahidə vərəqi) |
| 4 | “İlyas”. Oxu. Anlama | 1.1.4<br>1.1.5<br>2.1.1<br>2.1.2 | Az.d<br>2.1.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1 | Fasilələrlə oxu, müzakirə, təqdimat, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, Nağılın məzmununa uyğun şəkillərin əks olunduğu slayd | Müşahidə (müşahidə vərəqləri) |
| | “İlyas”. Araşdırma. Təhlil | 1.2.2<br>1.2.3<br>1.2.4 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, təqdimat, müzakirə, problemin həlli, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi) |
| 5 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | Təsviri inşanı necə yazmalı | 3.1.1 | Az.d<br>3.1.2 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, inşanın mövzusu ilə bağlı, tövsiyələr, materiallar | Müşahidə (müşahidə vərəqi), sual-cavab, rəyvermə |
| 6 | Təsviri inşanın yazılması | 3.1.2<br>3.1.3 | Az.d<br>313<br>X.d<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, inşanın mövzusu ilə bağlı materiallar | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| | “Alı kişi”. Oxu. Anlama | 1.1.3<br>1.1.5<br>2.2.1 | Az.d<br>2.2.1<br>2.2.2<br>Təs.i<br>3.1.1 | Əqli hücum, fasilələrlə oxu, müsahibə, təqdimat, bütün siniflə birgə iş | Dərslik, dastanın məzmunu ilə bağlı şəkillər, lüğətlər | Müşahidə (müşahidə vərəqi), sual-cavab, yoldaş qiymətləndirməsi |
| 7 | “Alı kişi”. Oxu. Anlama | 1.1.1<br>1.1.5 | Az.d<br>2.1.1<br>2.1.2<br>Təs.i<br>3.1.1 | Proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, dastanın məzmunu ilə bağlı şəkillər, lüğətlər | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| | “Alı kişi”. Araşdırma. Təhlil | 1.2.2<br>1.2.3<br>1.2.4 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3<br>Təs.i<br>3.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, “Koroğlu” filmindən (1960) epizod | Effektiv rəy, yoldaş qiymətləndirməsi, çıxış bileti |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **2. UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ DÜNYASI** | | | | | | |
| 8 | V. Hüqo. “Kozetta”. Oxu. Anlama | 1.1.1<br>1.1.5 | Az.d<br>2.1.1<br>2.1.2 | Əqli hücum, ikihissəli gündəlik, müzakirə, təqdimat, fərdi iş, cütlük şəklində, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, “Səfillər” filmindən müvafiq epizod | Müşahidə (müşahidə vərəqi), çıxış bileti |
| | V. Hüqo. “Kozetta”. Oxu. Anlama | 1.1.1<br>1.1.3 | Az.d<br>1.2.2<br>1.2.3<br>X.d<br>2.1.1 | Proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, kiçik qruplarda iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, “Səfillər” filmindən epizod | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi |
| 9 | V. Hüqo. “Kozetta”. Araşdırma. Təhlil | 1.2.2<br>1.2.3<br>1.2.4 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3<br>Təs.i<br>3.1.1 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətləndirmə, rəyvermə |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 10 | Təsviri esseni necə yazmalı | 3.1.3 | Az.d<br>1.2.4 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, essenin mövzusu ilə bağlı tövsiyələr, materiallar | Müşahidə (müşahidə vərəqi), sual-cavab, rəyvermə |
| | Təsviri essenin yazılması | 3.1.1<br>3.1.3 | Az.d<br>3.1.3<br>X.d<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, essenin mövzusu ilə bağlı materiallar | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| 11 | N. Yusif. “Dərs”. Oxu. Anlama | 1.1.1<br>2.1.2<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3 | Əqli hücum, fasilələrlə oxu, müsahibə, cütlik şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, mövzuya uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), özünüqiymətləndirmə, rəyvermə |
| | N. Yusif. “Dərs”. Oxu. Anlama | 1.1.1<br>1.1.3 | Az.d<br>1.2.2<br>1.2.3<br>X.d<br>2.1.1 | Proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, kiçik qruplarda iş | Dərslik, lüğətlər mövzuya uyğun şəkillər, video-çarxlar | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi |
| 12 | N. Yusif. “Dərs”. Araşdırma. Təhlil | 1.2.1<br>1.2.2<br>1.2.4 | Az.d<br>2.2.1<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, tədqiqatmüzakirə, təqdimat, kiçik qroplarda iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər mövzuya uyğun şəkillər, video-çarxlar | Müşahidə (müşahidə vərəqi), effektiv rəy, çıxış bileti |
| | Z. Xəlil. “Dostlar”. Tətbiq. Ümumiləşdirmə | 1.1.1<br>1.1.5<br>1.2.4 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| 13 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| **3. YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ** | | | | | | |
| 13 | S. Abdulla. “Azərbaycan bayrağı”. Oxu. Anlama | 1.1.1<br>1.1.5<br>2.1.1<br>2.1.2<br>3.1.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>3.1.2<br>X.d.<br>2.1.1 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi) |
| 14 | S. Abdulla. “Azərbaycan bayrağı”. Araşdırma. Təhlil | 1.2.3<br>1.2.4<br>3.1.3 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 3.1.3<br>X.d<br>2.1.1<br>2.1.3 | | | özünüqiymətlən-<br>dirmə, rəyvermə |
| | M. İsmayıl. “Vətən seçilməz” Tətbiq. ümumiləşdirmə | 1.1.1<br>1.1.5<br>1.2.3<br>1.2.4<br>2.2.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| 15 | N. Xəzri. “İstiqlal marşı”. Oxu. Anlama | 1.1.1<br>1.1.5<br>2.1.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.1 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymət-ləndirmə (özünü-qiymətləndirmə vərəqi) |
| | N. Xəzri. “İstiqlal marşı”. Araşdırma. Təhlil | 1.2.3<br>1.2.4<br>2.1.1<br>3.1.2 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>3.1.2<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətlən-dirmə, rəyvermə |
| 16 | Layihələr üzrə təqdimatlar | 1.2.4<br>2.1.2<br>2.2.1 | Az.d<br>1.2.3<br>1.2.4<br>2.2.1<br>X.d<br>2.1.1 | Təqdimat, nağıletmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağılların məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi) |
| | Layihələr üzrə təqdimatlar | 1.1.2<br>1.2.4 | Az.d<br>1.2.3<br>1.2.4<br>2.2.1<br>X.d<br>2.1.1 | İfadəli oxu, nağıletmə, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqi) |
| 17 | Layihələr üzrə təqdimatların müzakirəsi | 2.1.2<br>2.2.1 | Az.d<br>1.2.4<br>2.1.2<br>2.2.3 | Müzakirə, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Effektiv rəy, yoldaş qiymətləndirməsi özünüqiymətlən-dirmə |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 18 | M. Rzaquluzadə “And”. Tətbiq. Ümumiləşdirmə | 1.1.1<br>1.1.5<br>1.2.3<br>1.2.4<br>2.1.2<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| | E. Zeynallı. “Tənha nar ağacı”. Oxu. Anlama | 1.1.1<br>2.1.2<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.2.3<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşa-hidə vərəqi), rəyvermə, özünüqiymətlən-dirmə (özünü-qiymətləndirmə vərəqi) |
| 19 | E. Zeynallı. “Tənha nar ağacı”. Oxu. Anlama | 1.1.3<br>1.1.5<br>2.2.1 | Az.d<br>1.2.2<br>1.2.3<br>X.d<br>2.1.1 | Proqnozlaşdırılmış oxu, müzakirə, təqdimat, kiçik qruplarda iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | E. Zeynallı. “Tənha nar ağacı”. Araşdırma. Təhlil | 1.2.1<br>1.2.2<br>1.2.4<br>2.1.2<br>. | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətlən-dirmə, rəyvermə |
| **4. MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR** | | | | | | |
| 20 | A. Bakıxanov. “Qurd və İlbiz”. Oxu. Anlama | 1.1.1<br>1.1.5<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətlən-dirmə (özünü-qiymətləndirmə vərəqi) |
| | A.Bakıxanov. “Qurd və İlbiz”. Araşdırma. Təhlil | 1.2.2<br>1.2.4<br>2.1.1<br>2.1.2 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətlən-dirmə, rəyvermə |
| 21 | S.Ə.Şirvani. “Qaz və Durna”. Tətbiq. Ümumiləşdirmə | 1.1.1<br>1.2.2<br>1.2.4<br>2.1.1<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 22 | Rəy inşanı necə yazmalı | 3.1.1<br>3.1.3 | Az.d<br>3.1.2 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, inşanın mövzusu ilə bağlı, tövsiyələr, materiallar | Müşahidə (müşahidə vərəqi), sual-cavab, rəyvermə |
| | Rəy inşanın yazılması | 3.1.1<br>3.1.2<br>3.1.3 | Az.d<br>313<br>X.d<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, inşanın mövzusu ilə bağlı materiallar | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| 23 | X.R.Ulutürk. “Laylam mənim , nərəm mənim”. Oxu. Anlama | 1.1.1<br>1.1.5<br>2.1.1<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşa-hidə vərəqi), rəyvermə, özünü-qiymətləndirmə (özünüqiymətlən-dirmə vərəqi) |
| | X.R.Ulutürk. “Laylam mənim , nərəm mənim”. Araşdırma. Təhlil | 1.1.2<br>1.2.3<br>1.2.4<br>2.1.2 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi özünüqiymətlən-dirmə, rəyvermə |
| 24 | M. Nağıqızı. “Ana dilim”. Tətbiq. Ümumiləşdirmə | 1.1.2<br>1.2.4<br>2.1.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müş-ahidə vərəqi), sual-cavab, çıxış bileti |
| | S. Behrəngi. “Balaca Qara Balıq”. Oxu. Anlama | 1.1.3<br>1.1.5<br>2.2.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşa-hidə vərəqi), rəyvermə, özünü-qiymətləndirmə (özünüqiymətlənd irmə vərəqi) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 25 | S. Behrəngi. "Balaca Qara Balıq". Oxu. Anlama | 1.1.3<br>1.1.5<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətlən-dirmə (özünü-qiymətləndirmə vərəqi) |
| | S. Behrəngi. "Balaca Qara Balıq". Oxu. Anlama | 1.1.1<br>2.1.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşa-hidə vərəqi), rəy-vermə, özünüqiy-mətləndirmə (özünüqiymətlən-dirmə vərəqi) |
| 26 | S. Behrəngi. "Balaca Qara Balıq". Araşdırma. Təhlil | 1.2.2<br>1.2.4<br>2.2.1 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşa-hidə vərəqi), yoldaş qiymətlən-dirməsi özünüqiy-mətləndirmə, rəyvermə |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | **5. TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI** | | | | | |
| 27 | E. Hüseynbəyli. "Qəsd edilmiş gözəllik". Oxu. Anlama | 1.1.3<br>2.1.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəy-vermə, özünü-qiymətləndirmə (özünüqiymətlən dirmə vərəqi) |
| | E. Hüseynbəyli. "Qəsd edilmiş gözəllik". Oxu. Anlama | 2.1.1<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özü-nüqiymətlən-dirmə (özünü-qiymətləndirmə vərəqi) |
| 28 | E. Hüseynbəyli. "Qəsd edilmiş gözəllik". Araşdırma. Təhlil | 1.1.2<br>1.2.1<br>1.2.2<br>1.2.4 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (mü-şahidə vərəqi), yoldaş qiymət-ləndirməsi özünüqiymət-ləndirmə, rəyvermə |
| | R. Qusarçaylı. "Payız". Oxu. Anlama | 1.1.5<br>2.1.1<br>3.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>Təs.i<br>3.1.1 | Əqli hücum, fərdi səssiz oxu,müzakirətəqdima t, cütlük və kiçik qruplarda iş | Dərslik, əsərin məzmunu ilə bağlı şəkillər, lüğətlər | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| 29 | R. Qusarçaylı. "Payız". Araşdırma. Təhlil | 1.1.2<br>1.2.3<br>1.2.4<br>2.2.1 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirmə-si, özünüqiy-mətləndirmə, rəyvermə |
| | Rəy esseni necə yazmalı | 3.1.1<br>3.1.3 | Az.d<br>1.2.4 | Müzakirə, tədqiqat, fərdi iş, böyük qruplarda iş | Dərslik, essenin mövzusu ilə bağlı, tövsiyələr, materiallar | Müşahidə (müşahidə vərəqi), sual-cavab, rəyvermə |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 30 | Rəy essenin yazılması | 3.1.1<br>3.1.3 | Az.d<br>3.1.3<br>X.d<br>4.1.3 | Tədqiqat, fərdi iş | Dərslik, essenin mövzusu ilə bağlı materiallar | Rubrik (mövzu və məzmun; həcm və hissələr; fakt və sitatlardan istifadə; orfoqrafiya) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 31 | R. Məmməd. "İlin qızıl fəsli". Tətbiq. Ümumiləşdirmə | 1.1.1<br>1.1.5<br>1.2.4<br>2.1.1<br>2.1.2 | Az.d<br>2.1.1<br>2.1.2<br>2.2.3<br>X.d<br>2.1.3 | Əqli hücum, fərdi oxu, müzakirə, təqdimat, cütlük və kiçik qruplarda iş | Dərslik, lüğətlər,yazıçının portreti, əsərləri | Müşahidə (müşahidə vərəqi), sual-cavab, çıxış bileti |
| | B. Həsənov. "Bulaq başında" . Oxu. Anlama | 1.1.1<br>2.1.1<br>2.2.1 | Az.d<br>2.1.1<br>2.1.2<br>X.d.<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi) |
| 32 | B. Həsənov. "Bulaq başında". Oxu. Anlama | 1.1.3<br>1.1.5<br>2.1.1<br>2.1.2 | Az.d<br>1.2.3<br>2.1.2<br>X.d.<br>2.1.1<br>2.1.3 | Beyin həmləsi, fərdi oxu, müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, əsərin məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi), rəyvermə, özünüqiymətləndirmə (özünüqiymətləndirmə vərəqi) |
| | B. Həsənov. "Bulaq başında". Araşdırma. Təhlil | 1.1.2<br>1.2.2<br>1.2.3<br>1.2.4 | Az.d<br>1.2.2<br>1.2.3<br>1.2.4<br>X.d<br>2.1.1<br>2.1.3 | Əqli hücum, tədqiqat, təqdimat, müzakirə, bütün siniflə birgə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri | Müşahidə (müşahidə vərəqi), yoldaş qiymətləndirməsi, özünüqiymətləndirmə, rəyvermə |
| 33 | Layihələr üzrə təqdimatlar | 1.1.2<br>2.1.2 | Az.d<br>1.2.3<br>1.2.4<br>2.2.1<br>X.d<br>2.1.1 | Təqdimat, nağıletmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları, əfsanə və nağılların məzmununa uyğun şəkillər | Müşahidə (müşahidə vərəqi) |
| | Layihələr üzrə təqdimatlar | 1.1.2<br>2.1.2<br>2.2.1 | Az.d<br>1.2.3<br>1.2.4<br>2.2.1<br>X.d<br>2.1.1 | İfadəli oxu, nağıletmə, səhnələşdirmə, fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Müşahidə (müşahidə vərəqi) |
| 34 | Layihələr üzrə təqdimatların müzakirəsi | 2.1.1<br>2.1.2<br>2.2.1 | Az.d<br>1.2.4<br>2.1.2<br>2.2.3 | Müzakirə, bütün siniflə birgə iş | Dərslik, layihə materialları | Effektiv rəy, yoldaş qiymətləndirməsi özünüqiymətləndirmə |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Qiymətləndirmə təlim prosesinin mərhələlərindən olub, onun səmərəli təşkilində əhəmiyyətli rol oynayır. Davamlılıq, dinamiklik, şəffaflıq onun başlıca xüsusiyyətləridir. Şagird nailiyyətlərinin tədris ili boyu diqqət mərkəzində saxlanılması, müvafiq qiymətləndirmə formalarının sistemli tətbiqi təlimin səmərəli təşkilinə və idarə olunmasına əhəmiyyətli dərəcədə təsir edir. Bu, hər bir təhsilalanın təlim fəaliyyəti barədə dəqiq məlumatın əldə edilməsinə və bununla bağlı zəruri tədbirlərin görülməsinə imkan yaradan faydalı vasitədir. Nəticədə təlimin keyfiyyətinin yüksəldilməsinə əlverişli şərait yaranmış olur. Məktəbdaxili qiymətləndirmənin əsasında fənn üzrə məzmun standartları dayanır. Məzmun standartlarının təlim prosesində uğurla reallaşdırılması şagirdlərin bilik və bacarığının formalaşmasında həlledici rol oynayır.

Məktəbdaxili qiymətləndirmənin formaları – diaqnostik, formativ və summativ rəsmi sənədlərdə, eləcə də pedaqoji ədəbiyyatda əhatəli şərh edilib. Onların hər birinin mahiyyəti, tətbiqi, üsul və vasitələri barədə müəllimlər məlumata və praktik bacarıqlara yiyələniblər. Burada ən zəruri məqamların xatırladılması ilə kifayətlənilir.

*Diaqnostik* qiymətləndirmənin dərs ilinin başlanğıcında, fənn üzrə bölmələrin əvvəlində aparılması məqsədəuyğun sayılır. O, şagirdlərin müvafiq tədris vahidi üzrə bilik və bacarıqlarının, eləcə də maraq və motivasiyalarının aşkara çıxarılması, ilkin qiymətləndirilməsi məqsədini güdür. Bu qiymətləndirmə şagirdlərin yeni mövzuya maraqlarının səviyyəsini müəyyənləşdirmək baxımından da faydalıdır.

*Formativ* qiymətləndirmə hər dərsdə tətbiq edilməklə şagirdlərin təlim fəaliyyətini ardıcıl izləməyə imkan verir. Onun əsas məqsədi şagirdin dərsdə təlim nəticələrinə nail olma dərəcəsinin izlənməsidir. Deməli, məzmun standartlarının mənimsənilməsini hər dərs üzrə izləməklə şagirdlərin təlim fəaliyyətindəki bütün dəyişikliyi nəzarət etməyə imkan yaradır. Bu, müəllimə sonrakı təlim prosesinin strategiyalarını düzgün qurmağın yollarını diktə edir. Altstandart bilik və bacarıqların formalaşdırılması səviyyəsi baxımından konkret olsa da, qiymətləndirmə üçün hələ də ümumi səciyyə daşıyır. Deməli, onun konkretləşməsi və ölçüləbilən olması vacibdir. Bu vəzifəni təlim nəticəsi, ardınca isə qiymətləndirmə meyarı öz üzərinə götürür. Altstandart əsasında bir deyil, bir neçə təlim nəticəsinin müəyyənləşdirilməsinə ehtiyac yaranır. Əgər bir altstandart üçün bir neçə təlim nəticəsi müəyyənləşdirilbsə, onların qarşılıqlı əlaqəsi, başlıcası isə dinamikası nəzərə alınmalıdır. Beləliklə, konkret bir dərsin standartı üçün bir neçə təlim nəticəsi müəyyənləşdirilə bilər.

*Standart* ⟶ *təlim nəticəsi* ⟶ *qiymətləndirmə meyarı* üçlüyünü aşağıdakı cədvəldə müşahidə etmək mümkündür.

| Standartlar | Təlim nəticələri | Qiymətləndirmə meyarları |
|---|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir. | 1. Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir.<br><br>2. Hekayədə tanş olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir.<br><br>3. Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir.<br><br>4. Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir. | 1.Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə **kontekstə uyğun** izah edir.<br><br>2. Hekayədə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə **kontekstə uyğun** izah edir.<br><br>3. Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində **ardıcıl** istifadə edir.<br><br>4. Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində **ardıcıl** istifadə edir. |

| | | |
|---|---|---|
| 1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir. | 1. Hekayədəki qəhrəmanların davranışındakı özünəməxsusluğu səciyyələndirir.<br><br>2. Hekayədəki qəhrəmanların əməllərindəki özünəməxsusluğu səciyyələndirir.<br><br>3. Hekayədəki qəhrəmanları müxtəlif vəziyyətlərdə davranışlarına görə səciyyələndirir.<br><br>4. Hekayədəki qəhrəmanları müxtəlif vəziyyətlərdəki əməllərinə görə səciyyələndirir. | 1. Hekayədəki obrazların başqaları ilə nəzakətli, yaxud nəzakətsiz davrandığını nümunələrlə izah edir.<br><br>2. Murad obrazının sinif yoldaşlarına münasibətdə xeyirxah olduğunu nümunələrlə əsaslandırır.<br><br>3. Nümunələrə əsaslanmaqla Muradın müxtəlif vəziyyətlərdə sinif yoldaşları və müəllimlərlə nəzakətli davrandığını şərh edir.<br><br>4. Nihad obrazının müxtəlif vəziyyətlərdə kobudluq etdiyini nümunələr əsasında izah edir. |

*Summativ* qiymətləndirmə təhsil proqramında (kurikulumda) əksini tapmış məzmun standartlarının mənimsənilməsi ilə bağlı şagirdlərin əldə etdiyi nailiyyətlərin müəyyənləşdirilməsi məqsədilə aparılır. O, iki formada tətbiq edilir:

– dərslikdə əks etdirilmiş bölmələrin daxilində, yaxud sonunda keçirilən kiçik summativ qiymtləndirmə;
– hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Kiçik summativ qiymətləndirmə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmayaraq müəllim tərəfindən aparılır. Böyük summativ qiymətləndirmə isə məktəb rəhbərliyi tərəfindən hər yarımilin sonunda aparılır. Kiçik summativ qiymətləndirmənin aparılacağı tarixlər şagirdlərə öncədən elan edilir və o, bir dərs saatı müddətində gerçəkləşdirilir.

Kiçik və böyük summativ qiymətləndirmə 100 ballıq şkala ilə ölçülür. Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri əsasında hazırlanır. Suallar sinif üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar mürəkkəblik səviyyələrinə görə fərqlənir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Şagirdlərin summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

| **Bal aralığı** | **Qiymət** |
|---|---|
| 0-30 | 2 (qeyri-kafi) |
| 30-60 | 3 (kafi) |
| 60-80 | 4 (yaxşı) |
| 80-100 | 5 (əla) |

Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır.

TƏLİM MATERİALLARI ÜZRƏ İŞİN TƏŞKİLİ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Bədii ədəbiyyat zövq və bilik mənbəyidir -**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Süjetli bədii nümunlərdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir (1.1.1).<br>• Bədii nümunələrlə bağlı dialoqlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə ilə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Məzmunca oxşar olan bədii və məlumat xarakterli mətnlər.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Bədii mətnlə bağlı təəssüratların xatırladılması.<br>2. **Oxu. Anlama.** "Bədii ədəbiyyat bilik və zövq mənbəyidir" mətninin oxusu və qavranılması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Oxunmuş mətnin möhkəmləndirilməsi, bədii və məlumat xarakterli mətnlərin özünəməxsusluğu üzrə bilik və bacarıqların zənginləşdirilməsi.<br>4. **Xatırlatma. Dərinləşdirmə.** Bədii mətnlə bağlı məlumatın dərinləşdirilməsi.<br>5. **Formativ qiymətləndirmə.** |

Dərs yeni dərsliklə işin başlıca xüsusiyyətləri barədə dialoqla başlana bilər. Bunun üçün şagirdlər "Dərsliklə necə işləməli" başlığı altında verilmiş istiqamətləndirici yazılarla tanış olurlar. Yalnız bundan sonra dialoqa başlamaq faydalıdır. Müəllim prosesdə şagirdlərin fəallığına nail olur, onların sualları əsasında aydınlaşdırılmalı məsələlərin şərhinə diqqət edir.

Şagirdlərin aşağı, xüsusən V sinifdə oxuduqları bədii əsərlərin əsasında yığcam müsahibə aparılır. Oxunmuş əsərlərdən yadda qalan məlumat və daha güclü təəssürat yaratmış nümunələr xatırladılır. Şagirdlərin fəal iştirakı ilə tədqiqat sualı formalaşdırılır:

**Tədqiqat sualı:** "Bədii ədəbiyyat bilik və zövq mənbəyidir" fikrini doğru saymaq olarmı?

Fərziyyələrin dinlənilməsi və səciyyəvi olanların qeyd edilməsi həyata keçirilir.

Dərslikdəki "Bədii ədəbiyyat bilik və zövq mənbəyidir" mətninin oxusu üçün vaxt elan edilir. Onun hansı formada oxunması müəllimin məqsədindən asılıdır. Şagirdlərin əvəzlənərək mətni səsli oxumaları məqsəduyğundur. Onların diqqəti mətndə aşağıdakı məsələlərə yönləndirilir:

– bədii ədəbiyyat şifahi və yazılı olmaqla iki yerə ayrılır;

– bədii əsərlər vətən, onun təbii gözəllikləri, ana məhəbbəti – ana qayğısı, müharibə və insan haqqı, uşaq dünyası – uşaq taleyi və s. mövzusunda yazılır;

– bədii əsərlər oxucunun hisslərini zərifləşdirir, ona zövq verir, gözəllikləri duymaq və dəyərləndirmək imkanı yaradır, bunun üçün onları duyaraq, anlayaraq oxumaq vacibdir;

– bədii ədəbiyyat oxucunun insan taleyi, həyat, təbiət və s. barədə məlumat əldə etməsinə səbəb olur;

– bədii ədəbiyyat həyatı söz vasitəsilə əks etdirir, onun imkanları incəsənətin digər növlərindən daha genişdir;

– ədəbiyyat dərsi yalnız bədii əsərlərin oxusu, öyrənilməsi ilə məhdudlaşmır, həm də bu nümunələri təhlil etmək, dəyərləndirmək üçün bacarıqlar formalaşdırır.

Bu deyilənlərin oxuda necə başa düşüldüyü, eləcə də öyrənilənlərin dərinləşdirilməsi məqsədilə yığcam müsahibə aparılır. Sinfin səviyyəsindən asılı olaraq, oxudan sonra şagirdlərin şifahi təqdimatlarının dinlənilməsi, onlara münasibət bildirilməsi də faydalıdır.

Növbəti addım dərslikdəki "Ana Kür" və "Kür çayı" mətnlərinin oxusu olur. Mətnləri səssiz oxuyan şagirdlərə ilkin oxunun yaratdığı təəssüratlarını bölüşmək üçün vaxt verilir. Bu məqamda

müəllimin əsas vəzifəsi bədii və publisistik olmaqla həmin mətnlərin şagirdlərə necə təsir etdiyini müşahidə etmək olur.

Mətnlərlə bağlı dərslikdə təklif edilmiş tapşırıqların yerinə yetirilməsi fərqli formalarda təşkil edilə bilər. 1-ci və 2-ci tapşırıqların məzmunu onların fərdi icrasını tələb edir:

3"Ana Kür" mətni ilə bağlı hiss və düşüncənizi aşağıdakı sualların əsasında izah etməyə çalışın.

– Günəşin yenicə çıxdığnı seyr etmisinizmi? O sizə necə təsir edib?

– Çayın hər iki sahilinə səpələnmiş şehli otların, güllərin, çiçəklərin günəşə boylanması gözünüzün qarşısında canlandımı? Belə bir mənzərə görmüsünüzmü?

– Gecədən qalmış sərinliyi, səssizliyi duydunuzmu?

– Çayın "nərilti-gurultu"salmasını necə təsəvvür etdiniz?

– Çayın pıçıltısı necə izah olunur? Bunu təsəvvür edə bilirsinizmi?

– Çayın durulmuş rəngini necə təsəvvür edirsiniz?

– Çayın "lal axması" nə deməkdir? Bu barədə düçündünüzmü?

– "...Çay yoluna aramla davam edir, göz işlədikcə uzanır, sanki günəşə çatmağa çalışırdı" cümləsi sizdə hansı təəssürat və ovqat yaratdı?

4. Mətni ikinci dəfə oxumağa – dərinləşdirilmiş oxuya ehtiyac duydunuzmu?

Növbəti 3-cü, 4-cü tapşırıqların cütlük şəklində, yaxud kiçik qruplarda yerinə yetirilməsi məqsədəuyğundur:

5."Kür çayı" mətni ilə bağlı aşağıdakı sualların üzərində düşünün. Yığcam cavab hazırlayın.

– Kür çayı ilə bağlı yeni nə öyrəndinz?

– Mətn daha çox sizin hisslərinizə, yoxsa düşüncənizə təsir etdi? Bunun səbəbini izah etməyə çalışın.

6. Mətnlərin oxşar və fərqli cəhətlərini Venn diaqramında əks etdirin.

Tapşırıqlar bədii mətnlə məlumatverici (informativ) mətnin fərqini başa düşməyə və dəyərləndirməyə imkan yaradır. Bədii mətnin oxucuya estetik təsiri, onda emosional-obrazlı qavramanı fəallaşdırdığı cavabların dinlənilməsi zamanı diqqət mərkəzində saxlanılır. Tapşırığın tələbləri şagirdlərin dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən müraciət etmələrinə səbəb olur. Tanış olmayan sözlərin kontekstə uyğun mənalarının müəyyənləşdirilməsinin anlamada rolu az olmur.

Mənimsənilənlərin dərinləşdirilməsi və ümumiləşdirilməsi dərslikdəki "Xatırlatma. Dərinləşdirmə" başlığı altında verilmiş məlumatın oxusu və öyrənilməsi sayəsində həyata keçirilir. Bunun üçün ilk növbədə şagirdlərin mövcud bilik və bacarıqlarının xatırladılması faydalıdır. Mətnin müstəqil oxudan sonra necə qavranıldığı müəllimin sualları ilə aşkara çıxarılır. Müəllimin izahı və əlavələr etməsi vacib olur.

XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ

*Bədii ədəbiyyat*

Oxuduğunuz əfsanə, rəvayət, nağıl, hekayə, şeirlərdəki hiss-həyəcan, qəhrəmanların taleyi, hadisələr diqqətinizi dərhal çəkib, sizi ciddi maraqlandırıb, düşündürüb... Bədii əsərin oxucusunu cəlb etməsinin səbəbləri çoxdur. Bir səbəb də odur ki, əsərdə təsvir olunanlar şirin, təsirli dillə danışılır, maraqlı bədii təsvir vasitələrindən geniş istifadə olunur. Nəticədə gözlərinizin qarşısında fərqli, rəngarəng mənzərələr canlanır, sizdə müxtəlif hisslər baş qaldırır... Bu deyilənlər bədii ədəbiyyatın mühüm xüsusiyyətləridir.

Siz bədii olmayan mətnlərlə, əsərlərlə də tanışsınız. Onlarda müəyyən məlumat verilir, elmi fikir ifadə olunur. Belə əsərlərdə konkret faktlardan, rəqəmlərdən, terminlərdən geniş istifadə edilir. Siz tarix, təbiət, riyaziyyat dərsliklərində belə mətnlərlə tanış olursunuz. Bu mətnlər sizi rəqəmlərin, faktların üzərində düşünməyə, onları müqayisə etməyə, nəticə çıxarmağa yönləndirir. Həmin mətnlər daha çox sizin mühakimələrinizə təsir edir.

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə kontekstə uyğun izah edir. | Tapşırıq | Dərslik, iş vərəqləri |
| Bədii mətnlə bağlı dialoqda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Şifahi sual-cavab, tapşırıq | Dərslik, iş vərəqləri |

# 1.
# ŞİFAHİ XALQ ƏDƏBİYYATINDAN NÜMUNƏLƏR

**Mövzu:**

**SU HƏSRƏTİ (əfsanə) –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əfsanədə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir (1.1.1).
- Əfsanədə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).
- Öyrəndiyi yeni sözlərdən əfsanə ilə bağlı təqdimatlarda istifadə edir (2.1.1).

**Köməkçi vasitələr:** “Azərbaycan nağılları və əfsanələri”, “Əfsanələr” adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Mövzu ilə bağlı əvvəllər öyrənilənlərin xatırladılması.
2. **Oxu. Anlama.** Əfsanənin oxusu, ilkin qavrama.
3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
4. **Xatırlatma. Dərinləşdirmə.** Əfsanə janrı barədə biliklərin yada salınması, dərinləşdirilməsi və genişləndirilməsi.
5. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Bu dərsdə VI sinif şagirdlərinin asan qavrayacaqları “Su həsrəti” adlı əfsanənin məzmununun öyrənilməsi həyata keçiriləcəkdir. Əfsanə yer adı (Sumqayıt) ilə bağlı yaradılmışdır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, əfsanə janrının xüsusiyyətləri ilə bağlı mövcud biliklərin dərinləşdirilməsi və zənginləşdirilməsi reallaşdırılacaqdır.

**Müəllim üçün əlavə məlumat.** *Əfsanənin məzmununun öyrənilməsinə həsr edilmiş birinci dərsi fərqli variantlarda təşkil etmək olar. Bu baxımdan fasilələrlə oxu, yaxud proqnozlaşdırılmış oxu daha əlverişlidir. Bunların tətbiqi qaydaları müəllimlərə tanışdır. Onların birindən istifadə edən müəllim sonda dərslikdəki “Xatırlatma. Dərinləşdirmə” başlıqlı materialın oxusunu və məzmununun mənimsənilməsini təşkil etməlidir.*

*Burada dərsin təşkili ilə bağlı dərslikdə təklif edilmiş metodik yolun üzərində dayanılmışdır.*

**Mövzuya yönəltmə (maraqoyatma)**. Şagirdlərin diqqəti dərslikdə “Yadasalma” başlığı altında verilmiş fikrə cəlb edilir: “Öyrəndiyiniz əfasanələri xatırlayın. Onlarda daha çox kədərli, yoxsa fərəh doğuran hadisələr təsvir edilir?”. Öyrənilmiş əfsanələrin (məsələn,V sinifdə “Ana maral”) adlarının, süjetlərindəki mühüm hadisələrin xatırladılması şagirdləri nəticə çıxarmağa yönəldir: Əfsanələrdə fərəhli, bəzən də kədərli, eləcə də möcüzəli, qeyri-adi əhvalat və hadisələrə geniş yer verilir.
Müəllim suallar verir:

– Sizcə, əfsanələrin yaranmasına səbəb nə olur?
– Onların məzmununa əsasən yaranma səbəblərini müəyyənləşdirmək olarmı?

Şagirdlərin fikirləri dinlənilir. Müəllim dərsdə öyrəniləcək “Su həsrəti” əfsanəsinin bu suallara əsaslandırılmış cavab verilməsinə imkan yaradacağını qeyd edir.

Əsərin oxusuna (vaxta qənaət baxımından səssiz oxunun tətbiqi faydalıdır) başlamazdan əvvəl şagirdlərin diqqəti dərslikdəki tapşırığa cəlb edilir. Onlara izah edilir ki, oxuda diqqətli olmalıdırlar, çünki o tamamlandıqdan dərhal sonra ilkin təəssüratlarını bölüşəcəklər.

## I. OXU. ANLAMA

1. Mətni oxuyun.
2. İlkin təəssüratınızı aşağıdakı tövsiyələr əsasında bölüşün:
   – Əsərdə diqqətinizi daha çox çəkən nə oldu? Nə üçün?
   – Karvandakı insanların taleyi sizi düşündürdümü?
   – Əfsanədən hansı hiss və düşüncə ilə ayrıldınız?
3. İkinci sütundakı suallara cavab hazırlayın. Ehtiyac duysanız, dərinləşdirilmiş oxu məqsədilə mətnə nəzər salın.

Mətnin oxusunda tanış olmayan sözlərin mənalarının müəyyənləşdirilməsi, anlaşılmayan mətləblərin aydınlaşdırılması həyata keçirilir.

İlkin təəssüratın aşkara çıxarılması müxtəlif yollarla reallaşdırıla bilər. Bu məqsədlə tövsiyə edilmiş sualların cavablarını fərdi olaraq müstəqil hazırlayan şagirdlərin şifahi təqdimatları dinlənilir və müzakirə edilir. Yaxud müəllim həmin sualların əsasında yığcam müsahibə aparır. İlkin təəssüratın aşkara çıxarılması mətnin qavranılma səviyyəsi barədə təsəvvür yaradır. Bu isə sonrakı mərhələlərdə işin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir edir.

Növbəti addım dərslikdə təklif edilmiş suallara cavabların hazırlanmasıdır:

– Qızmar günəşin altında səhrada hərəkət etməyin çətinliyini təsəvvür edə bildinizmi? Fikrinizi ətraflı izah edin.
– İnsanların düşdüyü vəziyyəti duydunuzmu? Bunu necə izah edərsiniz?
– Karvanla irəliləyən insanlar üçün ən böyük təhlükə nə idi?
– Taqətdən düşmüş gənc oğlanın keçirdiyi hissləri duydunuzmu? Bunu izah edə bilərsinizmi?
– Onun haqqında ilkin təəssüratınız nə oldu?
– Gənc qız – Ceyran ölümdən necə xilas oldu?
– Düşmənlər karvanla necə rəftar etdilər?

Suallar sadəcə, məzmunun xatırladılması məqsədini güdmür, oxucuları baş verən hadisələrin mahiyyətini, səbəb-nəticə əlaqələrini, insanların mənəvi-psixoloji durumunu, hiss-həyəcanlarını, bütövlükdə təsvir olunanları anlamağa və duymağa istiqamətləndirir. Sualların məzmunu şagirdləri birbaşa təhlilə hazırlayır. Məhz buna görə də cavabların dərinləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Dərslikdə təklif edilmiş növbəti tapşırıq məzmunun mənimsənilməsinin dərinləşdirilməsinə, nəzəri anlayışlarla bağlı praktik bacarıqların zənginləşməsinə, mənası yeni öyrənilmiş sözlərin möhkəmləndirilməsinə və nitqə daxil edilməsinə imkan yaradır.

## II. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Əfsanənin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın.
2. Əfsanədən seçdiyiniz cümlələrdən birinə epitet, digərinə isə bənzətmə əlavə edin. Cümlələri əvvəlki variantları ilə müqayisə edib məzmununda yaranmış fərqi izah etməyə çalışın. Cədvəldən istifadə edin.

| Mətndən seçilmiş cümlələr | Cümlələr epitet və bənzətmə artırıldıqdan sonra |
|---|---|
| | |
| | |

3. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlətməklə yığcam mətn yazın. Mətn bədii, yaxud məlumatlandırıcı ola bilər. Mövzunu özünüz seçin.

4. İcra etdiyiniz işlərin nəticələri ilə sinfi tanış edin. Yoldaşlarınızın cavablarına münasibət bildirin.

Tapşırığın fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Müəllimin məqsədindən, sinfin səviyyəsindən asılı olaraq, tapşırıqda ixtisar etmək olar.

Cavabların şifahi təqdimatlar şəklində dinlənilməsi və müzakirəsi həyata keçirilir.

Əfsanə janrı haqqındakı məlumatın mənimsənilməsini fərqli yollarla gerçəkləşdirmək mümkündür. Birinci yol onun müstəqil oxusunu təşkil edib, sonda müsahibənin aparılması ola bilər. İkinci yol isə şagirdlərin mənimsəmiş olduqları biliklərə əsaslanmaqla müsahibə aparmaq və janr haqqındakı məlumatı dərinləşdirmək və zənginləşdirmək mümkündür.

**III. XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ**

Əfsanə janrının xüsusiyyətləri barədə məlumatınız var. Möcüzəli hadisələrlə zəngin olan əfsanələrin müxtəlif mövzularda olduğunu da bilirsinz. Əfsanələr daha çox təbiət hadisələri və varlıqları, keçmişdə baş verənlər, xalqın həyatı, məişəti, adət-ənənəsi və s. bağlı yaranır.

Əfsanə ilə nağılların həm oxşar, həm də fərqli cəhətləri var: hər ikisində sehrli qüvvələr, möcüzəli hallar olur. Əfsanələrdə də nağıllarda olduğu kimi, insanlar daşa, bulağa, qayaya çevrilirlər. Nağıllarda bu, sehrli qüvvələrin, əfsanələrdə isə söz, arzu, alqış, qarğış sayəsində baş verir. Əfsanələrdə adı çəkilən yer, qaya, çay, bulaq və s. maddi varlıq kimi mövcud olur, nağıllarda isə belə hala rast gəlinmir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əfsanədə tanış olmayan sözlərin mənasını kontekstə uyğun izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanədə bədii təsvir və ifadə vasitələrinin növünü şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən əfsanə ilə bağlı təqdimatda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**SU HƏSRƏTİ (əfsanə) –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Əfsanənin məzmununu plan əsasında yığcam nağıl edir (1.1.3).
- Əfsanə ilə nağılın janr xüsusiyyətlərini müqayisə əsasında müəyyənləşdirir. (1.1.4)
- Əfsanə ilə bağlı diskussiya və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).
- Müzakirələrdə deyilən fikirlərə hörmətlə yanaşır (2.2.1).

**Köməkçi vasitələr:** "Azərbaycan nağılları və əfsanələri", "Əfsanələr" adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Öyrəndiklərinizi yoxlayın.** Əfsanənin məzmununun hansı səviyyədə mənimsənilməsinin yoxlanması.
2. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Əfsanənin məzmununun yığcam nağıl edilməsi. Əsərin məzmunu ilə bağlı təqdimatın hazırlanması.
3. **Yaradıcı iş.** Əfsanənin məzmununa uyğun əlavələrin yazılması.
4. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə əfsanənin məzmununun öyrənilməsi üzrə işin dərinləşdirilməsi həyata keçirilir. Şifahi nitqin, yaradıcılıq bacarığının formalaşdırılması məqsədilə tapşırıqların yerinə yetirilməsinə vaxt ayrılır.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə təklif edilmiş test suallarının cavab variantları doğru cavaba maksimum yaxındır. Bu onların üzərində diqqətlə düşünməyi tələb edir. Əfsanənin məzmunu ilə bağlı öyrənilənlər yoxlanarkən şagirdlərin müstəqil işləmələri, mətnə baxmamaları məqsədəuyğundur. Məzmunla bağlı mənimsənilənlərin dərinləşdirilməsi məqsəd seçilərsə, məktəblilərin mətnə müraciət etmələrinə imkan yaradılır.*
*Şagirdlərin diqqəti dərslikdə təklif edilmiş aşağıdakı test tapşırıqlarına yönəldilir. Fərdi işləyən şagirdlərə vaxt ayrılır və elan edilir. Sonda cavabların hər birinin üzərində dayanılması və izahı həyata keçirilir.*

**I. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.
   A) Hadisələr yaxın keçmişdə baş verir.
   B) Karvandakı insanların arasında münaqişə var idi.
   C) Karvandakılar yurdlarından qaçqın düşmüş insanlardır.
   D) Karvana basqın edənlərin məqsədi qarətdir.
   E) Susuzluğa tab gətirməyən Ceyran özünə qəsd edir.
2. Fikirlərdən biri səhvdir.
   A) Karvan əhlini təqib edənlər onların yurduna basqın etmiş işğalçılardır.
   B) Karvan əhli dinc insanlardan ibarətdir.
   C) Qardaşı Ceyranı ölümdən xilas etmək üçün hər fədakarlığa hazırdır.
   D) Düşmənə nifrət edən Ceyran onların əlinə keçmək istəmir.
   E) Düşmənlər əməllərindən peşman olurlar.

**Müəllim üçün əlavə məlumat.** *Bədii əsərlərin məzmununun müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edilməsi təhsil proqramında məzmun standartı qismində əksini tapmışdır. Onların hər birinin tətbiqi və özünəməxsusluğunun nəzərə alınması barədə V sinfin "Ədəbiyyat" dərsliyində* məlumat *verilmişdir. Bu dərsdə reallaşdırılması nəzərdə tutulmuş yığcam nağıletmə şagirdlərdən ciddi ümumiləşdirmə bacarığı tələb edir. Bu bacarığın formalaşdırılması ardıcıl işin aparılması sayəsində mümkündür. Yığcam nağıletmə üçün müəyyənləşdirilmiş parça mükəmməl öyrənilməli, başlıca fikirlər seçilməli, əlaqələndirilməli və onların ifadəsi həyata keçirilməlidir. Təsvirdə yardımçı rol oynayanların nağıletməyə daxil edilməsi məqsədəuyğun sayılmır. Bütün bunların şagirdlərə öyrədilməsi məqsədilə sinifdə nümunələrin nümayiş etdirilməsi əhəmiyyətlidir.*

Dərslikdəki nümunənin (aşağıda verilmişdir) üzərində şagirdlərin müşahidəsi təşkil edilir. Əfsanədən seçilmiş parça ilə onun əsasında hazırlanmış yığcam nağıletmə variantı müqayisə edilir. Yığcam nağıletmə üçün əsas hesab edilmiş təsvirlərin ilkin variantdan fərqi izah olunur. Yalnız bundan sonra şagirdlərə əfsanənin mətnindən seçdikləri parçanı yığcam nağıletməyə hazırlaşmaları təklif edilir. Səciyyəvi cavabların müzakirəsi, onlara münasibət bildirilməsi faydalıdır.

İkinci tapşırıq təqdimatların hazırlanması ilə bağlıdır. Şagirdlər elan edilmiş vaxt ərzində yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşırlar. İkinci bənddə təklif edilmiş mövzu (Əfsanə ilə nağılın oxşar və fərqli cəhətlərini nədə görürəm) şagirdlərə V sinifdən tanışdır. Bu istiqamətdə tapşırıqları yerinə yetirən şagirdlər VI sinifdə əfsanə ilə nağılın janr baxımından oxşar və fərqli cəhətlərini müəyyənləşdirməkdə çətinlik çəkməyəcəklər. Bu bacarıqların inkişaf etdirilməsi ardıcıl iş aparılmasını zəruri edir.

## II. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Əfsanədən seçdiyiniz parçanı yığcam nağıl etməyə hazırlaşın. Nümunəyə diqqət edin. Cavablara münasibət bildirin.

| Yığcam nağıletməyə aid nümunə | |
|---|---|
| Əfsanədən seçilmiş parça | Yığcam nağıletmə variantı |
| İşğalçılar tərəfindən təqib olunan karvan gecə-gündüz yol gedir. Tuluqlarda su ehtiyatı çoxdan qurtarmışdır. Susuzluqdan dodaqları çatlamış adamlar danışmırlar, başlar sinəyə enmiş, addımlar ağırlaşmışdır. Qaçqınların arasında çoxlu gənc var. Onlardan ikisi – qardaş və bacı karvanın lap sonunda yanaşı adımlayırlar. Arabir başlarını qaldırıb ümid dolu nəzərlərini irəli zilləyirlər. Oğlan taqətdən düşmüş Ceyranı – bacısını geri qalmağa qoymur, onu özü ilə aparır... Bir neçə gün sonra hərəkət etmək daha da çətinləşir. Qız artıq əldən düşüb, gedə bilmir, ayaq üstə tab gətirə bilməyib yıxılır. | Təqib edilən karvan xeyli vaxtdır yol gedir. Su və yeməkləri tükənən insanlar ümidsizləşir. Cavan oğlan taqətdən düşmüş gənc qızın karvandan qopmasına imkan vermir. Bir neçə gün sonra gücdən düşmüş qız yıxılır. |

2. Aşağıdakı mövzulardan birini seçib yazılı qeydlər etməklə şifahi təqdimata hazırlaşın. Təqdimatların müzakirəsində fəal iştirak edin.

a) “Su həsrəti” əfsanə haqqındakı təsəvvürümə nə əlavə etdi.
b) Əfsanə ilə nağılın oxşar və fərqli cəhətlərini nədə görürəm.

Dərslikdə təklif edilmiş növbəti tapşırıq şagirdlərdə yaradıcı təfəkkürün inkişafında əhəmiyyətli rol oynayır. Bu qəbildən tapşırığın müntəzəm tətbiqi faydalıdır. “Yaradıcı iş” başlığı altında təklif edilmiş bu tapşırıqda əfsanənin məzmununa uyğun yığcam əlavənin yazılması nəzərdə tutulmuşdur:

## III. YARADICI İŞ

1. Əfsanənin əvvəlinə daxil etmək üçün məzmununa uyğun yığcam mətn – əlavə yazın. Bu əlavədə, məsələn: karvanın yola çıxmasının səbəbi, karvandakı insanlar haqqında məlumat və s. əks oluna bilər.
2. Yazılmış əlavələri müzakirə edin.

### Formativ qiymətləndirmə

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Əfsanənin məzmununu başlıca fikirləri əhatə etməklə yığcam nağıl edir | Tapşırıq | Dərslik, iş vərəqləri |
| Əfsanə ilə nağılı mövzularına, iştirakçılarına görə müqayisə edir. | Şifahi sual-cavab, tapşırıq | Dərslik, iş vərəqləri |
| Əfsanə ilə bağlı təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Şifahi sual-cavab, tapşırıq | Dərslik, iş vərəqləri |
| Əfsanə ilə bağlı müzakirədə mövqeyinə əks olan fikirlərə hörmətlə yanaşır. | Şifahi sual-cavab, tapşırıq | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**SU HƏSRƏTİ (əfsanə) –**<br><br>**3 saat**<br><br>**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Əfsanəni (ondan bitkin parçanı) ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (1.1.2).<br>• Əfsanədəki qəhrəmanların davranışındakı özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Əfsanənin başlıca mövzusunu və ideyasını şərh edir (1.2.4)<br>**Köməkçi vasitələr:** "Azərbaycan nağılları və əfsanələri", "Əfsanələr" adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Əfsanənin mövzu, ideya və obrazlarının səciyyələndirilməsi üzrə araşdırmanın aparılması.<br>**2. İfadəli oxuya hazırlaşın.** Əfsanədən bitkin parçaların ifadəli oxusunun hazırlanması.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Üçüncü dərsdə əfsanənin təhlili üzrə araşdırmanın aparılması həyata keçirilir: əsas mövzunun və ideyanın şərh edilməsi, ədəbi qəhrəmanların davranışlarına görə səciyyələndirilməsi reallaşdırılır. Əfsanədən seçilmiş bitkin parçaların ifadəli oxusunun gerçəkləşdirilməsi məqsədilə işin təşkilinə vaxt ayrılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, əfsanənin məzmunu nə qədər mükəmməl mənimsənilsə də, onun mövzusunu, ideyasını, obrazlarını dəyərləndirmək üçün ayrıca işin – araşdırmanın, təhlilin aparılmasına ehtiyac vardır. Əfsanə hansı mövzudadır? Onun əsas ideyası nədir? Obrazların xarakteri, davranışları üçün səciyyəvi olan xüsusiyyətlər hansılardır?

Suallardan bəzilərinə ilkin cavabların söylənməsini təklif etmək olar.

Dərslikdəki "Araşdırma. Təhlil" başlıqlı tapşırığın yerinə yetirilməsi üçün fərqli iş formalarından (cütlük şəklində, kiçik qruplarda iş) istifadə etmək mümkündür. Hansı iş formasının tətbiqindən asılı olmayaraq, əldə edilmiş nəticələrin müzakirəsinə xüsusi diqqət yetirilir.

## I. ARAŞDIRMA. TƏHLİL

- Əfsanənin hansı mövzuda yazıldığını müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.
- Davranış və əməllərinə əsaslanmaqla gənc oğlan obrazını səciyyələndirin.
- Ceyran obrazı, onun taleyi barədə hansı nəticəyə gəldiniz? Əfsanədə onun "məğrur" adlandırılmasının səbəbini aydınlaşdırın.
- Karvana qənim kəsilmiş düşmənin davranışı sizdə hansı hisslər yaratdı?
- Əfsanənin yaradıcıları oxuculara hansı əsas fikri çatdırmaq istəmişlər? Fikrinizi təsdiq edən nümunələr göstərin.

**Müəllim üçün əlavə məlumat.** *Əfsanənin məzmununun əhatəli mənimsənilməsi təhlil məqsədilə araşdırma işinin səmərəli təşkilinə əlverişli imkan yaradır. İlk növbədə əfsanənin mövzusunun müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Şagirdlərin bunun üçün əfsanəyə yenidən müraciət etmələri zəruri olur. Onların fəaliyyətinə istiqamət verilməsi vacibdir. Şagirdlər əfsanənin ayrı-ayrı epizod və hadisələrini birləşdirən cəhətləri, daha çox vurğulanan məsələləri seçməli və bunlara diqqət yetirməlidirlər.*

*Obrazların təhlili əfsanənin üzərində bir daha düşünməyi, araşdırma aparmağı tələb edir. Hiss və düşüncələri, davranış və əməllərindəki incəliklər aydınlaşdırılmadan onları səciyyələndirmək və dəyərləndirmək mümkün deyildir. Mətndən seçilmiş nümunələr əhatəli və əsaslandırılmış fikir deməyə imkan yaradır.*

*Əsərin əsas ideyasının şərh edilməsi əfsanə yaradıcılarının əsl niyyətinin açıqlanması deməkdir. Bunun müəyyənləşdirilməsi üzrə fəaliyyət mövzunun aydınlaşdırılması məqsədilə aparılan işə bənzəyir; hadisələrin mahiyyəti, onlarda nədən danışıldığı, fikirlərin arasındakı əlaqələr, başlıcası isə bütün bunların necə təqdim*

*edilməsi diqqət mərkəzinə çəkilməlidir. Karvana qənim kəsilmiş düşmənin davranışına diqqətin cəlb edilməsi əfsanədəki başlıca fikrin – əsas ideyanın aydınlaşdırılmasını və izahını xeyli asanlaşdırır.*

Məktəb təcrübəsinin öyrənilməsindən aydınlaşır ki, ümumiyyətlə, şagirdlərdə ifadəli oxu bacarıqları standartların tələblərindən aşağı səviyyədə olur. Elə buna görə də ifadəli oxu ilə bağlı dərslikdəki növbəti tapşırığa hazırlıq, onun yerinə yetirilməsi və nəticəsinin yoxlanılması xüsusi qayğı tələb edir.

"İfadəli oxuya hazırlaşın" mətninin oxusu, onun tələblərinin ardıcıl yerinə yetirilməsi müəllimin müşahidəsi və tövsiyələri əsasında reallaşdırılır. Şagirdlərin aşağı siniflərdə mənimsəmiş olduqları bilik və bacarıqların tətbiqinə xüsusi diqqət yetirilir.

İfadəli oxu məqsədilə əfsanədən seçilmiş parça üçün *ifaçılıq vəzifəsi* (onun bir variantı tapşırıqda verilmişdir) müəllimin istiqamətləndirici sualları əsasında müəyyənləşdirilir. Yaxud dərslikdəki variant qəbul edilir. Şagirdlərə bir daha izah olunur ki, oxuda məhz bu vəzifəni reallaşdırmalı olacaqlar.

Şagirdlərin diqqəti seçilmiş parçanın ilk dörd cümləsinin (dərslikdə cədvəldə əks etdirilmişdir) oxusunda səsin aldığı çalarlara (nağılvari, təəssüf, heyrət), şərti işarələrə (fasilə, tonun alçalması, yüksəlməsi) cəlb edilir.

Bu kiçik parçanın oxunmasına və ifalara münasibət bildirilməsinə vaxt ayrılır. Əfsanədən seçilmiş parçanın ifadəli oxusunun asudə vaxtlarında hazırlamaları şagirdlərə tapşırıq kimi verilir. Növbəti dərsdə səciyyəvi ifaların dinlənilməsinə vaxt ayırmaq məqsədəuyğundur.

**II. İFADƏLİ OXUYA HAZIRLAŞIN**

– Bədii əsərlərin ifadəli oxusu ilə bağlı aşağı siniflərdə mənimsədiyiniz bilik və bacarıqları 6-cı sinifdə daha da inkişaf etdirəcəksiniz. Bunun üçün ifadəli oxu üzrə tövsiyə və tapşırıqları diqqətlə oxumalı, onlarda deyilənlərə əməl etməyə çalışmalısınız.

– İndi öyrəndiyiniz əfsanədən bir parçanı (məsələn: "İşğalçılar tərəfindən təqib olunan karvan gecə-gündüz yol gedir" cümləsindən "Göz yaşlarında islanmış qum ağırlaşır..." cümləsinə qədər) yazın. Mətnin sağ kənarında boş yer saxlayın ki, orada qeydlər edəsiniz. Seçdiyiniz parçanı bir daha diqqətlə oxuyub əsas fikri aydınlaşdırın. Həmin fikrin əsasında qarşınızda duran vəzifəni, yəni dinləyicilərə nəyi çatdıracağınızı (buna ifaçılıq vəzifəsi deyilir) müəyyənləşdirin. Onun bir variantı belə ola bilər: "Karvandakı insanların dözülməz vəziyyəti barədə dinləyicilərdə təsəvvür yaratmaq". Deməli, ifadəli oxuda bu vəzifəni yerinə yetirməyə çalışmalısınız. Yəni elə oxumalısınız ki, sizi dinləyənlər karvandakı insanların necə əziyyət çəkdiklərini aydın təsəvvür edə bilsinlər.

– Seçdiyiniz parçanın ilk dörd cümləsində (dərslikdə verilib) səsinizin aldığı çalarlara (nağılvari, təəssüf, heyrət) diqqət edin.

– Həmin cümlələrdə şərti işarələrdən necə istifadə olunduğunu nəzərdən keçirin.

– Əfsanədən seçdiyiniz parçanı bu qayda ilə sona kimi işləyib ifadəli oxusuna hazırlaşın.

İşğalçılar tərəfindən təqib olunan karvan | gecə-gündüz yol gedir. | Tuluqlarda su ehtiyatı çoxdan qurtarmışdır. | Susuzluqdan dodaqları çatlamış adamlar danışmırlar, | başlar sinəyə enmiş, | addımlar ağırlaşmışdır. | Qaçqınların arasında çoxlu gənc var... ||

**İFAÇILIQ VƏZİFƏSİ**

Karvandakı insanların dözülməz vəziyyəti barədə dinləyicilərdə təsəvvür yaratmaq.

Nağılvari

Təəssüflə

Heyrətlə

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əfsanədən bitkin parçanı məzmuna uyğun emosionallıqla ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Gənc oğlan obrazının şəfqətli olduğunu nümunələrlə əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanənin əsas mövzu və ideyasını nümunələrlə fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

**Mövzu:**

**QANLI DAŞ –**

**1 saat**

**Təlim məqsədləri**
- Əfsanənin məzmununu plan əsasında yığcam nağıl edir (1.1.3).
- Əfsanədəki qəhrəmanları müxtəlif vəziyyətlərdəki əməllərinə görə səciyyələndirir (1.2.2).
- Əfsanədəki təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni aydınlaşdırır (1.2.3).
- Əfsanənin başlıca mövzusunu və ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir (1.2.4).

**Köməkçi vasitələr:** "Azərbaycan nağılları və əfsanələri", "Əfsanələr" adlı kitablar, əfsanə və nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Oxu. Anlama.** Əfsanənin oxusu, ilkin qavrama, təəssüratların bölüşülməsi.
2. **Öyrəndiklərinizi yoxlayın.** Məzmuna aid sualların yazılması ilə bağlı müstəqil işin nəticələrinin yoxlanması.
3. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Məzmunun yığcam nağıl edilməsi.
4. **Araşdırma.** Əfsanənin ideya məzmununun dəyərləndirilməsi məqsədilə araşdırmanın aparılması.
5. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Bu dərsdə oxu, məzmunun dərindən öyrənilməsi və təhlil üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqi həyata keçirilir. Əfsanənin məzmunu ilə bağlı sualların və onlara cavabların yazılması, əsərdən bitkin parçanın yığcam nağıl edilməsi, təhlil məqsədilə araşdırmanın aparılması və nəticəsinin yoxlanılması dərsdə diqqət mərkəzində saxlanılan başlıca məsələlərdir.

**Müəllim üçün əlavə məlumat.** *"Tətbiq. Ümumiləşdirmə"dərslərinin əsas məqsədi bölmədə öyrənilməsinə bir neçə saat ayrılmış və ətraflı mənimsənilmiş mövzular üzrə qazanılmış bilik və bacarıqların yeni təlim materialı üzrə müstəqil tətbiqinə nail olmaqdır. Təbiidir ki, şagirdlərin bu dərslərə qədər çətinlik çəkdikləri məsələlər, zəif reallaşdırılmış standartlar barədə müəllimin aydın təsəvvürü olur. Bu istiqamətdəki çatışmazlığın aradan qaldırılması tətbiq, ümumiləşdirmə dərslərinin mühüm vəzifələrindən sayılır.*

Şagirdlərin diqqəti "Oxu. Anlama" başlıqlı tapşırığa cəlb edilir. İzah olunur ki, əsərin mətni oxunduqdan sonra təəssüratların bölüşülməsi həyata keçirilir. Proses müzakirə xarakteri alır. Məqsəd çoxlu sayda şagirdi dinləmək yox, ilkin oxudan sonra mətnin məzmununun hansı səviyyədə qavranıldığını aşkara çıxarmaqdır. Müəllim əfsanədəki mühüm məqamlarla bağlı verdiyi bir neçə sual əsasında da real vəziyyət barədə xeyli təsəvvür qazana bilər. Adətən, ilkin oxuda əsərin məzmununun mənimsənilməsində çatışmazlıqlar (hadisələrdə mühüm incəliklərin, obrazların davranış və əməlləri üçün əhəmiyyətli olanların və s. nəzərdən qaçırılması) müşahidə edilir. Bunların aşkara çıxarılması sonrakı mərhələlərdə işin səmərəli təşkili üçün əhəmiyyətlidir.

Dərsdə növbəti addım mətnin dərinləşdirilmiş oxu məqsədilə nəzərdən keçirilməsi olur. Bunun effektli olmasında dərslikdəki tapşırığın (mətnə aid ikidən az olmayaraq sual və onlara cavabların hazırlanması) rolu böyükdür. Sualların yazılması, cavablandırılması mətnə dönə-dönə müraciət edilməsinə səbəb olur.

**I. OXU. ANLAMA**

1. Əsəri oxuyun.
2. İlkin təəssüratınızı bölüşün.
3. İkinci sütunda mətnə aid üçdən az olmayaraq sual və onlara cavab yazın. Bunun üçün dərinləşdirilmiş oxu məqsədilə mətni yenidən nəzərdən keçirin.

Dərslikdəki növbəti tapşırıq sualların və onlara hazırlanmış cavabların müzakirəsi ilə əlaqədardır:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

Sualların necə tərtib edilməsi, məzmunu hansı səviyyədə əhatə etməsi diqqət mərkəzində olur. Daha tutarlı sualların və onlara hazırlanmış cavabların üzərində dayanılır. Proses bütövlükdə mətnin məzmununun dərindən mənimsənilməsinə yönləndirilir.

Dərslikdə verilmiş aşağıdakı tapşırıqla əfsanənin məzmununun öyrənilməsi üzrə işə yekun vurulur. Şagirdlər əfsanədən seçilmiş bitkin parçaların məzmununu yığcam nağıletməyə hazırlaşırlar. Nağıletmədə daha çox məzmunun necə ümumiləşdirildiyinə, əsas fikirlərin nə cür qorunub saxlandığına diqqət yetirilir.

**III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN**

1. Əfsanənin məzmununu yığcam nağıl etməyə hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

Araşdırma və təhlil üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqi dərsin daha böyük diqqət və qayğı tələb edən mərhələsidir. Bu mərhələdə şagirdlərə təklif edilən tapşırıqlar yüksək idraki fəallıq, mürəkkəb fikri əməliyyat, müstəqil araşdırma, ümumiləşdirmə və nəticələrin çıxarılmasını tələb edir. Lakin bu tapşırıqlar şagirdlər üçün əlyetən olur; onların hamısının əsasında əvvəlki dərslərdə bu və ya digər səviyyədə mənimsənilmiş bilik və bacarıqlar durur. Tapşırıqların yerinə yetirilməsi fərqli iş formalarından istifadə ilə reallaşdırıla bilər. Dərslikdə kiçik qruplarda işin təşkili nəzərdə tutulmuşdur. Qruplara təklif edilən tapşırıqların hər birinin icrası üçün tövsiyələr verilmişdir. İşin icrasına başlamazdan əvvəl qrupların həmin tövsiyələrlə tanış olması vacibdir. Ehtiyac yaranarsa, müəllim həmin tövsiyələrlə bağlı izaha vaxt ayırır.

Kiçik qrupların təqdimatı geniş yazılı qeydlərin əsasında gerçəkləşdirilir. Qrupların hər birinin təqdimatı sinfin fəallığı şəraitində müzakirə edilir.

**IV. ARAŞDIRMA. TƏHLİL**

1. Kiçik qruplarda iş

**I qrup:** Əsərin mövzusunu müəyyənləşdirin, əfsanə janrında olduğunu nümunələrlə əsaslandırın.

***Tövsiyə.*** *Bilirsiniz ki, əsərin mövzusunu müəyyənləşdirərkən ilk növbədə onda nədən danışıldığını, əsas hadisəni aydınlaşdırmaq vacibdir. Bu deyilənlərdən çıxış edib əfsanənin mövzusunu müəyyənləşdirməyə çalışın. Əsərdə əfsanə janrına məxsus xüsusiyyətləri aydınlaşdırıb nümunələrlə izah edin.*

**II qrup:** Əsərdəki obrazları səciyyələndirin.

***Tövsiyə.*** *Obrazların xarakterindəki, davranış və əməllərindəki başlıca cəhətləri aydınlaşdırmağa çalışın. Fikirlərinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.*

**III qrup:** Bədii təsvir və ifadə vasitələrinin əsərdə hansı dəyişikliyə səbəb olduğunu aydınlaşdırın. Sizə məlum olan cədvəllərdən istifadə edin.

***Tövsiyə:*** *Bilirsiniz ki, bədii təsvir və ifadə vasitələri əsərdəki fikirlərin daha təsirli olmasına, oxucuda müxtəlif hisslərin yaranmasına, əsərin maraqla oxunmasına səbəb olur. Tapşırığın üzərində işləyərkən bu deyilənlərə diqqət yetirin.*

**IV qrup.** Əfsanədəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Nə üçün bu nəticəyə gəldiyinizin səbəbini izah edin.

***Tövsiyə.*** *"Mövzu" və "ideya" anlayışları bir-biri ilə sıx bağlıdır. Mövzu məzmun əsasında açıqlanır. Məzmun isə müəyyən fikirləri, niyyəti əks etdirir. Məzmunda ifadə olunmuş başlıca fikir ideyanın əsasını təşkil edir. "Qanlı daş" əfsanəsinin mövzusu, məzmunu sizə yaxşı məlum olduğundan ideyasını müəyyənləşdirməkdə çətinlik çəkməyəcəksiniz.*

**V qrup:** Əsəri "Su həsrəti" əfsanəsi ilə müqayisə edin.

***Tövsiyə.*** *Bilirsiniz ki, müqayisə bədii əsərlərin, obrazların və s. arasındakı oxşar, yaxud fərqli cəhətlərin, bəzən də hər ikisinin eyni vaxtda müəyyənləşdirilməsi, müvafiq nəticənin çıxarılmasıdır. Müqayisənin eyni cəhətlər üzrə aparılması vacibdir. Məsələn: iki obraz müqayisə edilərkən onların hər ikisinin vətənə, xalqa, insanlara münasibətləri üzərində dayanılır. Əfsanələri müqayisə edərkən cədvəldən istifadə edin.*

| **"Su həsrəti", "Qanlı daş"** | | | |
|---|---|---|---|
| Hansı mövzudadırlar? | Məzmunlarında oxşar və fərqli cəhətlər hansılardır? | İştirakçıların davranış və əməllərində oxşar və fərqli cəhətlər varmı? | İfadə etdikləri əsas fikir – ideya arasında oxşarlıq, yaxud fərq varmı? |
| | | | |

2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əfsanənin məzmunundakı əsas məqamları nağıletmədə əhatə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dəmirqaya və Sona obrazlarının ən çətin məqamlarda da yurdsevər olduqlarını nümunələrlə əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanədəki epitet və bənzətmələrin hadisələrin daha təsirli olmasında, qəhrəmanların vəziyyətinin qabarıq ifadəsində rolunu nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanənin əsas mövzu və ideyasını fərqləndirir, nümunələrlə əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**İLYAS –**<br><br>**3 saat**<br><br>**Birinci saat:**<br>**OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Nağılda tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir (1.1.1).<br>• Əsərin məzmununu plan əsasında geniş danışır (1.1.3).<br>• Öyrəndiyi yeni sözlərdən nağılla bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br><br>**Köməkçi vasitələr:** "Azərbaycan nağılları,"Azərbaycan nağılları və əfsanələri" adlı kitablar, nağıllara çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Öyrəndiyiniz nağılları xatırlayın. Onlarda şər qüvvələri kimlər təmsil edir?<br>2. **Oxu. Anlama.** Nağıldan parçanın oxunması, ilkin qavrama, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması.<br>4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.<br>5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Məzmunun nağıl edilməsi üzrə işin təşkili.<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə "İlyas" adlı nağıldan parçanın oxusu, məzmununun öyrənilməsi həyata keçiriləcəkdir. İlkin oxunun yaratdığı təəssüratın bölüşülməsi, məzmunun mənimsənilmə səviyyəsinin müəyyənləşdirilməsi, məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi, eləcə də nitq və təfəkkürün inkişaf etdirilməsi istiqamətində işlər reallaşdırılacaqdır.

**Müəllim üçün əlavə məlumat.** *Nağılın oxusunu, məzmununun öyrənilməsini fərqli variantlarda (məsələn, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s.) təşkil etmək mümkündür. Burada dərslikdəki variantın təsviri üzərində dayanılmışdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə "Yadasalma" başlığı altında verilmiş sualı oxumaq təklif edilir: "Öyrəndiyiniz nağılları xatırlayın. Onlarda şər qüvvələri kimlər təmsil edir?". Sual şagirdlərin diqqətini mövzuya, onun özünəməxsusluğuna cəlb etməyə imkan yaradır. "Yetim İbrahimin nağılı", "Üç qardaş" nağılları yada salınır, qəhrəmanlar, şər qüvvələr (div və s.) haqqında öyrənilənlər xatırladılır. Müəllim əlavə edir ki, nağılda yaramaz insanlar da şər qüvvələr kimi təqdim edilir. Şagirdlər nəticə çıxarırlar: Nağıllarda qəhrəmanlar sehrli qüvvələrlə yanaşı, ədalətsiz hökmdarlara, hiyləgər vəzirlərə, acgöz tacirlərə də qarşı çıxmalı olurlar. Şagirdlərin fəal iştirakı ilə dərsdə diqqət mərkəzində saxlanılacaq sual formalaşdırılır: Nağıl qəhrəmanlarının həyatda uğur qazanmalarına səbəb nədir?

Müəllim qeyd edir ki, öyrəniləcək "İlyas" nağılı sualın cavabının tapılmasına imkan yarada bilər. Şagirdlərin diqqəti dərslikdəki "Oxu. Anlama" başlıqlı tapşırığa cəlb edilir. Dərsliklə iş üzrə müəyyən təcrübə qazanan şagirdlər artıq bilirlər ki, ilkin oxudan sonra onlara təklif edimiş sualların əsasında təəssüratlarını bölüşməli olacaqlar. Bu onları oxuda diqqətli olmağa sövq edir.

Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, meydana çıxan sualların cavablandırılmasına diqqət yetirilir. Oxudan sonra – təəssüratlar bölüşülərkən mətnin hansı səviyyədə qavranıldığı barədə təsəvvür yaranır. Mətnin dərindən mənimsənilməsi məqsədilə dərslikdə əks etdirilmiş sualların üzərində düşünmək təklif edilir:

– Əsərin nağıl janrında olduğunu təsdiq edən nümunələr göstərə bilərsinizmi?

– Sizcə, tacirlə İlyasın ata-oğul münasibətlərinə səbəb nədir?

– Var-dövləti əlindən çıxan tacirin keçirdiyi hissləri duydunuzmu? Onun hisslərini necə izah edərsiniz?

– İlyasın tacirə etdiyi təklif onun haqqında təsəvvürünüzə yeni nə əlavə etdi?

– Padşahın İlyası bir qul kimi çox baha qiymətə almasının səbəbi haqqında düşündünüzmü? Sizcə, o niyə belə etdi?

– İlyasın sınaqlardan üzüağ çıxması sizi təəccübləndirdimi? Nə üçün?
– Sizcə, qızın sualında bir hikmət varmı? Onun əsl məqsədi nədir?
– Suallara cavab hazırlayarkən mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin.

Suallara cavabların hazırlanması fərqli formalarda təşkil edilə bilər. Cavablar fərdi olaraq hazırlandıqdan sonra cütlük şəklində fikir mübadiləsinin aparılması faydalıdır. Başqa sözlə, müəyyən mərhələdə şagirdlərin müstəqilliyinə imkan yaradılması onların mətnə sərbəst müraciət etmələrinə, duyumlarının ifadəsinə səbəb olur. Nəticənin müsahibə ilə yoxlanılması vaxta qənaət baxımından sərfəlidir. Bu, şifahi təqdimatları istisna etmir.

Növbəti tapşırıq əsərin məzmununun necə mənimsənildiyini yoxlamaqla yanaşı, onu həm də dərinləşdirir. Bunun uğurlu olması üçün test sualının cavab variantlarının müzakirə edilməsi məqsədəuyğundur.

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

**1.** Fikirlərdən biri doğrudur.
A) Tacir öz qulunu satmaqla daha çox var-dövlət qazanmaq istəyir.
B) İlyas tacirdən yaxasını qurtarmaq üçün bazarda satılmasını təklif edir.
C) Padşah İlyasın ağıllı olduğunu bildiyinə görə onu baha qiymətə alır.
D) İlyasın bacarığı yalnız daş-qaşı, atı, adamları tanımaqdan ibarətdir .
E) Gözəlliyi ilə məşhur olan qız həm də xeyirxahdır.

**2.** Fikirlərdən biri səhvdir.
A) Tacir ürəyiyumşaq, ədalətli adam idi.
B) İlyas ağasına – tacirə böyük hörmət edir, onun uğur qazanmasına çalışır.
C) İlyas yalnız üç bacarıqla məhdudlaşmayan ağıllı gəncdir.
D) Padşah ağıllı, ədalətli, qüsursuz bir insandır.
E) Padşah çox diqqətli olub, eşitdiklərini, gördüklərini dərhal öyrənməyə can atan adamdır.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlıqlı tapşırıq (İlyasın uğur qazanmasının səbəbini nədə görürəm; Nağıl janrında olan bədii nümunələrə münasibətim) ədəbi qəhrəman və nağıl janrı haqqında şəxsi fikrin bildirilməsi məqsədini güdür. Təklif edilmiş tapşırıqlar üzrə hazırlanmış təqdimatların fəal dinlənilməsi və müzakirəsinə vaxt ayrılır. Cavablarda əsaslandırılmış mülahizələrə kifayət qədər yer verilməsi diqqət mərkəzində saxlanılır.

Növbəti tapşırıq (mətndən seçilmiş bitkin parçanın geniş nağıl edilməsi) şagirdlərdə şifahi nitqin, müstəqil düşüncənin inkişaf etdirilməsi baxımından faydalıdır. O həmçinin mətnin məzmununun dərindən qavranılması, təhlilə hazırlıq baxımından da əhəmiyyətlidir. Şagirdlər beşinci sinifdə bu nağıletmə forması ilə tanış olsalar da, dərslikdə verilmiş aşağıdakı nümunənin üzərində müşahidənin təşkili vacibdir. Şagirdlərə bir daha aydın olur ki, bu formada nağıletmə mətnin, demək olar, eyni ilə saxlanmasıdır. Dəyişiklik söz və cümlələrin fərqli şəklə salınmasında özünü göstərir.

| **Geniş nağıletməyə aid nümunə** | |
|---|---|
| **Əsərdən seçilmiş parça** | **Geniş nağıletmə variantı** |
| Bəli, padşah əmr elədi, almazı sındırdılar. Almaz sınan kimi içindən torpaq töküldü. Hamı utandı, başını aşağı saldı. Padşah fərəhləndi ki, belə bir qulu var. O, İlyasa şirin sözlər deyib məclisində oturtdu. Bəli, padşah əmr elədi ki, bundan sonra İlyas mənim özümlə çörək yeyəcək. Bu gündən İlyasnan padşah həmişə bir yerdə çörək yeyirdilər. | Padşahın əmri ilə almazı sındırdılar. Hamı maraq içində irəli dartındı. Doğrudan da, almazın içindən xeyli torpaq töküldü. Almazı bəyənənlər, İlyasa inanmayanlar utandıqlarından başlarını aşağı saldılar. Padşahın kefi kökəldi, sanki fərəhindən uçmaq istəyirdi. İlyası xeyli tərifləyən padşah onu məclisində lap yuxarı başda oturtdu. Hökmdar belə bir qulunun olmağından çox fərəhləndi. Padşahın əmrinə əsasən həmin gündən İlyas onunla birlikdə çörək yeməyə başladı. |

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əfsanədə tanış olmayan sözlərin mənasını kontekstə uyğun izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əfsanənin məzmununu mətnə yaxın formada nağıl edir. | Tapşırıq şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı müzakirə və təqdimatlarda məqamında istifadə edir. | Tapşırıq şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**İLYAS**
**(nağıl) –**

**3 saat**

**İkinci saat:**
**OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Nağıl janrına məxsus xüsusiyyətləri müəyyənləşdirir (1.1.4).
- Nağılda təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).
- Öyrəndiyi yeni sözlərdən nağılla bağlı təqdimatlarda istifadə edir (2.1.1).
- Nağılla bağlı diskussiya və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).

**Köməkçi vasitələr:** "Azərbaycan nağılları", "Azərbaycan nağılları və əfsanələri" adlı kitablar, nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Oxu. Anlama.** Nağılın ardının oxunması, ilkin qavrama, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.
2. **Öyrəndiklərinizi yoxlayın.** Nağılın məzmununun hansı səviyyədə mənimsənildiyinin yoxlanması.
3. **Müzakirə edin.** Məzmunun öyrənilməsinin dərinləşdirilməsi məqsədilə işin təşkili, nəticəsinin müzakirəsi.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Bədii təsvir və ifadə vasitələrinin cümlələrdə işlədilməsi.
5. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə nağılın ardının öyrənilməsi həyata keçirilir. Məzmunun ilkin oxuda hansı səviyyədə mənimsənilməsinin yoxlanması, onun dərinləşdirilməsi məqsədilə qrup işinin təşkili və nəticəsinin müzakirəsi, nağılda müəyyənləşdirilmiş təsvir və ifadə vasitələri ilə bağlı tapşırığın yerinə yetirilməsi reallaşdırılır.

Əsərin ilkin oxusundan sonra təəssüratın ifadə edilməsi, bölüşülməsi həyata keçirilir. Bu məqsədlə dərslikdə təklif edilmiş suallar şagirdlərin marağına səbəb olur:

– Oxuduğunuz parçada diqqətinizi daha çox çəkən nə oldu? Nə üçün?
– Padşah haqqındakı təsəvvürünüzə yeni nə əlavə olundu?
– Şəhərin məşhur gözəl qızı barədə ilkin təsəvvürünüz necə oldu?
– İlyasla bağlı təsəvvürünüz zənginləşdimi?

Suallar əsərin bütövlükdə məzmunu və obrazlarla bağlı təəssüratın bildirlməsinə yönəlikdir. Cavablar məzmunun ilkin qavranılması barədə aydın təsəvvür yaradır. Təbiidir ki, bu da sonrakı mərhələlərdə işin məzmununa təsir edir. Başqa sözlə, ilkin oxuda əhatəli mənimsənilən məsələlərin üstünə qayıtmağa ehtiyac yaranmır. Yaxud, əksinə, birtərəfli qavranılanlarla bağlı işin aparılması zəruri olur.

Suallara şagirdlər fərdi tapşırıq kimi cavab hazırlaya bilərlər. Onlara fikir mübadiləsi aparmaq üçün imkan yaradılır.

Növbəti addım dərinləşdirilmiş oxunu zəruri edən sualların üzərində işin təşkilidir. Suallar məzmunu xatırlatmağa yönəlik olmayıb, obrazların, hadisələrin başa düşülməsinə, onlara münasibət bildirilməsinə istiqamət verir.

– Vəzirin “Səhər padşaha deyəcəyəm, bunun başını bədənindən ayırsın” sözləri onun haqqında hansı fikrə gəlməyinizə səbəb oldu?
– Padşahla vəzirin ağaclıqda “mısıb” gizlənmələri səhnəsini necə təsəvvür etdiniz? Bu sizə gülməli göründü, yoxsa nə isə başqa hiss keçirdiniz?
– Qızın sualına İlyasın verdiyi cavablar, sizcə, ağlabatandırmı?
– Padşahın İlyasdan gecəni harada olmasını israrla soruşmaqda məqsədi nə idi?
– Padşaha yalan danışan İlyasa haqq qazandırmaq olarmı? Nə üçün?
– Nağılın sonunun belə olacağını gözləyirdinizmi?

Sualların üzərində fərdi olaraq düşünən şagirdlərə cütlük şəklində, kiçik qruplarda fikir mübadiləsi aparmaq üçün vaxt ayrıla bilər. Cavabların dinlənilməsi prosesinin diskussiyaya çevrilməsi daha faydalıdır.

Dərslikdəki “Öyrəndiklərinizi yoxlayın” başlıqlı növbəti tapşırıq məzmun üzrə mənimsənilənlərin dərinləşdirilməsinə də əhəmiyyətli təsir edir. Test sualının cavab variantlarının hər biri ciddi düşünməyi, öyrənilənləri yada salmağı, bəziləri isə mətnə müraciət etməyi tələb edir.

Kiçik qruplarda icra olunmaq üçün təklif edilmiş tapşırıqlar təhlilə hazırlıq işi kimi dəyərləndirilə bilər. Tapşırıqlar obrazların xarakter və davranışlarının, hadisələrin səbəb-nəticə əlaqələrinin, janrın özünəməxsusluğunun aydınlaşdırılması vəzifələrini öz üzərinə götürmüşdür:

**I qrup:** Özünün qul kimi satılması təklifinə görə İlyasa haqq qazandırmaq olarmı?

**II qrup:** Qızın İlyası ölümdən xilas etməsinə səbəb nə idi?

**III qrup:** “Padşah İlyasa münasibətində həmişə səmimidir” fikrini doğru saymaq olarmı? Fikrinizi nümunələrlə əsaslandırın.

**IV qrup:** Padşahın İlyasla rəftarını necə dəyərləndirirsiniz?

**V qrup:** Əsərdə nağıl janrına aid hansı cəhətlər daha qabarıqdır? Nümunələr göstərin.

**VI qrup:** Nağılda əfsanəyə oxşar cəhətlər varmı? Fikrinizi təsdiq edən nümunələr göstərin.

Hazırlanmış cavablar qrupların təqdimatı əsasında müzakirə edilir. Əsərdən nümunələrin gətirilməsinə önəm verilir.

Dərslikdə növbəti tapşırıq aşağıdakı məzmunda təklif edilmişdir:

**IV. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Nağıldakı bədii təsvir və ifadə vasitələrindən ikisini cümlələrdə işlədin. Cümlələrdə nağılla bağlı fikirlərinizi ifadə etməyə çalışın.
2. İşin nəticəsini müzakirə edin.

Tapşırıq bir neçə baxımdan faydalıdır:
– bədii təsvir və ifadə vasitələri yeni təlim materialında müəyyənləşdirilir;
– növlərinə görə fərqləndirilir;
– nağılın məzmununa münasibəti ifadə edən cümlələrdə işlədilir.

İcra olunmuş işlərin nəticələrinin müzakirəsinə vaxt ayrılır.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Nağılın dilinin aydın olduğunu, hadisələrin sürətlə baş verdiyini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağılda işlənmiş epitet və bənzətmələri nümunələrlə izah edir, cümlələrdə işlədir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərdən nağılla bağlı təqdimatda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağılla bağlı diskussiya və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə ilə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**İLYAS –**

**3 saat**

**Üçüncü saat:**
**ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Nağıldakı qəhrəmanları müxtəlif vəziyyətlərdəki davranışlarına görə səciyyələndirir (1.2.2).
- Təsvir və ifadə vasitələrinin nağılda bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).
- Nağılın başlıca mövzusunu və ideyasını şərh edir (1.2.4).

**Köməkçi vasitələr:** “Azərbaycan nağılları”, “Nağıllar” adlı kitablar, nağıllara çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
**1. Araşdırma. Təhlil.** Nağılın mövzu, ideya, obrazlarının səciyyələndirilməsi, bədiiliyinin artmasına təsir edən vasitələrin dəyərləndirilməsi üzrə araşdırma.
**2. Yaradıcı iş.** Bədii yaradıcılıq bacarığının inkişafı üzrə müstəqil iş.
**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Üçüncü dərsdə nağılın mövzusu, ideyası, bədii keyfiyyətini artıran vasitələrin araşdırılması və təhlili üzrə işlər həyata keçirilir. Şagirdlərdə bədii yaradıcılıq bacarığının inkişafı üçün əhəmiyyətli olan müstəqil işin icrasına vaxt ayrılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim bədii əsərin dəyərləndirilməsi üçün xüsusi işin – araşdırma və təhlilin aparılmasının vacib olduğunu diqqətə çatdırır. Suallar səsləndirir:
– Əsərin əsas mövzusu nədir?
– Nağıl yaradıcıları onda hansı başlıca fikri ifadə etmək niyyətində olmuşlar?
– Nağıl qəhrəmanlarının davranışları, əməlləri onları necə səciyyələndirməyə imkan verir?
Nağıl haqqında bu ana kimi öyrənilənlərin suallara əsaslandırılmış, əhatəli cavab vermək üçün kifayət etmədiyi aydınlaşır.

Dərslikdəki “Araşdırma. Təhlil” başlıqlı tapşırığın yerinə yetirilməsi fərqli iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Şagirdlərin hər birinin məsuliyyətinin, müstəqil yanaşmasının təmin edilməsi məqsədilə öncə fərdi iş forması tətbiq edilir. Tapşırığın üzərində fərdi işləyən şagirdlər ilkin cavablar hazırlayırlar. Ardınca cütlük şəklində yığcam müzakirə və fikir mübadiləsi aparırlar. Oxşar cavablar hazırlayan şagirdlərin kiçik qruplar yaratması, dəqiqləşdirmə aparması da mümkündür. Sonda təqdimatlar əsasında qrupların gəldikləri nəticələr müzakirə olunur.

İşin bu şəkildə tətbiqi həmişə vacib deyildir. Məsələn, fərdi olaraq işləyərək cavablar hazırlayan şagirdlərin gəldikləri nəticələr müsahibə ilə aşkara çıxarılır və dəyərləndirilir. Tapşırığın məzmunu bu variantın uğurla reallaşdırılmasına imkan verir. Başqa sözlə, tapşırığın hər tələbinin (bəndinin) yerinə yetirilməsi üçün verilən konkret tövsiyə şagirdlərin səmərəli işləmələrinə əlverişli şərait yaradır. Məsələn, tapşırığın birinci tələbi və yerinə yetirilməsi üçün verilmiş tövsiyə aşağıdakı məzmundadır:

- Nağılın mövzusunu müəyyənləşdirin. Bunun üçün aşağıdakı tövsiyələrə əməl etməyə çalışın:

– nağıldakı təsvirlərin daha çox nə ilə bağlı olduğunu yada salın;
– obrazların həyatında, fəaliyyətində nələrə önəm verildiyini xatırlayın.
Tövsiyələrə əsaslanan şagirdlər nağılın ayrı-ayrı epizodlarını, obrazlarla bağlı təsvirləri bir daha nəzərdən keçirir, bütün bunların daha çox məişətlə bağlı olduğu qənaətinə gəlirlər.
Tapşırığın ikinci tələbi baş qəhrəmanın təhlili ilə bağlıdır.

- İlyas obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:

– müxtəlif vəziyyətlərdə nitqi;
– fərqli məqamlarda davranış və əməlləri;
– başqalarına münasibəti.
Tövsiyələr şagirdlərin fəaliyyətini istiqamətləndirir. Obrazların nitqi-danışığı üçün səciyyəvi olanlara diqqət yetirməyin yolları barədə məlumatlı olan şagirdlər qəhrəmanın – İlyasın başqaları ilə: tacirlə, padşahla ünsiyyətdə olduğu səhnələri nəzərdən keçirirlər. Tacirlə danışığında səmimiliyi, ona rəğbəti, hörmət və ehtiramı aydınca duyulur. Bu, işlətdiyi sözlərdə, ifadələrdə də hiss olunur. Padşahla

danışığında isə fərqli vəziyyət müşahidə edilir. Hökmdarla danışığında İlyasın diqqətli, ehtiyatlı olduğunu duymaq çətin deyildir. Başqasının sirrini açmamaq üçün padşahdan həqiqəti gizlətməyə məcbur olan İlyası nağılın oxucusu məzəmmət etmir.

Tapşırığın növbəti bəndi və onunla bağlı tövsiyə aşağıdakı məzmundadır:

• Padşah obrazını səciyyələndirin. Tövsiyələrə diqqət edin:

– fərqli vəziyyətlərdə nitqi və davranışı;

– müxtəlif məqamlarda qərar və əməlləri;

– İlyasa münasibəti.

Padşahın nitqi üzərində müşahidənin aparılması onun ziddiyyətli xarakteri barədə aydın təsəvvürün yaranmasına səbəb olur. Hökmdarın davranışında da ziddiyyətlər az deyildir. Epizodların birində o, müdrik görünsə də, digərində gülüş hədəfinə çevrilir.

Hökmdarın müxtəlif məqamlarda verdiyi qərar, əməl və hərəkətlərində də ziddiyyətlər özünü göstərir. Bütün bunların aydınlaşdırılması, əsərdən seçilmiş nümunələrlə əsaslandırılması obrazı əhatəli səciyyələndirməyə imkan yaradır.

Padşahın İlyasa münasibətinin aydınlaşdırılmasına daha diqqətlə yanaşılmalıdır. Bu onun xarakterindəki ziddiyyətləri, qüsurları əhatəli müəyyənləşdirməyə imkan verir. İlyas kimi ağıllı, fərasətli, qabiliyyətli qulu olması ilə lovğalanan padşah, hətta onun qətli haqqında hökm də verir.

Tapşırığın digər bir tələbində nağılın bədii keyfiyyətinin müəyyənləşdirilməsi üzrə araşdırmanın aparılması təklif edilib:

• Nağılda daha maraqlı hesab etdiyiniz təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni izah edin. Cədvəldən istifadə edin.

Bununla bağlı işi fərqli məzmunda təşkil etmək olar. Dərslikdə təklif edilmiş variant şagirdlərə tanışdır. Onlar nağılda müəyyənləşdirdikləri bədii təsvir və ifadə vasitələrinin (epitet, bənzətmə) işləndiyi cümlələrdən bir neçəsini cədvəlin birinci sütununda yazırlar. İkinci sütunda isə həmin cümləri bədii təsvir və ifadə vasitələri olmadan qeyd edirlər. Yaranmış vəziyyət – fərq cədvəlin üçüncü sütununda (aşağıdakı nümunədə olduğu kimi) izah edilir:

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Cümlələrin təsvir və ifadə vasitələri olmadan işlənməsi | Fərqin izahı |
|---|---|---|
| Düşmən əsgəri qorxusundan nanə yarpağı kimi əsirdi. | Düşmən əsgəri qorxusundan əsirdi. | Birinci cümlə daha maraqla oxunur. Əsgərin həddindən çox qorxduğu təsirli ifadə edilib. |

Tapşırığın sonuncu bəndində əsərin ideyasının aydınlaşdırılması tələbi əksini tapmışdır. Dərsliyə daxil edilmiş cədvəl şagirdləri ciddi düşünməyə, əsər haqqında öyrəndiklərini bir daha yada salmağa, öz mövqelərini – gəldikləri nəticəni ifadə etməyə yönləndirir.

• Nağıl yaradıcıları oxucuları nəyə səsləmişlər, onları nəyə inandırmaq istəmişlər? Aşağıdakı fikirlərlə tanış olun. Müstəqil nəticə çıxarmağa çalışın.

| s. | Əsərin ideyası hansıdır? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Ağıllı, təmkinli olmaq çətinliklərə üstün gəlmək üçün vacib şərtdir. | | |
| 2 | Haqq-ədalət həmişə öz yerini tapır. | | |
| 3 | Ədalətli, xeyirxah və ağıllı olmaq uğur qazanmağın mühüm şərtləridir. | | |

Dərslikdə təklif edilmiş “Yaradıcı iş” başlıqlı tapşırıq şagirdlər üçün yeni deyil. Lakin onunla bağlı yığcam təlimatın verilməsi məqsədəuyğundur. Şagirdlərin yazdıqları epizod nağılın məzmununa uyğun olmalı, hansı təsvirdən sonra əlavə ediləcəyi əvvəlcədən müəyyənləşdirilməlidir. Hazırlanmış parçanın dili, onda işlədilmiş sözlər nağılın dil-ifadə xüsusiyyətləri ilə səsləşməlidir. İşin nəticəsinin yığcam müzakirə edilməsi və dəyərləndirilməsi şagirdlərin sonrakı dərslərdə bu məzmundakı fəaliyyətlərinin səmərəliliyinə müsbət təsir edir.

**II. YARADICI İŞ**

1. Nağılın məzmununa uyğun yığcam epizod yazın.
2. Nağılda müvafiq saydığınız hissəyə əlavə edin.
3. Nəticəni müzakirə edin.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| İlyas və padşah obrazlarını fərqli vəziyyətlərdə nəzakətli, şəfqətli, ədalətsiz davranışlarına görə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağılda işlənmiş epitet və bənzətmələri qəhrəmanların nitqinə təsirini nümunələrlə izah edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Nağılın mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

BİRİNCİ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*(qiymətləndirmə "Şah və bağban" əsəri üzrə aparıla bilər)*

## ŞAH VƏ BAĞBAN

*(əfsanə)*

Şah öz tərlanını da götürüb ova çıxmışdı. Onun əyin-başında şahlıq nişanəsindən heç nə qalmamışdı. Köhnə ovçu paltarı geyinmişdi, bir qoca, əldən düşmüş, zorla yortan yabıya minmişdi. O, həmişə başqa qiyafədə hər həftə bir kəndə gedər, öz rəiyyətinin dərd-sərindən xəbərdar olardı.

Göylə yerin birləşdiyi yerə qədər uzanan düzdəki kəndin qırağına çatanda tərlanı çiynindən havalanıb uçdu. Kəndin girəcəyindəki bağda qeyb oldu. Bağ hündür, adama boy verməyən hasara alınmışdı. Hasarın dibi boyu, içəridən qələmə ağacları gəlib göylərin bir qatına ucalmışdı. Şah atdan düşdü. Darvazanı döydü. Darvazanı nurani bir qoca açdı. Ovçunu görən kimi mehmannəvazlıqla geri çəkilib yol verdi, hər iki əlini sinəsinə qoyub təzim etdi:

– Yaradana da qurban olum, qonağına da!.. Ovçu qardaş, şükür ki, hər şeyimiz var, xəcalət olmarıq, mənzilimizə buyurun.

Ovçu həyətə girdi. İmarət nə imarət!.. İki göz istəyirdi ki, gecə-gündüz baxsın. Bağ nə bağ! Təzə bir cənnət! O belə bir cənnəti heç yuxuda da görməmişdi. İçində dumduru göz yaşı kimi bulağı, çarhovuzu vardı. Çarhovuzda da yaşılbaş süzürdü. Güllərin, çiçəklərin ətri, bülbüllərin avazı adamı bihuş edirdi. Ağacların budaqlarından meyvələr asılıb qalmışdı. Hərəsi bir rəngdə, bir lətafətdə. Bir cərgə ağacın budaqlarına isə elə bil közlər tökülmüşdü. Köz kimi parlayırdı. Qoca gəbə gətirdi, güllərin, çiçəklərin dövrələdiyi bir çəmənliyə saldı. Yastıq, mütəkkə də gətirdi. Əlində məhraba müntəzir dayandı. Ovçu yaraq-əsləhəsini yerə qoydu. Bulaqda yuyundu. Quşa döndü.

– Bağban, o nədir? – deyib budaqlarda köz kimi qızaran meyvələri göstərdi. Qoca evə dönüb bir piyalə gətirdi. O, meyvənin birini budaqdan üzüb gətirdi, piyaləyə sıxdı. Piyalə qan kimi qırmızı şirə ilə doldu. Piyaləni ovçuya verdi:

– Bu şirəni için, onda bilərsiniz.

Ovçu piyaləni başına çəkdi. İçib başını ləzzətlə yırğaladı. Qoca gedib bir-iki dənə də həmin meyvədən üzdü. Yenə sıxdı. Piyaləni yenə doldurdu:

– Bunu da için. Bu, nardır, nar şirəsidir, adama can-qan verir. Günümüz-güzəranımız bundadır. Bu imarəti də narın qəpik-quruşu ilə tikdirmişəm.

Ovçu tərlanı çağırdı. Qoca ilə salamatlaşıb getdi. Yol boyu fikirləşdi ki, yəqin, bu kənddə nar bağı çoxdur. Hər bağ yiyəsi də beləcə, xan kimi dolanır. Belə bir yassar kəndində neçə cənnət, neçə şah sarayı var. Bu cənnətləri, bu sarayları görənlər mənim şahlığımı gözdən salarlar.

Şah taxta çıxdı. Hökm etdi кi, o кəndin hər ağacından vergi alsınlar, həm də ayda bir dəfə. Neçə vəкil atlandı. O кəndə sarı neçə ağ cığır düşdü, neçə yol ağardı.

Aradan illər ötəndən sonra şah yenə də ovçu paltarı geyinib həmin кəndə yollandı. Əvvəlкi hasarı, bağ-bağatı, darvazanı görmədi. İmarət də uçub-töкülmüşdü. Yaxında bircə daxma vardı. Həmin qoca da daxmanın qabağındaкı çardağın altında uzanıb yatırdı. Paltarına yamaq üstündən yamaq vurulmuşdu. Sir-sifətinə cəhənnəm sarılığı çöкmüşdü. Ovçu atdan qocanın yanında endi:

– Baba, necəsən?

Qoca oturdu. Baxdı. Ovçunu tanıdı. Onu titrətmə tutdu. Sürünüb günün altına çıxdı. Bir də uzandı. Gün göydən elə bil od ələdi, hər yanı yanğın başına aldı. Yer odda qızarmış dəmirçi кürəsinə döndü. Ovçunu yuxarıdan göy, aşağıdan yer yandırmağa başladı. Dili ağzında кösövə döndü. Boylandı, su axtardı. O bulaq da qurumuşdu, o çarhovuz da dağılmışdı. Bir ətəк nar yığıb özünü çardağın kölgəsinə verdi. Narın birini əzdi, sordu, ağzına bircə damcı da şirə getmədi. Susuzluqdan tüstüsü təpəsindən çıxdı. Üzülmüş səslə öz-özünə dedi: Bu nə işdir, bu nə fəlakətdir qarşılaşdım?!

Qocanı səslədi:

–Yanıram, qoca, mənə su!..

Qoca hələ də uçunurdu, titrəyirdi, canı qızmırdı. Zorla diкəldi:

– Ey şah, – dedi, – bu zülmə neçə ildir biz dözürüк, bircə gün də sən tablaş.

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Əsərin məzmunundan çıxış edərək sözlərin düzgün izahını müəyyənləşdirin.

| Söz | İzahı |
|---|---|
| 1. Qiyafə | a. Getmək, yerimək |
| 2. Mehmannəvazlıq | b. Böyük xalça |
| 3. Lətafət | c. Gözəllik, xoşluq |
| 4. Müntəzir | d. Qonaqpərəstlik |
| 5. Gəbə | e. Geyim, üst-baş |
| 6. Yortmaq | f. Dayanıb gözləmək |

______________________________________________

2. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlədə işlədib yazın. Cümlələrin əsərin məzmunu ilə səsləşməsinə çalışın.

______________________________________________

3. Mətndə çərçivəyə alınmış hissənin planını tərtib edin.

______________________________________________

4. Bağban haqqındakı fikirlərdən hansı səhvdir?

A) Qonaqpərvərdir.
B) Səxavətlidir.
C) Təkəbbürlüdür.
D) Zəhmətkeşdir.
E) Ədəb-ərkanlıdır.

5. Hansı cəhət şaha aid edilə bilər?

A) Ölkəsinin abad olması onu fərəhləndirir.
B) Tutduğu işdən peşman olur.
C) Cah-calalda, dəbdəbədə hər kəsdən üstün olduğunu düşünür.
D) Başqa qiyafədə ölkəni gəzərək xalqın dərd-sərini öyrənərdi.
E) Rəiyyətin xoş güzəranına qısqanclıqla yanaşır.

6. Nümunələrdə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?

| | | |
|---|---|---|
| ______ | ⟹ | Piyalə qan kimi qırmızı şirə ilə doldu. |
| ______ | ⟹ | Susuzluqdan tüstüsü təpəsindən çıxdı. |
| ______ | ⟹ | Bu nə işdir, bu nə fəlakətdir qarşılaşdım?! |

7. Aşağıdakı cümlələrə epitet və ya bənzətmə artırıb yazın.
*Bülbüllərin avazı adamı bihuş edirdi.*
*O bulaq da qurumuşdu, o çarhovuz da dağılmışdı.*
8. Cənnəti xatırladan bağın və imarətin xarabalığa çevrilməsinə səbəb nə idi?
A) Quraqlıq
B) Bağbanın xəstələnməsi
C) Vergilərin artırılması
D) Şahın adamlarının kəndə basqın etməsi
E) Bağbanın tənbəlliyi

9. Əsərdə hansı epizod sizə daha çox təsir etdi? Həmin hissənin yığcam məzmununu yazın.

____________________________________________________________

____________________________________________________________

10. Hansı fikir əsərdə ifadə olunmuş başlıca ideya ilə bağlıdır?
A) Rəiyyətin güzəranı şahın münasibətindən asılıdır.
B) Qənaqpərvərlik ən gözəl insani keyfiyyətlərdən biridir.
C) İnsan əlinin zəhməti ilə heyrətamiz gözəlliklər yarada bilər.
D) İnsanların necə yaşaması hava şəraitindən asılıdır.
E) Başqasına quyu qazan özü düşər.

| | |
|---|---|
| **Mövzu:**<br><br>**TƏSVİRİ İNŞANI NECƏ YAZMALI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Fakt və dəlilləri müqayisə edərək seçir (3.1.1).<br>• Əsərdəki başlıca fikri digərlərindən fərqləndirir (3.1.2).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı:**<br>1. **Oxu. Anlama.** Təsvir xarakterli inşa ilə bağlı mətnin oxunması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.<br>4. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Təsvir xarakterli inşanın icrası ilə bağlı mətnin məzmununun öyrənilməsi, qavranılma səviyyəsinin yoxlanması, tətbiqi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin aşağı siniflərdə mənimsədikləri yazı bacarıqlarının aşkara çıxarılması və nəzərə alınması icra olunacaq işlərin səmərəliliyinə əhəmiyyətli təsir edir. Dərsə qədər bu barədə müəllimin məlumatlı olması faydalıdır.*

Dərslikdəki "İnşanı necə yazmalı" mətnində (rəy xarakterli yazı ilə bağlı hissə bu dərsdə əhatə olunmur) verilmiş məlumatın mənimsənilməsi vacibdir. Mətnin oxusunu fərqli formalarda təşkil etmək olar. Sinfin təcrübəsi varsa, yaxud müəllim şagirdlərinə mənimsətmək istəyirsə, İNSERT metodundan istifadə etmək yerinə düşür. Bunun üçün şagirdlər İNSERT metodunun tələblərinə (dərslikdəki mətnin surətini çıxartmamaq üçün şərti işarələrə uyğun qeydlər ayrıca vərəqdə yazılır) əməl etməklə mətni fərdi olaraq oxuyurlar. Oxu prosesində şagirdlərin digər mənbələrdən (məsələn, əvvəlki illərin dərsliklərindən) istifadə etmələri faydalıdır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra istifadə olunan şərti işarələrdən irəli gələn suallar da nəzərə alınmaqla yığcam müsahibə aparılır. Məhz bundan sonra mövzu üzrə müzakirənin aparılmasına əlverişli imkan yaranır. Müəllim bələdçilik qaydalarına müvafiq

olaraq müzakirəni istiqamətləndirici suallarla idarə edir, diqqəti daha əhəmiyyətli məsələlərin üzərinə yönəldir.

Mətnin fərdi-səssiz oxusunu təşkil etməyi qarşısına məqsəd qoyan müəllim ondakı başlıca məsələləri əhatə edən sualları əvvəlcədən şagirdlərə təqdim edə bilər.Yaxud ilkin oxudan sonra şagirdlərə həmin sualların cavabları üzərində düşünmək təklif olunur. Bu halda mətnə yenidən müraciət edilməsinə, seçmə yolla oxuya ehtiyac yaranır. Təcrübədə bu variantın əhəmiyyəti təsdiq edilmişdir. Hər iki halda suallar aşağıdakı məzmunda təqdim oluna bilər:

– “İnşa” sözü hansı mənaları ifadə edir?
– İnşanın müəllifində hansı bacarıqların olması vacibdir?
– İnşanın hansı növləri var?
– İnşa üçün plan tərtibinin əhəmiyyəti nədir?
– Plan tərtibçidə hansı bacarıqların olmasını tələb edir?
– Plan hansı bölmələrdən ibarət olur?
– Girişdə hansı məsələlərə diqqət yetirilir?
– Əsas hissədə hansı məsələlər əks olunr?
– Nəticədə hansı fikrin ifadəsinə üstünlük verilir?
– İnşa hansı mərhələlər üzrə yerinə yetirilir?
– Yazıya hazırlıq mərhələsində hansı işlər həyata keçirilir?
– Yazının yerinə yetirilməsi mərhələsində icra olunan işlərə nələr daxildir?
– Yazının müzakirəsi və qiymətləndirilməsi mərhələsində hansı işlər yerinə yetirilir?
– Təsvir xarakterli inşaların yazıldığı mövzular və bu yazının başlıca xüsusiyyətləri hansılardır?

Mətndəki fikirlərin hansı səviyyədə mənimsənildiyini bu sualların əsasında aparılan müsahibə, yaxud hazırlanmış təqdimatlar aşkara çıxara bilər. Başlıca diqqət təsvir xarakterli inşaya yönləndirilir. Şagirdlər istiqamətləndirici suallar əsasında izah edirlər ki, bu inşalar mövzuca rəngarəng olub, bədii əsərlər, ədəbi qəhrəmanlar, mühüm tarixi, mədəni hadisələr və günlər, baxılmış tamaşa, kino, rəsm, hekəltəraşlıq əsəri və s. bağlı ola bilər. Bunun üçün mövzu ilə bağlı araşdırmanın aparılması, fakt və məlumatın toplanması vacibdir.

İnşa ilə bağlı mənimsənilmiş məlumatın möhkəmləndirilməsi və zənginləşdirilməsi konkret nümunə əsasında reallaşdırılır. İlk nümunə olaraq şagirdlərə tanış olan bədii əsərin seçilməsi məqsədəuyğundur. Beşinci sinifdə, yaxud yeni öyrənilmiş əsərlərdən birinin üzərində dayanmaq olar. Bu baxımdan şagirdlərin təzəlikcə müzakirə etdikləri “Su həsrəti” əfsanəsi seçilə bilər. Bu əsərin ideya məzmunu inşa üçün “Əfsanədə karvandakı insanların vəziyyətinin təsviri” mövzusunun müəyyənləşdirilməsini məqsədəuyğun edir. Mövzu ilə bağlı təsəvvürün konkretləşməsi üçün əsərin tədrisində istifadə olumuş sualların cavabları ilə səsləşən fikirlərin əsasında yığcam müsahibənin aparılması səmərəlidir:

– Səhra haqqında nə bilirsiniz?
– İsti yay günündə ucsuz-bucaqsız səhrada piyada yol getməyin çətinliyini təsəvvür edə bilirsinizmi?
– İstisi ayaqları yandıran səhranın, od ələyən günəşin insanlara təsirini necə təsvir edərsiniz?
– Suları tükənmiş, amansız düşmən tərəfindən təqib olunan insanların vəziyyəti sizdə hansı hisslər oyadır?

Müsahibənin sonunda müəllim qeyd edir: Bütün bunların aydın təsəvvür olunması baş verənlərin ətraflı təsvir edilməsinə səbəb ola bilər.

Növbəti addım plan tərtibi olur. Şagirdlər sual üzərində düşünürlər:

– Yazının girişində hansı fikir ifadə olunacaq?

Cavablarda qeyd olunur ki, girişdə inşanın mövzusu haqqında təsəvvür yaradılır, əhatə olunacaq məsələlərə işarələr edilir.

Şagirdlər girişdə əks etdirəcəkləri fikirləri bir neçə cümlə şəklində qaralama variantı kimi qeyd edirlər.

Növbəti sual səsləndirilir:

– Yazının əsas hissəsində nədən danışılacaq? Bunu bəndlər şəklində necə ifadə etmək mümkündür?

Sual, əslində, əfsanənin ideyasının necə başa düşülməsi ilə bağlıdır. Başqa sözlə, planın əsas hissəsində əks etdirilən bəndlər əsərdəki başlıca fikrin digərlərindən fərqləndirildiyini, faktlardan daha mühüm olanların seçilib götürüldüyünü nümayiş etdirir. Əsas hissədə əhatə olunanlar şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirilir:

– Səhranın təsviri.
– Karvanın təsviri.
– Karvandakı insanların görünüşü, keçirdikləri hisslər.
– Qardaş və bacı obrazlarının təsviri.
– Qardaşın hiss-həyəcanının təsviri və dəyərləndirilməsi.
– Düşmənin karvana hücumu, döyüşün təsviri.
– Qəfil yaranan bulaq suyunun qeybə çəkilməsi.

Şagirdlərə planın hər bəndinin üzərində düşünmək və ilkin qeydlərini yazmaq təklif edilir. Bu qeydlər hələ pərakəndə, əlaqəsiz fikirlərdən ibarət ola bilər. Sanki yaddaş əvəzi olan qeydlərin üzərində dərinləşdirmə işləri sonrakı mərhələlərə aiddir.

Növbəti sual inşanın nəticə hissəsində hansı fikrin ifadə edilməsi ilə bağlıdır.

Səsləndirilən fikirlər bir-birindən fərqlənir: təbiət öz səxavətini amansız olduqları üçün insanlardan əsirgəyir; Ceyranın ölümü həyat mənbəyi olan suyun qurumasına səbəb olur və s. Burada diqqət yetirilməli olan başlıca məqsəd gəldiyi nəticəni hər kəsin necə əsaslandırmasıdır.

İlkin qeydlərin üzərində işin davam etdirilməsi, son variantın yazılması, düzəlişlərin aparılması növbəti dərsdə həyata keçirilsə də, dərs üçün müəyyənləşdirilmiş standartların əsasında qiymətləndirmə aparıla bilər.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Fakt və dəlilləri müqayisə edərək mühüm olanları seçir. | Yazı | Dərslik, iş vərəqləri |
| Əsərdəki başlıca fikri digərlərindən nümunələr əsasında fərqləndirir. | Yazı | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Təsviri İNŞANIN YAZILMASI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Əsərdəki başlıca fikri dəyərləndirir (3.1.2).<br>• Təsvir xarakterli yığcam inşada fikirlərini əsaslandırır (3.1.3).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. Yazının ilkin (qaralama) variantının hazırlanması.<br>2. İlkin variantın gözdən keçirilməsi.<br>3. İnşanın yerinə yetirilməsi.<br>4. Yazının oxunması, düzəlişlərin edilməsi.<br>5. Yazının müzakirəsi və özünüqiymətləndirmə.<br>6. Formativ qiymətləndirmə. |

**Dərsin məzmunu.** Təsvir xarakterli inşanın hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

İnşa yazı üzrə birinci dərsdə icra olunmuş iş davam etdirilir. "Əfsanədə karvandakı insanların vəziyyətinin təsviri" mövzusunda birinci dərsdə aparılmış qeydlər inşanın ilkin – qaralama variantı kimi qiymətləndirilə bilər. Şagirdlər yazının giriş, əsas hissəsi və nəticəsi ilə bağlı qeydlərini gözdən keçirib dərinləşdirmə və zənginləşdirmə istiqamətində işi davam etdirirlər. Bu, inşanın quruluşuna uyğun olaraq ardıcıllıqla yerinə yetirilir. Yəni əvvəlcə giriş üzərində düşünən şagirdlər onun genişləndirilməsinə, fikirlərin dəqiqləşdirilməsinə çalışırlar. Girişin başlanğıcı təxminən bu məzmunda olur: *Şifahi xalq ədəbiyyatının janrlarından olan əfsanədə möcüzəli hadisələrdən danışılır. Amma əfsanələrdə insanların arzusu, istəyi, düşüncələrinə də geniş yer verilir. Tarixi şəxsiyyətlər, yer adları, quşlar, heyvanlar və s. haqqında yüzlərlə əfsanə yaradılmışdır. "Su həsrəti" Sumqayıt haqqında əfsanələrdən biridir. Əfsanə "Sumqayıt" adı ilə bağlansa da, işğalçıların zülmü ilə qarşılaşan, vətənlərini tərk edən insanların əzab-əziyyətləri barədə ətraflı məlumatı da əks etdirir...*

Girişdə bu məzmunda fikrin səsləndirilməsinin faydalı olduğu barədə şagirdlərdə təsəvvür hələ birinci dərsdə yaradılır.

İnşa yazıya plan hazırlanarkən səhranın təsviri nəzərdə tutulub. Şagirdlərin səhra haqqında topladıqları məlumat əfsanədəki təsvirləri daha aydın təsəvvür etmələrinə səbəb olur. Əsərdə yalnız "ucsuz-bucaqsız səhra", "narın qum" sözləri ilə kifayətlənilmişdir. Deməli, səhranın təsəvvür edilməsi toplanmış məlumatın və təxəyyülün gücü ilə mümkündür. Təsəvvür edilənlərin yazıda ifadə olunması da asan deyildir. Belə məqamlarda müəllimin dəstəkləyici yanaşmasına ehtiyac duyulur.

Planın əsas hissəsində karvanın təsviri tələbi də əks olunub. Əfsanənin məzmunundan aydın olur ki, karvanda uşaqlar, qadınlar, qocalar var. Onların əksəriyyəti piyadadırlar. İnsanlar ikibir, üçbir, tək-tək irəliləyirlər, onların arasında məsafə də fərqlidir. Karvan neçə yüz metr uzanır. Bütün bunların aydın təsəvvür edilməsi karvanın təsvir olunmasına imkan yaradır. Bunun üçün əsərin məzmunu, eləcə də şagirdlərin özlərinin təsəvvürü, təxəyyülü yardımçı olur.

Karvandakı adamları, onların vəziyyətini təsvir etmək ilk növbədə əsərin məzmununu mükəmməl bilməyi tələb edir. Gecə-gündüz yol gedən karvan adamları susuzluqdan əziyyət çəkir, onların "dodaqları çatlamış", başları "sinəyə enmiş", "addımları ağırlaşmışdır". Adamlar bir-biri ilə danışmırlar.

Karvandakı bacı və qardaş da bu əzablı qaçqın taleyini yaşayırlar. Bacısı Ceyranın taqətsiz düşüb qalması, qardaşın keçirdiyi ağır təlaş hissi əfsanənin təsirli epizodlarındandır. Bütün bunların əsərdəki söz və ifadələrdən də istifadə ilə təsvir edilməsi şagirdlər üçün çətin olmur.

Planın əsas hissəsi düşmənin karvana hücumu, son döyüşün təsviri və bulaq suyunun qeybə çəkilməsi ilə tamamlanır. Əfsanədə təqdim olunanlar həmin səhnənin təsəvvür və təsvir edilməsini xeyli asanlaşdırır: "Sayca çox olan amansız düşmənlə döyüş başlanır. Məğrur Ceyran düşmən atlılarının yaxşnlaşdığını görüb gözlərini göyə qaldırır, yanıqlı səslə deyir:

– Uca Tanrı, məni daş elə, məni qaya elə..."

Yazının nəticəsi, artıq qeyd edildiyi kimi, fərqli məzmunda olur. Şagirdlərin fərdi olaraq gəldikləri nəticəni necə əsaslandırdıqları diqqəti cəlb etməli, ona münasibət bildirilməlidir.

İnşanın yazılıb başa çatdırılması hələ onun tamamlanması kimi qiymətləndirilə bilməz. Yazının yenidən oxunması, zəruri düzəlişlərin aparılması vacibdir. Bunun üşün şagirdlərdə aşağıdakı bacarıqların yaradılması və inkişaf etdirilməsi məqsədəuyğundur:

– Yazının doğruluğunu (inşanın növünə uyğun olduğunu) müəyyənləşdirmək bacarığı.
– Səhvləri aşkara çıxarmaq bacarığı.
– Səhvləri aradan qaldırmaq bacarığı.

Hazırladığı mətni oxuyan şagird yazının hissələri arasındakı bağlılığa, fikirlərin əlaqəsinə, abzasların bir-birini izləməsinə, obyekti (obrazı, hadisəni və s.) necə təsvir etdiyinə xüsusi diqqət yetirir. Yazının müzakirəsində mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərə hörmətlə yanaşır.

Şagirdin öz yazısını qiymətləndirməsi vacibdir. Bunun üçün aşağıdakı cədvəldə verilmiş meyarlardan istifadə tövsiyə olunur. Məqsəd və sinfin səviyyəsindən çıxış edən müəllim yeni, fərqli meyarlar hazırlamaqda sərbəstdir.

| s. | Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|---|
| 1. | Yazım mözuya uyğundur və onu əhatə edir. | | |
| 2. | Giriş, əsas hissə və nəticənin arasında əlaqəni gözləmişəm. | | |
| 3. | Girişdə mövzu haqqında təsəvvür yaratmış, əhəmiyyətini izah etmişəm. | | |
| 4. | Əsas hissədə başlıca fikri plandakı bəndlərin tələblərinə uyğun olaraq, faktlar, müxtəlif mənbələrdən nümunələr göstərməklə ifadə etmişəm. | | |
| 5. | Sözləri diqqətlə seçmiş, yersiz təkrara yol verməmiş, cümlələrin qısa və aydın yazılmasına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| 6. | Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərdəki başlıca fikri nümunələr əsasında dəyərləndirir. | Yazı | Dərslik, iş vərəqləri |
| Təsvir xarakterli yığcam inşada fikirlərini nümunələrlə əsaslandırır. | Yazı | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**ALI KİŞİ („Koroğlu" dastanından) –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Dastanın məzmununu plan əsasında yaradıcı nağıl edir (1.1.3).
- Dastanda bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).
- Dastanla bağlı müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).

**Köməkçi vasitələr:** "Koroğlu" dastanı", "Azərbaycan dastanları" adlı kitablar, "Koroğlu" dastanına çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Dərslikdəki sual ("Koroğlu" dastanı haqqında eşitmisinizmi? Sizcə, dastanda daha çox nədən danışılır?") əsasında mövzu ilə bağlı məlumatın yada salınması, ondan maraqoyatma vasitəsi kimi istifadə edilməsi.
2. **Oxu. Anlama.** "Alı kişi" qolundan parçanın oxunması, ilkin qavramanın aşkara çıxarılması, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Ədəbi-nəzəri anlayışlarla və məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Məzmunun nağıl edilməsi üzrə işin təşkili.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə “Alı kişi” qolundan parçanın oxusu, məzmununun öyrənilməsi həyata keçiriləcəkdir. İlkin oxudan sonra mətnin necə qavranıldığının aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili, öyrənilənlərin yoxlanması, mətnlə bağlı ədəbi-nəzəri anlayışların və məzmunun mənimsənilməsinin möhkəmləndirilməsi, eləcə də nitq və təfəkkürün inkişaf etdirilməsi istiqamətində işlər reallaşdırılacaqdır.

**Müəllim üçün əlavə məlumat.** *Dastandan parçanın oxusunu, məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək mümkündür. Burada iki variant təklif edilmişdir. Birinci variant kimi dərslikdəki təsvir nəzərdə tutulmuşdur. İkinci variant fasilələrlə oxunun tətbiqini əks etdirir.*
Birinci variantın səciyyəvi mərhələlərinə nəzər salaq.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə “Yadasalma” başlığı altında verilmiş sualları oxumaq təklif edilir: “Koroğlu” dastanı haqqında eşitmisinizmi? Sizcə, dastanda daha çox nədən danışılır?”

## BİRİNCİ VARİANT

Sual şagirdlər üçün gözlənilməz deyil. Onlar bu qəhrəmanlıq dastanı, xüsusən baş qəhrəman barədə bildikləri məlmatları həvəslə bölüşürlər. Dastanın xalq yaradıcılığının böyük abidəsi olduğunu qeyd edən müəllim Koroğlu obrazının sevə-sevə yaradıldığını, ədalətsizliyə məruz qalmış yoxsul insanların arxası, dayağı kimi tərənnüm edildiyini diqqətə çatdırır. Şagirdləri sualın üzərində düşünməyə dəvət edir:

– Koroğlu və onunla bağlı əhvalatların xalqın yaddaşında uzun illər yaşamasının səbəbini necə izah edərsiniz?

Məqsəd şagirdlərin əsaslandırılmış cavab verməsi yox, sualın onları düşündürməsi, araşdırmaq ehtiyacının yaradılmasıdır.

Müəllim qeyd edir ki, dastandan öyrəniləcək “Alı kişi” qolu sualın cavabının aydınlaşdırılmasına yardım edəcəkdir. Şagirdlərin diqqəti dərslikdəki “Oxu. Anlama” başlıqlı tapşırığa cəlb edilir. Artıq onlara məlumdur ki, mətnin müstəqil oxusundan sonra dərslikdə təklif edilmiş sualların əsasında təəssüratlarını bölüşəcəklər:

– Əsərdə sizi heyrətləndirən epizod, təsvir oldumu?
– Alı kişi haqqında ilkin təəssüratınız necə oldu?
– Rövşən obrazı sizdə hansı təəssürat yaratdı?
– Həsən xanın davranışı, əməlləri sizə necə təsir etdi?

Suallar bütövlükdə əsərin ideya məzmunu və obrazları haqqında fikir söyləməyə istiqamətləndirir. Cavabların təhlili sonrakı mərhələdə hansı məzmunda işin aparılmasının əhəmiyyətli olması barədə aydın təsəvvür yaradır. Məsələn, dərinləşdirilmiş oxu məqsədilə dərslikdə təklif edilmiş sualların bəzilərinin üzərində dayanmamaq olar, yaxud nəzərdə tutulmamış sual əlavə etmək lazım gələr. Suallar dərslikdə aşağıdakı məzmunda əks etdirilmişdir:

– Alı kişini dünyagörmüş, uzaqgörən insan saymaq olarmı? Əsərdən nümunələr göstərin.
– Onun dərya ayğırlarına xüsusi maraq göstərməsinə səbəb nə idi?
– Dərya ayğırlarından törəyən dayları Hasan paşaya təklif etməkdə qoca ilxıçının məqsədi nə idi? Onun xanla ötkəm danışmasının səbəbini necə izah edərsiniz?
– Həsən xan və Hasan paşa nə üçün Alı kişinin təklifinə qarşı çıxdılar?
– Rövşən atasının ağır cəzalandırılmasını necə qarşıladı? Əsərdən nümunələr göstərin.
– Dayların misilsiz ata çevrilməsi nəyin sayəsində mümkün oldu? Fikrinizi əsaslandırın.

Suallar obrazlar haqqında ilkin oxuda yaranmış təsəvvürün zənginləşməsinə əhəmiyyətli təsir edir. Şagirdlərin Alı kişinin öz peşəsinə vicdanlı münasibəti, xidmət etdiyi xana sədaqəti barədəki məlumatları daha da dərinləşir. Eləcə də Həsən xan, Hasan paşanın sadə insanlarla davranışlarındakı qüsurlarla bağlı ilkin təsəvvürlər xeyli zənginləşir.

Sualların üzərində düşünmək, əhatəli cavab hazırlamaq, nəhayət, nəticənin yoxlanılması üzrə işin necə təşkil edilməsi müəllimin məqsədindən və sinfin səviyyəsindən asılıdır. Məsələn, aşağıdakı variantlardan (digər variantlar istisna edilmir) birini tətbiq etmək olar:

– suallara fərdi olaraq cavabların hazırlanması və nəticənin müsahibə yolu ilə müzakirəsi;

– suallara fərdi olaraq cavabların hazırlanması, cütlük şəklində və kiçik qruplarda işin davam etdirilməsi, nəticənin təqdimatlar əsasında müzakirəsi;

– suallara kiçik qruplarda cavabların hazırlanması, nəticənin təqdimatlar əsasında müzakirəsi və s.

Dərslikdə təklif olunmuş növbəti test tapşırığı əsərin məzmununun necə öyrənilməsinin yoxlanılmasına imkan yaradır. Bunun üçün cavab variantlarının hamısının nəzərdən keçirilməsi, müzakirə olunması faydalıdır.

**III. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.

A) Alı kişi dayların misilsiz at olacaqlarına şübhə ilə baxırdı.

B) Həsən xanın Alı kişini ağır cəzalandırmasına səbəb onun dikbaşlığı oldu.

C) Hasan paşa Həsən xandan rəhmli idi.

D) Alı kişinin niyyəti oğlunu xalqa dayaq olan bir igid kimi yetişdirmək idi.

E) Ata səbirsizlik edərək böyük xətaya yol verən Rövşəni cəzalandırdı.

2. Fikirlərdən biri səhvdir.

A) Alı kişi xana həmişə sədaqətlə xidmət etmişdi.

B) O, dayları xan üçün bəsləyib böyüdürdü.

C) Alı kişi intiqam barədə düşünmürdü.

D) Həsən xan Hasan paşaya qonaqpərvər olduğunu göstərmək istəyirdi .

E) Atasını sevən, ona ehtiram göstərən Rövşən həm də əməksevər bir gənc idi.

Sonrakı tapşırıqlarda ədəbi-nəzəri anlayış və əsərin məzmunu ilə bağlı mənimsənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi məqsədi izlənilmişdir. Şagirdlər mətndə işlənmiş bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi ilə kifayətlənmir, hər bir növün özünəməxsusluğunu da izah edirlər.

Təqdimatlar üçün təklif edilmiş mövzular da fərqli məqsədlər üçün müəyyənləşdirilmişdir. Birinci mövzu (Alı kişinin cəzalandırılmasının səbəbini nədə görürəm) müxtəlif təbəqəyə mənsub insanların arasındakı ziddiyyətlərin başa düşülməsi və izahını özündə əks etdirir. Bu tapşırığa qədər aparılmış işlər onun uğurla icra edilməsinə imkan verir.

İkinci mövzu (Dastanda əfsanə və nağılı xatırladan nələri müşahidə etdim) janrların özünəməxsusluğu üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqinə şərait yaradır. Nağıl və əfsanədə tez-tez rast gəlinən cəhətlərə (möcüzəli əhvalatların baş verməsi, hadisələrin sürətlə inkişafı və çevikliyi, dildə aydınlıq və s.) dastanda da sıx-sıx yer verilir. Bu istiqamətdə müşahidənin təşkili şagirdlərin müstəqil nəticə çıxarmalarına səbəb olur.

Dərslikdə təklif edilən sonrakı tapşırıq (Nitqinizi və düşüncənizi zənginləşdirin) mətndən seçilmiş bitkin parçanın *yaradıcı* nağıl edilməsi ilə bağlıdır. Nağıletmənin digər iki forması (yığcam, geniş) ilə tanış olan şagirdlər ilk dəfə yeni forma ilə bağlı tapşırıq alırlar. Onun başlıca xüsusiyyətləri qısaca qeyd edilir:

– mətnin məzmununa müvafiq əlavələrin edilməsi;

– əlavələrdə mətnin dil-ifadə xüsusiyyətlərinə uyğunluğun gözlənilməsi;

– əlavələrin mətnin məzmunundakı ardıcıllığa uyğun olması.

Şagirdlərin diqqəti dərslikdə verilmiş nümunəyə cəlb edilir. Dastandan seçilmiş parça ilə onun nağıletmə variantının arasındakı fərqi müşahidə edən şagirdlərdə aydın təsəvvür yaranmış olur.

| Yaradıcı nağıletməyə aid nümunə | |
|---|---|
| **Dastandan seçilmiş parça** | **Yaradıcı nağıletmə variantı** |
| Alı kişi neçə illər idi ki, Həsən xana ilxı otarırdı. Ömrünü, gününü onun qapısında çürüdüb, saçını-saqqalını ilxıçılıqda ağartmışdı. Hər gün səhər dan yeri ağaranda Alı kişi ilxını çölə aparır, bütün günü otarır, gecədən bir az keçəndən sonra xalxala gətirirdi. | O ətrafda var-dövləti Həsən xanınkına çatan ikinci adam yox idi. Onun ilxıları, qoyun sürüləri geniş otlaqlara sığmırdı. Uzaq mahallardan, qonşu ölkələrdən gələn alverşilər sürü-sürü qoyun, onlarla, yüzlərlə at, mal-qara alıb aparırdılar. Amma onun ilxısı, sürüləri azalmırdı ki, azalmırdı... Həsən xanın iki yüzdən artıq nökəri, ilxıçısı, çobanı vardı. Bunlardan biri ilxıçı Alı kişi idi. O, gəncliyindən xana qulluq edirdi. İşinin ustası olması, sözübütövlüyü ilə hamının hörmətini qazanmışdı. Saçını-saqqalını ilxıçılıqda ağardan Alı kişi hər gün sübh tezdən ilxını çölə aparır, bütün günü otarır, gecədən bir az keçmiş xalxala gətirirdi. |

Şagirdlər dərslikdə verilmiş material əsasında ilk dəfə *mübaliğə* anlayışı haqqında məlumatla tanış olurlar. Məlumatın mənimsənilməsini fərqli formalarda təşkil etmək olar. Müəllim şagirdlərə tanış olan əsərlərdən nümunələr səsləndirməklə anlayışın mahiyyətini açıqlayır. Yaxud dərslikdəki materialın müstəqil oxusundan sonra yığcam müsahibə aparılır, şagirdlərə nümunələr söyləmələri təklif edilir.

### V. XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ

Bədii əsərdə ifadə vasitəsi kimi işlənən *mübaliğəyə* bir sıra hallarda *şişirtmə* də deyilir. Əsərdə təsvir olunan əşya, hadisə bəzən olduğundan qat-qat artıq şəkildə təqdim olunur. Məqsəd fikrin təsir gücünü artırmaq, oxucuda emosionallıq və maraq oyatmaqdır. Oxuduğunuz əsərdə Qıratda qanadların yaranmasından danışılır. Dastan yaradıcıları bununla Qıratın əvəzsiz bir at olduğunu, qeyri-adiliyini diqqətə çatdırmaq istəmişlər.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Dastandan seçilmiş parçanı məzmununa müvafiq əlavələr etməklə yaradıcı nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastanda müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrinin hər birinin özünəməxsusluğunu şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastanla bağlı müzakirədə mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

### İKİNCİ VARİANT

Birinci dərs saatında "Alı kişi" qolundan parçanın məzmunu fasilələrlə oxunun tətbiqi ilə mənimsənilir. Dərslikdə verilmiş şəkillərə, başlığa diqqəti cəlb edən müəllimin ilk sualı belə olur:

– Sizcə, əsərdə nədən danışılır?

Məqsəd şagirdlərin oxuda diqqətli olmalarını təmin etməkdir. Cavablar dinlənildikdən sonra dastandan aşağıdakı parçanı şagirdlərdən biri ucadan oxuyur:

*Alı kişi neçə illər idi ki, Həsən xana ilxı otarırdı. Ömrünü, gününü onun qapısında çürüdüb, saçını-saqqalını ilxıçılıqda ağartmışdı. Hər gün səhər dan yeri ağaranda Alı kişi ilxını çölə aparır, bütün günü otarır, gecədən bir az keçəndən sonra xalxala gətirirdi...*

*Bir gün Alı kişi ilxını sürüb dərya kənarına aparmışdı. Atlar dərya kənarında otlayırdı. Alı kişi özü də bir tərəfdə daşa söykənib oturmuşdu. Dan yeri yenicə ağarmışdı, qoca ilxıçı bir də baxdı ki, dəryadan iki ayğır çıxdı. Atlar gəlib ilxıya qarışdılar. İki madyana yaxınlaşandan sonra yenə qayıdıb dəryaya girdilər. Tez qalxıb madyanları nişanladı. Amma bu barədə heç kəsə bir söz demədi.*

*Qoca ilxıçı madyanları gözdən qoymurdu. O qədər gözlədi ki, axırda onlar doğdu. Aylar keçdi, il dolandı, qulunlar böyüyüb day oldular.*

Müəllim şagirdlərə aşağıdakı suallara cavab verməyi təklif edir:

– Alı kişi kim idi, o nə işlə məşğul olurdu?

– Alı kişinin dərya  ayğırlarına xüsusi maraq göstərməsinə səbəb nə idi?

Mətnin ardını başqa bir şagird ucadan oxuyur:

*Günlərin bir günü Toqat paşası Hasan paşa Həsən xana qonaq gəlmişdi. Paşa söhbət arasında xana dedi:*

*– Həsən xan, eşitmişəm, sənin yaxşı cins atların var. Gərək ilxından mənə iki ayğırlıq at verəsən.*

*Həsən xan o saat Alı kişini yanına çağırıb tapşırdı:*

*– Sabah ilxını çölə aparma, paşa üçün iki ayğırlıq at tutduracağam.*

*Bu sözü deyən kimi daylar Alı kişinin yadına düşdü. O, xanın başını uca eləmək üçün səhər tezdən durdu, dayları tutub xalxalda bağladı, ilxını sürüb çölə ötürdü.*

*Paşa baxdı ki, xalxalda iki arıq day bağlanıb. Başa düşdü ki, bu dayları ona vermək istəyirlər, gülüb dedi:*

*– Həsən xan, mənə demişdilər ki, sənin yaxşı cins atların var. Bunlar nədir? İş belə əlengə-üləngəyə qalsa, bunlardan mənim özümdə də çoxdur.*

*Paşanın sözü Həsən xana ox kimi dəydi. Üzünü Alı kişiyə tutub dedi:*

*– Axmaq qoca, mən sənə deməmişdimmi, at tutacağam, ilxını saxla, niyə saxlamamısan?*

*– Xan sağ olsun, mən qoca ilxıçıyam. Sən bu dayların beləliyinə baxma. Əgər başının uca olmağını istəyirsənsə, paşaya bunları ver.*

*Alı kişinin yekə-yekə danışmağından Həsən xan daha da qəzəbləndi:*

*– Mənim ilxımda tərifi aləmə yayılmış cins atlar var. Bu əlengələri qonağa göstərib məni xəcalət eləməkdə məqsədin nədir?*

*– Xan sağ olsun, mənim məqsədim paşanın yanında sənin başını uca eləməkdir. Bütün dünyanı gəzsən, yenə də bunlar kimi at tapa bilməzsən.*

*Həsən xan daha da qəzəblənib dedi:*

*– Bilmirəm, bir saata qədər yerdə də olsa, göydə də olsa, gərək paşaya layiq iki dənə ayğırlıq at seçəsən. Bu saat get, seç, gətir.*

Parçanın oxusu başa çatdıqdan sonra şagirdlər müəllimin aşağıdakı suallarına cavab verirlər:

– Toqat paşası Həsən xandan nə xahiş etdi?

– Həsən xanın Alı kişiyə tapşırığı nə oldu?

– Alı kişinin paşa üçün dayları məsləhət görməsini ağalar necə qarşıladılar?

Mətnin ardını üçüncü şagird ucadan oxuyur:

*Alı kişi dedi:*

*– Xan, onda izin ver paşa üçün at seçməyə başqa adam getsin. İlxıda bu daylardan yaxşı at yoxdur.*

*Bu söz xanı cin atına mindirdi. Cəllad çağırıb əmr elədi ki, Alı kişinin boynunu vursun. Paşa da qəzəblənmişdi. Odur ki dedi:*

*– Həsən xan, mən görürəm ki, sənin ilxıçın bu daylara çox böyük qiymət verir. Onda sən belə elə, bu dayların hər birini onun bir gözünə qiymət elə.*

*Paşanın sözü Həsən xanın xoşuna gəldi. Əmr elədi, cəllad Alı kişinin gözlərini çıxartsın.*

*Alı kişi nə dindi, nə də səsini çıxartdı. Heç bir dəfə ufuldamadı da. Elə ki cəllad işini qurtardı, Alı kişi dedi:*

*– Həsən xan, insan üçün dünyada hər nazü-nemətdən şirin şey gözüdür. Sən məni ondan binəsib etdin. Mən sənin qapında can çürütdüm, ilan kimi qabıq qoydum, saç-saqqal ağartdım, amma  sən bunların heç birini bilmədin, qədr-qiymət vermədin...  Ancaq eybi yoxdur. İndi ki mənim gözlərimi bu daylara qiymət elədin, heç olmasa, sözünün ağası ol, bu dayları mənə ver.*

*Həsən xan dayların hərəsini onun bir qoluna bağlatdırıb qapısından qovdu.*

*Kor Alı kişini öz evinə gətirdilər.*

*Kəndə xəbər yayıldı. Camaat onun başına yığıldı. Xəbər Alı kişinin oğlu Rövşənə də çatdı.*

*Rövşən Rüstəm kimi igid, cavan bir oğlan idi. O, atasını bu halda görcək soruşdu:*

*– Ata, sənə nə olub? De görüm, səni kim bu hala salıb?*

*Alı kişi əhvalatı oğluna danışdı. Rövşən qızmış pələngə döndü. Ayağa qalxıb dedi:*

*– Oğlun sənin qisasını yerdə qoymaz, ata! İndi Həsən xan mənim qabağımda dayansın, görüm necə dayanır.*

*Kəndin cavanları da qalxdılar. Alı kişi işi belə görəndə oğlunu çağırıb yanında əyləşdirdi. Əlini onun çiyninə qoyub dedi:*

*– Hələ qisasın vaxtı deyil, bala! Vaxtında mən özüm deyəcəyəm. İndi diqqətlə qulaq as! Mənim gözlərim bu dayların üstündə çıxarılıb, bu dayların üstündə də gərək mənim qisasım alına. Bu dayları sənə tapşırıram. Bunlar elə-belə atlardan deyil. Bunlar dərya atından əmələ gəliblər. İndi sən gərək böyük bir tövlə tikəsən. Amma bu tövləyə gərək heç bir yerdən işıq düşməyə. Qırx gün tamam atlar bu tövlədə qalacaq, bayır-baca üzü görməyəcəkdir. Bir insan övladının gözü də bu qırx günün ərzində gərək bu atlara baxmaya...*

Parçanın oxusu tamamlandıqdan sonra şagirdlər müəllimin suallarına cavab verirlər:

– Alı kişi nə üçün paşaya at seçməyə razı olmadı?

– Həsən xan ona nə cür cəza vermək istədi?

– Hasan paşa Alı kişi ilə bağlı Həsən xana nə məsləhət gördü?

– Haqsız yerə cəzalandırılan Alı kişinin Həsən xandan istəyi nə oldu?

– Alı kişinin oğlu Rövşən və kənd adamları Alı kişinin düşdüyü vəziyyətə nə cür münasibət göstərdilər?

– İntiqama hazırlaşan Rövşənə Alı kişinin məsləhəti nə oldu?

Sonuncu parçanı digər şagird uçadan oxuyur:

*Rövşən dedi:*

*– Yaxşı, ata, belə olanda bəs mən onları necə yemləyəcəyəm? Necə suvaracağam?*

*Alı kişi dedi:*

*– Sən tövlədə hər day üçün qırx gözlü bir axur qayıracaqsan. Atların qırx günlük arpasını, samanını həmin bu axurlara dolduracaqsan. Kəndin başındakı Zümrüd bulaqdan tövlənin içərisinə bir arx açacaqsan, Hər axurun yanında da balaca bir çarhovuz tikəcəksən. Atlar qırx gün burada yeyib-içib bəslənəcəklər. İndi hələlik tövlə hazır olanacan dayları çək, bir yerdə bağla.*

*Rövşən qabaqca atasını rahladı, sonra dayların yerini sahmanlayıb tövləni hazırlamağa başladı.*

*Elə ki tövlə hazır oldu, Alı kişi gəlib əli ilə çarhovuzu, arxı, axurları yoxlayıb dedi:*

*– Yaxşıdır. İndi sən axurları doldur, suyu da hovuzlara bağla. Ancaq yenə də sənə deyirəm, gərək tövləyə nə işıq düşə, nə də atlara bəni-insan gözü baxa.*

*Bu işdən düz otuz səkkiz gün keçdi.*

*Atalar deyiblər ki, insan səbirsiz olar. Rövşən otuz səkkiz günü başa vurdu. Otuz doqquzuncu gün nə qədər elədi, özünü saxlaya bilmədi ki, bilmədi. Axır Rövşən gəlib tövlənin üstünə çıxdı, balaca bir deşik açıb içəriyə baxdı.*

*Rövşən əvvəl gözlərinə inana bilmədi. Sağ axurdakı atın çiyinlərində iki qanad var idi. Özü də qanadlar alov kimi yanır, qızıl kimi parıldayırdı. Rövşən tez sol axurdakı ata baxdı. Gördü yox, bu atın qanadı yoxdur. Gözlərini dolandırıb yenə də sağ tərəfdəki ata baxdı. Gördü qanad yavaş-yavaş sönür. Rövşən tutduğu işdən peşman oldu. Tez deşiyi örtmək istədi, ancaq iş işdən keçmişdi. Qanadlar yavaş-yavaş əriyib yox oldu. Rövşənin bir əli oldu, bir başı...*

*Bəli, bir gün də gəlib-keçdi. Qırxıncı gün Alı kişi Rövşəni çağırıb dedi:*

*– Bala, gəl məni atların yanına apar, görüm nə haldadırlar.*

*Rövşən atasının əlindən tutub tövləyə apardı. Alı kişi sağ axurdakı ata yaxınlaşdı. Əlini atın belinə çəkdi. Sonra Rövşənə tərəf dönüb dedi:*

*– Oğul, bu ata insan gözü baxıb. Bu atın gərək qanadı olaydı. Düzünü de görüm, bu necə olan işdir?*

*Rövşən bilmədi nə desin, soruşdu:*

*– Ata, sən nədən deyirsən?*

*Alı kişi dedi:*

*– Oğul, məndən gizlətmə, mən sənə deyirəm ki, bu ata insan gözü baxıb. Bu atın gərək qanadı olaydı. Düzünü de görüm, bu necə olan işdir?*

*Rövşən əhvalatı atasına danışdı. Alı kişi dedi:*

*– Oğul, səbirsizlik adama həmişə ziyan verər. İndi sən də səbirsizliyinin ziyanını çəkirsən. Ancaq fikir eləməyə gəlməz. Olan olub, keçən keçib. Hələ bir neçə gün də atları bayıra çıxarmaq olmaz. Qapını bağlamaq lazım deyil. Özün gündə gəlib, yemləyib, sulayarsan.*

Oxu tamamlandıqdan sonra əvvəlki qaydaya uyğun olaraq, şagirdlər müəllimin suallarına cavab verirlər:

– Atası Rövşənə daylara necə qulluq etməyi məsləhət görür?
– Səbirsizlik edib otuz doqquzuncu gün xəlvətcə atlara baxan Rövşən hansı mənzərə ilə qarşılaşır?
– Alı kişinin atlar barədə dediyi sözlərindən nə aydın olur?

Hər parçanın oxusundan sonra fasilələrdə sualların verilməsi şagirdlərin əsərdə baş verənləri diqqətlə izləmələrinə səbəb olur. Sualları fərqli məzmunda vermək, mətndə ən xırda incəlikləri də əhatə etmək olar.

Oxunun bu şəkildə təşkilindən sonra dərslikdə verilmiş tapşıqların (onların yerinə yetirilməsindən birinci variant dərsdə danışıldı) yerinə yetirilməsi həyata keçirilir.

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ALI KİŞİ ("Koroğlu" dastanından) –**<br><br>**3 saat**<br><br>**İkinci saat:**<br><br>**OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Dastanda mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir (1.1.1).<br>• Dastanda təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).<br><br>**Köməkçi vasitələr:** "Koroğlu" dastanı", "Azərbaycan dastanları" adlı kitablar, "Koroğlu" dastanına çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** "Alı kişi" qolunun ardının oxunması, ilkin qavramanın müəyyənləşdirilməsi, məzmunun öyrənilməsinin dərinləşdirilməsinə xidmət edən sualların üzərində işin təşkili.<br>2. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mətnin məzmununa aid sualların və cavablarının hazırlanması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi.<br>3. **Müzakirə.** Problem xarakterli sual üzrə müzakirənin aparılması, mənası aydınlaşdırılmış sözlərdən istifadə.<br>4. **Xatırlatma. Dərinləşdirmə. "**Dastan" anlayışının öyrənilməsi üzrə işin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İkinci dərs "Alı kişi" qolunun ardının öyrənilməsinə həsr edilir. İlkin oxudan sonra məzmunun qavranılması səviyyəsi müəyyənləşdirilir, şagirdlərə təəssüratlarını bölüşmək imkanı yaradılır. Dərinləşdirilmiş oxu məqsədilə mətnə müraciət olunmasını zəruri edən sualların cavabları dinlənilir və münasibət bildirilir. Məzmunun daha dərindən mənimsənilməsinin, ona müstəqil yanaşmanın təmin edilməsi üçün suallar və onlara cavablarının hazırlanması üzrə işin təşkilinə vaxt ayrılır. Mənası yeni aydınlaşdırımış sözlərdən də istifadə etməklə problem xarakterli sual üzrə müzakirə aparılır.

"Dastan" anlayışının mahiyyəti ilə bağlı məlumatın öyrənilməsi həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *İlkin oxunun yaratdığı təəssüratın müəyyənləşdirilməsi məqsədilə dərslikdə təklif edilmiş suallar obrazlara münasibətin aydınlaşdırılmasına əlverişli imkan yaradır. Bu, ədəbi qəhrəmanların dəyərləndirilməsi üçün sonrakı yanaşmanın səmərəli təşkilinə səbəb olur.*

Təəssüratın müəyyənləşdirilməsi məqsədilə təklif edilmiş suallar, bütövlükdə mətndəki incəliklərə diqqət yetirilməsini tələb edir:

– Oxuduğunuz parçada daha çox nəyə təəssüfləndiniz?
– Alı kişi haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?
– Rövşənlə bağlı təsəvvürünüzü zənginləşdirən nə oldu?
– Dastanla bağlı dərslikdəki şəkillər təsəvvürünüzə uyğundurmu?

Sualların cavablarında Alı kişinin faciəsinin, dastana çəkilmiş illüstrasiyada qabarıq əks olunanların əhatə olunmasına diqqət yetirilir.

Dərinləşdirilmiş oxu məqsədilə mətnə yenidən müraciət olunmasını tələb edən suallar daha əhatəli cavabların hazırlanması üçün nəzərdə tutulmuşdur:

– Alı kişinin atlarla ciddi maraqlanmasının səbəbini necə izah edərsiniz?
– Atlar hansı sınaqlardan çıxarıldı?
– Alı kişinin Qırata üstünlük verməsinə səbəb nə idi?
– Misri qılıncın sirri nədə idi?
– Həsən xan Alı kişi ilə ədalətsiz rəftar etdiyini anlamışdımı?
– Alı kişinin yurd yeri kimi Çənlibeli seçməsinə səbəb nə idi?
– Qoşabulağın möcüzəsi nədə idi?
– Alı kişinin oğluna vəsiyyətində diqqətinizi daha çox çəkən nə oldu?

Sualların üzərində şagirdlərin fərdi olaraq düşünməsi və cavabları müstəqil hazırlamaları məqsədəuyğundur. Nəticənin müsahibə ilə yoxlanması vaxta qənaət baxımından əlverişlidir.

Dərslikdəki "Möhkəmləndirmə. Zənginləşdirmə" başlıqlı tapşırıq mətnə müstəqil yanaşmağı, bədii təsvir və ifadə vasitələri ilə bağlı işi özündə əks etdirir:

**II. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Oxuduğunuz parçanın məzmununa aid iki sual və onlara cavab hazırlayın.
2. Dastanda işlənmiş bədii təsvir və ifadə vasitələrini yazın. Onların növlərini müəyyənləşdirin.
3. İşinizin nəticəsini siniflə bölüşün.

Fərdi olaraq icra edilən tapşırığın nəticələrinin müzakirəsini təşkil etmək faydalıdır.

Dərslikdə müzakirə üçün təklif edilmiş sual geniş diskussiyaya imkan verir, dastan yaradıcılarının niyyəti barədə (Koroğlu adi bir intiqamçı yox, xalq qəhrəmanıdır) şagirdlərdə müəyyən təsəvvür yaradır. Müzakirədə mənası yeni öyrənilmiş sözlərdən, mətndə işlənmiş bədii təsvir və ifadə vasitələrindən istifadə tələb kimi gözlənilir.

**III. MÜZAKİRƏ**

1. "Atasının intiqamını alan Koroğlunun mübarizəni dayandırmamasına səbəb nədir?" mövzusunda müzakirəyə hazırlaşın.
2. Mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin.
3. Çıxışınızda əsaslandırılmış dəlillər səsləndirməyə çalışın.

Təhsil proqramında altıncı sinifdə *dastan* və *mübaliğə* anlayışları barədə məlumatın verilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə dərslikdə verilmiş məlumatın mənimsənilməsinə vaxt ayrılır. Mətnin müstəqil oxusundan sonra aparılan müsahibədə mənimsəmə dərinləşdirilir, şagirdlərə tanış əsərlərdən mübaliğəyə aid misallar xatırladılır.

**IV. XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ**

*Dastan* şifahi xalq ədəbiyyatının geniş yayılmış janrlarından biridir. Həcmi böyük olan dastanları aşıqlar yaradır. Bu nümunələrdə həm nəsr, həm də şeirlər olur. Nəsr və şeir hissələri məzmunca yaxın olur, bir-birini tamamlayır, ardıcıl olaraq əvəzlənir.

Şifahi xalq ədəbiyyatının digər janrlarında olduğu kimi, dastanlarda da bədii təsvir və ifadə vasitələrindən geniş istifadə edilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Dastanda mənasını aydınlaşdırdığı sözlərdən müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastanda müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrinin özünəməxsusluğunu şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**ALI KİŞİ (“Koroğlu” dastanından) –**<br><br>**3 saat**<br><br>**Üçüncü saat:**<br><br>**ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Bədii nümunələrdəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Təsvir və ifadə vasitələrinin dastanda bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Dastanın başlıca mövzusunu və ideyasını şərh edir (1.2.4).<br><br>**Köməkçi vasitələr:** “Koroğlu” dastanı”, “Azərbaycan dastanları” adlı kitablar, “Koroğlu” dastanına çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Dastanın (“Alı kişi” qolunun) mövzu, ideya, obrazlarının təhlili üzrə araşdırmanın aparılması, bədiiliyinin artmasına təsir edən vasitələrin dəyərləndirilməsi.<br>**2. Müzakirə.** “Koroğlu” dastanı ilə bağlı məlumatın zənginləşdirilməsi.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** “Alı kişi” qoluna ayrılmış üçüncü dərsdə onun mövzusu, ideyası, təsvir və ifadə vasitələrinin əsərin bədii keyfiyyətinin artmasına təsiri araşdırılır, dastanla bağlı əlavə məlumatın mənimsənilməsi həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, “Alı kişi” qolunun məzmunu üzrə mənimsənilmiş biliklər onun araşdırılması və təhlilinə imkan yaradır. Bu isə dastanın dəyərləndirilməsinə, onun haqqında əsaslandırılmış fikir bildirilməsinə səbəb olur. Şagirdlərin diqqəti araşdırılması vacib olan məsələlərə cəlb edilir:
– əsərin əsas mövzusu;
– əsərdə ifadə olunmuş başlıca ideya;
– qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluq;
– bədii təsvir və ifadə vasitələrinin rolu.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə “Araşdırma. Təhlil” başlıqlı tapşırığa əlavə tələblərin daxil edilməsi məqsədəuyğundur. Məsələn, dastan yaradıcılarının qəhrəmanlara münasibətinin aydınlaşdırılmasını tələb edən sual bu qəbildəndir.*

Dərslikdəki “Araşdırma. Təhlil” başlıqlı tapşırıq üzrə işin fərqli məzmunda təşkili mümkündür. Tapşırığın hər bəndini bir kiçik qrupa həvalə etmək və əldə olunmuş nəticənin təqdimatlar əsasında müzakirəsini təşkil etmək olar. Kiçik qruplarda iş formasının seçilməsi vaxta qənaət baxımından səmərəlidir. Əməkdaşlıq tələb edən digər iş formasının – cütlük şəklində işin tətbiqi maraqlı olsa da, daha çox vaxt tələb edir. Bu məzmunda tapşırıqların icrası ilə bağlı təcrübə qazanmış, hazırlıq səviyyəsi yüksək olan siniflərdə isə fərdi iş formasını tətbiq etmək daha faydalıdır. İşin hansı formada tətbiqindən asılı olmayaraq, tapşırığın icrası üçün təklif edilmiş tövsiyələr diqqət mərkəzində saxlanılmalıdır. Tapşırığın birinci bəndi və onun yerinə yetirilməsinə istiqamət verən tövsiyələr belədir:

- Aşağıdakı tövsiyələrə əməl etməklə dastanın mövzusunu müəyyənləşdirməyə çalışın:

– dastanda daha çox nədən danışıldığını yada salın;

– obrazların həyatı, fəaliyyəti üçün önəmli olanları nəzərə alın;

– fikrinizi təsdiq edən nümunələr seçib üzərində düşünün.

Bədii əsərin mövzusunun müəyyənləşdirilməsi ilə bağlı şagirdlər müəyyən təcrübə qazanmışlar. Lakin çoxsüjetli əsərlərdə əsas mövzunu fərqləndirmək elə də asan deyildir. Bunun üçün əsərdə daha çox nədən danışıldığını diqqət mərkəzində saxlamaqla yanaşı, qəhrəmanların hansı ideyanın daşıyıcısı olduqlarını, əsərin bütövlükdə məzmununu da nəzərə almaq vacibdir. Bütün bunlara diqqət edildikdə

aydınlaşır ki, dastan ("Alı kişi" qolu) adi məişət məsələlərinin təsviri ilə başlayır, hadisələrin inkişafı fərqli istiqamət alır və qəhrəmanlıq, igidlik nümunəsi ön plana keçir.

Tapşırığın ikinci bəndi Alı kişi obrazının təhlili ilə bağlıdır:

- Alı kişi obrazını səciyyələndirin. Aşağıdakı tövsiyələri nəzərə alın:

– insanlarla ünsiyyəti, nitqi – danışığı;

– fərqli vəziyyətlərdə davranışı;

– həyatının müxtəlif dönəmlərində əməlləri.

Tövsiyələr qəhrəmanı əhatəli təhlil etməyə imkan yaradır. Oxucular bu obrazın müxtəlif vəziyyətlərdə davranışı, əməlləri, fərqli insanlarla ünsiyyəti barədə təsvirlərdən əhatəli təsəvvür qazanmış olurlar. Şagirdlərin mətnə yenidən müraciət etmələrinə, fikirlərini təsdiq edən nümunələr seçmələrinə istiqamət verilir.

Tapşırıqdakı növbəti bənd şagirdləri daha diqqətli olmağa, müstəqil fikir söyləməyə, dastanda deyilənlərlə məhdudlaşmamağa sövq edir:

- Həsən xan və Hasan paşa obrazlarını müqayisəli səciyyələndirin. Bunun üçün aşağıdakı cəhətlərə diqqət edin:

– yoxsul insanlara – xidmətçilərə münasibətləri;

– davranış və əməlləri;

– hiss və düşüncələri;

– sərvətə, var-dövlətə münasibətləri.

Göründüyü kimi, tapşırıq və onun yerinə yetirilməsi üçün təklif edilmiş tövsiyələr şagirdlərdən yaradıcı yanaşma və ümumiləşdirmə tələb edir. Məsələn, dastanda bu iki obrazın hiss və düşüncələri barədə birbaşa geniş təsvir yoxdur. Deməli, şagirdlər onların nitq və davranışlarına əsaslanmaqla bu barədə fikir yürütməlidirlər. Yaxud onların sərvət, var-dövlət hərisi olduqları ən kiçik detallar və əsərin mənası dərk olunmadan izah edilə bilməz.

Tapşırığın sonrakı bəndinin tələbi şagirdlər üçün yeni deyildir; onlar bu məzmunda olan tapşırıqları yerinə yetirmişlər.

- Dastanda işlənmiş təsvir və ifadə vasitələrindən ən maraqlı hesab etdiklərinizin bədiiliyin artmasına verdiyi töhfəni izah edin.

| Cümlələr bədii təsvir və ifadə vasitələri ilə | Cümlələrin bədii təsvir və ifadə vasitələri olmadan işlənməsi | Fərqin izahı |
|---|---|---|

Tapşırığın növbəti bəndi əsərdəki başlıca fikrin – ideyanın şərh edilməsi ilə bağlıdır. Dərslikdəki cədvəldə ideya ilə bağlı verilmiş fərqli variantlar şagirdləri düşünməyə, axtarışlar aparmağa yönləndirir. Şagirdlərin müxtəlif variantların üzərində dayanmaları mümkündür. Başlıcası odur ki, onlar öz mövqelərini əsaslandıra bilsinlər. Onların yeni, fərqli variant təklif etmələrinə təbii baxmaq və digərlərinin buna münasibət bildirmələrinə vaxt ayırmaq məqsədəuyğundur.

- Dastanın yaradıcılarını daha çox düşündürən və oxuculara çatdırmaq istədikləri əsas fikri – ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Əsərin ideyası üçün fikirlərdən hansı daha uğurludur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Müdriklik və silah birləşəndə qarşısını heç bir qüvvə ala bilməz. | | |
| 2 | Yaxşılığın əvəzində pislik edənlər cəzalarını almalıdırlar. | | |
| 3 | Ədalətsizlik və haqsızlıqla barışmaq olmaz. | | |

Dərslikdə "Müzakirə" başlığı ilə təklif edilmiş tapşırıq "Koroğlu" dastanı barədə şagirdlərin təsəvvürünün zənginləşməsinə, incəsənətin digər növləri ilə ədəbiyyatın əlaqələrinin başa düşülməsinə imkan yaradır. Tapşırıq şagirdlərin müxtəlif mənbələrə müraciət etməklə araşdırma aparmalarını təmin edir.

**II. MÜZAKİRƏ**

1. "Koroğlu" dastanı incəsənətin digər növlərində" mövzusunda müzakirəyə hazırlaşın.
2. Digər fənlərdən, internetin imkanlarından bəhrələnin.
3. Fikirlərinizin təsdiqi üçün əsaslı dəlillər hazırlayın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

İncəsənətin digər növlərində (rəssamlıq, heykəltəraşlıq, opera və s.) dastana necə, hansı baxımdan müraciət edildiyini müəllimin sualları əsasında izah etmək şagirdlər üçün çətin olmur. Bu işə həvəslə qoşulan şagidlərin dünyagörüşü zənginləşir, qəhrəmanlıq dastanına maraqları artır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Alı kişi, Həsən xan, Hasan paşa, Rövşən obrazlarının davranış və əməllərindəki özünəməxsusluğu (nəzakətli, kobud, amansız) nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastanda işlənmiş təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına təsirini nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Dastanın mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

# 2.
# UŞAQ DÜŞÜNCƏSİ, UŞAQ TALEYİ

**Mövzu:**

**Viktor Hüqo.**
**KOZETTA –**

**3 saat**

**Birinci saat:**
**OXU. ANLAMA**

**Təlim məqsədləri**
- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).
- Müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir (1.1.5).

**Köməkçi vasitələr:** V.Hüqonun əsərlərindən nümunələr. "Kozetta" mətni ilə bağlı çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Yadasalma.** Bu başlıq altında verilmiş sualdan maraqoyatma vasitəsi istifadə olunması.
2. **Oxu. Anlama.** "Kozetta" mətnindən parçanın ilkin oxusunun və məzmununun qavranılma səviyyəsinin müəyyənləşdirilməsi. Məzmunun əhatəli öyrənilməsini təmin edən sualların əsasında dərinləşdirilmiş oxunun reallaşdırılması.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Ədəbi-nəzəri anlayışlarla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi.
5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Mənası yeni öyrənilmiş sözlərdən nitqdə istifadə edilməsi üzrə iş.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə "Kozetta" mətnindən bir parçanın məzmununun öyrənilməsi həyata keçiriləcəkdir. İlkin oxudan sonra mətnin necə qavranıldığının aşkara çıxarılması, dərinləşdirilmiş oxunun təşkili reallaşdırılır. Mənimsəmə səviyyəsi test tapşırıqlarının tətbiqi ilə müəyyənləşdirilir. Nəzəri anlayışların möhkəmləndirilməsi, mənası yeni öyrənilmiş sözlərin nitqə daxil edilməsi məqsədilə tapşırıqlar yerinə yetirilir.

**Müəllim üçün əlavə məlumat.** *Mətnin oxusunun hansı variantda təşkil edilməsi müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Oxuya az vaxt sərf edilməsi tapşırıqların səmərəli icrasına imkan yaradır. Sinif səssiz oxu ilə bağlı qədərincə təcrübə qazanıbsa, vaxta qənaət baxımından onun tətbiqi məqsədəuyğundur.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərslikdəki "Yadasalma" başlıqlı suallara (Uşaqların çətin, əzab-əziyyətli həyatından danışılan əsərlərlə tanışsınızmı? Belə əsərlər sizdə hansı hisslər yaradıb?) əhatəli cavab verilməsi üçün istiqamətləndirici suallardan istifadə etmək məqsədəuyğundur. Şagirdlər aşağı siniflərdə oxuduqları "Yetim İbrahimin nağılı", "Kiş haqqında hekayət" və s. əsərləri, onlardakı mühüm mətləbləri xatırladırlar. Müsahibədə onların diqqəti belə bir cəhətə yönləndirilir ki, böyüklər kimi, kiçiklər də fərqli tale yaşayırlar. Onlar da haqsızlıqla, ədalətsizliklə üzləşirlər. Müsahibə aşağıdakı sual zəminində davam etdirilir:

– Uşaqların xoşbəxt, firavan həyatı üçün başlıca şərtlər nə ola bilər?

Müsahibə prosesində səsləndirilən fərqli fikirlərə (uşaqlar valideynlərin qayğısı ilə əhatə olunmalıdırlar, yaşlılar, böyüklər kiçiklərə diqqət və həssaslıqla yanaşmalıdırlar və s.) münasibət bildirilir. Müəllim qeyd edir ki, yeni öyrənəcəkləri əsər uşaq taleyi, uşaq düşüncəsi və hissləri ilə bağlı maraqlı təsvirlərlə zəngindir. Bu əsər müzakirə olunan sualın bir cavab variantı kimi də dəyərlidir.

Mətnin oxusuna ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki sualların əsasında ilkin təəssüratlarını bölüşürlər:

– Əsər sizi maraqlandırdımı? Nə üçün?
– Sizə daha çox təsir edən epizod hansı oldu? Səbəbini izah edin.
– Əsərin sizdə yaratdığı ovqatı izah edə bilərsinizmi?

Suallar şagirdlərin ilkin qavrama səviyyəsini aydınlaşdırmağa imkan verir. Cavabların müsahibə yolu ilə müzakirəsi daha əhatəli məlumatın qazanılmasına səbəb olur. Şagirdlər mətni necə qavradıqlarını, güclü və zəif cəhətlərini anlamış olurlar.

Dərslikdəki sonrakı tapşırıq çatışmazlıqların aradan qaldırılmasına əhəmiyyətli təsir edir:

– Əsərdə təsvir edilənlərin harada baş verdiyini deyə bilərsinizmi?
– Meyxana sahibləri haqqında ilkin təəssüratınız nə oldu? Nə üçün?
– Yolçu qadının övladına münasibəti necədir? Əsərdən fikrinizi təsdiq edən nümunələr göstərin.
– Yolçu qadının uşağı necə təsvir edilib? Onu təsəvvür edə bildinizmi?
– Anası Kozettanı nə üçün özü ilə aparmaq istəmirdi?
– Meyxana sahibləri yolçu qadınla necə rəftar etdilər? Onlar barədə təsəvvürünüzə yeni nə əlavə olundu?
– Kozettadan ayrılan ananın keçirdiyi hissləri izah edə bilərsinizmi? Əsərdə buna işarə varmı?
– Anasının Kozetta üçün qoyduğu pulu Tenardyelər nəyə sərf etdilər?
– Onlar Kozetta ilə necə rəftar etməyə başladılar? Bu sizdə hansı hisslər yaratdı?
– Soyuq qış gecəsində su ardınca göndərilən qızcığazın vəziyyətini necə təsəvvür etdiniz? Onun keçirdiyi qorxu və həyəcan hissini duya bildinizmi?

Suallar tələblərinə görə fərqlidir. Onların bir qismi məzmunun dərindən mənimsənilməsini, ən xırda detallara belə diqqət yetirməyi tələb edir. Digər qismi obrazların davranış və əməlləri barədə aydın təsəvvürün olmasını və dəyərləndirilməsini nəzərdə tutur. Başqa bir qismi isə psixoloji məqamlara qiymət verilməsi ilə bağlıdır.

Sualların üzərində şagirdlərin fərdi olaraq düşünmələrini təşkil etmək faydalıdır. Sonrakı addımda onların cütlük şəklində, yaxud kiçik qruplarda fikir mübadiləsi aparmalarına imkan yaratmaq məqsədəuyğundur. Vaxtdan asılı olaraq, nəticənin yoxlanılması müsahibə, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi ilə həyata keçirilə bilər. Digər dərslərin təsvirində başqa yolların tətbiqinin mümkünlüyü diqqətə çatdırılıb.

Dərslikdəki növbəti tapşırıq əsərin məzmununun necə mənimsənildiyini yoxlamaq və öyrənilənləri dərinləşdirmək baxımından faydalıdır. Test tapşırıqlarındakı cavab variantlarının hər biri şagirdləri mətnlə bağlı düşünməyə yönləndirir. Bu variantların müzakirə edilməsinə xüsusi diqqət yetirilir.

## II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri doğrudur.**

A) Tenardyelər – ər və arvad xeyirxah idilər.
B) Anası Kozetta üşün hər cür fədakarlığa hazır idi.
C) Meyxananın işləri uğurla gedirdi.
D) Kozettanı tərk edən anası sonralar onunla maraqlanmadı.
E) Kozetta anasını tez-tez xatırlayırdı.

**2. Fikirlərdən biri səhvdir.**

A) Tenardyelər ailəsi daim borc və yoxsulluq içində yaşayır.
B) Tenardyelər Kozettanın anasının əlacsız olduğunu anlayıb onu soyurlar.
C) Kozetta beş yaşından meyxananın qulluqçusu kimi işlədilir.
D) Kozetta ana nəvazişinin nə demək olduğunu bilmir.
E) Kozetta yalnız meyxananın qonaqlarına xidmət edir.

Digər tapşırıq (Möhkəmləndirmə. Zənginləşdirmə) mətndəki bədii təsvir və ifadə vasitələrinin cümlələrdə işlədilməsi ilə bağlıdır. Bu həmin vasitələrin növlərinin müəyyənləşdirilməsinə, daha dərindən qavranılmasına səbəb olur.

Mənası yeni öyrənilmiş sözlərin yaddaşda möhkəmlənməsi, nitqə daxil olması işinə elə həmin dərsdəcə başlamaq faydalıdır. Məhz buna görə də dərslikdə təklif edilmiş "Nitqinizi və düşüncənizi zənginləşdirin" tapşırığının icrasına, nəticəsinin müzakirəsinə diqqət yetirmək tövsiyə olunur.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərdə mənasını aydınlaşdırdığı sözlərdən yazıda məqamında istifadə edir. | Tapşırıq | Dərslik, iş vərəqləri |
| Əsərdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrini yazıda məqamında istifadə edir. | Tapşırıq | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Viktor Hüqo.**
**KOZETTA –**

**3 saat**

**İkinci saat:**
**OXU. ANLAMA**

**Təlim məqsədləri**
- Əsərdə mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir (1.1.1).
- Bədii mətnin məzmununu plan əsasında yaradıcı nağıl edir (1.1.3).

**Köməkçi vasitələr:** V.Hüqonun əsərlərindən nümunələr. "Kozetta" mətni ilə bağlı çəkilmiş illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Oxu. Anlama.** "Kozetta"nın ardının oxunması, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, suallar əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi.
2. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Mətnin məzmununun əhatəli mənimsənilməsinə və şifahi nitqin inkişafına yönəlik işin təşkili. Yaradıcı təfəkkürün formalaşması məqsədinə xidmət edən tapşırığın yerinə yetirilməsi.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə "Kozetta" əsərinin məzmununun öyrənilməsi, şifahi nitqin və yaradıcı təfəkkürün inkişafı istiqamətində iş aparılır.

**Müəllim üçün əlavə məlumat.** *Oxunun hansı formada təşkilindən asılı olmayaraq, ilkin təəssüratın aşkara çıxarılması məqsədilə təklif edilmiş sualların cavablarının aydınlaşdırılması faydalıdır.*

Mətnin əvvəli ilə tanış olan şagirdlərdə hadisələrin necə davam edəcəyinə maraq güclü olur. Onlar dərslikdə təklif edilmiş suallara ilkin oxudan sonra həvəslə cavab verirlər:
– Oxuduğunuz parçada hansı epizodları daha təsirli hesab edirsiniz? Nə üçün?
– Tenardyelər haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?
– Yolçu haqqında sizdə hansı təəssürat yarandı?

Birinci sual şagirdlərin əsərin məzmununa münasibətini və nə dərəcədə diqqətli olduqlarını, ikinci və üçüncü suallar isə obrazlar haqqında təəssüratlarını müəyyənləşdirməyə imkan verir. Suallar üzrə müsahibədə şagirdlər fikirlərini əsərdən nümunələr gətirməklə əsaslandırmağa yönəldilirlər.

Məzmunun daha dərindən mənimsənilməsinə istiqamətləndirən suallar üzrə iş fərqli formalarda təşkil oluna bilər. Suallar elə hazırlanmışdır ki, şagirdlərin həm məntiqi düşüncəsinin səviyyəsi, həm də hissi-psixoloji durumları haqqında aydın təsəvvür əldə etmək mümkün olsun:
– Yolçunun davranışı, hərəkətləri sizdə hansı hisslər yaratdı?

– Kozettanı danışdıran yolçunun keçirdiyi hissləri duydunuzmu? Bunu necə izah edərsiniz?
– Kozettanın “Yəqin, mənim heç vaxt anam olmamışdır” sözləri yolçuya necə təsir edir? Cavabınızı əsərdən misal gətirməklə əsaslandırın.
– Oyuncağı çeçələ barmaq böyüklüyündə qalay qılınc olan Kozettanın həyatı, uşaq ömrü barədə sizdə yaranan təəssüratı necə izah edərsiniz?
– Tenardye xanım haqqındakı təsəvvürünüzə yeni nə əlavə olundu? Fikrinizi təsdiq edən nümunələr göstərin.
– Eponina və Azelma Kozettaya necə münasibət bəsləyirlər? Bu münasibətin yaranmasına səbəb nə olub?

Şagirdlərin fərdi olaraq suallarla tanış olmalarına, cavablarla bağlı düşünmələrinə, əsərdən nümunələr seçmələrinə imkan yaradılır. Əslində, bu məzmunda aparılan iş nəticənin müsahibə ilə yoxlanılması üçün kifayətdir. Müəllim məqsədindən asılı olaraq, fərqli yol da seçə bilər: suallara fərdi olaraq cavab hazırlayan şagirdlərə əvvəl cütlük şəklində, sonra kiçik qruplarda fikir mübadiləsi aparmaq üçün vaxt ayrılır. Ardınca cavabların dinlənilməsi və müzakirəsi təşkil edilir.

Dərslikdəki növbəti tapşırıqlarda fərqli tələblərin reallaşdırılması nəzərdə tutulmuşdur. Şifahi nitqin inkişafı üçün faydalı olan birinci tapşırıq mənası yeni öyrənilmiş sözlərdən istifadəni də özündə əks etdirir:

1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın. Mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin.

a) Kozettanın taleyi haqqında nə düşünürəm.
b) Tenardyelər ailəsi haqqında düşündüklərim.

Şifahi təqdimat üçün təklif edilmiş mövzular şagirdləri əsər, obrazlar haqqında müstəqil fikirlərini, mövqelərini ifadə etməyə istiqamətləndirir. Təhlilə hazırlıq baxımından bu tələbin rolu böyükdür.

İkinci tapşırıq yaradıcı təfəkkürün, nitq bacarıqlarının inkişafı üçün əhəmiyyətlidir. Şagirdlər mətndən seçdikləri bitkin parçanı yaradıcı nağıl etməyə (bunun üçün plan tərtib edilir) hazırlaşmalı, bir-birinin təqdimatına münasibət bildirməlidirlər. Bu tapşırığın səmərəli təşkili şagirdlərin böyük marağına səbəb olur.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərdə mənasını aydınlaşdırdığı sözlərdən təqdimatında ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Məzmunla səsləşən əlavələr etməklə bitkin parçanı yaradıcı nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| Mövzu:<br><br>Viktor Hüqo.<br>KOZETTA –<br><br>3 saat<br><br>Üçüncü saat:<br>ARAŞDIRMA.<br>TƏHLİL | **Təlim məqsədləri**<br>• Əsərdəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Təsvir və ifadə vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Əsərin başlıca mövzusunu və ideyasını şərh edir (1.2.4).<br><br>**Köməkçi vasitələr:**<br>V. Hüqonun əsərlərindən nümunələr. "Kozetta" əsəri ilə bağlı çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının xarakter, davranış və əməllərinin aydınlaşdırılması üzrə araşdırmanın aparılması, bədiiliyinin artmasına təsir edən vasitələrin dəyərləndirilməsi.<br>**2. Müzakirə.** Əsərin ideya məzmunundan çıxış etməklə şagirdlərdə həyati bacarıqların yaradılması üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |
|---|---|

**Dərsin məzmunu.** Üçüncü dərs saatında əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazlarının səciyyələndirilməsi, bədiiliyin artmasını təmin edən təsvir və ifadə vasitələrinin rolunun müəyyənləşdirilməsi, həyati bacarıqların yaranması məqsədilə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, mövzunun öyrənilməsinə həsr edilmiş dərsdə mənimsənilənlər onunla bağlı əsaslı araşdırma, təhlil işlərinin aparılmasına əlverişli imkan yaradır. Bunun üçün əsərin mövzu və ideyasının şərh edilməsi, qəhrəmanların səciyyələndirilməsi, bədiiliyin artmasında rolu olan vasitələrin dəyərləndirilməsi həyata keçirilməlidir.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə təklif olunmuş "Araşdırma. Təhlil" başlıqlı tapşırığın məzmunu zənginləşdirilə bilər. Məsələn, tapşırığa obrazların müqayisəsi üzrə sualın daxil edilməsi məqsədəuyğundur.*

Dərslikdəki "Araşdırma.Təhlil" tapşırığı üzrə işi fərqli məzmunda təşkil etmək mümkündür. Tapşırığın məzmunu əməkdaşlıq, birgə iş tələb edir. Bu məqsədlə kiçik qruplarda iş formasının tətbiqi məqsədəuyğundur.

Tapşırığın hər bəndi üçün təqdim olunmuş tövsiyələr şagirdlərin fəaliyyətinə səmərəli istiqamət verir. İş prosesində onların nəzərə alınması faydalıdır. Bunu tapşırığın birinci bəndindən başlayaraq müşahidə etmək mümkündür:

• Əsərin mövzusunu müəyyənləşdirməyə çalışın. Aşağıdakı tövsiyələri nəzərə alın:
– təsvirlərdə daha çox nəyə diqqət yetirildiyini yada salın;
– obrazların danışığına – nitqinə diqqət edin, niyyətlərini müəyyənləşdirməyə çalışın;
– hadisələrin daha çox hansı obrazla əlaqələndiyini xatırlayın.

Mətndəki təsvirlərdə Kozettanın davranışı, xanımın tapşırığı ilə gördüyü işlər, keçirdiyi hiss-həyəcan, zahiri görünüşü, nitqi-danışığı geniş əhatə olunub. Digərlərinin danışığı da ya birbaşa, ya da dolayısı ilə onunla bağlı olur. Beləliklə, əsərdə uşaq həyatının, uşaq taleyinin əks olunduğu aydınlaşır.

Eləcə də ikinci tapşırığa cavabın hazırlanmasında tövsiyələr əhəmiyyətli rol oynayır:

• Yolçu qadını – Kozettanın anasını necə səciyyələndirərsiniz? Aşağıdakı tövsiyələrə diqqət edin;
– övladına münasibəti;
– Tenardye xanımla söhbəti.

Əsərdəki təsvirlər gənc ananın körpəsinə sonsuz məhəbbətini aydın ifadə edir. Bunu onun Tenardye xanımla söhbətində də müşahidə etmək olur. Bu söhbətdən həm də aydın olur ki, ana xeyirxah, əməksevər, doğruçu və ləyaqətli insandır. Əvvəlki dərslərdə mənimsədiklərini xatırlayan, mətni bir daha nəzərdən keçirən şagirdlər ana obrazını səciyyələndirməkdə çətinlik çəkmirlər.

Hələ əsərin məzmununun öyrənilməsində şagirdlərdə Kozetta obrazına böyük rəğbət yaranır. Onunla bağlı hər cümləyə diqqət yetirirlər. Bu obrazın xarakteri, davranış və əməlləri ilə bağlı xeyli faktla tanış olan şagirdlər tapşırığın növbəti bəndinə asanlıqla cavab hazırlayırlar:

- Kozettanın taleyi, "kiçik dünyası" sizdə hansı düşüncələr yaratdı? Aşağıdakı tövsiyələri nəzərə almaqla fikrinizi əsaslandırın:

– müxtəlif vəziyyətlərdə keçirdiyi hiss, həyəcan və düşüncələri;
– fərqli vəziyyətlərdə nitqi və davranışı;
– müxtəlif məqamlarda qərar və əməlləri;
– Tenardye xanıma münasibəti.

Məktəbli-oxucu Kozettanı fərqli vəziyyətlərdə olarkən müşahidə edir: Kozetta qonaqlara xidmət edərkən, Tenardye xanımın buyruqlarını yerinə yetirərkən, naməlum yolçu ilə ünsiyyətdə olarkən, nəhayət, hiss və düşüncələri ilə baş-başa qalarkən... Bütün hallarda bu qızcığazın mənhus taleyi oxucunu mütəəssir edir... Uşaq ömrü yaşamaq, ata-ana qayğısı görmək istəyi, əslində, bu barədə aydın bir təsəvvürü olmayan qızcığazın məhdud düşüncələri oxucuya ağır təsir edir.

Gecə su gətirməyə göndərilən səkkiz yaşlı uşağın qorxusu, həyəcanı onu yalan danışmaq barədə düşünməyə təhrik etsə də, oxucunun ona şəfqət hissinə kölgə düşmür...

Tenardye xanımın davranışı, insanlara münasibəti hələ oxu prosesində şagirdlərin diqqətini cəlb edir. Onun Kozetta ilə amansız rəftarı kiçik oxucuları heyrətləndirir, bunun səbəbi üzərində düşündüklərini suallarından anlamaq olur. Lakin həmin obrazın əhatəli səciyyələndirilməsi tövsiyələrin mövcudluğu şəraitində daha səmərəli baş verir:

- Tenardye xanımın xarakterindəki başlıca cəhətlər hansılardır? Aşağıdakı tövsiyələrə əsaslanmaqla onu səciyyələndirin:

– müxtəlif adamlarla necə danışması;
– fərqli vəziyyətlərdə davranış və əməlləri;
– övladları ilə həmyaşıd olan Kozettaya münasibəti.

Mətnin oxusunda, məzmunun öyrənilməsi üzrə dərinləşdirilmiş işin təşkilində Tenardyelər ailəsi, o sıradan xanım haqqında geniş məlumat əldə edən şagirdlər tapşırığın yerinə yetirilməsində çətinlik çəkmirlər. Şagirdlərin mətndən müvafiq nümunələr seçmələrinə istiqamət verilməsi diqqət mərkəzinə çəkilir.

Tenardye xanım ikiüzlüdür. Nisbətən varlı qonaqlara yaltaqlanır, kasıb qonaqları isə qapıdan qovmaq istəyir. İkiüzlü, kobud və yaltaq olduğu sözlərində, danışığında, səsinin tonunda özünü açıqca büruzə verir. Bütün bunlar onun fərqli vəziyyətlərdə davranış və hərəkətlərində müşahidə edilir.

Obrazla bağlı araşdırma zamanı bu cəhətlərin üzərində ətraflı dayanılması, nümunələrlə əsaslandırılması obyektiv nəticənin çıxarılmasına imkan yaradır.

Naməlum yolçu obrazı şagirdlər üçün müəmmalı olaraq qalmamalıdır. Jan Valjanın, əslində, Kozettanı bu cəhənnəm əzabından xilas etmək üçün gəldiyini təhlil prosesində çatdırmaq lazımdır.

Bu obazla oxucunun tanışlığı qısa olur. Lakin yığcam təsvirlər onun xoşməramlı, xeyirxah, ürəyiyumşaq bir insan olduğu qənaətinə gəlinməsinə imkan yaradır. Tapşırığın uğurlu icrasına tövsiyələrin təsiri az olmur:

- Naməlum yolçunu necə səciyyələndirərsiniz? Tövsiyələrə diqqət edin:

– Kozettaya sualları, cavablara münasibəti;
– Kozetta və başqaları ilə davranışı.

Qaranlıq gecədə su üçün gedən Kozettanın qarşılaşdığı naməlum yolçunun ona verdiyi suallar, aldığı cavablara münasibəti barədə daha dərindən düşünmək məqamı məhz indi – tapşırığın üzərində işləyərkən yaranır. Qızcığazın cavablarından mütəəssir olması, onun adını eşidərkən sarsılması ("Yolçu ildırım vurmuş kimi diksindi") oxucuda ona rəğbət hissi yaradır.

Meyxanadakı davranışı, danışığı bu rəğbət hissinin daha da artmasına səbəb olur.

Növbəti tapşırığın (təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına təsirinin aydınlaşdırılması) yerinə yetirilməsi ilə bağlı şagirdlərin təcrübəsi və zəruri bacarıqları var.

Tapşırığın sonuncu bəndi şagirdlərin ciddi diskussiyaya qoşulmasına səbəb olur. Əsərin əsas ideyasının müəyyənləşdirilməsinə müstəqil yanaşmanı nəzərdə tutan cədvəldəki variantların mükəmməl öyrənilməsi, onlardan birinin seçilməsi, yaxud digərinin dəyişiklik edilməklə qəbul edilməsi gərgin düşünməyi, fikir mübadiləsi aparmağı tələb edir:

• Sizcə, əsərdəki əsas fikir – ideya nədir? Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın.

| s. | Əsərin əsas ideyası hansıdır? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Mərhəmətli və xeyirxah olmaq insan üçün vacib şərtdir. | | |
| 2 | İnsan üzləşdiyi hər çətinliyə üstün gəlməyə çalışmalıdır. | | |
| 3 | Uşağın "kiçik dünyasına" zor tətbiq etmək yolverilməzdir. | | |

Yaxşı düşünülərək planlaşdırılan dərsdə sonuncu tapşırığın yerinə yetirilməsinə kifayət qədər vaxt qalır:

## II. MÜZAKİRƏ

1. "Kozetta" əsəri mənə nə öyrətdi" mövzusunda müzakirə aparın.

a) Oxşar əsərləri xatırladın.

b) Tutarlı dəlillər hazırlayın.

Bu mövzuda esse yazdırılması da mümkündür. Yazının davamı asudə vaxtda yerinə yetirilə bilər, dəyərləndirilməsini isə növbəti dərslərin birində reallaşdırmaq olar.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərdəki qəhrəmanları davranış və əməllərindəki özünəməxsusluğu əsərdən nümunələr göstərməklə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir və ifadə vasitələrinin əsərdə bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Əsərin mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

## BİRİNCİ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Sənət öyrən" əsəri üzrə aparıla bilər.*

## SƏNƏT ÖYRƏN

*(Gürcü nağılı)*

Biri varmış, biri yoxmuş, bir şah və onun gözünün ağı-qarası bir oğlu varmış. Şah qocalmışdı və oğlunu evləndirmək qərarına gəldi. Şahın oğlu dedi:

– İzn ver, şahlığı gəzib dolanım, qızı özüm seçim!

Şah izn verdi. Şahzadə yola düşdü. Az gəzdi, çox gəzdi, bütün şəhərləri, kəndləri gəzdi, amma özünə qız seçə bilmədi. Yalnız yoxsul bir kənddə, kəndin lap kənarında, ən kasıb evdə o, gözəl bir qız gördü. Qız o qədər gözəl idi ki, aya deyirdi, sən çıxma, mən çıxım, günə deyirdi, sən çıxma, mən çıxım! Bir könüldən min könülə o qıza aşiq oldu. Qız şahzadədən soruşdu:

– De görüm, hansı sənətin sahibisən?

O cavab verdi:

– Heç bir sənət əlimdən gəlmir, mən şahzadəyəm!

– Heç bir sənət sahibi deyilsənsə, vay halına! – dedi qız. – Şahzadə olmaq sənət deyil! Bu gün sən şahsan, sabah yox, onda özünə necə çörək pulu qazanacaqsan? Get bir sənət öyrən, yalnız o zaman sənə könül verərəm.

Şahzadə qəm dəryasına qərq oldu. Tez bir zamanda hansı sənətə yiyələnə biləcəyini bilmirdi. Atasının yanına gəldi və əhvalatı ona danışdı:

– Mən bir qız seçmişəm. Dünyada onun tayı-bərabəri yoxdur. Lakin o mənə könül vermədi. “Əvvəlcə, – dedi, – get bir sənət öyrən!” Gözüm ondan başqasını görmür. Kömək edin, bir sənət öyrənim.

Şah bütün sənətkarları hüzuruna çağırdı. Sənətkarlar buyurdular: xarratlar, pinəçilər, dərzilər, bənnalar, ocaqçılar. Şah xarratdan soruşdu:

– Neçə müddətə oğluma sənətini öyrədə bilərsən?

– Beş ilə, – deyə xarrat cavab verdi.

– Eh! Beş ilə o qız ərə gedər, məni o qədər gözləməz, – dedi şahzadə.

O birilərindən soruşdular:

– Kim şahzadəyə ən qısa müddətə sənət öyrədə bilər?

Pinəçi dedi:

– Dörd ilə öyrədərəm!

Bənna dedi:

– Üç ilə öyrədərəm.

Ocaqçı dedi:

– İki ilə öyrədərəm!

Nəhayət, bir qoca irəli çıxdı və dedi:

– Mən keçə basıram və yapıncı düzəldirəm. Üç günə şahzadəyə sənətimi öyrədərəm.

Şahzadə sevindi, yapıncı ustasının yanına getdi. Üç günə keçə basmağı və müxtəlif yapıncılar – atlılar üçün uzun, xovlu yapıncılar, piyadalar üçün qısa, hamar, tikişsiz yapıncılar düzəltməyi öyrəndi.

Bundan sonra şahzadə qızın yanına yollandı:

– Yenə niyə gəlmisən? - deyə qız soruşdu.

– Səni elçiləməyə.

– Sənət öyrənmisən?

– Öyrənmişəm: yapıncı düzəldə bilirəm.

– Bu sənət də yarayar! – dedi qız. – İndi sənə gələrəm!

Onlar evlənib şad-xürrəm yaşamağa başladılar. Çox keçmədən qoca şah dünyasını dəyişdi. Şahzadə şahlıq etməyə başladı.

Günlərin bir günü o öz şahlığını gəzmək istədi. Kimin necə yaşadığını, kimin nəyə sevindiyini, kimin nəyə kədərləndiyini, onun barəsində danışılanları öyrənmək istədi. Təğyiri-libas olub yola düzəldi. Az getdi, düz getdi, gəlib bir şəhərə yetişdi. Acmışdı, yemək istədi. Bir aşxana tapdı, içəri girdi və dedi:

– Ey xeyirxah insanlar, məni yedizdirin!

Aşxana sahibi onu nəzakətlə qarşıladı, yemək verdi.

Sən demə, bunlar adamyeyən quldurlar imiş. Onlar şahı zirzəmiyə yaxın aparıb qapını açdılar.

– Bu zirzəmidə nə var? – deyə şah soruşdu.

– Gir, özün bax! – deyə quldurlar onu içəri itələdilər.

– Şah ətrafına baxdı, gördü ki, zirzəmidə daha üç nəfər var.

– Siz burda niyə oturmusunuz? – deyə şah soruşdu. – Sizi niyə saxlayırlar?

– Bu adamyeyən quldurlar bizi öldürüb yeyəcəklər, – deyə əsirlər ona cavab verdi. – Səni də bu aqibət gözləyir.

Şahın canına qorxu düşdü, bilmədi, nə etsin.

Quldurlar üç nəfəri öldürdülər. Şahın növbəsi çatdı. Şah adamyeyən quldurlara dedi:

– Məni öldürməyin! Mən sizə elə yapıncı düzəldərəm ki, onu min tümənə sata bilərsiniz! Onu birbaş şahın gənc arvadının yanına aparın, o sövdələşmədən yapıncını alacaq.

Quldurlar sevindilər. Yun gətirdilər. Şah yapıncı düzəltməyə başladı. Düzəldib qurtardı, ona elə naxışlar vurdu ki, iki göz istəyirdi tamaşasına dursun! Naxışların arasında bu sözləri tikdi: "Filan şəhərdə, filan evdə, zirzəmidə adamyeyən quldurların əsirliyindəyəm. İki günə kimi köməyimə yetişməsəniz, məni öldürəcəklər".

Bir quldur yapıncını götürdü, çiyninə atıb şəhərə getdi. Şah sarayına, şahın arvadının yanına apardı, satmaq istədi. Şah arvadı yapıncını nəzərdən keçirməyə başladı: naxışların arasında tikilən sözləri oxudu. Yapıncını min tümənə aldı və qulduru buraxdı. Sonra döyüşçülərini çağırdı, quldurun arxasınca – ərini qurtarmağa yola düşdü.

Quldur heç bir şeydən xəbəri olmadan irəlidə, şahın arvadı isə döyüşçülər ilə arxada gedirdilər. Gəlib çatdılar. Quldurların evini mühasirəyə aldılar, heç kim qaça bilmədi!

Döyüşçülər evə hücum çəkdilər, bütün quldurları tutub öldürdülər. Zirzəmiyə düşüb şahı azad etdilər və arvadının yanına apardılar.

– Görürsənmi! – dedi arvadı. – Əgər bu sənəti öyrənməsəydin, sənin şahlığın köməyinə çatmazdı: səni qoyun kimi kəsib yeyəcəkdilər.

– Haqlısan, – deyə şah cavab verdi, – belə olmasaydı, indi mən sağ qalmazdım! Məni ancaq sənətim xilas etdi!

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Cümlədəki hansı sözlər bir-birini əvəz edə bilər?
*Yalnız yoxsul bir kənddə, kəndin lap kənarında, ən kasıb evdə o, gözəl bir qız gördü.*
2. Nağıldan bədii təsvir və ifadə vasitələrinə aid nümunələr seçib yazın.

3. Şahzadəyə aid olmayan xüsusiyyətlər hansıdır?
1. Tədbirlidir. 2. Qorxaqdır. 3. Bacarıqlıdır. 4. Zəhmətə qatlaşır. 5. Şahzadə olması ilə öyünür.
A) 2, 3 B) 1, 2 C) 4, 5 D) 2, 5 E) 1, 5

4. Hadisələrin ardıcıllığını müəyyən edib boş dairələrdə qeyd edin.




5. Şahın zirzəmidə olarkən düşdüyü vəziyyətə uyğun cümlə qurub yazın. Bənzətmədən istifadə edin.

6. Şahın arvadının xarakterindəki əsas cəhətlər hansılardır? Fikrinizi əsaslandırın.

7. Nağıldan seçdiyiniz parçanın məzmununu geniş yazın.

8. Əsərin məzmunu ilə səsləşməyən deyim hansıdır?
A) Dost dosta tən gərək, tən olmasa, gen gərək.
B) Sənət insan üçün xəzinədir.
C) Özgəsinə quyu qazan özü düşər.
D) Yüz sənəti pis bilməkdənsə, bir sənəti yaxşı bilmək yaxşıdır.
E) Ən böyük dövlət ağıldır.

9. Verilənlərdən hansı nağılın janr xüsusiyyətlərinə aid deyil?
A) Nəsr şəklindədir.
B) Qəhrəman şər qüvvələrə qalib gəlir.
C) “Biri varmış, biri yoxmuş” , “Az getdi, üz getdi...” kimi ifadələrdən istifadə olunub.
D) Həcmcə fərqli olur.
E) Sənət öyrənməyin vacib olduğu bildirilir.

10.Mətndən hansı nəticəyə gəlmək olar?

---

---

| | |
|---|---|
| **Mövzu:**<br><br>**TƏSVİRİ ESSENİ NECƏ YAZMALI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Təsvir xarakterli essedə fikirlərini əsaslandırır (3.1.3).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) Şəkil, foto. 3) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Təsvir xarakterli esse ilə bağlı mətnin oxunması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.<br>4. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Təsvir xarakterli essenin icrası ilə bağlı mətnin məzmununun öyrənilməsi, mənimsəmə səviyyəsinin yoxlanması və dərinləşdirilməsi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin esse ilə bağlı bacarıqlarının aşkara çıxarılması və nəzərə alınması icra olunacaq işlərin səmərəliliyinə əhəmiyyətli təsir edir. Bunun müəyyənləşdirilməsi dərsə qədər, yaxud dərsdə həyata keçirilə bilər.*

Dərslikdəki “Esseni necə yazmalı” mətninin (rəy xarakterli yazı ilə bağlı hissə bu dərsdə əhatə olunmur) məzmununun mənimsənilməsi həyata keçirilir. Oxunun hansı formada reallaşdırılmasına müəllim qərar verir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra məzmunun necə qavranılması fərqli yollarla müəyyənləşdirilə bilər. Vaxta qənaət baxımından şagirdlərə əvvəlcədən təqdim edilmiş suallar əsasında müsahibənin aparılması məqsədəuyğundur. Suallar mətndəki başlıca fikri əhatə edir:
– Esse hansı xüsusiyyətlərinə görə inşadan fərqlənir?
– İnşa ilə essenin oxşar cəhətləri hansılardır?
– Essenin hansı növləri var?
– Təsvir xarakterli essenin başlıca xüsusiyyətləri hansılardır?
– Essenin hazırlanmasında hansı qaydalara əməl etmək lazımdır?

Dərslikdəki mətndə (Esseni necə yazmalı) birinci sualla bağlı deyilir: *“Unutmayın ki, esse bir çox xüsusiyyətlərinə görə inşadan fərqlənir. İnşa yazıda ciddi ölçülərin, tələblərin gözlənilməsi vacibdir. Bilirsiniz ki, inşanın quruluşu dəyişməzdir, həmişə giriş, əsas hissə və nəticənin olması mühüm şərtdir. Eləcə də inşada mövzu ilə bağlı başqalarının fikirlərindən, müxtəlif mənbələrdən geniş istifadə edilir. İnşanın məzmununda bir bitkinlik olur. Fikirlər bir-biri ilə əlaqələndirilərək ardıcıllıqla əks etdirilir. Bütün bunlar essedə vacib sayılmır. Essenin həm məzmununda, həm də quruluşunda sərbəstliyə geniş meydan verilir. Məsələn, essedə ardıcıllığı gözləmədən bir fikirdən digərinə keçilməsi nöqsan sayılmır.*

*Bu yazıda bir "fikir dağınıqlığı" olur. Elə buna görə də essedə əsas fikir inşadan fərqli olaraq, başlanğıcda, lap elə ilk cümlələrdə ifadə oluna bilər. Nəticənin yazılmasında da sərbəstlik özünü göstərir. Bir çox hallarda nəticə yazının əvvəlində əks etdirilir. Yaxud nəticənin çıxarılması bəzən oxucunun öhdəsinə buraxılır. Eləcə də nəticə sual cümləsi şəklində ifadə edilməklə yazı tamamlanır. Təsadüfi deyildir ki, essenin bir mühüm cəhəti oxucunu təəccübləndirməkdir. Əsas ideyaya birbaşa dəxli olmayan gözlənilməz fikirlərin ifadə edilməsi, başlıca fikirdən tez-tez yayınma essedə ardıcıl rast gəlinən hallardandır".*

Mətndən şagirdlərə aydın olur ki, esse həm məzmununa, həm də quruluşuna görə inşadan fərqlənir. Müsahibənin sonunda çıxarılan nəticə belə ifadə oluna bilər:

- İnşa ciddi qaydalara əməl edilməklə icra olunan yazıdır. Essedə bu baxımdan sərbəstlik vardır.
- İnşadan fərqli olaraq, essedə sabit tərkib hissələri (giriş, əsas hissə, nəticə), əsasən, olmur.
- İnşada özünü göstərən ardıcıllıq, fikirlərin bir-biri ilə sıx bağlılığı essedə özünü göstərmir.
- Essedə müəllif hiss və düşüncələrini ifadə etməkdə sərbəstdir.
- İnşadan fərqli olaraq, essedə sitatlara, mənbələrdən nümunələrə çox az hallarda yer verilir.
- Gözlənilməz fikirlərin səsləndirilməsi, oxucunu təəccübləndirmək essedə maraqlı ifadə vasitəsi kimi özünü göstərir.
- Esse də inşa kimi təsvir, rəy, mühakimə və s. növlərdə olur.
- Təsvir xarakterli esse daha çox sərbəst mövzuda olur.
- Onun yazılması geniş müşahidənin aparılmasını, zəngin materialın toplanmasını tələb edir.

Öyrənilmiş məlumat, çıxarılmış nəticə mənimsənilənlərin ilkin tətbiqi üzrə işin təşkilinə imkan verir. Təsvir xarakterli esse üçün müəyyənləşdirilmiş mövzu (Payız mənzərəsi) elan edilir. Şagirdlər payız fəsli ilə bağlı təəssüratlarını səsləndirirlər. Payız mənzərələrini əks etdirən fotolar, rəsm əsərləri nümayiş etdirilir, internet resursalarından istifadə imkanları araşdırılır, əldə olunanlardan fraqmentlər göstərilir. Şagirdlər təəssüratlarına, müşahidələrinə əsaslanmaqla ilkin – qaralama variantın üzərində işləyirlər. Bu, mövzu ilə bağlı təəssüratın, hiss və duyğuların pərakəndə şəkildə kağıza köçürülməsi prosesidir. Yazılanlar sonrakı mərhələlərdə aparılacaq iş üçün bir mənbə, material timsalında olur. Şagirdlər özlərini heyrətləndirən payız mənzərələrindən elələrini seçib təsvir etməyə çalışırlar ki, oxucuları mütəəssir edə bilsinlər. Lakin bu məqamda səsləndirilən fikirlərin əsaslandırılmasına diqqət edilir. Yazılanlar səmimi və inandırıcı olur.

İcra olunmuş işin məzmunu və yekunu dərs üçün seçilmiş standartın əsasında qiymətləndirmənin aparılmasına imkan verir.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Təsvir xarakterli essedə fikirlərini nümunələrlə əsaslandırır. | Yazı | Dərslik, iş vərəqləri |

| Mövzu: | **Təlim məqsədləri** |
|---|---|
| **TƏSVİRİ ESSENİN YAZILMASI –** | • Faktları müqayisə edərək seçir (3.1.1).<br>• Təsvir xarakterli essedə şəxsi hiss və düşüncələrinə geniş yer verir (3.1.3). |
| **1 saat** | **Köməkçi vasitələr:** 1) Dərslik. 2) Şəkil, foto. 3) İnternet mənbələri. |
| | **Dərsin qısa planı**<br>**1.** Yazının ilkin (qaralama) variantının hazırlanması.<br>2. İlkin variantın gözdən keçirilməsi.<br>3. Yazının tamamlanması.<br>4. Yazının oxunması, düzəlişlərin edilməsi.<br>5. Yazının müzakirəsi və özünüqiymətləndirmə.<br>6. Formativ qiymətləndirmə. |

**Dərsin məzmunu.** Təsvir xarakterli essenin hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

Essenin yazılması üzrə birinci dərsdə icra olunmuş iş davam etdirilir. İlkin – qaralama variantın hazırlanması başa çatdırılır. Bu, işin yarısı deməkdir. İlkin variantın üzərində iş dərinləşdirilmiş istiqamətdə davam etdirilir. Fikirlərin aydın ifadə olunub-olunmadığı üzərində ciddi düşünülür. Səsləndirilmiş hər bir fikrin oxucu tərəfindən başa düşülüb-düşülməyəcəyi esse müəllifinin birinci dərəcəli qayğısı olur. Bu məqamda esse müəllifini "xırda" qüsurlar (orfoqrafik, durğu işarələri) yox, bütövlükdə yazının dəyəri qayğılandırır. Payız fəslinin gəlişi ilə təbiətdə, quşlar və heyvanlar aləmində baş verən dəyişikliyi təsvir etməyə çalışan müəllif səmimi və inandırıcı olduğunu, seçdiyi faktların yerinə düşüb-düşmədiyini dönə-dönə yoxlamalı olur. Fikirlərini oxucu ilə bölüşərkən onun öz hiss və düşüncələrinə şərik olmasına səy edir: " Payızın gəlişi o biri fəsillərdən fərqlidir, adama elə gəlir ki, sarı yarpaq karvanı yavaş-yavaş, löngər vura-vura gəlir. Hər gün yaşıl yarpaqların bir az da seyrəldiyini, sarı rəngin artdığını hiss edirsən. Bir də baxırsan ki, "karvan" tamam yetişib, yaşıllığın yerini alıb..."

Esse müəllifi oxucunu özü ilə bərabər sevinməyə, kədərlənməyə sövq edir: "Artıq ağaclarda tək-tək yarpaq qalıb... Çiskinli hava üzümə vura-vura məktəbə gedirəm. Çılpaq budaqlar bomboz havaya sancılıb elə bil... Ürəyim niyə sıxıldı, heç bilmədim..."

Payızın öz gözəlliyi var, esse üzərində iş zamanı bu da unudulmur, onu duymağa fərəhlənməyə çağırış eşidilir: "Ay aman! Sən demə, payız əsl gözəlliyini dağlarımıza, meşələrimizə gətirirmiş! Bu nədir, meşəyə od düşüb, nədir, elə bil meçə alışıb yanır! Meşə sarının, yaşılın, qırmızının bütün çalarlarına, narıncı, qəhvəyi, çəhrayı rənglərə bürünüb..."

Yazı bu mərhələdə əhəmiyyətli dərəcədə dəyişir və yeniləşir. Görülmüş iş yazının bütöv, tam şəklə düşməsi yolunda mühüm addım olur. Lakin yazının tamamlanması hələ işin başa çatması deyildir. Yazının oxunması, son düzəlişlərin edilməsi həyata keçirilir. Pedaqoji ədəbiyyatda yazını başqasına oxudub onu dinləməyin üstünlüklərindən danışılır, bu, qüsurları tez görməyə imkan yaradır.

Yazının müzakirəsindən əvvəl özünüqiymətləndirmənin aparılması məqsədəuyğundur. Bunun üçün aşağıdakı meyarlardan istifadə etmək olar. Lakin sinfin səviyyəsi, yazı ilə bağlı aparılmış işin məzmunu nəzərə alınmaqla fərqli meyarların tətbiqi də mümkündür.

| s. | Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|---|
| 1. | Mövzu haqqında aydın təsəvvür yarada bilmişəm. | | |
| 2. | Mövzu ilə bağlı hiss və düşüncələrimi əhatəli ifadə etmişəm. | | |
| 3. | Uğurla seçdiyim söz və cümlələrin köməyi ilə oxucuda aydın təəssüratın yaranmasına nail olmuşam. | | |
| 4. | Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin qısa və aydın yazılmasına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| 5. | Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |
| 6. | Yazımın həcmi tələbə uyğundur. | | |

Müzakirədə fəal dinləmə, fərqli fikirlərə dözümlü münasibət təmin olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Faktları müqayisə edərək məzmuna uyğun olanları seçir. | Yazı | İş vərəqləri |
| Təsvir xarakterli essedə dəlillərə əsaslanan şəxsi hiss və düşüncələrə geniş yer verir. | Yazı | İş vərəqləri |

**Mövzu:**

**Naibə Yusif. DƏRS –**

**3 saat**

**Birinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).
- Hekayə ilə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).
- Hekayə ilə bağlı müzakirədə deyilən fikirlərə hörmətlə yanaşır (2.2.1).

**Köməkçi vasitələr:** Naibə Yusifin əsərlərindən nümunələr. “Dərs” hekayəsi ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Başlıq altında verilmiş sualdan maraqoyatma vasitəsi kimi istfadə olunması.
2. **Oxu. Anlama.** “Dərs” hekayəsindən verilmiş parçanın ilkin oxusunun təşkili, məzmununun qavaranılma səviyyəsinin aşkara çıxarılması. Dərslikdə verilmiş sualların əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi üzrə işin təşkili.
5. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dərsdə hekayənin ilk parçasının məzmununun öyrənilməsi həyata keçirilir. Buna ilkin oxunun reallaşdırılması, sonrakı mərhələdə isə məzmunun öyrənilməsinin dərinləşdirilməsi istiqamətində işin təşkili ilə nail olunur. İlkin və dərinləşdirilmiş oxunun səviyyələrinin aşkara çıxarılması, zənginləşdirilməsi fərqli məzmunda tapşırıqların tətbiqi ilə həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Hekayədən dərsliyə daxil edilmiş ilk parçanın həcmi oxunun az vaxt ərzində başa çatdırılmasına imkan verir. Nəticədə tapşırıqların səmərəli icrasına kifayət qədər vaxt qalır. Bu, müəllimə əlavə işlərin tətbiqi üçün də yol açır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə dərslikdəki “Yadasalma” başlıqlı sualın (Uşaq qəhrəmanlarının münaqişədə olduğu hansı əsərlər yadınızdadır?) üzərində düşünmək təklif edilir. Aşağı siniflərdə öyrənilmiş müvafiq bədii əsərlər (məsələn, M.Tven. “Fərasətli oğlan”) xatırlanır. Münaqişə tərəfləri, onun baş verməsinin səbəbləri, həlli və s. yığcam müsahibədə əhatə olunur, sonda sual formalaşdırılır:

– Münaqişələr hansı səbəblər üzündən baş verir? Onlardan necə yayınmaq olar?

Müəllim qeyd edir ki, suallara birmənalı cavab vermək mümkün deyil. Dərsdə oxunacaq əsər suallara cavabların tapılması baxımından faydalı olacaqdır.

İlkin oxudan (hansı formada təşkili müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır) sonra şagirdlər aşağıdakı sualların əsasında təəssüratlarını bölüşürlər:

– Hekayə sizə maraqlı gəldimi? Nə üçün?
– Diqqətinizi daha çox çəkən obraz hansı oldu? Nəyə görə?
– Əsərin sizdə yaratdığı ovqatı izah edə bilərsinzmi?

Fərqli fikirlər səsləndirilir. Cavablarda birtərəfli yanaşma, zəif əsaslandırılmış fikirlər də müşühidə olunur. Şagirdlərin çoxu qış gününün təsvirini, uşaqların əylənmələri ilə bağlı epizodu həvəslə qeyd edirlər. Lakin gələcəkdə böyüyəcək münaqişənin bünövrəsinin qoyulduğunu əsaslı şəkildə qavramaqda çətinlik çəkirlər. Şagirdlərin böyük bir qismini Nihad obrazının davranışları cəlb edir. Lakin bunun səbəbləri üzərində düşünmürlər. Sonuncu sual şagirdlər üçün daha maraqlı olur: qış gününün, sinfin, dərslərdə baş verənlərin təsviri şagirdlərdə xoş ovqat yaradır... Onların əksəriyyətinə hekayənin süjeti maraqlı görünür.

Diqqətdən kənarda qalan məsələlər də az olmur: şagirdlərin çox az qismi Məryəm obrazını, Muradın kədərli görünməsini xatırladırlar, Nihadın Muradla kobud davranmasının səbəbləri şagirdlərin əksəriyyətini düşündürmür.

Bütün bunların, yaxud buna bənzər mənzərənin aydınlaşdırılması dərinləşdirilmiş oxuda nəyə diqqət etmək lazım olduğunu diktə edir.

Şagirdlər aşağıdakı sualların üzərində düşünürlər:

– Sizcə, təsvir olunanlar harada baş verib?
– Soyuq, qarlı qış gününü uşaqlar necə qarşılayırlar? Nümunələrlə izah edin.
– Əsərdə təsvir olunanlar gerçək həyatı xatırladırmı?
– Nihad haqqında ilk təəssüratınız necə oldu?
– Murad obrazını necə təsəvvür etdiniz?
– Sizdə ona rəğbət yarandımı? Nə üçün?
– Nihadın Murada münasibəti sizdə hansı hisslər yaratdı?
– Onların arasında münaqişənin yaranmasının və dərinləşməsinin səbəblərini necə izah edərsiniz? Əsərdən fikrinizi təsdiq edən nümunələr göstərin.
– Digər şagirdlərin Nihada münasibəti diqqətinizi çəkdimi? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə ilə izah etməyə çalışın.
– Murad və onun ailəsi haqqında müəllimlərə nə məlum idi?
– Məryəm obrazı haqqında təsəvvürünüzə yeni nə əlavə olundu?
– Anasının Muradla kiçik uşaq kimi davranması sizə təəccüblü göründümü? Sizcə, buna səbəb nə idi?
– Anası Nihadı məzəmmət etməkdə haqlı idimi?

Suallarda ilkin oxuda diqqəti az, yaxud heç cəlb etməyən məsələlərin üzərində daha çox dayanılmışdır. Tapşırıq obrazlara, onların bir-birinə münasibətlərinə, hadisələrin mahiyyətinə nüfuz etməyə imkan yaradır. Tapşırığın məzmunu şagirdlərin fərdi işləmələri üçün nəzərdə tutulmuşdur. Mətnin diqqətlə oxunması suallara az vaxt içində cavabların hazırlanmasına imkan verir.

Nəticənin yoxlanmasının ən səmərəli yolu, vaxta qənaət baxımından müsahibənin tətbiqidir. Müsahibə prosesini müzakirəyə çevirmək faydalıdır. Müəllimin məqsədindən asılı olaraq, təqdimatların dinlənilməsi yolu ilə müzakirənin təşkili də mümkündür.

Növbəti tapşırıq mənimsənilənlərin yoxlanması məqsədini güdür:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

**1.** Fikirlərdən biri doğrudur.
A) Təsvir olunanlar kənd yerində baş verir.
B) Hekayədə həftələrlə davam edən qarlı günlər təsvir edilir.
C) Qarın yağması uşaqlara sevinc gətirir, onlar təəssüratlarını həvəslə bölüşürlər.
D) Təzə şagirdə – Murada uşaqlar etinasız qalırlar, onunla maraqlanmırlar.
E) Murad heç kimlə ünsiyyət yaratmır, tənhalığı sevir.

**2.** Fikirlərdən biri səhvdir.
A) Murad elə ilk gündən müəllimlərin rəğbətini qazanır.
B) Müraciət edənlərə Murad həvəslə kömək edir.
C) Nihad özünü hamıdan üstün sayır, bunu gizlətmir.
D) Muradın fikirli, bir az da kədərli olması müəllimlərin diqqətindən yayınmır.
E) Muradın anası vaxtsız qocalmışdır.

Cavab variantlarında yeni tələblər əksini tapmış, zaman və məkanla bağlı dəqiqləşdirmənin aparılması nəzərdə tutulmuşdur. Test tapşırıqlarını şagirdlər az vaxt içərisində icra edirlər. Bu, cavab variantlarının hər birinin üzərində dayanmağa, onlara münasibət bildirməyə imkan yaradır.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" adlandırılan tapşırığın iki məqsədi vardır:

1) Hekayənin ayırıcı epizodu haqqında dolğun təəssüratın aşkara çıxarılması və ideya məzmunun necə qavranıldığının müəyyənləşdirilməsi; 2) Mənası yeni öyrənilmiş sözlərin yazılı və şifahi nitqdə möhkəmlənməsi.

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Mövzulardan birini seçib yazılı qeyd əsasında şifahi təqdimata hazırlaşın. Təqdimatların müzakirəsində fəal iştirak edin.
   a) Hekayədə təsvir olunan sinif haqqında təəssüratım.
   b) Oxuduğunuz parçanın məzmunu ilə səsləşən atalar sözləri seçin.
2. Mənasını yeni öyrəndiyniz sözləri cümlələrdə işlədin. Cümlələrin oxuduğunuz mətnə aid olmasına çalışın.

Bu məqama qədər görülən işlər tapşırığın uğurla yerinə yetirilməsi üçün kifayətdir. Nəticənin yoxlanması təqdimatların dinlənilməsi və müzakirə yolu ilə reallaşdırıla bilər.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Əsərdə mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı çıxışlarında fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir . | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla deyilən fikirlərə hörmətlə yanaşır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Naibə Yusif. DƏRS –**<br><br>**3 saat**<br><br>**İkinci saat: OXU, ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayədə mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).<br>• Hekayənin məzmununu plan əsasında yaradıcı nağıl edir (1.1.3) .<br><br>**Köməkçi vasitələr:** Naibə Yusifin əsərlərindən nümunələr. "Dərs" hekayəsi ilə bağlı illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Hekayənin ardının oxunması, ilkin qavrama səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi.<br>2. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Mətnə yaradıcı yanaşmanı, şifahi və yazılı nitqin inkişafını təmin edən müstəqil işin reallaşdırılması.<br>3. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İkinci dərsdə hekayənin məzmununun öyrənilməsi, şifahi və yazılı nitqin, yaradıcı təfəkkürün inkişafı istiqamətində iş aparılır.

**Müəllim üçün əlavə məlumat.** *Oxunun hansı formada təşkili müəllimin məqsədinə, şagirdlərin mənimsədikləri təcrübəyə əsasən müəyyənləşdirilir.*

Oxunun aparılmasına ayrılan vaxt başa çatdıqdan sonra ilkin qavrama səviyyəsi təəssüratların dinlənilməsi yolu ilə aşkara çıxarılır. Dərslikdə təklif edilmiş suallar şagirdlərin fəaliyyətinə səmərəli istiqamət verir:
– Hansı epizod sizə daha çox təsir etdi? Səbəbini izah edin.
– Oxuduğunuz yeni parçada sizin üçün gözlənilməz olan nədir?
– Əsərin belə tamamlanacağını gözləyirdinizmi?
Suallar şagirdlərin oxu prosesində düşdükləri emosional vəziyyəti, məzmunun qavranılma səviyyəsini müəyyənləşdirməyə imkan yaradır. Fikirlərdə müəyyən fərqlər olsa da, oxşar cəhətlər daha çox olur. Oxunan parçada təsirli səhnələr çoxdur. Muradın nümayiş etdirdiyi videogörüntünün doğurduğu təsir daha güclüdür.

Məktəbli-oxucu əsərin sonluğunun belə olacağını gözləmir. Bunu etiraf edən şagirdlər onu da qeyd edirlər ki, əsərin belə bitməsi onu daha da maraqlı etmişdir.

İlkin oxuda sezilməyən mətləblər hələ çoxdur. Obrazların hiss və düşüncələrinin, qarşılıqlı münasibətlərinin aydınlaşdırılmasına ehtiyac duyulur. Şagirdlərin cavabları yazıçı niyyətinin bütünlüklə başa düşüldüyünü söyləməyə əsas vermir. Deməli, suallar əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi məqsədəuyğndur. Bu məqsədlə dərslikdə təklif edilmiş aşağıdakı suallar əsərdəki incəliklərə diqqətin cəlb edilməsi baxımından faydalıdır. Lakin müəllim onlardan seçim edir; o, ilkin oxudan sonra mənimsəmə səviyyəsi barədə məlumatlı olduğundan şagirdlərinin bildiklərini təkrar edən sualları ixtisar edə bilər:

– Könül müəllimin Muradla ciddi maraqlanmasına səbəb nə idi?
– Könül müəllim və şagirdlər elanı necə qarşıladılar?
– Murad müsabiqəyə niyə qatılmadı? Onun izahına haqq qazandırmaq olarmı?
– Sizcə, Murad fikrini nə üçün Könül müəllimə uşaqların yanında yox, təklikdə bildirdi?
– Muradın izahını necə anladınız? Bəs Könül müəllim bu barədə nə düşündü?
– Hekayədəki "Hiss olunurdu ki, hamı builki tədbirə başqa ovqatla qatılacaq" cümləsində ifadə olunmuş fikri necə başa düşdünüz?
– Məktəbdə Xocalı faciəsinin ildönümünə necə hazırlaşırdılar?
– 8A sinif şagirdləri hansı hazırlıq işlərini aparmışdılar?
– Nihadın fərqlənmək arzusunu necə dəyərləndirirsiniz?
– Məktəbin direktoru haqqında sizdə hansı təəssürat yarandı?
– Belə müəllimlərə şagirdlərin münasibəti barədə nə bilirsiniz?

– Tədbirdə tərəddüd içində olan Muradın hisslərini duya bildinizmi? Onun tərəddüd etməsinə səbəb nə idi?
– Muradın atasının – Nadir Əhmədlinin döyüşçülərə dediyi sözlər haqqında düşünün. Bu sözlər sizdə hansı hisslər yaratdı?
– Gözlərində həmişə kədər duyulan Muradın sirrini öyrənəndən sonra ona münasibətinizdə dəyişiklik oldumu?
– Nihadın son halı onun haqqınındakı təəssüratınıza yeni nə əlavə etdi?
– Hekayənin necə davam etməsini istərdiniz?

Şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda işləməklə suallara cavab hazırlaya bilərlər. Suallar bərpaedici xarakterli deyil, yalnız mənimsənilənlərin, məzmunun yada salınmasını tələb etmir. Ədəbi qəhrəmanların hiss-düşüncə aləminə nüfuz etməyi, münasibətləri aydınlaşdırmağı, davranış və əməllərinə ilkin qiymət verməyi nəzərdə tutur. Müzakirənin necə təşkil edilməsi tətbiq olunan iş formasından asılıdır. Məsələn, iş kiçik qruplarda təşkil edilibsə, müzakirənin təqdimatlar əsasında aparılması məqsədəuyğundur.

Növbəti tapşırıq mətnə yaradıcı təfəkkür əsasında yanaşılmasını, mənası yeni öyrənilmiş sözlərin nitqə daxil olması və möhkəmlənməsini təmin etmək məqsədini güdür.

### II. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Hekayədən seçdiyiniz parçanı *yaradıcı* nağıletməyə hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.
3. Mənasını yeni aydınlaşdırdığınız sözləri cümlələrdə işlədib yazın. Cümlələrin öyrəndiyiniz mətnə aid olmasına çalışın.

Şagirdlər hekayədən istənilən bitkin parçanı seçməkdə sərbəstdirlər. Əsərin məzmununa müvafiq əlavələrin hazırlanması və mətnə daxil edilməsi ilə bağlı təcrübə qazanmış şagirdlərin fəaliyyətinin nəticəsi təqdimatların dinlənilməsi və onlara münasibət bildirilməsi ilə başa çatır.

Əsərdə mənası şagirdlərə tanış olmayan sözlər az deyildir. Onlar öz istəklərinə əsasən bir neçə söz seçir və cümlələrdə işlədirlər. Başlıca diqqət yazılan cümlələrin mətnlə bağlı olmasına yönəldilir. Yəni şagirdlər yazdıqları cümlələrdə obrazlara, hadisələrə münasibətlərini ifadə etməli olurlar.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayədə mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin məzmunu ilə səsləşən əlavələr etməklə bitkin parçanı yaradıcı nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Naibə Yusif. DƏRS –**

**3 saat**

**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**
- Janr baxımından nağılla hekayənin oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirir (1.2.1).
- Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).
- Hekayənin başlıca mövzusunu və və əsas ideyasını şərh edir (1.2.4).

**Köməkçi vasitələr:** Naibə Yusifin əsərlərindən nümunələr. “Dərs” hekayəsi ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının xarakter, davranış və əməllərinin, nəzəri anlayışın aydınlaşdırılması üzrə araşdırmanın aparılması.
2. **Müzakirə.** Hekayənin məzmununa əsaslanmaqla şagirdlərin dünyagörüşünün, həyati bacarıqlarının inkişafı üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Üçüncü dərs saatında əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi, həyati bacarıqların inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, əvvəlki dərslərdə mənimsənilmiş bilik və bacarıqlar əsərin dəyərləndirilməsi üzrə işin təşkilinə imkan verir. Hekayənin mövzusu, ideyası, obrazları və s. bağlı araşdırmanın aparılması əsasında təhlillər obyektiv nəticənin çıxarılmasına səbəb olacaqdır.

**Müəllim üçün əlavə məlumat.** I. *Hekayədəki obrazların təhlili ciddi çətinlik törətmir. Onların əksəriyyətinin mənəvi-psixoloji vəziyyəti əsərdə əhatəli təqdim edilməsə də, buna işarələr yox deyildir. Məhz həmin ötəri, lakin diqqətçəkən incəliklərin təhlilə cəlb olunması ədəbi qəhrəmanlar və yazıçı niyyəti barədə dolğun təsəvvürün yaranmasına səbəb olur.*

*Nihad obrazının təhlili daha çox diqqət tələb edir. O, əslində, göründüyü kimi deyildir. Zəhmətsevər, diqqətcil şagirddir. Yazıçı Nihadın Muradla qərəzli davranışına digər şagirdlərin mənfi münasibət bəslədiyinə işarələr etməklə kifayətlənmişdir. Müəllim diqqəti buna çəkərək münaqişənin davam etməməsi istiqamətində heç kimin təşəbbüsdə olmamasının səbəbini müzakirə obyektinə çevirir.*

II. *Dərsin keys-metod texnologiyasının tətbiqi ilə keçilməsi şagirdlərin müstəqil araşdırma aparmalarına geniş imkan yaradır. Aşağıda təklif edilmiş keys-tapşırığın mahiyyəti və tətbiqi qaydaları ilə şagirdləri əvvəlcədən tanış etmək işin səmərəli təşkilinə səbəb olur.*

Əsər üzrə araşdırma və təhlil bunun üçün nəzərdə tutulmuş tapşırığın yerinə yetirilməsi sayəsində gerçəkləşdirilir. Tapşırıq əhatəli olsa da, müəllim ona əlavə tələblər daxil etməkdə sərbəstdir. Təklif olunmuş tapşırığın tələbləri şagirdlər üçün əlçatandır. Bu qəbildən tapşırıqların icrası ilə bağlı onlar xeyli təcrübə toplamışlar. Ən əsası isə hər bəndlə bağlı tövsiyələrin əks etdirilməsi şagirdlərə hərtərəfli düşünmək, dolğun cavablar hazırlamaq imkanı verir.

Tapşırığın birinci bəndi və onun icrası üçün verilmiş tövsiyə aşağıdakı kimidir:

- Əsərin mövzusunu müəyyənləşdirməyə çalışın. Tövsiyələrə diqqət edin:
  – hadisələrin daha çox harada baş verdiyini xatırlayın;
  – ayrı-ayrı epizodlarda nədən danışıldığını, onları birləşdirən fikirləri yada salın;
  – hadisələrin əsasında hansı obrazın dayandığına diqqət edin.

Hadisələrin daha çox məktəbdə baş verdiyini müəyyənləşdirmək şagirdlər üçün çətin deyildir. Obrazların bağlı olduqları digər məkanlar da ya birbaşa, ya da dolayısı ilə məktəblə bağlıdır. Əsərdə təsvir olunanlar, əsasən, məktəb həyatını, konkret sinfi əhatə edir. Deməli, fərqli epizodlarda da daha çox məktəb uşaqlarının həyatı diqqət mərkəzinə çəkilir. Oxucu-məktəbliyə bu da aydın olur ki, "təzə şagirdin" – Muradın adı bəzən çəkilməsə də, hadisələr, təsvirlər son nəticədə onunla bağlanır. Beləliklə, hekayədə digər mövzular, xətlər olsa da, uşaq həyatı, uşaq taleyi önəmli yer tutur.

Tapşırığın ikinci bəndi konkret obrazın təhlili ilə bağlıdır:

- Muradı necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə alın:

– müəllimlərlə davranışı;
– şagird yoldaşları ilə davranışı;
– müxtəlif vəziyyətlərdə hiss, həyəcan və düşüncələri.

Təbiətən azdanışan, "dindirəndə dinən, dindirməyəndə susan" Murad nəzakətli, xeyirxah davranış və əməlləri ilə sinfin, müəllimlərin rəğbətini tez qazanır. Lakin o həm də hamı üçün qapalı, hələ tam dərk edilməyən adam timsalındadır. Tövsiyələr şagirdlərin bu obraz haqqında əsaslandırılmış fikir bildirmələrinə əhəmiyyətli təsir edir. Muradın müəllim və yoldaşları ilə nəzakətli davranışını aydınlaşdırmaqda çətinlik çəkməyən şagirdlər onun müxtəlif məqamlarda hiss və düşüncələrini duymaqda, dəyərlənməkdə çətinlik çəkirlər. Nihadın ona qarşı ədalətsiz davranışı belə Muradı emosional, əsəbi vəziyyətə sala bilmir. Şagirdlər əsərdəki son təsvirlərə əsaslanmaqla, əslində, Muradın

çox həssas, gözlərindən heç nə yayınmayan bir uşaq olduğunu başa düşürlər. Cavan atasını itirməsi onu da, anasını da sarsıtmışdır...

Nihad obrazı oxucularda maraq oyatsa da, Murada haqsızlıq etməsinin səbəbini aydınlaşdırmaqda, ümumiyyətlə, "təzə şagirdlə" münaqişəyə girməkdə niyyətinin nə olması barədə əsaslandırılmış fikir söyləməkdə çətinlik çəkirlər. Bu baxımdan tövsiyələrin faydalı olacağına şübhə etməmək olar:

- Nihadın xarakterindəki başlıca cəhətlər hansılardır? Aşağıdakı tövsiyələri nəzərə almaqla fikrinizi açıqlayın:

– sinif yoldaşları ilə davranışı;
– fərqli vəziyyətlərdə nitqi və davranışı;
– müxtəlif məqamlarda qərar və əməlləri;
– Murada münasibəti;
– Muradın kədərli taleyinin ona təsiri.

Bu obraz məktəbli-oxucunun diqqətini dərhal cəlb edir. Çalışqan, zəhmətkeş, dərslərinə ciddi hazırlaşan Nihad elə ilk gündən Murada soyuq münasibət bəsləyir. "Təzə gələnin" təmkinli davranışı, dərslərdə ağıllı cavabları Nihadı əsəbiləşdirir. Lakin Murad gəlməmişdən əvvəl də yoldaşlarına münasibətində Nihadın qüsurlu davranışları müşahidə olunur. Özündən çox razı olan Nihad Muradın çox tez "ad-san" qazanmasını qəbul edə bilmir. Onun nitqi-danışığı, müxtəlif vəziyyətlərdə əməl və davranışlarındakı qüsurlar sinif yoldaşlarının gözündən yayınmır. İmkanlı ailədə ərköyün böyüyən Nihad Muradın faciəsini bildiyi andaca əməllərindən peşman olur.

Əsərin ilkin oxusunda Məryəm obrazına qədərincə diqqət yetirməyən şagirdlər dərinləşdirilmiş oxu üzrə suallara əsasən onunla bağlı təsviri əsaslı şəkildə nəzərdən keçirməli olurlar. Ərinin faciəli ölümündən sarsılan, yeganə övladını təkbaşına böyüdən, "cavankən qocalan" bu qadın oxucuda dərin rəğbət hissi oyadır. Təhlil məqsədilə təklif edilmiş tapşırıq şagirdlər üçün çətin olmayıb, tövsiyələr əsasında yerinə yetirilir:

- Məryəm obrazını necə səciyyələndirərsinz? Tövsiyələrə diqqət edin:

– övladına münasibəti,
– narahat, nigaran yaşamasının səbəbi?
– xarici görünüşünün sizdə yaratdığı təəssürat, portreti.

Məryəmin övladına sonsuz məhəbbəti, "onun üçün əsməsi" oxucunun bu obraza rəğbətini artıran mühüm cəhətlərdəndir. Hər gün oğlunun ardınca məktəbə gələn ana onun taleyi üçün narahatdır. Ailədə baş verən faciədən sonra səksəkəli, nigaran ömür sürən ananı başa düşmək çətin deyildir. Saçı vaxtsız ağarmış qadının xarici görünüşü insanlarda ona hörmət və rəğbət hissinin yaranmasına səbəb olur. Kiçik oxucuların bu incəlikləri duyması tapşırıq üzərində işin səmərəli təşkilindən çox asılıdır.

Könül müəllim obrazı haqqında oxucu ayrı-ayrı təsvirlərdən aydın təsəvvür əldə edə bilir. Şagirdlərlə xoş rəftarı ilə seçilən bu təcrübəli müəllim Muradın istedadlı olduğunu dərhal anlayır, ona ayrıca diqqət göstərir, qayğı ilə yanaşır. Bu obrazla bağlı tapşırıq şagirdlər üçün güccatan səviyyədədədir. Tapşırğın səmərəli icrasına tövsiyələrin əhəmiyyətli təsiri olur:

- Sizcə, Könül müəllimin xarakterindəki başlıca xüsusiyyətlər hansılardır? Tövsiyələri nəzərə alın:

– şagirdlərlə davranışı;
– Murada münasibəti;
– fərqli vəziyyətlərdə nitqi-danışığı.

Növbəti tapşırıq əsərin janr xüsusiyyətlərinin aydınlaşdırılması ilə bağlıdır. Hekayə janrının özünəməxsusluğunu müəyyənləşdirmək məqsədilə onun öyrənilmiş bir nağılla müqayisə edilməsi təklif olunur:

- Əsəri oxuduğunuz nağıllardan biri ilə müqayisə etməklə hekayə janrında olduğunu əsaslandırın. Fikrinizi təsdiq edən nümunlər göstərin.

Bunun üçün V sinifdə öyrənilmiş "Yetim İbrahimin nağılı", yaxud 6-cı sinifdə yenicə mənimsənilmiş "İlyas" nağılını seçmək mümkündür.

Dərslikdə suala əlavə edilmiş cədvəl şagirdlərə səmərəli istiqamət verir.

Əsərin ideyasının araşdırılması ilə bağlı olan sonuncu tapşırıq ciddi axtarış, idrak fəallığı, müstəqil düşüncə tələb edir:

- Sizcə, əsərdəki əsas fikir – ideya nədir? Aşağıdakı fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın.

| s. | Əsərin əsas ideyası hansıdır? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız: |
|---|---|---|---|
| 1 | Təşəxxüs peşmançılığa səbəb olur. | | |
| 2 | Həsəd, paxıllıq insana başucalığı gətirməz. | | |
| 3 | Səhvini anlayıb peşmançılıq hissi keçirənləri bağışlamaq olar. | | |

Şagirdlərə artıq məlumdur ki, ideya ilə bağlı təklif edilmiş variantlara tənqidi yanaşmaq lazımdır. Bu variantlardan seçim etməyən şagird yeni bir variant təklif edə bilər. Yaxud cədvəldə əks etdirilmiş variantlardan birinin məzmununda dəyişiklik etməklə ideyanı formalaşdıra bilər. Bu mərhələdə diskussiya şəraitinin yaradılması faydalıdır.

Dərslikdə təklif edilmiş müzakirə mövzusu şagirdlərin marağına səbəb olur. Onlar həyati müşahidələrinə əsaslanmaqla müzakirəyə qoşulurlar. Debat qaydaları ilə artıq tanış olan şagirdlər əsaslandırılmış dəlillər hazırlamağa səy edirlər.

**II. MÜZAKİRƏ**

1. "Hekayədə məktəb həyatı inandırıcı təsvir edilib" mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla dəlillərinizi hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Nağılla hekayəni janr baxımından nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki qəhrəmanları davranış və əməllərindəki özünəməxsusluğu əsərdən nümunələr göstərməklə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**İkinci variant.**

Dərsi keys-metod texnologiyasının tətbiqi ilə təşkil etmək müəllimin istəyindən asılıdır. Pedaqoji ədəbiyyatda bu texnologiyanın mahiyyəti, ədəbiyyat dərslərində tətbiqi barədə ətraflı məlumat vardır. Dərsdə keysin yığcam növündən istifadə məqsədəuyğundur. Onun tətbiqi ilə bağlı səciyyəvi məqamlara nəzər salaq.

*Dərsin mövzusu:* N. Yusif. "Dərs". Araşdırma. Təhlil.

*Problem:* Muradla Nihadın arasında konflikt olmaya bilərdimi?

*Suallar:*

1. Konfliktin baş verməsinə səbəb nə idi?
2. Konfliktin davam etməsində günahkar kimdir?
3. Konfliktin iştirakçıları özlərini necə aparırlar?
4. Sizcə, bu şagirdlərin arasındakı konflikt hansı yolla aradan qaldırıla bilərdi?
5. Həyatınızda konflikt baş veribmi?
6. Siz bu vəziyyətdən necə çıxmısınız?

*Tapşırıqlar:*

1. Suallara cavab hazırlayın.
2. Obrazların davranış, əməl və nitqlərinə aid nümunələr seçib müqayisə edin.
3. Mövzu ilə bağlı yığcam esse, yaxud inşa yazın.

*Əlavə I.* Qrupda iş qaydaları.

1. Qrup sözçüsünü seçin.
2. Məqsədə çatmağın yollarını müzakirə edin.
3. Qrup üzvlərinin hər birinin vəzifəsinə diqqət edin.
4. Qrup üzvlərinin hər birinin tapşırıq aldığına əmin olun.
5. Tapşırıqlar yerinə yetirilərkən bir-birinizi diqqətlə dinləyin, yoldaşlarınızın sözünü kəsməyin, dil tapmağa, anlaşmağa çalışın.
6. Vaxtın keçməsinə nəzarət edin, kənar söhbətə vaxt sərf etməyin, işdən yayınmayın.
7. İşinizin nəticəsini təqdim etməyə hazır olun. Unutmayın ki, nəticələrin təqdimində hər kəs iştirak etməlidir.

*Əlavə II.* Qrup işinin qiymətləndirilməsi meyarları.

1. Cavabın təqdim olunmuş tapşırığa uyğun olması.
2. Şərhin məntiqiliyi, ardıcıllığı, dəqiqliyi.
3. Qrupların üzvlərinin hamısının keysin tapşırıqlarının yerinə yetirilməsində və nəticələrinin təqdimatında iştirak etməsi.
4. Materialların şərh edilməsi mədəniyyəti.

*Nəticələrin təqdimi.*

Qrup işlərinin nəticələri fərqli formalarda təqdim edilir:

1. Yazılı qeydlər əsasında şifahi təqdimat.
2. Yazılı təqdimat.
3. İnşa.

*Mənbələr*


1. Ədəbiyyat (6-cı sinif üçün dərslik). Bakı: "Bakınəşr", 2025.
2. Keys-metod haqqında yığcam məlumat – vərəq.

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| Mövzu: | **Təlim məqsədləri** |
|---|---|
| **Zahd Xəlil. DOSTLAR –** <br> **1 saat** | • Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir. (1.1.1). <br> • Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5). <br> • Şeirin mövzusunu, ideyasını şərh edir (1.2.4). <br> **Köməkçi vasitələr:** Zahid Xəlilin əsərlərindən nümunələr, şeirlərinə çəkilmiş illüstrasiyalar, şairin ifasını əks etdirən videogörüntülər. <br> **Dərsin qısa planı** <br> 1. **Oxu. Anlama.** Şeirin oxusu, ilkin qavrama, təəssüratların bölüşülməsi. <br> 2. **Öyrəndiklərinizi yoxlayın.** Şeirin məzmunu ilə bağlı müstəqil yazılmış sualların və cavablarının yoxlanması. <br> 3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun öyrənilməsinin dərinləşdirilməsi, nəzəri anlayışların və tanış olmayan sözlərin aydınlaşdırılması üzrə müstəqil işin təşkili. <br> 4. **Müzakirə.** Şeirin mövzusunun, ideya məzmununun dəyərləndirilməsi üzrə müzakirənin təşkili. <br> 5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Bədii əsərin oxusu, məzmununun öyrənilməsi, təhlili üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqi dərsdə ön plana çəkilir. Şagirdlərin müstəqil fəaliyyətinə geniş meydan verilən bu dərsdə əsərin məzmununa aid sualların və onlara cavablarının hazırlanması, nəzəri anlayışların və onların növlərinin aydınlaşdırılması, tanış olmayan sözlərin müəyyənləşdirilməsi və s. diqqət mərkəzində saxlanır.

**Müəllim üçün əlavə məlumat.** *Məqsəddən və sinfin səviyyəsindən asılı olaraq, tapşırıqlarda ixtisarlar aparmaq, yaxud onlara əlavələr etmək mümkündür. Məsələn, müzakirəyə "Dostunuzla aranızda münaqişə yaranıbmı, bu münaqişədən necə yayınmısınız?"bəndini əlavə etmək olar.*

Şagirdlər "Oxu. Anlama" başlıqlı tapşırığın tələbləri ilə tanış olurlar. Əsərin ilkin oxusundan sonra təəssüratlarını bölüşürlər. Bu, müəllimin bələdçiliyi – müsahibəni idarə etməsi ilə reallaşdırılır və növbəti mərhələdə məzmunla bağlı sualların hazırlanması işini də xeyli asanlaşdırır. Ehtiyac yarandığı məqamlarda şagirdlərə yardımçı suallarla istiqamət verilir. İstər sualların tərtib edilməsində, istərsə də onlara cavabların hazırlanmasında şagirdlər mətnə dönə-dönə müraciət etməli olurlar. Bu, dərinləşdirilmiş oxunun reallaşdırılması kimi qiymətləndirilə bilər.

Növbəti mərhələdə ("Öyrəndiklərinizi yoxlayın" tapşırığının icrasında) sualların necə tərtib edilməsi, eləcə də cavabların məzmunu müzakirə obyektinə çevrilir. Şagirdlər suallarını və onlara hazırladıqları cavabları təqdim edirlər. Diskussiya xarakteri alan bu mərhələdə çoxlu sayda şagirdin dinlənilməsi yox, eşidilənlərin səmərəli təhlili əsasdır.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlığı altında kiçik qruplarda icra olunmaq üçün tapşırıqlar təklif edilmişdir. Onun məqsədi yalnız məzmunun öyrənilməsinin təkmilləşdirilməsi deyil. Tapşırığın tələbləri çoxcəhətli olub, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsini və zənginləşdirilməsini, ümumiləşdirmə əsaslı yazı bacarığının inkişafını nəzərdə tutur.

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Kiçik qruplarda iş.

**I qrup:** 1) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması və cümlələrdə işlədilməsi.
2) Şeirin birinci bəndindəki əsas fikrin müəyyənləşdirilməsi və qısaca yazılması.

**II qrup:** 1) Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin və onların növlərinin müəyyənləşdirilməsi.
2) İkinci bənddəki başlıca fikrin aydınlaşdırılması və qısaca yazılması.

**III qrup:** 1) Şeirin ilk üç bəndindəki həmqafiyə sözlərin müəyyənləşdirilməsi.
2) Şeirin üçüncü və dördüncü bəndlərində ifadə edilmiş fikirlərin aydınlaşdırılması və qısaca yazılması.

**IV qrup:** 1) Şeirin dörd, beş və altıncı bəndlərindəki həmqafiyə sözlərin müəyyənləşdirilməsi.
2) Şeirin beş və altıncı bəndlərində əksini tapmış fikirlərin aydınlaşdırılması və qısaca yazılması.

**V qrup:** 1) Şeirin yeddinci bəndindəki həmqafiyə sözlərin müəyyənləşdirilməsi.
2) Sonuncu bənddə ifadə edilmiş fikrin aydınlaşdırılması və qısaca yazılması.

2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

Tapşırığın icrasına ayrılmış vaxt başa çatdıqdan sonra yazılı qeydlərin əsasında hazırlanmış təqdimatlar üzrə müzakirə təşkil edilir.

Dərslikdəki “Müzakirə” başlıqlı tapşırıq şagirdlərin təhlillə bağlı bilik və bacarıqlarının tətbiqinə geniş imkan yaradır. Ona müqayisə tələbinin daxil edilməsi əhəmiyyətini daha da artırmışdır. Şagirdlərdən yüksək müstəqillik, idarki fəallıq tələb edən tapşırığın əməkdaşlıq şəraitində yerinə yetirilməsi məqsədəuyğundur. Tapşırıqdakı tələblərin konkretləşdirilməsi məqsədilə istiqamətləndirici suallardan istifadə etmək faydalıdır. Müəllim məqsədindən asılı olaraq, tapşırıqdan bəzi tələbləri ixtisar edə bilər. Əlavələrin edilməsi də istisna olunmur.

## IV. MÜZAKİRƏ

1. Müzakirədə aşağıdakı tələbləri əhatə etməyə çalışın:
   a) Şeirin mövzusu nədir.
   b) Əsəri maraqlı edən cəhətlər hansılardır.
   c) Əsərin əsas ideyası nədir.
   d) Şeir dostluq haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi.

2. “Dostlar” şeiri ilə “Dərs” hekayəsini aşağıdakı əsaslar üzrə müqayisə edin:
   a) Hansı mövzudadırlar.
   b) Məzmunlarında hansı oxşar və fərqli cəhətlər var.
   c) İştirakçıların oxşar və fərqli cəhətləri hansılardır.
   d) Əsas ideyalarında oxşarlıq, yaxud fərq varmı.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

İKİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Peşmançılıq" əsəri üzrə aparıla bilər.*

*Gülnar Ümid*

**PEŞMANÇILIQ**

*(hekayə)*

Nurcan həyəcan içində sinfə girib-çıxır, tez-tez gözünü dəhlizin o bir başına dikirdi. Nəhayət, zəng vuruldu, müəllim göründü. Nurcan məyus halda keçib yerində əyləşdi. Nəzərləri qabaq sıradakı boş partaya zilləndi: "Gəlmədi".

Sonuncu dərs də başa çatdı. Nurcan son günlərdə olduğu kimi, yenə hamıdan əvvəl cumub küncdə qoyulmuş şkafdan telefonunu tapıb götürdü. Telefonun yan tərəfindəki düyməni basdı, ekran işıqlandı. Qız şəhadət barmağını ekrandakı yumru düymənin üstünə qoyub sağ tərəfə sürüşdürdü. Yuxarısında "Xədicə" yazılmış çata daxil oldu: son görünmə üç gün əvvəl... Nurcanın kədərli siması daha da tutqunlaşdı...

Üç gün idi ki, Nurcan qəm dəryasına qərq olmuşdu. Qız nə qədər fikrini toplayıb dərsi dinləməyə çalışırdısa da, olmurdu. Xədicənin yupyumru, gülümsər çöhrəsi, mehriban rəftarı gözünün önündən, cingiltili səsi, şirin sözləri, şən gülüşləri qulaqlarından getmirdi.

Xədicə bu məktəbə yeni gəlmişdi. Bir neçə ay əvvəl atası əlindən tutub onu fəvvarəli, gözəl bir bağa gətirmiş, burada dayanmışdılar. Ata yolun o tayındakı binanı göstərib: "Bu da yeni məktəbin", - demişdi. Qız başını qaldırıb bu əzəmətli binaya baxmış, heyrət və sevinclə içini çəkmişdi: "Nə gözəldir!"

Xədicə dərslərini əla oxuyurdu, geri qalan yoldaşlarına da həvəslə kömək edirdi. Onu da çox sevirdilər. Müəllimlər də, şagirdlər də. Bircə Nurcan... Bu iki qız arasında münaqişə necə başlandı, nədən yarandı, heç kim bilmədi. Bir də onu gördülər ki, Nurcan yerli-yersiz Xədicəyə atmaca atır, onu yamsılayır, ələ salıb gülür. Xədicə isə pərt olsa da, bunu gizləməyə çalışır, şirin təbəssümü ilə hey gülümsəyir, gülümsəyirdi...

...Budur, Xədicə gəlir. Nurcan sinifdəki şagirdlərə:

– Gəldi balaca! Gəl, balaca, gəl. Uyy, sifətini pərgarla çəkiblər elə bil...

Uşaqlardan biri:

– Xədicə, mən məsələni həll edə bilməmişəm. Mənə kömək edərsən?

Xədicə şaqraq səslə:

– Əlbəttə, edərəm.

Nurcan onu yamsılayır:

– Əlbəttə, edərəm, – əlini-əlinə çalıb gülür, – o nə bilir ki, sənə də kömək edə?!..

... Azərbaycan dili müəllimi mətni oxumağı Xədicəyə tapşırır. Nurcan yerindən atılır:

– Müəllim, siz nə üçün hər dəfə ona oxudrsunuz? Siz onu hamıdan fərqləndirirsiniz, siz onu çox istəyirsiniz...

Müəllim təəccüblə uşaqların üzünə baxır. Xədicə müəllimdən qabaq dillənir. İncə, utancaq səslə, həyəcan içində:

– Aaaa...Yoox, Nurcan, yoox, həmişə növbə ilə oxuyuruq da...

– Xeyr, sən onun sevimli şagirdisən! – Nurcan "sevimli şagird" sözlərini kinayə ilə səsləndirir.

Bu gözlənilməz söhbətdə müəllimin gözündən yayınmır: Xədicə həm həyəcandan nəfəsi kəsilə-kəsilə "yoox, yoox" deyib Nurcanı sakitləşdirmək istəyir, həm də qıyıq gözlərinin ucu ilə sınayıcı nəzərlə müəllimin üzünə baxır, sanki Nurcanın dediklərinin doğruluğuna – müəllimin, həqiqətən, onu hamıdan çox sevdiyinə əmin olmaq istəyir. Müəllim təbəssümünü gizlətməyə çalışaraq: "Əzizlərim, sizin hamınız mənim üçün dəyərlisiniz. Hamınızı çox sevirəm", – deyir...

Sonuncu dəfə isə...

Riyaziyyat dərsi idi. Keçən dəfə test yazmışdılar, indi müəllim səhvlərini izah edəcəkdi. Dedi:

– Bu misalı yalnız Xədicə doğru həll edib. Elə o özü izah etsin həllini.

Xədicə ayağa qalxdı, danışarkən bir anlığa duruxub düşünməyə başladı. Fürsəti qaçırmayan Nurcan yenə irəli atıldı:

– Müəllim, görürsünüz, bilmir. Təsadüfən düz yazıb. Qiyməti dəyişilməlidir! Bilmir, bilmir!

Müəllim səs-küyü dayandırıb: “Buyur, Xədicə, davam elə”, - dedi.

Birdən gözlənilməz bir şey baş verdi. Xədicə adəti üzrə, heç nə olmayıbmış kimi davam etməyə başlasa da, birdən səsi titrədi, gözləri yaşla doldu. O bunu hiss etdirməmək üçün gülməyə başladı, amma bircə anda üzü bulud kimi tutuldu, gülüşü hönkürtüyə çevrildi... Və o gündən Xədicə dərsə gəlmədi.

İndi bütün bunları xatırladıqca Nurcanın ürəyinə sanki od düşür, özünün də anlamadığı acı hisslər qəlbini yandırırdı... O istəyirdi ki, Xədicə yenə uzun sarışın saçları yellənə-yellənə, alnında, yumru yanaqlarında qıvırcıq tellər oynaya-oynaya dəhlizin o başından çıxıb gəlsin. Yeridikcə sağa-sola baxsın, yenə hər kəsə və hər şeyə gülümsəsin, şən cingiltili səsi sinfi doldursun...

Dərs təzə başlamışdı. Qapı açıldı, Xədicə göründü. Onun ağ bənizi sanki daha da avazımış, yanaqlarındakı qızartı çəkilmişdi.

Tənəffüs olan kimi Nurcan xəcalətli halda onun qarşısına yeridi, amma danışmağa çətinlik çəkdi, yalnız:

– Xədicə, – deyə bildi.

Xədicə gözlərini qaldırıb onun üzünə baxdı:

– Necəsən, Nurcan?

Nurcana elə gəldi ki, onun gözlərinin parıltısı da azalıb, səsindəki cingilti də.

Nurcanı ağlamaq tutdu.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Sual işarəsinin yerinə aşağıdakı fikirlərdən hansı yazıla bilməz?




A) Məktəb həyatından bəhs edir.
B) Uşaqlar arasında xoşagəlməz münasibət yaranır.
C) Mehriban, xoşrəftar olmağın vacibliyi vurğulanır.
D) Əsas qəhrəman şən və zarafatcıldır.
E) Həssas müəllim obrazı yaradılıb.

2. Əsərdən bədii təsvir və ifadə vasitələri işlənmiş cümlələr seçib yazın.

| | |
|---|---|
| Epitet | |
| Təşbeh | |
| Bədii sual | |
| Mübaliğə | |

3. Hekayədə nədən danışıldığını bir neçə cümlə ilə yazın.

___

___

___

4. Hansı cəhət Xədicənin xarakterinə uyğun deyil:
1. Dözümsüzdür.
2. Çalışqandır.
3. Səmimidir.
4. Xeyirxahdır.
5. Küsəyəndir.

A) 1, 4   B) 2, 3   C) 1, 5   D) 4, 5   E) 1, 2

5. Hekayədən Nurcanın öz əməlindən peşman olduğunu sübut edən misallar seçib yazın.

___

___

6. Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Doğru | a. Xədicə sinfin ən yaxşı oxuyanı olduğu üçün Nurcanın qəlbində qibtə hissi oyanır. |
| 2. Yanlış | b. Nurcan öz hərəkətlərinə görə əzab hissi keçirir. |
| 3. Ehtimal | c. Nurcan sinfə yeni gələn şagirdə həssaslıqla yanaşır. |

7. Nurcanın davranış və əməllərinə münasibətiniz necədir? Fikrinizi əsaslandırın.

___

___

8. Əsərdəki hadisələrin ardıcıllığını müəyyən edin.

Nurcan həyəcan içində kimi isə gözləyir. → ? → Nurcan Xədicənin əvvəlkitək olmadığını görüb dərin əzab hissi keçirir.

A) Yoldaşlarından biri Xədicədən məsələnin həllində kömək etməsini xahiş edir.
B) Nurcan müəllimi Xədicəni fərqləndirməkdə suçlayır.
C) Riyaziyyat dərsində Nurcan Xədicəni pərt edir.
D) Müəllim Xədicənin həyəcanlı duyğularını hiss edib anlayır.
E) Olub-keçənləri xatırladıqca Nurcanın məyusluğu artır.

9. Hekayənin sonluğuna qısaca əlavə yazın.

___

___

10. Əsərdə müəllifin başlıca niyyəti nədir?

___

___

# 3.
# YURD SEVGİSİ, QƏHRƏMANLIQ SƏHİFƏLƏRİ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Süleyman Abdulla. AZƏRBAYCAN BAYRAĞI –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU, ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).<br>• Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir (1.1.5).<br>• Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı məruzə və çıxışlarında istifadə edir (2.1.1).<br>• Şeirlə bağlı dialoqlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br>• Fakt və dəlilləri müqayisə edərək mühüm olanları seçir (3.1.1).<br><br>**Köməkçi vasitələr:** Süleyman Abdullanın əsərlərindən nümunələr. “Azərbaycan bayrağı” şeiri ilə bağlı illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Başlıq altında verilmiş suallar mövzu ilə bağlı biliklərin xatırlanması, maraqoyatma üçün faydalıdır.<br>2. **Oxu. Anlama.** Şeirin ilkin oxusunun, qavaranılma səviyyəsinin aşkara çıxarılması. Məzmun üzrə mənimsənilənlərin dərinləşdirilməsi üzrə işin təşkili, dərslikdə təklif edilmiş sualların əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması və dərinləşdirilməsi.<br>4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmun və nəzəri anlayışlarla bağlı öyrənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.<br>5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Şifahi və yazılı nitqin inkişaf etdirilməsi üzrə müstəqil işlərin reallaşdırılması.<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə şeirin məzmununun öyrənilməsi həyata keçirilir. Bu, dərslikdə təklif edilmiş ardıcıllıqla reallaşdırılır: şeirin ilkin oxusundan sonra şagirdlər təəssüratlarını suallar əsasında bölüşürlər, dərinləşdirilmiş oxuya ehtiyacın hansı səviyyədə olduğu aşkara çıxır. Yalnız bundan sonra dərslikdəki sualların üzərində düşünən şagirdlər dərinləşdirilmiş oxu məqsədilə mətnə müraciət edirlər.

Əsərin məzmununun dərindən mənimsənilməsi məqsədilə fərqli tələbləri olan tapşırıqların icrası həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Şeirin ilkin oxusu müxtəlif formalarda reallaşdırıla bilər. Səssiz oxudan sonra ayrı-ayrı misra və bəndlərin necə qavranıldığı təəssüratların bölüşülməsi mərhələsində, əsasən, aydınlaşmış olur. Səsli oxunun tətbiq edilməsi prosesində isə bəzi misraların izah edilməsinə ehtiyac yaranır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər ilk növbədə “Yadasalma” başlıqlı sualların (Dövlət bayrağımıza həsr edilmiş hansı əsərlərlə tanışsınız? Bu əsərlərdə daha çox nəyə diqqət yetirilir?)

üzərində düşünürlər. Müəllimin istiqamətləndirici sualları öyrənilmiş nümunələrin xatırlanmasına yardımçı olur. Yığcam müsahibədə belə bir nəticə çıxarılır ki, bu mövzuda yazılmış şeirlərdə vətən sevgisi, dövlət rəmzi olan bayrağın yaratdığı qürur hissi ön planda durur. Müsahibənin sonunda sinfə sual ünvanlanır:

– Bu mövzuda yazılmış şeirlərdə vətənimizin keçdiyi tarixi yol, bu günü, gələcəyi barədə fikirlər səsləndirən müəllifin niyyəti nə ola bilər?

Dərsdə öyrəniləcək şeirin bu suallara cavabın tapılması baxımından dəyərli olduğu qeyd edilir.

İlkin oxudan sonra şagirdlərə aşağıdakı sualların əsasında təəssüratlarını bölüşmək təklif olunur:

– Şeir xoşunuza gəldimi? Nə üçün?
– Hansı misraları daha parlaq, təsirli hesab edirsiniz? Nə üçün?
– Şeir sizdə necə ovqat yaratdı?

S.Abdullanın dolğun ideya məzmunu ilə seçilən "Azərbaycan bayrağı" şeiri diqqəti elə ilk misralardan özünə cəlb edir.Ustalıqla seçilmiş söz və ifadələr şairin səmimi hisslərini uğurla ifadə edir. Dövlət bayrağına müraciətlə deyilmiş "gözümün nuru", "ürəyimin qüruru", "qəlbimin iftixarı", "ucadan uca" və s. söz və ifadələr şagirdlərin ilkin oxuda diqqət yetirdikləri cəhətlərdən olur. Təsadüfi deyildir ki, onlar şeirin ilk misralarını daha parlaq, təsirli hesab edirlər. Şeirdə ölkəmizin ayrı-ayrı bölgələrinin adının hansı məqsədlə çəkildiyni izah etmək də şagirdlər üçün çətin olmur. Lakin ümumiləşdirmə xarakterli məqamların bir qismi (məsələn, bayrağın rəngləri barədə deyilənlər, dördüncü bəndin əvvəlində ifadə olunmuş fikirlər) birtərəfli, yaxud yarımçıq izah olunur.

Şeir bütövlükdə şagirdlərdə xoş ovqat, fərəh hissi oyadır.

İlkin oxunun nəticələrinin aydınlaşdırılması növbəti tapşırıqdan – dərinləşdirilmiş oxu üçün nəzərdə tutulmuş suallardan necə istifadə edilməsinə istiqamət verir:

– Əsərdə sizin üçün yeni və maraqlı fikirlər varmı? Gəldiyiniz nəticələri nümunələrlə izah edin.
– Şeirin əvvəlindəki müraciətə diqqət edin. Sizi düşündürən nə oldu?
– Şair "Adıntək çox uludur Vətənin pak torpağı" sözləri ilə nəyə işarə etmişdir?
– Dövlət bayrağımızın rəngləri şeirdə necə mənalandırılıb?
– Vətən uğrunda, azadlıq yolunda özünü fəda edənlər şeirdə necə xatırlanıb?
–"Bir kərə yüksəlmisən, əbədiyyət sənindir" misrasında müəllifin hansı arzusu ifadə edilmişdir?

Suallar diqqəti ilkin oxuda zəif əhatə olunmuş məsələlərə çəkir. Şeirdə şagirdlər üçün yeni və maraqlı fikirlər çoxdur. Azərbaycanın yerləşdiyi ərazi haqqında deyilənlər, Xəzərin gözəlliyinin "Tanrı müjdəsi" olması, dövlət bayrağının rənglərinin orijinal təqdimi və s. şagirdləri mətnə yenidən müraciət etməyə yönləndirir.

Şairin bayrağa müraciətlə dediyi sözlər hələ ilkin oxuda diqqəti cəlb edir, indi isə nəticə çıxarılmasına səbəb olur: şair (lirik qəhrəman) vətənin həqiqi aşiqidir.

Şagirdlər suala əsasən vətənin adının və tarixinin qədim olduğunu, dövlət bayrağının rənglərinin fərqli izahını, haqq yolunda canını fəda edən "ərənləri", müəllifin arzularını xatırladır və bütün bunlara münasibət bildirirlər.

Suallara cavabların hazırlanması fərqli iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Əməkdaşlığın təmin edilməsi faydalıdır. Nəticənin yoxlanılması müsahibənin aparılması, yaxud təqdimatların müzakirəsi yolu ilə reallaşdırıla bilər.

Bütövlükdə əsərlə bağlı mənimsənilənlərin yoxlanması üçün dərslikdə təklif edilmiş "Öyrəndiklərinizi yoxlayın" tapşırığı test əsaslıdır. Cavab variantaları elə hazırlanmışdır ki, məzmunla bağlı mühüm cəhətlərin, demək olar, hamısı əhatə olunub. Məhz buna görə də cavab variantlarının hər birinin müzakirə obyekti olmasına diqqət yetirilir:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

**1. Fikirlərdən biri doğrudur.**

A) Şeirdə yurd sevgisi, vətən həsrəti ifadə edilib.
B) Şeirdə əsas fikir ölkəmizin təbii sərvətlərlə zəngin olması ilə bağlıdır.
C) Əsərdə vətənimizin tarixən qədim olması xatırladılıb.
D) Şeirdə yalnız dövlət bayrağımız tərənnüm edilib.
E) Əsərdə daha çox ölkəmizin təbii gözəlliyi barədə danışılıb.

**2. Fikirlərdən biri səhvdir.**

A) Şeirdə Vətənə sonsuz məhəbbət ifadə olunub.
B) Vətən uğrunda qurban gedənlər hörmət və iftixarla xatırlanıb.
C) Dövlət bayrağının rəngləri şərh edilib.
D) Dövlət bayrağımızın əbədiliyinə inam ifadə edilib.
E) Vətənimizin qəhrəmanlıqla dolu olan keçmişi yada salınmayıb.

Dərslikdəki növbəti tapşırıq şeirin məzmunu ilə bağlı mənimsənilənlərin və nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi məqsədini güdür:

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirin məzmununa aid iki sual və onlara cavab hazırlayın.
2. Əsərdə müəyyənləşdirdiyiniz bədii təsvir vasitələrini cümlələrdə işlədin.

Tapşırıq fərdi olaraq icra olunur. Nəticənin yoxlanması təqdimatların dinlənilməsi, yaxud müsahibə yolu ilə reallaşdırılır.

Dərslikdəki sonuncu tapşırıq aşağıdakı məzmundadır:

## IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin. Cümlələrdə şeirlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.
2. Mövzulardan birini seçib yığcam yazılı təqdimata hazırlaşın.
   a) Şeir məndə hansı yeni hiss və düşüncə yaratdı.
   b) Şeir mənə oxuduğum hansı əsəri xatırlatdı.
   c) Əsərdə hansı misralar məni daha çox həyəcanlandırdı.
3. İşinizin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.

Göründüyü kimi, tapşırığın tələbləri çoxdur:
– mənası yeni öyrənilmiş sözlərin şagirdlərin şifahi və yazılı nitqinə daxil olması, onu zənginləşdirməsi;
– şagirdlərdə yazı bacarığının inkişaf etdirilməsi;
– mətnlə (şeirlə) bağlı fikrin yazılı ifadə edilməsi ;
– şeirlə bağlı kiçik araşdırma aparmaqla müstəqil nəticənin çıxarılması.

Bu tələblər şagirdlərdən ciddi düşüncə, yaradıcılıq və müstəqillik tələb edir. Bunların səmərəli reallaşması müəllimin bələdçilik bacarığından asılıdır.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını yeni aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı çıxışında məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı dialoqlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Uyğun fakt və dəlilləri müqayisə edərək mühüm olanları seçir. | Tapşırıq, şifahi sual-cavab | Tapşırıq, şifahi sual-cavab |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Süleyman Abdulla. AZƏRBAYCAN BAYRAĞI –**<br><br>**2 saat**<br><br>**İkinci saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Təsvir xarakterli essedə şəxsi hiss və düşüncələrinə geniş yer verir (3.1.3).<br><br>**Köməkçi vasitələr:** Süleyman Abdullanın əsərlərindən nümunələr. "Azərbaycan bayrağı" şeiri ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Şeirin mövzusu, ideyası, eləcə də ədəbi-nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin həyata keçirilməsi.<br>**2. Yaradıcı iş.** Şagirdlərdə yazılı nitqin inkişafı üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İkinci dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların zənginləşdirilməsi, tətbiqi, yazılı nitq bacarığının inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Lirik şeirlərin təhlilində özünəməxsusluğun nəzərə alınması uğur qazanmağın mühüm şərtidir. Lirik qəhrəmanın, bir sıra hallarda birbaşa müəllifin hiss-həyəcanları, təsvir etdiklərinə münasibəti, ümumiyyətlə, mövqeyi araşdırmanın mühüm obyektinə çevrilir. Müəllim qeyd edir ki, "Azərbaycan Bayrağı" şeirində müəllif oxucunun hiss-düşüncələrini, arzusunu ifadə etmiş, vətənimizlə, ölkəmizlə bağlı mühüm mətləblərə diqqət çəkmişdir. Bəs şeirdə başlıca mətləblər hansılardır, onları necə dəyərləndirmək olar?

Bunun üçün əsər üzrə araşdırmanın dərinləşdirilməsi istiqamətində işin aparılması məqsədəuyğundur.

**Müəllim üçün əlavə məlumat.** *Şeirdə müəllifin təsvir olunanlara münasibətinin aydınlaşdırılması, başqa sözlə, onun obrazının təsəvvür edilməsinə nail olunması məqsədəuyğundur. Bu məqsədlə tapşırığa daxil edilmiş tələbin tövsiyələrinin genişləndirilməsi, əsərdən misalların seçilməsi faydalıdır.*

Araşdırma, təhlil üzrə işi fərqli variantlarda təşkil etmək mümkündür. Bütün hallarda şagird əməkdaşlığının təmin edilməsi faydalıdır. Məsələn, bu dərsdə tapşırığın hər bəndini cütlərə, yaxud kiçik qruplara həvalə etmək məqsədəuyğundur.

Tapşırığın tələblərindən bəzilərinə tövsiyələr də əlavə edilmişdir. Bu, şagirdlərin fəaliyyətini xeyli konkretləşdirir. Tapşırığın birinci bəndi və ona aid tövsiyə belədir:

- Aşağıdakı tövsiyələrə əməl etməklə şeirin mövzusunu müəyyən etməyə çalışın:
  – şeirin parçalarında ifadə olunmuş fikirlərin arasındakı əlaqələri müəyyənləşdirin;
  – əsərdə deyilənlərə hansı parçada və necə yekun vurulduğunu aydınlaşdırın.

Əsərin mövzusunu müəyyənləşdirməyin asan olduğunu düşünənlər az deyil. Onların fikrincə, bu və ya digər əsərin adından çıxış etməklə mövzusunu müəyyənləşdirmək olur və bu, oxucu üçün çətin deyildir. Əlbəttə, bir sıra hallarda əsərin adlandırılması birbaşa mövzu (və məzmunla) bağlı olur. Lakin bunun həmişə belə olduğunu düşünmək yanlışdır. Bunu da unutmaq olmaz ki, əsərlərin əksəriyyəti çoxmövzulu olur, məhz başlıca, əsas mövzunu fərqləndirmək heç də asan deyildir. Əsərdə təsvir olunanları birləşdirən, belə demək olarsa, bir nöqtə olur. Onun tapılması, üstəlik, müəllifin əsas niyyətinin (bu, ideya məzmunda əksini tapır) aydın təsəvvür edilməsi əsas mövzunun müəyyənləşdirilməsinə imkan verir.

Birinci tövsiyə məhz istinad nöqtəsinin aşkar olunması məqsədilə tapşırığa daxil edilmişdir. Şeirin hər misrasında, hər bəndində vətən sevgisi ifadə olunmuşdur. Bayraq onun rəmzi kimi təqdim edilib. Elə buna görə də "əsər bayraq mövzusunda yazılıb" deyilməz. Bütövlükdə vətənə sevgi ruhunun hakim olduğu bu şeir vətənə həsr edilib və mövzu bu əsasda müəyyənləşdirilməlidir.

Tapşırığın ikinci bəndi, artıq qeyd edildiyi kimi, daha çox diqqət tələb edir. Müəllifin doğma yurduna sonsuz məhəbbəti, həm də həmvətənlərinin vətənə münasibətinin ifadəsidir. Məsələnin bu tərəfi diqqətdən kənarda qalmamalıdır:

- Şeirin müəllifi haqqında sizdə aydın təsəvvür yarandı. Aşağıdakı tövsiyələri də nəzərə almaqla onunla bağlı fikrinizi əsaslandırın:
  – müəllifin doğma yurduna münasibəti;
  – vətəninin keçmişi, bu günü və gələcəyi haqqında düşüncələri.

Tapşırığın növbəti bəndi ədəbi-nəzəri anlayışlarla bağlı mənimsənilmiş bilik və bacarıqların dərinləşdirilməsi, zənginləşdirilməsi məqsədi daşıyır. Təsvir vasitələrinin bədiiliyin artmasına təsirini izah etmək şagirdlər üçün ciddi çətinlik törətmir. Bununla bağlı təcrübə qazanmış şagirdlər işi yeni təlim materialları üzrə icra etməli olurlar.

Tapşırığın sonuncu tələbi əsərin ideyasının aydınlaşdırılması, şərh edilməsi ilə bağlı olub, müstəqil yanaşma tələb edir. İdeya ilə bağlı cədvəldə əks etdirilmiş variantlar maraqlı olub, şagirdləri düşünməyə, bilik və bacarıqlarını səfərbər etməyə, mətnə yenidən nəzər salmağa istiqamətləndirir.

Şagirdlərin fərqli mövqe nümayiş etdirmələrinə imkan yaradılır, müxtəlif yanaşmalar müzakirə edilir.

- Şeirdə ifadə olunmuş əsas fikri – ideyanı müəyynləşdirin. Aşağıdakı fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Əsərin ideyası üçün fikirlərdən hansı daha uğurludur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Vətənimizin qüdrəti və gözəlliyi ilə fəxr etməyə dəyər. | | |
| 2 | Xalqımızın varlığını, düşüncəsini əks etdirən dövlət bayrağımıza hər birimizin sevgisi tükənməz olmalıdır. | | |
| 3 | Hər bir vətəndaşımız dövlət bayrağımızla fəxr etməli, qürur duymalı, onu Vətənimizin rəmzi kimi sevməlidir. | | |

Dərslikdəki sonuncu tapşırıq təsvir xarakterli yığcam essenin yazılması ilə bağlıdır. Mövzunu fərqli formada (məsələn,“Vətənimi sevirəm”), yaxud başqa şəkildə (məsələn, “Vətən hamı üçün əzizdir”) təqdim etmək mümkündür. Təsvir xarakterli essenin yazılması ilə bağlı məlumatı və müəyyən bacarığı olan şagirdlərə şəxsi hiss və düşüncələrinə geniş yer verəcəkləri xatırladılır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra səciyyəvi cavabların dinlənilməsi və müzakirəsi həyata keçirilir.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Təsvir vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir xarakterli essedə şəxsi hiss və düşüncələrini nümunələrlə əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Məmməd İsmayıl. VƏTƏN SEÇİLMƏZ –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1).<br>• Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).<br>• Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Şeirlə bağlı müzakirədə deyilən fikirlərə hörmətlə yanaşır (2.2.1).<br>• Şeirlə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Məmməd İsmayılın əsərlərindən nümunələr, şeirlərinə çəkilmiş illüstrasiyalar, şairin ifasını əks etdirən videogörüntülər.<br><br>**Dərsin qısa planı**<br>**1. Oxu. Anlama.** Şeirin oxusu, ilkin qavranması. Təəssüratların bölüşülməsinin müsahibə ilə təşkili. Məzmuna aid sualların və cavablarının müstəqil hazırlanması.<br>**2. Öyrəndiklərinizi yoxlayın.** Şeirin məzmunu üzrə tərtib edilmiş sualların və onlara yazılmış cavabların yoxlanması.<br>**3. Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmunu ilə bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi, nəzəri anlayışların, eləcə də bədiiliyin artmasına təsir edən vasitələrin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>**4. Müzakirə.** Əsərin mövzusunun, ideyasının, bədii xüsusiyyətlrinin dəyərləndirilməsi, müqayisə əsasında müstəqil nəticənin çıxarılması üzrə müzakirənin təşkili.<br>**5. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İlkin oxudan sonra təəssüratların bölüşülməsi müsahibənin aparılması ilə reallaşdırılır. Ardınca dərinləşdirilmiş oxu, bu məqsədlə sualların və onların cavablarının hazırlanması şagirdlərin müstəqil fəaliyyəti şəraitində gerçəkləşdirilir. Məzmunla bağlı öyrənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsində kiçik qruplarda icra olunan işlərin əhəmiyyətli rolu olur.

Müzakirə məqsədilə təklif olunmuş suallar bədii əsərin təhlili üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqini ön plana çəkir. Əsərin mövzusunun, ideyasının, bədii xüsusiyyətlərinin dəyərləndirilməsi məqsədini güdən suallar yüksək idraki fəallıq tələb edir. Bədii əsərlərin müqayisəsi üzrə işin təşkili şagirdlərin müstəqil araşdırma aparmalarına və nəticə çıxarmalarına imkan yaradır.

**Müəllim üçün əlavə məlumat.** *Müəllim məqsədindən və sinfin səviyyəsindən asılı olaraq, "Müzakirə" başlıqlı tapşırıqda dəyişiklik edə bilər. Onun yeni tələblərlə zənginləşdirilməsi mümkündür.*

Əvvəlki dərslərdən mənimsənilmiş bilik və bacarıqlar şagirdlərin "Oxu. Anlama" tapşırığının tələbləri üzrə müstəqil işləmələrinə imkan verir. İlk növbədə şeir oxunur. İlkin qavrama səviyyəsi müsahibə ilə aşkara çıxarılır. Müsahibə prosesində müzakirənin geniş yer tutmasına diqqət yetirilir. Məhz bundan sonra şagirdlər dərslikdəki tapşırığa əsasən şeirin məzmununa aid üçdən az olmayaraq

sual və onlara cavab hazırlayırlar. Nəticələr şagirdlərin yığcam çıxışları əsasında müzakirə edilir. Çıxışlarda şagirdlərin nitqinə (obrazlı söz və ifadələrdən istifadə etmələrinə), fərqli fikirlərə hörmət və təmkinlə yanaşmalarına diqqət edilir.

Dərslikdə "Möhkəmləndirmə, Zənginləşdirmə" başlıqlı tapşırığın vəzifələri fərqlidir:

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ.**

1. Kiçik qruplarda iş.

**I qrup:** Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması və cümlələrdə işlədilməsi.

**II qrup:** Şeirin ilk dörd misrasında ifadə olunmuş fikrin aydınlaşdırılması və qısaca yazılması.

**III qrup:** Şeirdəki növbəti dörd misrada ifadə edilmiş mənanın aydınlaşdırılması və qısaca yazılması.

**IV qrup:** Şeirin son altı misrasında əksini tapmış fikirlərin aydınlaşdırılması və qısaca yazılması.

**V qrup:** Şeirdə bədiiliyin artmasına töhfə verən vasitələrin nümunələr göstərilməklə yığcam yazılması.

2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

Tapşırıq şeirin məzmununun əsaslı şəkildə mənimsənilməsi, şagirdlərdə müstəqilliyin inkişafı baxımından əhəmiyyətlidir. Kiçik qruplarda yerinə yetirilən tapşırıqlar şeirin ayrı-ayrı bəndlərində əksini tapmış fikirlərin, tanış olmayan sözlərin, bədiiliyə töhfə verən vasitələrin aydınlaşdırılmasına səbəb olur. İş prosesində yazılı qeydlərin aparılması təqdimatların məzmununa əhəmiyyətli dərəcədə təsir edir. Təqdimatların müzakrəsinin səmərəli keçməsi istiqmətləndirilmiş suallardan yerində istifadəni zəruri edir.

Oxu, məzmunun əhatəli mənimsənilməsi üzrə aparılmış işlər araşdırma və təhlili özünə daxil edən "Müzakirə" başlıqlı tapşırığın uğurla yerinə yetirilməsinə imkan yaradır:

**IV. MÜZAKİRƏ**

**1. Müzakirədə aşağıdakı tələbləri əhatə etməyə çalışın:**

a) Şeirin mövzusu nədir.
b) Əsəri maraqlı edən cəhətlər hansılardır.
c) Əsərin əsas ideyası nədir.
d) Şeir vətən haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi.
e) S.Abdullanın "Azərbaycan bayrağı" şeiri ilə M. İsmayılın "Vətən seçilməz" şeirini cədvəldəki suallardan da istifadə etməklə müqayisə edin.

| Müqayisə olunan əsərlər | Əsərlər hansı mövzuda yazılıb? | Onlar üçün ortaq olan hiss və düşüncələr hansılardır? | Müəlliflərin vətənlə bağlı hansı arzuları ifadə olunub? | Maraqla oxunmalarına səbəb nədir? | İdeyaları oxşardırmı? |
|---|---|---|---|---|---|
| S.Abdulla. "Azərbaycan bayrağı" | | | | | |
| M. İsmayıl. "Vətən seçilməz" | | | | | |

**2. Müzakirədə fəal iştirak edin.**

Tapşırıq şagirdlər üçün əlçatandır. Onun tələbləri ilə bağlı bilik və bacarıqlara yiyələnmiş şagirdlər əsərdən fikirlərini təsdiq edən nümunələrin seçilməsinin vacib olduğunu da bilirlər. Müzakirədə əhatə edilməsi nəzərdə tutulmuş tələblərdən birinin (Əsəri maraqlı edən cəhətlər hansılardır) əvvəlcədən izah olunmasına ehtiyac duyula bilər. Şagirdlər bu tipli sual və tapşırıqla qarşılaşmışlar. Əsərin maraqla oxunmasına daha çox bədii təsvir və ifadə vasitələrinin təsir etdiyini də bilirlər. Bu tələblə bağlı şagirdlərə izah oluna bilər ki, şeirin maraqla oxunmasına sözlərin, qafiyələrin uğurla seçilməsi az təsir etmir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə işlənmiş təsvir və ifadə vasitələrini fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla deyilən fikirlərə hörmətlə yanaşır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı çıxışlarında fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Nəbi Xəzri.**
**İSTİQLAL MARŞI –**

**2 saat**

**Birinci saat:**
**OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).
- Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir (1.1.5).
- Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı məruzə və çıxışlarında istifadə edir (2.1.1).
- Bədii nümunələrlə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).

**Köməkçi vasitələr:** Nəbi Xəzrinin əsərlərindən nümunələr. "İstiqlal marşı" şeiri ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Yadasalma.** Bu başlığın altında əks etdirilmiş sual mövzu ilə bağlı biliklərin xatırlanması, maraqoyatma vasitəsi kimi faydalıdır.
2. **Oxu. Anlama.** İlkin oxunun qavranılma səviyyəsinin müəyyənləşdirilməsi. Dərinləşdirilmiş oxunun təşkili.
3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması və dərinləşdirilməsi.
4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmunu və nəzəri anlayışlarla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsi.
5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Nitq inkişafı üzrə müstəqil işlərin icrası.
6. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Birinci dərs saatı şeirin məzmununun öyrənilmsinə həsr edilir. Şeirin ilk oxusu, qavranma səviyyəsinin müəyyənləşdirilməsi, suallar əsasında dərinləşdirilmiş oxunun təşkili, nəticənin test tapşırıqları ilə yoxlanması həyata keçirilir. Məzmunun əhatəli mənimsənilməsini, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların zənginləşdirilməsini təmin edən tapşırıq yerinə yetirilir. Şifahi və yazılı nitqin inkişaf etdirilməsi məqsədilə müstəqil işlərin reallaşdırılmasına vaxt ayrılır.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərin diqqəti ilk növbədə "Yadasalma" başlıqlı suala (Vətənimizə həsr olunmuş şeirlərdən birini və ondakı başlıca fikirləri xatırladın) cəlb olunur. Müəllimin istiqamətləndirici sualları aşağı siniflərdə öyrənilmiş əsərlərin (məsələn, Ə.Cavad. "Azərbaycan! Azərbaycan!") xatırlanmasına, onlardakı başlıca mətləblərin səsləndirilməsinə imkan verir. Yığcam müsahibənin sonunda sinfə sual ünvanlanır: Vətənimizə həsr olunmuş şeirdə daha çox hansı mətləblərin əks olunması məqsədəuyğundur?
Müəllim qeyd edir ki, öyrəniləcək əsər bu suala cavab tapmağa yardımçı ola bilər.

İlkin oxudan sonra şagirdlərə aşağıdakı sualların əsasında təəssüratlarını bölüşmək təklif olunur:
– Şeirdə diqqətinizi ilk çəkən nə oldu?
– Hansı misra, yaxud bəndlərdəki fikirlər sizə daha çox təsir etdi? Nə üçün?
– Şeirin sizdə yaratdığı ovqatı izah etməyə çalışın.

Şeir maraqlı məzmunu, dili-üslubu ilə diqqəti cəlb edir. O, süjetli şeir sayılmasa da, misra və bəndlərinin arasında fikir bağlılığı, ardıcıllığı çox qabarıqdır. Vətənimizin keşməkeşli tarixi, taleyindəki uğurlu və uğursuz səhifələr göz önündə canlanır. Oxucu-məktəblinin diqqətini yadellilərin ölkəmizlə rəftarı, azadlığımızın əlimizdən zorla alınması ilə bağlı misralar cəlb edir. Əlbəttə, ilkin oxuda şeirin bütövlükdə qavranılacağını düşünmək yanlış olardı. Elə buna görə də suallar əsasında dərinləşdirilmiş oxunun reallaşdırılması vacibdir. Bunun üçün dərslikdə suallar təklif edilmişdir:
– Şair vətəninə necə, hansı adla müraciət edir?
– Müəllif Azərbaycanı qəhrəman adlandırmaqda haqlıdırmı? Nə üçün?
– Şeirin ikinci bəndində ifadə olunmuş fikri necə izah edərsiniz?
– Yadellilərin vətənimizə münasibəti üçüncü bənddə necə xatırladılıb?
– "Bayrağını endirdilər" sözləri ilə şair nəyə işarə edir?
– Vətənimizin keçdiyi tarixi yol şeirdə necə əks olunub?
– Müəllif vətəni ilə bağlı hansı arzularını ifadə edib?

Suallar elə tərtib edilmişdir ki, şeirin məzmunu ilə bağlı daha əhatəli məlumatın mənimsənilməsi ilə yanaşı, müəyyən "gizli mətləblərin" dərk edilməsinə də imkan yaradır.

Suallara cavabların hazırlanması işini fərqli variantlarda təşkil etmək olar. Bu, müəllimin məqsədindən, sinfin qazandığı təcrübədən asılıdır. Vaxta qənaət baxımından kiçik qruplarda iş formasından istifadə daha sərfəlidir. Hazırlanmış cavabların səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi, ya da müsahibənin tətbiqi ilə müəyyənləşdirilə bilər.

Növbəti tapşırığın məqsədi öyrənilənlərin yoxlanılması ilə yanaşı, əsərdəki incə mətləblərin dərk edilməsi niyyəti ilə əlaqəlidir:

## II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

**1. Fikirlərdən biri doğrudur.**

A) Şeirdə Azərbaycanın tarixən qədim olduğu xatırladılır.
B) Bütün bəndlərdə müstəqillik ideyaları əks olunub.
C) Azərbaycanın daim əmin-amanlıq içində yaşadığı xatırladılıb.
D) Azərbaycanın həmişə öz sərvətinə sahib olduğu yada salınıb.
E) Ölkəmizin yadellilərə layiqincə cavab vermədiyi vurğulanıb.

**2. Fikirlərdən biri səhvdir.**

A) Şair vətəninin qəhrəmanlıqla dolu olan keçmişi ilə fəxr edir.
B) Azərbaycanın keşməkeşli tarixi xatırladılır.
C) Azərbaycanın dövlət müstəqilliyinə qəsd edildiyi yada salınır.
D) Şair vətəninin gələcəyi ilə bağlı arzularını ifadə edir.
E) Əsərdə ölkəmizin təbii gözəlliyinin təsvirinə diqqət yetirilmişdir.

Cavab variantlarının hər birinin üzərində düşünmək lazım gəlir. Bu, tapşırığın qarşıya qoyduğu məqsədə çatmağa yol açır.

Dərslikdəki sonrakı tapşırıq əsərin məzmunu və nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi niyyəti ilə tərtib edilmişdir:

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Şeirin məzmununa aid ikidən az olmayaraq sual və onlara cavab yazın.
2. Əsərdə işlənmiş bədii təsvir vasitələrini cümlələrdə işlədin. Yazdığınız cümlələrin şeirin məzmunu ilə əlaqəli olmasına çalışın.
3. İşin nəticəsini müzakirə edin. Çıxışlara münasibət bildirin.

Tapşırığın birinci bəndinin tələbini yerinə yetirmək şagirdlər üçün çətin deyildir. Şeirin məzmunu üzrə mənimsənilmiş bilik sualların və onlara cavabların hazırlanmasına imkan yaradır. Tapşırığın ikinci bəndi ilə əlaqədar qazanılmış təcrübə onun da uğurla yerinə yetirilməsinə səbəb olur.

İcra olunmuş işin nəticəsinin müzakirəsinə vaxt ayrılır. Səciyyəvi çıxışlar dinlənilir. Şagirdlərin öz fikirlərini obrazlı söz və ifadələrdən istifadə ilə çatdırmalarına istiqamət verilir.

Dərs üçün müəyyənləşdirilmiş sonuncu tapşırıq şagirdlərin şifahi və yazılı nitqinin inkişafı məqsədilə dərsliyə daxil edilmişdir.

## IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

Aşağıdakı tapşırıqlardan birini seçib işləyin.

1.Yazılı qeydlər əsasında aşağıdakı mövzuda şifahi təqdimata hazırlaşın:
Şeir vətənimiz haqqında bildiklərimə yeni nə əlavə etdi.

2. Şeirdən seçdiyiniz iki bəndi nəsrə çevirib məzmununu danışın. Həmin bəndləri seçməyinizin səbəbini izah edin.

3. Çıxışlara münasibət bildirin.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını yeni aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı çıxışında məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı çıxışında fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Tapşırıq, şifahi sual-cavab |

**Mövzu:**

**Nəbi Xəzri. İSTİQLAL MARŞI –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Şeirdə işlənmiş təsvir vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).
- Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).
- Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirədə istifadə edir (2.1.1).
- Şeirdə başlıca fikri anladığını nümayiş etdirir (3.1.2).

**Köməkçi vasitələr:** Nəbi Xəzrinin əsərlərindən nümunələr. “Azərbaycan” şeiri ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

1. **Araşdırma. Təhlil.** Şeirin mövzusu, ideyası, müəllif mövqeyi – obrazı, eləcə də nəzəri anlayışlar üzrə araşdırılma və dəyərləndirmənin aparılması.
2. **Yaradıcı iş.** Şagirdlərdə yaradıcı təfəkkürün və yazılı nitqin inkişafı üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə əsərin mövzu və ideyasının, müəllif obrazının aydınlaşdırılması, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların zənginləşdirilməsi, tətbiqi, yazılı nitq bacarığının inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Bunun üçün fərqli variantlarda işin təşkili mümkündür. Məsələn, rəmzi materialların (ölkəmizdə məşhur tarixi yerlərin, abidələrin şəkilləri və s.) nümayişi, vətən mövzusunda mahnılardan parçaların səsləndirilməsi bu qəbildəndir. Sinfə sual ünvanlanır: Vətənimizə həsr olunmuş şeirlər onun haqqında geniş təsəvvür yarada bilərmi?

Sualla bağlı şagirdlərin fikirlərinin dinlənilməsinə vaxt ayrılır.

**Müəllim üçün əlavə məlumat.** *Araşdırma və təhlil üçün müəyyənləşdirilmiş tapşırığa şeirin müəllifinə münasibətin aydınlaşdırılması tələbi daxil edilmişdir. Bunun təlimi və tərbiyəvi əhəmiyyətini unutmaq olmaz. Yazıçı şəxsiyyəti barədə, xüsusən V-IX siniflərdə təsəvvürün yaradılması vacibdir. Bu siniflərdə bioqrafik məlumatın olmaması həmin istiqamətdə işin aparılmasını zəruri edir. Dərslikdə müəlliflər haqqında verilmiş epiqraf və mövzunun verdiyi imkan daxilində müəllif haqqında təsəvvürün yaradılmasına diqqət yetirilməlidir.*

Dərslikdəki “Arşdırma. Təhlil” başlıqlı tapşırığın tələblərinin əksəriyyəti üçün konkretləşdirici tövsiyələr verilmişdir. Tapşırığın birinci tələbi – bəndi və onunla bağlı tövsiyələr aşağıdakı məzmundadır:

- Şeirin mövzusunu müəyyən etməyə çalışın. Tövsiyələrə diqqət edin:
  – şeirin bütün bəndlərini yenidən nəzərdən keçirin;
  – onlarda ifadə olunmuş fikirlərin hansı obyektə – nəyə aid olduğunu müəyyən edin;
  – həmin obyektin şeirin yazılması üçün önəmli olması üzərində düşünün.

Şeirin məzmunu haqqında ətraflı məlumat əldə edən şagirdlər tövsiyələrdə tələb olunanları yaddaşlarında asanlıqla bərpa edirlər. Şagirdlər müəllif fikrinin daha çox vətənimizlə bağlı olduğunu göstərirlər. Ölkəmizin məhrumiyyətlərlə dolu olan keçmişinin, azadlığının əlindən zorla alındığının əsərdə təsirli bir dillə yada salındığını xatırladırlar. Bu, əsas mövzunun müəyyənləşdirilməsinə səbəb olur.

Tapşırığın ikinci bəndində müəllif barədə təsəvvürün ifadə edilməsi tələbi əks etdirilmişdir:

- Əsər onun müəllifi barədə sizdə müəyyən təəssürat yaratdı. Aşağıdakı tövsiyələrə əsaslanmaqla onun haqqında təsəvvürünüzü səsləndirin:
  – vətəninin keçmişi, taleyi haqqında düşüncələri;
  – xalqının azadlığına, ölkəsinin müstəqilliyinə münasibəti;
  – vətəninin gələcəyi haqqında arzuları.

Tövsiyələrdə nəzərdə tutulanların nümunələr əsasında dəqiqləşdirilməsi və ümumiləşdirilməsi şeirin ideyasının əhatəli izahına da imkan yaradır.

Şagirdlər vətənini dərin məhəbbətlə sevən, onun keşməkeşli tarixini ürək ağrısı ilə xatırlayan, gələcəyi haqqında ürəkdolusu danışan müəllif obrazına əsaslandırılmış münasibət bildirməkdə çətinlik çəkmirlər.

Tapşırığın üçüncü bəndinin tələbi təsvir vasitələrinin bədiiliyin artmasında rolunun izahı ilə bağlıdır. Bu tələbin cavabının konkret nümunələr əsasında cədvəldə əks etdirilməsi məqsədəuyğundur.

Dördüncü bənd şeirin əsas ideyasının şərhi ilə bağlıdır. Bunun üçün təklif edilmiş tapşırıq şagirdlərə əvvəlki dərslərdən tanışdır. Müəyyən təcrübə qazanan şagirdlərin cədvəldə əks etdirilmiş cavab variantlarını təhlil etmək, seçdikləri variantda dəyişiklik aparmaq, yaxud öz variantlarını təklif etmək imkanı olur:

| s. | Fikirlərdən hansı əsərin ideyası kimi qəbul edilə biər? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Sınaqlardan üzüağ çıxmış vətənimizlə fəxr edə bilərik. | | |
| 2 | Şəhidlərimizin canı, qanı hesabına varlığını, müstəqilliyini qoruyub saxlayan Azərbaycan hər cür alqışa layiqdir . | | |
| 3 | Azərbaycan öz azadlığı, müstəqilliyi yolunda inamla irəliləməlidir. | | |

Dərslikdə təklif edilmiş sonuncu tapşırıq bir neçə baxımdan faydalıdır:
– şeirin ideya məzmunu üzrə mənimsənilmiş biliklərin ümumiləşdirilməsinə səbəb olur;

– yaradıcı təfəkkürün fəal işini təmin edir;
– yazı bacarığının təkmilləşməsinə təsir edir.

## II. YARADICI İŞ

1. Şeirə əlavə edilməsini məqsədəuyğun saydığınız fikirləri qısaca yazın.
2. Yazdıqlarınızla bağlı fikir mübadiləsi və müzakirə aparın.

Fərdi olaraq yerinə yetirilən işin nəticəsi ilə bağlı fikir mübadiləsinin aparılması, müzakirənin təşkili vacibdir. Bu, tapşırıqda nəzərdə tutulmuş məqsədə hansı səviyyədə nail olunduğunu müəyyənləşdirməyə imkan verir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Təsvir vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mənasını yeni öyrəndiyi sözlərdən şeirlə bağlı müzakirədə məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Şeirdə başlıca fikri anladığını nümunələrlə nümayiş etdirir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |

ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Hər addım uğrunda" əsəri üzrə aparıla bilər.*

*Vahid Məhərrəmov*

**HƏR ADDIM UĞRUNDA**

*(ixtisarla)*

...Kapitan qarnına dəyən təpiklərdən bir anlıq özünə gəlib ayıldı. Göz qapaqlarını zorla aralayıb baxdı. Başının üstündə saqqallı daşnakları görüb özünü ölmüş kimi göstərdi. Quldurlar onu xeyli təpiklədikdən sonra üst-başını və ciblərini axtardılar. Heç nə tapa bilməyib onu ayaqları ilə vurub dərəyə itələdilər. Üzü enişə yumbalandıqca çərən və yovşan kolları kapitanın üz-gözünü cızdı. Başı dərənin dibindəki daşlara dəyib möhkəmcə əzildi. Bütün bunlar nə qədər ağrılı və əzablı olsa da, o dözüb dayandı, səsini çıxarmadı...

...Əlini güclə qarnına apardı. Şükür, yarasından qan axmırdı. Heysiz-heysiz böyür-başına əl gəzdirdi. Çantasını, silahını tapmadı. Fikirləşdi ki, yəqin, düşmənlər götürüb, sənədləri ələ keçiriblər. Özünü qınadı; kaş yandıraydı, ya da əsgərlərdən birinə verəydi... Bütün qüvvəsini topladı, dirsəklənərək iki addımlığındakı iri daşlara tərəf süründü. Yaralı ayağını yerə basa bilmirdi. Yaxınlıqdakı ağacın böyük budaqlarından birini güclə aşağı əyib sındırdı. Ondan qoltuqağacı kimi istifadə edərək "Ya Allah!" deyib birtəhər ayağa qalxdı.

Hər dəfə addımını irəli atdıqca səksəkəsi artır, elə bil boyun-başına, kürəyinə uzun-uzun iynələr sancılırdı. Ona elə gəlirdi ki, elə indicə arxadan atəş açıb onu vuracaqlar.

...Yavaş-yavaş gəlib dünən döyüşdükləri yerə çatdı. Dünən bu vaxtlar onunla çiyin-çiyinə vuruşan əsgərlərin meyitlərini görəndə yalnız özünün və ən yaxındakı adamın eşidə biləcəyi dəruni bir fəryadla yerə çökdü. Son günlərdə baş verənləri – Kaçaqod kəndi uğrunla gedən vuruşmaları xatırladı. ...Əsgərlər sanki son döyüşləri olduğunu bilir, necə hünərlə döyüşürdülər. Kapitanın "Mən düşməni ləngidəcəyəm, siz geri dönün!" əmrinə tabe olmayıb "Bir yerdə vuruşub bir yerdə geri çəkiləcəyik" demişdilər.

...Kolluğun arası ilə bir az getdikdən sonra qəflətən qulağına səs dəydi. Deyəsən, kimsə onu çağırırdı. Həmin an ayaqları, qolları boşaldı. Donub yerində qaldı. Bir neçə dəqiqə tərpənmədi. Zənn etdi ki, düşmən izinə düşüb, onu haqlayıb, indi əsir götürəcək. Həyəcanla, narahat-narahat ora-bura boylandı. Nəfəsini içinə çəkib ətrafa qulaq verdi. Amma heç nə görmədi, heç nə eşitmədi. Yaxınlıqda kimsənin olmadığına əmin olduqdan sonra ləngimədən irəli

getməyə başladı. Fikirləşdi ki, yəqin, onu qara basır, qulağına səs gəlir. Axı kimdir bu qarlı çöllərdə onu tanıyan? Amma heç bir-iki addım atmamışdı ki, yenə də qulağına inilti səsi gəldi. Ayağını saxlayıb geri döndü, yenə də ətrafa diqqət kəsildi. Gözünə qaraltı-zad dəymədi. Bir də diqqətlə qulaq verəndə eşitdi ki, kimsə yaxınlıqdakı kolluğun arxasından xırıltı ilə "Əmi, ay əmi, yaralanmışam, mənə də kömək elə, qoyma burada qalım" deyir. Kapitan səsi eşidən kimi tanıdı. Yazıq əsgər ölüm ayağında onu "komandir" yox, "əmi" deyib çağırırdı. Bu sözlər kapitanı lap kövrəltdi. Onun gözləri yaşardı. Döyüşçüsünün belə yalvarmağına ehtiyac yox idi. Yaraları nə qədər ağır olsa da, zabit əsgərini bu qanlı dərədə qoyub getməyəcəkdi. Nəyin bahasına olur-olsun, onu xilas edəcəkdi...

Kapitan əlindəki ağac budağını yerə bir az da möhkəm dayayaraq əsgərə tərəf əyildi. Tibb təlimatçısı da bütün olan-qalan gücünü toplayıb əlini ona uzatdı. İbadov bu dəqiqələrdə fikirləşirdi ki, əgər ayağa qalxa bilməsə, yaralı kapitan heç cür onu çiyninə alıb apara bilməyəcək. Bu vəziyyətdə də əsgərini burda qoyub getməyəcək. Deməli, onun da sağ qalmaq şansını məhv edəcəkdi. Bu fikirlər içində komandirin qolundan daha da bərk yapışıb, axır ki, ayağa qalxdı. Səndələdi, bir ayağının üstündə güclə dayanaraq komandirin əlindəki ağacdan möhkəm-möhkəm yapışdı.

...Yaralılar bir-birinə söykənib ağacdan yapışaraq dərə ilə üzüaşağı addımlayırdılar. Qar hər tərəfi örtmüşdü. Uca dağlar və göz işlədikcə uzanıb gedən meşələr ağ dona bürünmüşdü. Sonsuz səmanın dərinliyindən un kimi aşağı ələnən xırda qar dənələri havada qövsvarı fırlanaraq onların üz-gözünə çırpılırdı.

Kapitan əlini əsgərin sol böyrünə qoyub özünə tərəf çəkmək istədi ki, yıxılmasın. Bu vaxt əli onun çiynindəki silah və çantalara dəydi. Kapitanın çantası da, avtomatı da əsgərin çiynində idi. Bunu görən zabit soruşdu:

– İbadov, mənim çantam, silahım səndə nə gəzir?

– Komandir, gördüm, yaralanmısınız, tez özümü sizə çatdırdım. Siz huşunuzu itirmişdiniz. Mən elə bildim ki, artıq... ölmüsünüz. Düşmən də yavaş-yavaş bizi haqlayırdı. Buna görə sizi döyüş meydanından çıxara bilmədik. Quldurlar yaxınlaşanda silah və çantanızı götürüb geri çəkildim. Fikirləşdim ki, heç olmasa bunlar ələ keçməsin.

– Çox sağ ol, İbadov! Sənin bu igidliyin qiymətləndiriləcək. Ver silahımı, çantamı özüm götürüm, sənin üçün ağır olar.

– Yox, cənab kapitan, özüm götürərəm, axı siz də yaralısınız.

Ağayevlə əsgər bir-birinə kömək edərək çətinliklə də olsa, addım-addım qarlı aşırımdan uzaqlaşırdılar. Birdən İbadov astaca dilləndi:

– Komandir, daha ayaqlarım sözümə baxmır, yeriyə bilmirəm. Gəlin bir neçə dəqiqə oturub dincələk.

– Bir az da döz, İbadov, yolumuz az qalır. Əgər otursaq, qalxa bilməyəcəyik. Bu qarlı aşırımı keçə bilsək, təhlükə sovuşacaq. Xilas olmağın ikicə addımlığındayıq. Biz gərək sağ qalaq, yarımçıq qalmış döyüşlərimizi davam etdirək, bir qarış torpağı da düşməndə qoymayaq. Silahları, çantanı ver mən götürüm. Yükün bir az yüngülləşsin. Bəlkə, ondan sonra bir az rahat yeriyə bilərsən.

Susub heç nə danışmayan İbadov yalnız bir neçə addım qabağa gedə bildi. Onun gözü qaraldı, ayaq üstə dayana bilməyib qarın üstünə sərildi. Kapitan qəflətən yerə yığılan əsgəri tutub saxlamaq istədi, bacarmadı. Ona gücü çatmadı. İbadov hərəkətsiz vəziyyətdə qarın üstündə düşüb qalmışdı. Zabit vaxt itirmədən çantasından bıçağı çıxarıb onun qalın gödəkçəsinin kürək hissəsini deşdi. Zaurun belindən kəmərini açdı, həmin deşikdən keçirərək möhkəm-möhkəm bağlayıb bir neçə dəfə üst-üstə düyün vurdu. Sonra kəmərin bir ucundan tutub tibb təlimatçısını arxasınca sürüməyə başladı. Yer qarlı və sürüşkən olduğundan ona çox güc düşmürdü. Qan-tərə batdığından havanın soyuğunu, şaxtasını da hiss eləmirdi. Əlindəki ağacı yerə möhkəm dayaya-dayaya yaralını arxasınca dartırdı. Addım-addım təhlükəli yerdən uzaqlaşırdılar. Artıq hava da yavaş-yavaş işıqlanırdı.

Nəhayət, asfalt yolun kənarına çatdılar. Kapitan İbadovu çəkib qarlı kolların arxasına qoydu. Özü isə ehtiyatla bir az yuxarı çıxdı ki, müşahidə aparıb vəziyyəti öyrənsin. Ətrafa xeyli baxdı, kimsə gözə dəymirdi. Amma çox çəkmədi ki, yolla bir yük avtomobilinin onlara tərəf gəldiyini gördü...

...Baş leytenant Hüseynov tez əsgərlərə göstəriş verdi, yaralılar avtomobilə yerləşdirildilər. Bir az özünə gələn İbadov minnətdarlıq duyulan yorğun gözlərlə öz xilaskarına – kapitan Ağayevə baxırdı. O, qanlı və donmuş barmaqlarını ehmalca komandirin əlinin üstünə qoyub, çatlamış dodaqlarını güclə tərpədərək zəif səslə "Çox sağ ol, cənab kapitan" deyə bildi. Komandirsə ağzını açmadan asta-asta başını tərpətdi...

Brr müddət keçəcək, komandanlıqdan döyüşə hazırlaşmaq barədə əmr gələcəkdi. Şəxsi heyət gecənin qaranlığında başdan-ayağa silahlanıb yola çıxacaqdı. Onlar hələ çox döyüşəcəkdilər. Hər addım uğrunda döyüşəcəkdilər.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Əsərdə bu mövzulardan hansına toxunulmamışdır?**
A) Müharibə
B) Qəhrəmanlığın tərənnümü
C) Təbət hadisələrinin yaratdığı çətinliklər
D) Vətənpərvərlik
E) Sədaqət və fədakarlıq

**2. Mətndə çərçivəyə alınmış hissənin planını tamamlayın.**
1. Kapitan özünə gəlib nə gördü?
2. Quldurlar onunla necə rəftar etdilər?
3. Kapitan nəyə təəssüfləndi?
4. .........................................
5. Kapitan gedərkən hansı hissləri keçirirdi?

**3. Əsərdə bədii təsvir və ifadə vasitələri işlənmiş cümlələrdən nümunələr seçib yazın.**

| Bədii təsvir və ifadə vasitəsi | Nümunə |
|---|---|
| | |

**4. Öyrəndiyiniz bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə hekayənin məzmunu ilə bağlı cümlə qurub yazın.**

______________________________

______________________________

**5. Mətndən seçdiyiniz parçanın məzmununu yığcam yazın.**

______________________________

______________________________

**6. Kapitan obrazı ilə bağlı xüsusiyyətləri təsdiq edən faktlar seçib yazın.**

| | |
|---|---|
| Mahir döyüşçüdür | |
| Səriştəli komandirdir | |
| Fədakardır | |
| Vətənpərvərdir | |
| Qayğıkeşdir | |
| Nikbindir | |
| Dözümlüdür | |

**7. Komandirin çanta və silahını götürməsi əsgərin xarakterindəki hansı cəhəti üzə çıxardır**?

______________________________

______________________________

**8. Hansı fikirlər komandir və əsgər obrazlarının hər ikisinə aid edilə bilər?**
**1.** Hər ikisi tədbirli idi.
**2.** İştirakçısı olduğu hadisələri xatırlayıb kədərlənir.
**3.** Hər ikisi ayağından yaralanmışdı.
**4.** Hər ikisi yoldaşlıqda sədaqətli və fədakardır.
**5.** Yoldaşına qarşı minnətdarlıq hissi duyur.
**6.** Düşmən əlində qalmaqdan çəkinir.

**9. Əsərdə hansı dövrün hadisələrindən bəhs olunur? Fikrinizi əsaslandırın.**

______________________________

______________________________

**10. Əsərdən çıxan başlıca ideya nədir?**
A) Müharibə insanlara ağrı-acı yaşadır.
B) Dostu çətin vəziyyətdə qoyub getməzlər.
C) Vətənin torpağı toxunulmazdır.
D) Vətən uğrunda şəhid olanlar unudulmur.
E) Ağıllı tədbirlə təhlükəli vəziyyətdən xilas olmaq olar.

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Mikayıl Rzaquluzadə. AND –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1.).<br>• Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5).<br>• Şeirdə təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Şeirlə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br>• Şeirlə bağlı müzakirədə deyilən fikirlərə hörmətlə yanaşır (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Mikayıl Rzaquluzadənin əsərlərindən nümunələr, şeirlərinə çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** İlkin oxu, təəssüratın müsahibə ilə aşkara çıxarılması. Mətnin dərindən oxunmasına imkan verən sualların tərtib edilməsi və cavablarının hazırlanması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Müstəqil hazırlanmış sualların və cavablarının, dərinləşdirilmiş oxudan sonra məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmunu ilə bağlı mənimsənilənlərin dərinləşdirlməsi, bədiiliyin artmasına təsir edən vasitələrin müəyyənləşdirilməsi üzrə işin təşkili.<br>4. **Müzakirə.** Əsərin mühüm komponentlərinin təhlili, şagirdlərdə müstəqilliyin inkişaf etdirilməsi məqsədilə müqayisə xarakterli işin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İlk tapşırıqdan başlayaraq, şagirdlərin müstəqilliyi təmin edilir. Şeirin ilkin oxusundan sonra onlar təəssüratlarını bölüşürlər. Prosesə nəzarət edən müəllim müsahibədən də istifadə edə bilər. Sonda mətnin qavranılması ilə bağlı zəif məqamlar aşkara çıxmış olur. Bu, dərinləşdirilmiş oxuya ehtiyac olduğundan xəbər verir. Müəllimin təklifi ilə şagirdlər şeirin məzmununa aid üçdən az olmayaraq sual tərtib edirlər. Suallara cavabların hazırlanması prosesində mətnə yenidən müraciət etməyə ehtiyac yaranır. Sualların, cavablarının və ümumiyyətlə, məzmunla bağlı öyrənilənlərin səviyyəsi müzakirə əsasında yoxlanılır. Bu, dərslikdəki tapşırıq üzrə reallaşdırılır:

## II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

Çıxışların müzakirəsində şagirdlərin cavablarının məzmununa, nitqlərinə (söz və ifadələrdən necə istifadə olunması, obrazlılığın səviyyəsi), fərqli fikirlərə münasibətlərinə diqqət yetirilir.

Dərslikdəki növbəti tapşırıq (Möhkəmləndirmə. Zənginləşdirmə) tələblərinin çoxcəhətli olması ilə fərqlənir: tanış olmayan sözlərin mənalarının aydınlaşdırılması və cümlələrdə işlədilməsi, təsvir vasitələrinin müəyyənləşdirilməsi və bədiiliyin artmasına verdiyi töhfənin izahı, şeirin ayrı-ayrı parçalarında ifadə olunmuş fikirlərin şərhi və qeyd edilməsi, yazılı qeydlərin əsasında təqdimata hazırlıq yalnız məzmunla bağlı öyrənilənlərin möhkəmlənməsinə, zənginləşməsinə xidmət etmir; tapşırıq həm də şagirdlərdə müstəqilliyin inkişafına əhəmiyyətli dərəcədə təsir edir:

Sinfin səviyyəsindən asılı olaraq, tapşırığın tələblərini azaltmaq da olar. Məsələn, şeirin ayrı-ayrı parçalarında ifadə olunmuş fikrin yazılması tələbini ixtisar etmək mümkündür.

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ.**

1. Kiçik qruplarda iş.

**I qrup:** Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması və cümlələrdə işlədilməsi.

**II qrup:** Şeirdə işlənmiş təsvir vasitələrinin müəyyənləşdirilməsi və bədiiliyin artmasına verdiyi töhfənin izah edilməsi.

**III qrup:** Şeirin ilk parçasında ifadə olunmuş fikrin aydınlaşdırılması və qısaca yazılması.

**IV qrup:** Şeirin ikinci parçasının ifadə etdiyi mənanın aydınlaşdırılması və qısaca yazılması.

**V qrup:** Şeirin üçüncü parçasında əksini tapmış fikirlərin aydınlaşdırılması və qısaca yazılması.

2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

Kiçik qrupların işinin nəticəsi təqdimatlarının dinlənilməsi və müzakirəsi əsasında qiymətləndirilir. Fikirlərin nümunələrlə əsaslandırılması isə müstəqilliyin göstəricisi kimi dəyərləndirilir.

Dərslikdəki sonuncu tapşırıqda (Müzakirə) şeirlə bağlı araşdırma və təhlilin aparılması məqsəd kimi qarşıya qoyulmuşdur. Müzakirəyə hazırlaşmaq üçün vaxt ayrılır. Bu, şagirdlərin əməkdaşlığı (cütlük şəklində, yaxud kiçik qruplarda) şəraitində gerçəkləşdirilir. Müəllim ehtiyac yaranan məqamlarda şagirdləri istiqamətləndirici suallarla yönləndirir.
Tapşırıq aşağıdakı məzmunda təklif edilmişdir:

**IV. MÜZAKİRƏ.**

1. Müzakirədə aşağıdakı tələbləri əhatə etməyə çalışın:
   a) Şeirin mövzusu nədir.
   b) Əsəri maraqlı edən cəhətlər hansılardır.
   c) Əsərin əsas ideyası nədir.
   d) Şeir vətən haqqındakı təsəvvürünüzə yeni nə əlavə etdi.
   e) N. Xəzrinin "İstiqlal marşı" şeiri ilə M. Rzaquluzadənn "And" şeirini cədvəldəki suallardan da istifadə etməklə müqayisə edin.

| **Müqayisə olunan əsərlər** | **Əsərlər hansı mövzuda yazılıb?** | **Onlar üçün ortaq olan hiss və düşüncələr hansılardır?** | **Müəlliflərin vətənlə bağlı hansı arzuları ifadə olunub?** | **Maraqla oxunmalarına səbəb nədir?** | **İdeyaları oxşardırmı?** |
|---|---|---|---|---|---|
| N.Xəzri "İstiqlal marşı" | | | | | |
| M.Rzaquluzadə "And" | | | | | |

2. İşlərinizin nəticəsini müzakirə edin.

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə işlənmiş təsvir və ifadə vasitələrini fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə bədii təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı çıxışlarında fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla deyilən fikirlərə hörmətlə yanaşır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Eyvaz Zeynallı. TƏNHA NAR AĞACI –**<br><br>**3 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində istifadə edir (1.1.1).<br>• Şeirlə bağlı çıxış və məruzələrində fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br>• Şeirlə bağlı müzakirədə deyilən fikirlərə hörmətlə yanaşır (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Eyvaz Zeynallının əsərlərindən nümunələr. "Tənha nar ağacı" hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Başlıq altında verilmiş sualdan biliklərin xatırlanması və maraqoyatma vasitəsi kimi istifadə edilməsi.<br>2. **Oxu. Anlama.** "Tənha nar ağacı" hekayəsindən verilmiş parçanın ilkin oxusunun təşkili, məzmununun qavaranılma səviyyəsinin aşkara çıxarılması. Dərslikdə verilmiş sualların əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları əsasında yoxlanması.<br>4. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Ədəbi qəhrəmanın xarakter, davranış və əməllərinə diqqətin cəlb edilməsi, əsərin məzmununa əsasən mövcud məlumatların zənginləşdirilməsi.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə hekayənin ilk parçasının məzmununun öyrənilməsi həyata keçirilir. Bunun üçün ilkin oxu reallaşdırılır və qavranılması səviyyəsi suallar əsasında müəyyənləşdirilir. Bu, sonrakı mərhələdə həyata keçiriləcək işin necə təşkil edilməsinə istiqamət verir. İlkin oxuda yaranan təsəvvür dərslikdə məzmunla bağlı əks etdirilmiş sualların bir qisminə əhatəli cavab vermək üçün kifayət etmir; suallardan bəziləri daha dərin mətləblərin aydınlaşdırılmasını tələb edir, bəziləri isə açıq tipli olur.

**Müəllim üçün əlavə məlumat.** *Ordumuzun qələbəsinə həsr olunmuş hekayənin mövzusu, onda qaldırılmış problemlər şagirdlərə tanışdır. Lakin əsərin süjet yeniliyi, onda qiymətli məlumatları özündə əks etdirən təsvirlərin, epizodların çoxluğu şagirdləri ilk səhifələrdən maraqlandırır. Qarabağ münaqişəsinin başlanğıcında bölgədə vəziyyət, insanların həyatı, taleyi, düşüncəsi, həyəcanları hekayədə təsirli bədii lövhələrlə əks etdirilmişdir. Əsərin qəhrəmanı - Münaqişə bölgəsindən olan, doğma yurdunun həsrətini çəkən bu səmimi zabit şagirdlərin böyük rəğbətini qazanır.*

*Bakı şəhərindəki 31 və 18 saylı məktəblərdə hekayənin tədrisinə həsr edilmiş sınaq dərslərinin nəticələrinin təhlilindən aydın oldu ki, Qarabağ müharibəsində ordumuzun qələbəsinə həsr edilmiş əsərlərin mütaliəsinə, onların müzakirəsinə şagirdlər, oxuduqları sinifdən asılı olmayaraq, böyük maraq göstərirlər. Bu, hekayənin tədrisində nəzərə alınmalıdır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Dərslikdəki "Yadasalma" başlıqlı sualın (Qarabağ müharibəsinə aid oxuduğunuz bir əsəri, onun sizə daha çox təsir edən epizodunu yada salın) üzərində düşünən şagirdlərə istiqmətləndirici suallarla kömək göstərilir. Şagirdlər daha çox V sinifdə öyrəndikləri "Firuzə qaşlı xəncər" hekayəsini, ondakı təsirli epizodları xatırladırlar. Sinfə sualla müraciət olunur: Müharibədə böyük qələbənin qazanılmasının başlıca səbəbi, sizcə, nədir?

Şagirdlərin fikirlərinin dinlənilməsindən sonra müəllim qeyd edir ki, öyrəniləcək hekayə bu və buna bənzər bir çox sualların aydınlaşdırılmasıına səbəb olacaqdır.

Hekayənin məzmunu, dilinin aydınlığı onunla ilkin tanışlığın səssiz oxu ilə həyata keçirilməsinə imkan verir. Bu, vaxta qənaət etmək baxımından sərfəlidir. Şagirdlər mənimsədikləri qaydalara uyğun olaraq, tanış olmayan sözlərin mənasını ilkin oxuda aydınlaşdırırlar. Onlar dərslikdəki suallara əsaslanmaqla ilkin oxunun təəssüratlarını bölüşürlər:

– Əsər sizə maraqlı gəldimi? Nə üçün?

– Ondakı təsvirlərdən hansını anlamaq sizin üçün çətin oldu?
– Obrazlar haqqında sizdə hansı təəssürat yarandı?

Şagirdlərin çoxu Nadir Əhmədli obrazı ilə bağlı təəssüratlarını bölüşməyə böyük həvəs göstərirlər. İlin quraqlı keçməsi ilə bağlı təsvirlər diqqəti az çəksə də, düşmən hücumunun qarşısının alınması, zabitin xatirələri, xüsusən kənddə yaranmış ağır vəziyyət, məktəblilərin qorxu içində yaşamaları şagirdlərin düşüncəsində dərin iz salır.

Şagirdlərin təəssüratının dinlənilməsi prosesində aydınlaşır ki, dərslikdəki növbəti suallardan hansılarına daha çox diqqət yetirmək lazım gələcəkdir. Digər tərəfdən həmin suallara yenilərini də əlavə etməyə ehtiyac duyula bilər:

– Quraqlığın təbiətə, insanlara təsiri necə təsvir edilmişdir? O sizdə hansı təəssürat yaratdı?
– “Yaz aylarında daşqını, selləri ilə ad çıxaran kiçik dağ çaylarının səsi öz içində boğulmuşdu” cümləsindəki fikri necə başa düşdünüz?
– İlqar haqqında ilk təəssüratınız nə oldu?
– Onu narahat edən nə idi? Yuxularında daha çox nə görürdü?
– İlqarın qəti qərara gəlməsinə səbəb nə oldu?
– Ön xətdə xidmət edən əsgərlər nədən əziyyət çəkirdilər?
– Taqım komandiri İlqar Əhmədlinin tabeliyində olan əsgərlərə münasibəti necə idi?
– Düşmənin növbəti hücumunun qarşısı necə alındı?
– İlqar qərargah rəisinə nə barədə danışdı: İşğaldan az əvvəl onların kəndlərində vəziyyət necə olmuşdu? Uşaqları, böyükləri qorxuya salan nə idi? Kəndin müdafiəçiləri kimlər idi?

Göründüyü kimi, burada ilkin təəssüratın bölüşülməsi zamanı ötəri toxunulmuş, yaxud birtərəfli mənimsənildiyi aşkara çıxarılmış incəliklərin əhatəli öyrənilməsinə imkan verən suallarla yanaşı, yeni məqamların aydınlaşdırılması tələblərinə də yer verilmişdir.

Sualların üzərində şagirdlərin fərdi olaraq müşahidə aparmaları faydalıdır. Şagirdlərə ilkin qənaətlərini cütlük, yaxud kiçik qruplarda müzakirə etmələri üçün vaxt ayrılır. Ehtiyac yaranan hallarda müəllimin istiqamətləndirici köməyinə yer verilir.

Sonda yığcam müsahibə, yaxud şagirdlərin təqdimatlarının müzakirəsi ilə işə yekun vurulur. Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması məqsədilə test tapşırığı üzərində işin təşkili məqsədəuyğun hesab edilir. Bu, şagirdlərin hər birinin məzmunun öyrənilməsi ilə bağlı nailiyyətini müəyyənləşdirmək baxımından səmərəlidir. Cavab variantlarının müzakirə edilməsi ön plana çəkilir:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.
   A) Güclü quraqlıq təbiətə ziyan vurur, insanlara əziyyət verir.
   B) Günlərini səfərlərdə keçirən İlqar üçün havanın necə olmasının fərqi yoxdur.
   C) Onun hərbi xidmətə getmək arzusunu anası narazılıqla qarşılayır.
   D) Taqım komandiri dözülməz istilərin əsgərləri ruhdan salacağını düşünür.
   E) Əsgərlərimiz düşmənin növbəti hücumunun qarşısını çətinliklə alırlar.

2. Fikirlərdən biri səhvdir.
   A) Kəndlərdə yaradılan özünümüdafiə dəstələri düşmənin böyük uğur qazanmasına imkan vermir.
   B) İşğal altında olan torpaqlarımızın azad edilməsi arzusu İlqarın orduya getməsinə səbəb olur.
   C) Taqım komandiri əsgərlərini sevir, onların qayğısına qalır.
   D) İlqar Əhmədli doğma yurdlarına yaxın yerlərdə xidmət etməyi arzulayır.
   E) Qərargah rəisi taqım komandirini hücum əmri vermək üçün dəvət etmişdi.

Dərslikdə təklif edilmiş növbəti tapşırıq bir neçə baxımdan faydalıdır:
– mənası yeni öyrənilmiş sözlərin nitqə daxil olması və möhkəmlənməsi;
– obraz haqqındakı təsəvvürün zənginləşməsi;
– mətnin oxusundan əldə olunmuş yeni məlumatın dəyərləndirilməsi;
– şifahi nitqin inkişaf etdirilməsi.

## III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

- Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın. Mənasını yeni öyrəndiyiniz sözlərdən istifadə edin**.**

a) İlqar Əhmədli obrazında diqqətimi cəlb edən başlıca cəhətlər nə oldu.
b) Qarabağ hadisələri ilə bağlı yeni nə öyrəndim.

- Çıxışlara münasibət bildirin.

Çıxış edən şagirdlərin yeni sözlərdən necə, hansı ardıcıllıqla istifadə etmələrinə, obrazlı söz və ifadələrdən necə yararlandıqlarına diqqət yetirilir.

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Hekayədə mənasını aydınlaşdırdığı sözlərdən şifahi nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı çıxışlarında fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla deyilən fikirlərə hörmətlə yanaşır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| **Mövzu:**<br><br>**Eyvaz Zeynallı.**<br>**TƏNHA NAR AĞACI –**<br><br>**3 saat**<br><br>**İkinci saat:**<br>**OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayədən bitkin parçanın məzmununu yığcam nağıl edir (1.1.3).<br>• Hekayədə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrini şifahi və yazılı nitqində istifadə edir (1.1.5).<br>• Müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Eyvaz Zeynallının əsərlərindən nümunələr. “Tənha nar ağacı” hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Oxu. Anlama.** Hekayənin ardının oxunması, ilkin qavranma səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun suallar əsasında həyata keçirilməsi.<br>**2. Möhkəmləndirmə. Zənginləşdirmə.** Bədii təsvir və ifadə vasitələri ilə bağlı bilik və bacarıqların tətbiqi.<br>**3. Nitqinizi və düşüncənizi zənginləşdirin.** Ümumiləşdirmə bacarığının inkişafını təmin edən şifahi nitq üzrə işin təşkili.<br>**4. Formativ qiymətləndirmə.** |
|---|---|

**Dərsin məzmunu.** İkinci dərsdə “Tənha nar ağacı” hekayəsinin məzmununun öyrənilməsi davam etdirilir, nəzəri anlayışlar üzrə biliklər möhkəmləndirilir və tətbiq edilir, ümimiləşdirmə bacarığnın inkişafı üzrə iş aparılır.

**Müəllim üçün əlavə məlumat.** *Artıq qeyd edildiyi kimi, hekayəni səssiz oxuyan şagirdlər məzmunu qavramaqda çətinlik çəkmirlər. Vaxta qənaət baxımından səssiz oxunun tətbiqi məqsədəuyğundur.*

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra dərslikdə təklif edilmiş suallar əsasında ilkin oxunun yaratdığı təəssürat aydınlaşdırılır:

– Əsərin davamı maraqlı oldumu? Nə üçün?
– Düşmənlə bağlı təsəvvürünüz zənginləşdimi?
– Obrazlar haqqında təəssüratınıza yeni nə əlavə olundu?

Hekayədə şagirdlərin diqqətini cəlb edən təsvirlər az olmamışdır. Kəndə hücum, insanların gecəni vahimə içində keçirmələri, yaralı və ölənlər haqqında deyilənlər şagirdləri mütəəssir edir. Taqım komandirinin doğma kəndlərinin azad edilməsində iştirakı, həyətlərində keçirdiyi həyəcan məktəbli-oxucunun yaddaşında dərin iz salır. Lakin onun komandirlərlə görüşündə danışılanların məzmunu, bu söhbətlərin qarşıda gözlənilən mühüm döyüş əməliyyatı üçün əhəmiyyəti barədə fikir bildirənlər az olur.

İlkin təəssüratın yığcam müsahibə ilə aşkara çıxarılması dərslikdəki növbəti suallara münasibətin necə olmasını müəyyənləşdirir. Suallardan bəzilərinin üzərində daha geniş dayanmağa ehtiyac yaranır:

– Atası İlqara nəyi tövsiyə etdi? Sizcə, ata buna nə üçün ehtiyac duyur?
– Kəndin adamları düşmən hücumunun qarşısını necə aldılar?
– Mürsəl müəllimin ölümü necə qarşılandı?
– İlqarın komandiri olduğu taqım təlimlərdə necə iştirak edirdi?
– İlqar Əhmədlinin qərargah rəisi ilə görüşü necə bitdi?
– Tabeliyində olan taqımın təlimlərdə fərqlənməsini İlqar Əhmədli necə dəyərləndirir?
– Briqada komandiri İlqarı nə məqsədlə görüşə dəvət etmişdi?
– Ordumuz ilk hücumunda hansı ərazilərimizi azad etməyə başladı?
– İlqar doğma kəndlərində, öz həyətlərində hansı mənzərələrlə rastlaşır? Sizcə, o, həmin anlarda nə hisslər keçirir?

Növbəti tapşırıq nəzəri anlayışlarla bağlı bilik və bacarığın yaradıcı tətbiqi üçün nəzərdə tutulmuşdur. Mətndən seçilmiş cümlələrə bədii təsvir və ifadə vasitələrinin artırılması tələbi şagirdləri düşünməyə, öyrəndiklərini yeni təlim materialı əsasında tətbiq etməyə istiqamətləndirir:

**II. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Əsərdən seçdiyiniz iki cümləyə bədii təsvir və ya ifadə vasitəsi artırın.
2. İşinizin nəticəsini müzakirə edin.

Səciyyəvi nümunələrin dinlənilməsi və müzakirəsi keçirilir. Diskussiya xarakteri alan bu prosesdə şagirdlərin öz mövqelərini əsaslandırmaqla yanaşı, səsləndirilmiş fikirlərə həssas yanaşmalarına, və obyektiv qiymət vermələrinə səy göstərilir.

Növbəti tapşırığın tələbi şagirdlərə tanış olsa da, onun yerinə yetirilməsində çətinlik çəkənlər az olmur. Bunun başlıca səbəbi tapşırığın ümumiləşdirmə bacarığı tələb etməsidir. Şagirdlərə artıq məlumdur ki, seçilmiş mətnin yığcam danışılması onda ixtisarın aparılması deyildir. Bir neçə cümlədə ifadə olunmuş fikrin ümumiləşdirilərək bir cümlə ilə ifadə edilməsi bu istiqamətdə ardıcıl işin aparılmasını tələb edir. Təsadüfi deyildir ki, bu tapşırığın nəticəsinin müzakirəsi həmişə qızğın mübahisə ilə müşayiət olunur. Məhz buna görə də müəllimin tez-tez nümunələr göstərməsinə ehtiyac yaranır.

**III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN**

1. Əsərdən seçdiyiniz parçanın məzmununu *yığcam* danışmağı öyrənin.
2. Çıxışlara münasibət bildirin.

Təhsil proqramının tələbinə görə, "bədii sual" anlayışı barədə məlumatın verilməsi və tədris materiallarının əsasında möhkəmləndirilməsi nəzərdə tutulmuşdur. Dərslikdə əks etdirilmiş yığcam məlumat şagirdlərdə anlayış barədə təsəvvür yaradır. Mətnlə müstəqil tanışlıq zamanı onlara nümunələr deməyi, yaxud bunları digər mətnlərdən seçməyi təklif etmək olar.

**IV. XATIRLATMA. DƏRİNLƏŞDİRMƏ**

Məlum olan bir məsələni, başvermə səbəbi bəlli olan bir vəziyyəti bədii əsərdə sual şəklində ifadə etməklə müəllif onun emosional təsir gücünü artırmış olur. Buna *bədii sual* deyilir və o, cavab almaq məqsədi güdmür. Oxuduğunuz əsərdə obrazın səsləndirdiyi suallar buna nümunə ola bilər: "Buna nə vaxt son qoyulacaq?", " İntiqam anı nə vaxt yetişəcək?"

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Başlıca fikri çatdırmaqla hekayədən bitkin parçanın məzmununu yığcam nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə müəyyələşdirdiyi bədii təsvir və ifadə vasitələrini yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Mövqeyini əsaslandırmaqla müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir. | Şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Eyvaz Zeynallı. TƏNHA NAR AĞACI –**<br><br>**3 saat**<br><br>**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Janr baxımından hekayə ilə əfsanənin oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirir (1.2.1).<br>• Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Hekayənin başlıca mövzusunu və və əsas ideyasını şərh edir. (1.2.4)<br>• Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Eyvaz Zeynallının əsərlərindən nümunələr. “Tənha nar ağacı” hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının səciyyələndiriməsi, nəzəri anlayışla bağlı bilik və bacarıqların zənginləşdirilməsi üzrə araşdırmanın aparılması.<br>**2. Müzakirə.** Hekayənin ideya məzmununa, digər mənbələrə əsaslanmaqla şagirdlərin dünyagörüşünün, müstəqil düşüncəsinin inkişafı üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Üçüncü dərs saatında əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazlarının səciyyələndirilməsi, janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi, şagirdlərin dünyagörüşünün, müstəqil düşüncəsinin inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, hekayənin məzmunu haqqında əldə edilmiş biliklərlə məhdudlaşmaq olmaz. Əsəri dəyərləndirmək üçün araşdırmanın davam etdirilməsi vacibdir. Deməli, hekayənin mövzusu, obrazları, onda ifadə olunmuş başlıca fikir – ideya araşdırılmalı, məhz bunun sayəsində dəyərləndirmə aparılmalıdır.

**Müəllim üçün əlavə məlumat.** *Hekayədə hadisələr daha çox taqım komandiri İlqar Əhmədli ilə bağlanır. Oxucu onunla ətraflı, qismən də Mürsəl müəllimlə tanış olur. Əsərdəki təsvirlər, faktlar bu obrazları ətraflı səciyyələndirməyə imkan verir. Dərslikdə təklif edilmiş tapşırığa, məqsəddən asılı olaraq, briqada komandiri, qərargah rəisi obrazları ilə bağlı suallar əlavə etmək olar.*

Araşdırma əsasında təhlilin aparılmasına imkan yaradan tapşırıq şagirdlərin müstəqil işləməsi üçün əlverişlidir. Tapşırığın mühüm tələbləri üçün tövsiyələrin verilməsi şagirdlərin fəaliyyətinə səmərəli təsir edir. Məsələn, tapşırığın birinci bəndi və ona aid tövsiyələr aşağıdakı kimidir:

- Əsər hansı mövzuda yazılıb? Tövsiyələrə diqqət edin:
  – ən mühüm hadisələrdə nədən danışıldığını xatırlayın;
  – obrazları daha çox düşündürən, narahat edən məsələləri yada salın;
  – hadisələrin daha çox hansı məkanda baş verdiyini unutmayın.

Hekayənin ilk səhifələrindən oxucunun diqqəti Qarabağ hadisələri, münaqişəsi və müharibəsi ilə bağlı təsvirlərə, epizodlara yönləndirilir. Obrazları düşündürən, narahat edən də məhz torpaqlarımızın azad edilməsi, düşməndən intiqam alınmasıdır. Hadisələrin baş verdiyi məkan da, əsasən, müharibə bölgəsidir.

Tövsiyələri əsas götürən şagirdlər əsərin məzmununu xatırlamaqla, əlbəttə, mətnə müraciət edənlər də olacaq, sualın cavabını şərh etməkdə çətinlik çəkməyəcəklər. Əsərdən nümunələrin seçilməsi cavabların qiymətləndirilməsində mühüm tələb kimi nəzərə alınır.

Tapşırıqdakı ikinci bənd – sual şagirdlərin haqqında aydın təsəvvür qazandıqları obrazla bağlıdır:

- İlqar Əhmədli obrazını necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə alın:
  – müxtəlif vəziyyətlərdə nitqi-danışığı, davranışı;
  – doğma yurduna, tabeliyində olan əsgərlərə münasibəti;

– fərqli vəziyyətlərdə hiss, həyəcan və düşüncələri.

Əsərdə bu obraz haqqında geniş, həm də maraqlı məlumat əksini tapıb. Onun dediklərindən aydınlaşır ki, kəndləri daim düşmən hücumuna məruz qalıb, atası döyüşdə həlak olub. Ağır qaçqınlıq ömrü yaşayıb. Sonrakı təsvirlərdən aydınlaşır ki, ali məktəbdə işləmək imkanı olsa da, doğma yurdunu işğaldan azad etmək arzusu onu orduya çəkib...

Oxucu onu fərqli vəziyyətlərdə görür və daha ətraflı tanıyır. Həm anası, həm də komandirlərlə ünsiyyəti onun təmkinli, nəzakətli bir insan olduğunu təsdiq edir. Tabeliyində olan əsgərlərlə davranışı onu səmimi, xeyirxah bir komandir kimi səciyyələndirir.

Komandirləri ilə söhbətində, düşmənin xarabaya çevirdiyi kəndlərində keçirdiyi hiss-həyəcan onun mənəvi gözəlliyindən xəbər verir.

Şagirdlərin hiss etdikləri bu incəliklərin daha dərindən duyulması və dəyərləndirilməsi bir çox hallarda müəllimin bələdçiliyi sayəsində reallaşır.

Mürsəl müəllim obrazına hekayədə geniş yer verilməsə də, oxucunun düşüncəsinə və yaddaşına vətənini, el-obasını sevən qeyrətli, fədakar insan kimi daxil olur. Yaşadığı mahalda tanınan bu nüfuzlu insan düşmən hücumlarının qarşısını almaq üçün çətinliklə də olsa, silah toplamağa, postlar yaratmağa nail olur. Övladına dediyi sözlər isə onu bir ailə başçısı kimi yaxşı səciyyələndirir. Sualın qoyuluşu, tövsiyələr bütün bunları nümunələr əsasında aydınlaşdırmağa geniş imkan yaradır:

- Mürsəl müəllim obrazı hansı xüsusiyyətlərinə görə oxucunun rəğbətini qazanır? Tövsiyələrə diqqət edin:
  - düşmənə münasibəti;
  - vətəninə, ailəsinə münasibəti;
  - fədakarlığı.

Tapşırığın növbəti bəndi hekayənin janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bunun üçün əfsanə janrı ilə müqayisə nəzərdə tutulmuşdur. Lakin müəllim məqsədindən asılı olaraq, müqayisə üçün fərqli janr (məsələn, nağıl) seçə bilər. Müqayisə cədvəlində "cəhətlər" kimi verilən tələblərdə dəyişikliyin edilməsi mümkündür. Yəni məqsədindən, sinfin səviyyəsindən çıxış etməklə, müəllimin tələblərə əlavələr daxil etməsi, yaxud onlarda ixtisarlar aparması mümkündür. Əsəri oxuduğunuz əfsanələrdən biri ilə müqayisə etməklə hekayə janrında olduğunu əsaslandırın.

| S | **Hansı cəhətlərinə görə müqayisə olunurlar** | **"Tənha nar ağacı"** | |
|---|---|---|---|
| 1 | Mövzu | | |
| 2 | İştirakçılar | | |
| 3 | Əsas hadisələrdə özünəməxsusluq | | |
| 4 | Təsvirlərdə özünəməxsusluq | | |
| 5 | Sonluqda özünəməxsusluq | | |

Tapşırığın sonuncu bəndində əsərin ideyasının aydınlaşdırılması, dəyərləndirilməsi tələbi əks olunmudur. Cədvəldə verilmiş cavab variantlarının hər biri ciddi düşünməyi, əsərlə bağlı mənimsənilənləri nəzərdən keçirməyi tələb edir. Şagirdlərə cədvəldə təklif edilənlərə tənqidi, yaradıcı yanaşmaq tövsiyə olunur. Onlar həmin variantlarda dəyişiklik etməkdə sərbəstdirlər. Yaxud öz variantlarını təklif edib onu müdafiə edə bilərlər. Məlumdur ki, çox vaxt sinifdə eyni bir fikir fərqli variantlarda səsləndirilir. Bu mərhələdəki diskussiyada mühüm olan odur ki, şagirdlər əsərdəki başlıca fikri anlamış olsunlar, öz mövqelərini dəlillərlə əsaslandırmağa səy etsinlər.

- Sizcə, əsərdəki əsas fikir – ideya nədir? Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın.

| s. | **Aşağıdakı fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur?** | **Nə üçün belə düşünürsünüz?** | **Sizin variantınız** |
|---|---|---|---|
| 1 | Ölkənin ərazi bütövlüyünün təmin edilməsi vətənin qorunması deməkdir. | | |
| 2 | Qarabağın işğaldan azad edilməsi xalqımızın misilsiz qələbəsidir. | | |
| 3 | Vətənin toxunulmazlığı və bütövlüyü hamı üçün birinci vəzifədir. | | |

Dərslikdə sonuncu tapşırıq (Müzakirə) təklif edilmiş mövzu üzrə müzakirənin aparılması ilə bağlıdır. Mövzu genişdir və öyrənilən əsərlə məhdudlaşmaq mümkün deyildir. Şagirdlər digər mənbələrdən, fənlərdən əldə etdikləri bilik və məlumatlardan yararlanmalıdırlar. Bu, şagirdlərin məlumatlandırıcı materiallarla təmin edilməsini tələb edir. Müvafiq materialların seçilməsi, mənbələrin müəyyənləşdirilməsi dərsə hazırlıq mərhələsində müəllimin icra etdiyi işlərdəndir.

Müzakirəyə hazırlığın səmərəli təşkili, müvafiq materialların əldə olunması şagirdlərin dünyagörüşünün zənginləşməsinə, müstəqil düşüncələrinin inkişafına əhəmiyyətli təsir edir.

### II. MÜZAKİRƏ

1. "Vətənin bütövlüyü necə qorunmalıdır" mövzusunda müzakirə aparın.
2. Vətənimizə həsr olunmuş əsərlərdən, digər fənlərdən öyrəndiyiniz biliklərdən faydalanın.
3. Fərqli fikirlərə hörmətlə yanaşın.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayəni əfsanə ilə janr baxımından nümunələr əsasında müqayisə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki qəhrəmanları davranış və əməllərindəki özünəməxsusluğu əsərdən nümunələr göstərməklə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | |

# 4.
# MƏNƏVİ DƏYƏRLƏR, YAŞAYAN HİKMƏTLƏR

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Abbasqulu ağa Bakıxanov. QURD VƏ İLBİZ –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində istifadə edir (1.1.1).<br>• Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində istifadə edir (1.1.5).<br>• Şeirlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Abbasqulu ağa Bakıxanovun əsərlərindən nümunələr. "Qurd və İlbiz"lə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Suallardan dərsin maraqoyatma mərhələsində müsahibənin təşkili üçün istifadə olunması.<br>2. **Oxu. Anlama.** Şeirin ilkin və dərinləşdirilmiş oxusunun həyata keçirilməsi, qavranılma səviyyəsinin suallar əsasında müəyyənləşdirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması və dərinləşdirilməsi.<br>4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun və nəzəri anlayışlarla bağlı öyrənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.<br>5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Şifahi və yazılı nitqin inkişaf etdirilməsi üzrə müstəqil işlərin reallaşdırılması.<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə həyata keçirilən işlərin məqsədi daha çox əsərin məzmununun öyrənilməsinə xidmət edir. Oxudan sonra suallar əsasında ilkin təəssüratın müəyyənləşdirilməsi, ardınca daha əhatəli tapşırıq üzrə dərinləşdirilmiş oxu həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** Bu *təmsil uzun illər ümumtəhsil məktəblərində aşağı siniflərdə tədris edilib. Maraqlı məzmunu və ideyası ilə oxucuların, eləcə də dərslik müəlliflərinin diqqətini cəlb edib. Əsərdə alınma sözlər nisbətən çox olsa da, onun məzmununu mənimsəmək aşağı sinif şagirdləri, indiki halda VI sinifdə oxuyanlar üçün çətin deyildir. Buna şagirdlərə tanış olmayan sözlərin dərslikdə izahının verilməsi də əhəmiyyətli təsir edir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlərə "Yadasalma" başlıqlı suallarla (Oxuduğunuz təmsillərdə sizə maraqlı gələn hansı cəhətləri xatırlayırsınız? Bu əsərlərdə daha çox nəyə diqqət yetirilir?) tanış olmaq imkanı yaradılır. Ehtiyac olarsa, onlara istiqamət verilir. Aşağı sinifdə öyrənilmiş təmsillərdən (məsələn, Ə. Əlibəylinin "İlan və Qurbağa" əsəri) nümunələri xatırladan şagirdlər müsahibəyə cəlb olunurlar. Onların diqqəti suala yönləndirilir: Təmsillərin sonunda oxuculara ünvanlanan fikir daha çox hansı məzmunda olur?

Yığcam müsahibənin sonunda müəllim qeyd edir ki, öyrəniləcək əsər suala cavab tapılmasında əhəmiyyətli rol oynayacaqdır.

İlkin oxunun nəticəsinin – şagird təəssüratının müəyyənləşdirilməsi üçün dərslikdə suallar təklif edilmişdir:

– Əsər sizi maraqlandırdımı? Nəyə görə?
– Qurd haqqında ilkin təəssüratınız nə oldu?
– İlbiz barədə ilkin təsəvvürünüz necə oldu?

Əsərin maraqlı məzmunu oxucunun diqqətini ilk misralardan cəlb edir. Şagird-oxucu şeirdə təsvir olunanları bir hadisə kimi qavrayır və maraqla izləyir. O, Qurd və İlbiz obrazlarına məxsus səciyyəvi cəhətlər barədə təsəvvür qazana bilir. Lakin onların davranışlarının səbəblərini izah etməkdən yayınır. Bu, dərslikdə dərinləşdirilmiş oxu məqsədilə təklif edilmiş suallarda nəzərə alınıb. Lakin sinfin səviyyəsindən asılı olaraq, fərqli vəziyyətlər də müşahidə oluna bilər. Deməli, ikinci qrup suallara fərqli məzmunda əlavələrin edilməsinə ehtiyacın yaranması mümkündür.

– Əsərdə ilk təsvir olunanları (alma ilə birlikdə Qurdun yerə düşməsi) təsəvvürünüzdə canlandıra bilirsinizmi? Bu səhnəni necə təsvir edərsiniz?
– Salamat qalmış Qurdun lovğalanmasına, döşünə döyməsinə necə baxırsınız? Buna onun haqqı varmı? Nə üçün?
– O, salamat qalmağının səbəbini nədə görür?
– Sizcə, İlbiz ona nə üçün heyrətlə baxırdı?
– İlbizə görə, Qurdun ölümünə səbəb nə oldu?

Birinci sual şagirdlərin təxəyyülünü işə qoşmağa xidmət edir. Səhnənin təsəvvür edilməsi onun təsvir edilməsinə və şifahi ifadə olunmasına əhəmiyyətli dərəcədə təsir edir. İkinci sual təsvirdəki incə yumorun başa düşülməsinə, Qurd haqqında ilkin oxudan əldə olunmuş təsəvvürün dərinləşməsinə istiqamətləndirir. Üçüncü sual faktların sadəcə sadalanmasını tələb etmir, Qurdun baş verənlərə yanlış münasibətini aydınlaşdırmağa imkan yaradır. Dördüncü sual İlbizin hadisəyə daha ayıq münasibətini aşkara çıxarmağa səbəb olur. Sonuncu sual əsas mətləbin başa düşülməsini önə çəkir.

Sualların cavablandırılması şagirdləri düşünməyə, "gizli mətləbləri" üzə çıxarmağa yönləndirir. Bu mərhələdə müəllimin istiqamətləndirmələrinə ehtiyac yarana bilər. Həmin məqamda tətbiq olunan iş formasının nəticəyə təsirini də unutmaq olmaz. Sualların üzərində təklikdə düşünən, ilkin cavbalar hazırlayan şagirdlərin sonrakı işi əməkdaşlıq şəraitində davam etdirmələri faydalıdır.

Sonda cavabların dəyərləndirilməsi fərqli yollarla (müsahibə, təqdimatların dinlənilməsi, müzakirə və s.) həyata keçirilə bilər.

Dərslikdə təklif edilmiş test əsaslı tapşırıq məzmunla bağlı mənimsənilənlərin yoxlanması baxımından əhəmiyyətlidir. Onun icrasına az vaxt sərf edilir, bu, müzakirəni əhatəli aparmağa, variantlardan hər birinə diqqət ayırmağa imkan verir:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.
   A) Qurd cəsarətli olduğu üçün ölümdən qorxmur.
   B) Əsərdə qorxmazlıq, cəsarətli olmaq təriflənir.
   C) Qurdun qoçaqlığı İlbizi heyrətləndirir.
   D) Qurdun məhv olmasının səbəbini özündə axtarmaq doğrudur.
   E) İlbiz paxıl olduğu üçün Qurdu təhlükədən xəbərdar etmir.

2. Fikirlərdən biri səhvdir.
   A) Nəsihətamiz fikir ifadə olunub.
   B) Gülüş doğuran məqamlar da var.
   C) Qurd İlbizə üstdən aşağı baxır.
   D) İlbiz çox ehtiyatlıdır.
   E) İlbiz qurddan çəkinib onun yanına getmədi.

Növbəti tapşırıq nəzəri anlayışlar üzrə bilik və bacarıqların möhkəmləndirilməsi və məzmunla bağlı öyrənilənlərin yeni çalarlarla zənginləşdirilməsi üçün nəzərdə tutulmuşdur:

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Qurdun xarakterinə, yaxud davranışına uyğun bənzətmə işlətməklə bir cümlə yazın.
2. İlbizin xarakterinə, yaxud davranışına uyğun epitet işlətməklə bir cümlə yazın.

Tapşırığın səmərəli icrası, nəticəsinin müzakirəsi təhlilə hazırlıq baxımından əhəmiyyətlidir. Növbəti tapşırıqda mənası yeni öyrənilmiş sözlərin cümlələrdə işlədilməsi, əsərlə bağlı fərqli mövzular üzrə təqdimatın hazırlanması tələbi əks etdirilmişdir. Tapşırığın əhəmiyyətini ümumiləşdirərək ifadə etmək olar:

– mənası yeni öyrənilmiş sözlərin nitqdə möhkəmləndirilməsi;
– məzmunu öyrənilmiş əsər haqqında şəxsi mövqeyin bildirilməsi;
– əsərin təhlilinə hazırlıq.

**IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN**

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədin.
2. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.
a) Təmsildə diqqətimi daha çox cəlb edən nə oldu.
b) Əsərdəki fikirlərə əsasən hansı nəticəyə gəldim.
3. İşlərinizin nəticəsini müzakirə edin.
4. Çıxışlara münasibət bildirin.

İşin nəticəsinin müzakirəsində şagirdlərin nitqinə, obrazlılığın necə təzahür etməsinə diqqət yetirilir. Dərslikdə təmsil haqqında verilmiş yığcam məlumatın müstəqil oxusunu təşkil etmək faydalıdır.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını yeni aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən şifahi və yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Tapşırıq, şifahi sual-cavab |

**Mövzu:**

**Abbasqulu ağa Bakıxanov. QURD VƏ İLBİZ –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Təmsildəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).
- Təmsilin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).
- Öyrəndiyi yeni sözlərdən təmsillə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).
- Təmsillə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).

**Köməkçi vasitələr:** Abbasqulu ağa Bakıxanovun əsərlərindən nümunələr. “Qurd və İlbiz” əsəri ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Araşdırma. Təhlil.** Təmsilin mövzusu, ideyası üzrə araşdırılma və dəyərləndirmənin aparılması.
**2. Yaradıcı iş.** Şagirdlərdə yazılı nitqin inkişafı üzrə işin təşkili.
**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Təmsilin tədrisinə ayrılmış ikinci dərsdə əsərin mövzu və ideyasının araşdırılması, dəyərləndirilməsi və şagirdlərdə yazılı nitq bacarığının inkifafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Bunun üçün fərqli yollardan (rəmzi materiallardan, suallardan və s.) istifadə etmək olar. Şagirdlərə lovğalıqla bağlı atalar sözləri seçməyi, yaxud xatırlatmağı təklif etmək, müəyyənləşdirilənlərin əsasında yığcam müsahibə aparmaq mümkündür. Şagirdlər sual üzərində düşünürlər: Bu mövzunun müəllifi cəlb etməsinə səbəb nədir?

Şagirdərin düşüncələri dinlənilir, müəllim qeyd edir ki, təmsildəki fikirlərin təhlili suala əsaslandırılmış cavabın tapılmasına yardımçı ola bilər. Bunun üçün araşdırmanın, təhlilin aparılmasına ehtiyac vardır.

Araşdırma, təhlil məqsədilə dərsliyə daxil edilmiş tapşırıqda məzmunla bağlı mənimsənilmiş biliklər nəzərə alınmışdır. Tapşırığın bəndlərinə əlavə edilmiş tövsiyələr həmin biliklərin tətbiqini, mətnə müraciət olunmasını tələb edir. Birinci bənd və onun üçün hazırlanmış tövsiyələr aşağıdakı məzmundadır:

- Şeirin mövzusunu müəyyən etməyə çalışın. Tövsiyələri nəzərə alın:
  – təmsildə diqqətin daha çox hansı hadisəyə çəkildiyini yada salın;
  – bu hadisənin nə ilə nəticələndiyini xatırlayın;
  – nəticəyə müəllifin və özünüzün verdiyiniz qiyməti unutmayın.

Təmsildə Qurdun təlaşa düşməsi, sonra isə lovğalanması və bunun da qurbanı olması şagird-oxucu tərəfindən qavranılır. Sonda müəllifin İlbizin dili ilə səsləndirdiyi fikir oxucunu bu ibrətli hadisədən nəticə çıxarmağa yönləndirir. Əxlaqi-nəsihətamiz məzmun mövzunun müəyyən edilməsi üçün əsas olur. Tapşırığın ikinci bəndində Qurd obrazının səciyyələndirilməsi tələbi əks etdirilmişdir:

- Qurdu necə səciyyələndirərsiniz? Tövsiyələri nəzərə almaqla onun haqqında fikrinizi əsaslandırın:
  – onun müxtəlif vəziyyətlərdə nitqi – danışığı;
  – fərqli məqamlarda davranışı;
  – başqalarına münasibəti.

Təmsilin elə ilk misrasından aydın olur ki, Qurd başqasının hesabına yaşayır. O, almanın içində özünə isti yer, rahat yuva tapıb. Onun yemək-içmək sarıdan heç bir əndişəsi yoxdur. Çətinliyin, məhrumiyyətin nə demək olduğunu bilməyən Qurdun həyat təcrübəsi kimi, düşüncəsi də məhduddur. Bunu onun davranışından, nitqindən aydın müşahidə etmək olur. Alma ilə birlikdə yerə düşən Qurd qorxusundan nalə çəkir, salamat qaldığını hiss etdikdə birdən-birə dəyişilir. Bu “qurdcığaz” döşünə döyərək özünü qəhrəman kimi qələmə verir, külək və tufanın ona zərər yetirə bilməyəcəyini iddia edir. Özünü inandırmağa çalışır ki, çox gərəkli varlıq olduğuna görə Allah onu ölümdən qurtarıb. Almanın üstündə dikələn, özünü minarə sayan Qurd İlbizə ona sığınmağı təklif edir. Təkəbbürlü qurdcığazın sonu faciə ilə bitir. Yersiz öyünmək, yalançı şöhrət onun axırına çıxır.

İlbiz obrazı ondan kəskin şəkildə fərqlənir. Ehtiyatlı, hər addımını ölçüb-biçən İlbiz Qurdun davranış və sözlərinə heyrət edir. Ətrafda – təbiətdə baş verənlərə onun münasibəti fərqlidir. Nə olursa-olsun, ehtiyatı əldən verməyən İlbiz mühakiməli və ağıllıdır. Suala əlavə edilmiş tövsiyələr İlbiz obrazını ətarflı səciyyələndirməyə yardım edir:

- İlbizin səciyyəvi cəhətləri hansılardır? Onun haqqında gəldiyiniz nəticəni tövsiyələr əsasında izah edin:
  – ətrafda – təbiətdə baş verənlərə münasibəti;
  – onun heyrətlənməsinin səbəbi;
  – Qurda verdiyi qiymət.

İlbiz baş verənlərin mahiyyətini, öz vəziyyətini anlamayan Qurdun sözlərini puç hesab edir, onun davranış və hərəkətlərinə qiymət verməkdə səhv etmir:

İlbiz ahəstə dedi: “Budur, şöhrətin sonu,
Yersiz öyünmək, qürur məhv etdi axır onu”.

Tapşırığın növbəti tələbi əsərin ideyasının aydınlaşdırılması yolunda mühüm addımdır:

- Müəllifin Qurda və İlbizə münasibətini aydınlaşdırın. Tövsiyələrə diqqət edin:
  – əsərdəki təsvirləri yada salın;
  – müəllifin Qurdla bağlı sözlərini xatırlayın;
  – müəllifin İlbizlə bağlı sözlərini nəzərə alın.

Baş verən hadisələrə, iştirakçılara müəllifin münasibəti özünü açıq göstərir. Qurdu kinayə ilə “bala qurdcığaz” “qabil şəxsiyyət”, “qoçaq”, “səfeh”, “təkəbbürlü pəhlivan” adlandıran müəllif məhv

olmasını da “sarsaq ölüm” kimi dəyərləndirir. İlbizin Qurd haqqında dediklərinə haqq qazandıran müəllif onun mövqeyini bəyəndiyini də ifadə edir:

İnanın bu İlbizə, bir hikmət söyləyim mən,
Öz yurduna sığınmaq yeydir sarsaq ölümdən.

Tövsiyələri əsas götürüb tapşırığın üzərində işləyən şagirdlər qeyd olunanları aydınlaşdırmaqda çətinlik çəkmirlər.

Dərslikdə təklif edilmiş tapşırığın sonuncu bəndi əsərin ideyasının müəyyənləşdirilməsi tələbini əks etdirir. İdeya ilə bağlı cədvəldə verilmiş cavab variantları ilə işləməyin qaydası artıq şagirdlərə məlumdur. Bu variantlar onları düşünməyə, axtarışlar aparmağa, əsərə yenidən müraciət etməyə, öyrəndiklərini yaddaşlarında bərpa etməyə yönləndirir. Şagirdlərə bu da məlumdur ki, öz mövqelərini əks etdirən yeni variant da təklif edə bilərlər:

- Şeirdə ifadə olunmuş əsas fikri – ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Əsərin əsas ideyası üçün fikirlərdən hansı daha uğurludur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Yersiz lovğalıq uğursuzluğun başlanğıcıdır. | | |
| 2 | Təkəbbürlü, özündən razı olanlar yüksələ bilməzlər. | | |
| 3 | Ehtiyatlı olanlar, hər addımını ölçüb-biçənlər peşman olmazlar. | | |

Vaxtdan səmərəli istifadə olunması dərslikdə “Yaradıcı iş” başlıqlı sonuncu tapşırığın yerinə yetirilməsinə əlverişli imkan yaradır. Aşağı siniflərdə bu tipli tapşırıqla bağlı müəyyən təcrübə qazanan şagirdlərə yığcam təlimatın verilməsi məqsədəuyğundur:

### II. YARADICI İŞ

1. “Qurd və İlbiz” əsərinin mövzusunda nəsrlə yığcam təmsil yazın. İştirakçıların (məsələn, bülbül və qarğa) və məzmunun fərqli olmasına diqqət yetirin.
2. Yazılardan nümunələri dinləyib müzakirə edin.

Səciyyəvi yazılardan nümunələrin dinlənilməsi və müzakirəsi hər bir şagirdin öz işinə tənqidi yanaşmasına imkan yaradır.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Təmsildəki qəhrəmanları davranış və əməllərindəki özünəməxsusluğu əsərdən nümunələr göstərməklə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən təmsillə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |
| Təmsillə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən məqamında istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Seyid Əzim Şirvani. QAZ VƏ DURNA –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1).<br>• Təmsildəki obrazların davranışındakı özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Əsərin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Öyrəndiyi yeni sözlərdən təmsillə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Müzakirədə səsləndirilən fikirlərə hörmətlə yanaşır (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Seyid Əzim Şirvaninin əsərlərindən nümunələr, təmsilə çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Şeirin oxusu, ilkin qavrama. Təəssüratların aşkara çıxarılması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Şeirin məzmunu üzrə tərtib edilmiş sualların və onlara hazırlanmış cavabların yoxlanması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunla bağlı öyrənilənlərin dərinləşdirilməsi üzrə müstəqil işin reallaşdırılması.<br>4. **Müzakirə.** Şeirin mövzusunun, ideya məzmununun dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Bədii əsər oxunur, ilkin qavranılma səviyyəsi – təəssüratlar müəyyənləşdirilir, məzmunun öyrənilməsi, təhlil üzrə mənimsənilmiş bilik və bacarıqlar tətbiq edilir.

**Müəllim üçün əlavə məlumat.** *Məqsəddən və sinfin səviyyəsindən asılı olaraq, dərslikdəki tapşırıqlara əlavələr etmək olar. Məsələn, Qaz və Durna obrazlarının müqayisəli təhlili, məzmunla bağlı səhnələşdirmə tələbi və s.*

Şagirdlər "Oxu. Anlama" başlıqlı tapşırığın tələbləri ilə tanış olurlar. Müəllim yığcam müsahibə ilə təəssüratların bölüşülməsi prosesini idarə edir. İlkin qavrama səviyyəsinin aşkara çıxarılması dərinləşdirilmiş oxuda nələrə diqqət yetirməyin lazım olduğunu müəyyənləşdirməyə imkan verir. Bu nəticə əldə edildikdən sonra şagirdlər müəllimin təklifi ilə məzmuna aid suallar tərtib edirlər. Müəllim müstəqil işə nəzarət edir, şagirdləri daha səmərəli işləməyə istiqamətləndirir. Sualların tərtibində, onlara cavabların hazırlanmasında şagirdlər bədii mətnlə sıx təmasda olurlar. Nəticə dərslikdəki tapşırığın tələbləri əsasında yoxlanılır:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

Çıxışların fəal dinlənilməsi, onlara münasibət bildirilməsi, səsləndirilən fikirlərə hörmətlə yanaşılması diqqət mərkəzində olur.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlıqlı tapşırığın qarşısında bir neçə vəzifə qoyulmuşdur:

– Şeirdə ifadə olunmuş fikirlərin ardıcıl olaraq aydınlaşdırılması.
– Yazılı nitqin inkişafı üzrə işin təşkili.

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Kiçik qruplarda iş.

**I qrup:** Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bir neçəsinin cümlələrdə işlədilməsi.

**II qrup:** Şeirin ilk altı misrasında ifadə olunmuş fikrin aydınlaşdırılması və qısaca yazılması.
**III qrup:** Əsərdəki növbəti altı misrada ifadə edilmiş mənanın aydınlaşdırılması və yığcam yazılması.
**IV qrup:** Şeirin sonrakı altı misrasında əksini tapmış fikirlərin aydınlaşdırılması və qısaca yazılması.
**V qrup:**
a) Şeirin son iki misrasındakı başlıca fikrin aydınlaşdırılması və qısaca yazılması.
b) Təmsildə çıxarılmış nəticənin bütövlükdə aydınlaşdırılması və yığcam yazılması.

2. Yazılı qeydlərin əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

Müəllimin məqsədindən, sinfin səviyyəsindən asılı olaraq, tapşırığın tələblərində dəyişiklik etmək mümkündür. Məsələn, şeirin ayrı-ayrı parçalarında ifadə edilmiş fikirləri yazmamaq, qısa qeydlərlə kifayətələnmək də olar. Bu, vaxta qənaət edilməsi deməkdir.

Tapşırığın kiçik qruplarda icra olunması geniş əməkdaşlığın təmin edilməsi baxımından faydalıdır. Təqdimatlarda fərqli fikirlərə hörmətlə yanaşılmasına, mənası yeni öyrənilmiş sözlərdən istifadə olunmasına diqqət yetirilir.

Dərslikdəki "Müzakirə" başlıqlı tapşırıq şagirdlərin araşdırma və təhlil bacarıqlarının tətbiqinə geniş imkan yaradır. Müzakirəyə hazırlaşmaq üçün kifayət qədər vaxt ayırmaq lazımdır. Şagirdlərin kiçik qruplar şəklində işləməsi məqsədəuyğundur. Əməkdaşlığın təmin edilməsi cavabların daha tez və səmərəli hazırlanmasına səbəb olur.

## IV. MÜZAKİRƏ

1. Müzakirədə aşağıdakı tələbləri əhatə etməyə çalışın:
   a) Şeirin mövzusu nədir.
   b) Qazın davranışı, nitqi-danışığı onun haqqında hansı təsəvvür yaradır.
   c) Durnanın nitqi-danışığı onun barəsində necə təəssürat oyadır.
   b) Təmsili yazmaqda müəllifin niyyəti nə olmuşdur.
   c) Əsərin əsas ideyası nədir.
2. A.Bakıxanovun "Qurd və İlbiz" şeiri ilə S.Ə.Şirvaninin "Qaz və Durna" təmsilini müqayisə edin.

| **A.Bakıxanov. "Qurd və İlbiz" , S.Ə.Şirvani. "Qaz və Durna"** | | | |
|---|---|---|---|
| Hansı mövzuda yazılmışdır? | Məzmunlarında oxşar və fərqli cəhətlər hansılardır? | İştirakçıların davranış və əməllərində oxşar və fərqli cəhətlər vardırmı? | İfadə etdikləri əsas fikir – ideya arasında oxşarlıq, yaxud fərq varmı? |
| | | | |

3. İşinizin nəticəsini müzakirə edin.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Təmsildəki obrazların davranışındakı özünəməxsusluğu nümunələrlə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən təmsillə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövqeyini əsaslandırmaqla təmsillə bağlı müzakirədə səsləndirilən fikirlərə hörmətlə yanaşır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə “Sənə qurban canım, Azərbaycanım” əsəri üzrə aparıla bilər.*

*İslam Səfərli*

**SƏNƏ QURBAN CANIM, AZƏRBAYCANIM!**

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

Torpağın ətrini sinəmə çəkdim,
Dodağım gül açdı, ürəyim çiçək.
Xəzər sahilində bir çinar əkdim,
Söyüdlər nazlandı gülümsəyərək.
Dəniz mahnısını oxudu sanki
Ətəyi ləpəli, qırçınlı Bakı...
Kükrədi ilhamım, qaynadı qanım,
Sənə qurban canım, Azərbaycanım!

Ağ bir şərid kimi uzanıb gedir
Dumanlı, çiskinli, günəşli yollar,
Bəzisi həyatdan usanıb gedir,
Mənimsə yollarda hekayətim var.
El özü qoruyar axarlı şeri,
Dağlar quzey qarı sərində saxlar.
Bağrıma basmasam hər qarış yeri,
Torpaq öz sirrini dərində saxlar.
Aç söylə, qoy bir də alışım, yanım,
Sənə qurban canım, Azərbaycanım!

Meyvəli bağçalar, bəhərli çöllər,
Ellərə can verib, min şərbət dadır.
Axarlı çaylaqlar, səfalı göllər,
Gümüş şəlalələr bu torpaqdadır.
Hərdən düşüncələr sarır insanı,
Çayüstü körpülər asma yolumdur.
Bağrıma basmışam Azərbaycanı:
Araz bir qolumdur! Kür bir qolumdur!
Əlvan naxışlısan, doğma məkanım,
Sənə qurban canım, Azərbaycanım!

Bu necə mənadır, bu necə hikmət,
Deyirlər ağlayır bulağın gözü.
Danışır təbiət - şair təbiət,
Qovağın dili var, çinarın sözü.
Mənim də boş yerə sözüm olmayıb,
Qəlbinə dəymədim əsla bir kəsin.
Özgə torpağında gözüm olmayıb,
Ana torpağıma göz dikilməsin!
Əmr et! Keşiyində mətin dayanım,
Sənə qurban canım, Azərbaycanım!

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Şeir mövzusuna görə hansı əsərlə oxşardır?**
A) Tənha nar ağacı B) Kozetta C) İlin qızıl fəsli D) Bulaq başında E) Balaca Qara Balıq

**2. Şeirin məzmunundan çıxış edərək “şərid”, “çaylaq”, “qırçın” sözlərinin mənasını aydınlaşdırın.**

______________________________________________

______________________________________________

**3. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinə aid nümunələr yazın.**

| | |
|---|---|
| Epitet | |
| Bənzətmə | |

**4. Şeirdə diqqətinizi daha çox çəkən misralar hansılardır? Fikrinizi əsaslandırın.**

______________________________________________

______________________________________________

**5. Şeirin qəhrəmanı haqqında hansı fikri demək olmaz?**
A) Vətən torpağının toxunulmazlığı üçün narahatlıq hissi keçirir.
B) Vətən yolunda fəda olmağa hazırdır.

C) Vətənin gözəlliyi onu ilhama gətirir.
D) Ozünü Azərbaycanın bir parçası hesab edir.
E) Vətənin bərəkətli torpaqlarının sərvətinin başqa ölkələrə daşınmasından narazıdır.

**6.** ***Aşağıdakı misralarda ifadə olunmuş fikri izah edin.***

*El özü qoruyar axarlı şeri,*
*Dağlar quzey qarı sərində saxlar*

---

---

**7. Əsərin ifadəli oxusu zamanı səsdə hansı çalar duyulmamalıdır?**

A) Təəssüf B) Fərəh C) Heyranlıq D) Qətiyyət E) Qürur

**8. Əsəri mövzuca yaxın olan digər bir əsərlə müqayisə edin, oxşarlığı təsdiq edən nümunələr göstərin.**

| Sənə qurban canım, Azərbaycanım | Mövzuca yaxın olan əsər |
|---|---|
| | |

**9. Əsərin sizdə doğurduğu hiss və düşüncələri yığcam şəkildə yazın.**

---

---

**10. "Sənə qurban canım, Azərbaycanım" şeirindən aşağıdakı nümunələrlə səsləşən misralar seçib cədvəldə yazın.**

| | |
|---|---|
| Mənə ilham verir o yaşıl çəmən,<br>Üstümə quş kimi yağan yasəmən... | |
| Vətən gözdür, biz kirpik,<br>Gözümüzün keşiyini çəkirik. | |
| Mən sənin dilinə dəymirəm, cəllad,<br>Gəl sən də bu ana dilimə dəymə! | |
| Nə çoxdur qoynumda almalı bağlar!<br>Qüdrətim göylərin dilini bağlar.<br>Meşəli dərələr, sal buzlu dağlar,<br>Dağların süd kimi qarı məndədir. | |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**RƏY İNŞANI NECƏ YAZMALI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Fakt və dəlilləri müqayisə edərək seçir (3.1.1).<br>• Rəy xarakterli inşada fikirlərini əsaslandırır (3.1.3).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Rəy xarakterli inşa ilə bağlı mətnin oxunması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.<br>4. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Rəy xarakterli inşanın icrası ilə bağlı mətnin məzmununun öyrənilməsi, mənimsənilənlərin tətbiqi üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *İlk növbədə şagirdlərin rəy xarakterli yazı üzrə bacarıqlarının aşkara çıxarılması məqsədəuyğundur. Bu, sonrakı mərhələlərdə işin təşkilinə əhəmiyyətli dərəcədə təsir edir.*

Dərslikdəki "İnşanı necə yazmalı" mətnində rəy xarakterli yazı ilə bağlı hissənin oxusu həyata keçirilir. Materialın həcminin az olması onun səsli oxunmasına imkan verir. Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra əsasında aşağıdakı suallar dayanan yığcam müsahibə aparılır:

– Rəy xarakterli inşanın başlıca xüsusiyyətləri hansılardır?
– Belə yazılar hansı mövzularda olur?
– Rəy inşalar üçün mövzular necə müəyyənləşdirilir?
– Rəy inşaları yazmaq üçün hansı işlərin yerinə yetirilməsi vacibdir?

Müsahibə öyrədici xarakterdə olur, başqa sözlə, müəllimin əlavə məlumat verməsi zəruridir. Məsələn, şagirdlər oxuduqları mətnə əsasən birinci sualla bağlı qeyd edirlər ki, rəy inşalar nə barədə yazılacaqsa, onun ətraflı öyrənilməsi lazımdır. Müəllim əlavə edir ki, rəy inşada obyekt müxtəlif cəhətlərdən araşdırılır, təhlil edilir və münasibət bildirilir. Bu yazıda təsvir obyektinin dəyərləndirilməsi vacibdir.

İkinci sualla da bağlı əlavələrə ehtiyac var. Şagirdlər izah edirlər ki, rəy inşalar bədii əsər, teatr tamaşası, rəsm, heykəltəraşlıq, musiqi əsərləri ilə bağlı yazılır. Əlavə olunur ki, əlamətdar və tarixi günlər, mühüm siyasi və mədəni hadisələr, tədbirlər və s. bağlı da rəy inşaların yazılması mümkün və faydalıdır.

Üçüncü sualla bağlı əlavələr edilir: rəy inşalar üçün müəyyənləşdirilən mövzuların konkret olmasına diqqət yetirilir. Məsələn, bədii əsərdən, teatr tamaşasından, mühüm hadisədən, tədbirdən və s. yazılması planlaşdırılan inşada konkret bir komponentin (məsələn, bədii əsərdən, teatr tamaşasından bir obrazın) üzərində dayanılması məqbul hesab edilir.

Dördüncü suala cavab verən şagirdlər, ümumiyyətlə, inşanın icrası üçün öyrəndikləri qaydaları xatırlatmağa üstünlük verirlər. Onların diqqəti rəy inşa üçün səciyyəvi olan cəhətlərə yönləndirilir: mövzuda əhatə olunanların hər biri haqqında mükəmməl məlumatın olması, əhatə olunan hər bir obyektin güclü, zəif, uğurlu, qüsurlu cəhətlərinə diqqət yetirilməsi, haqqında danışılanın dəyərləndirilməsi və s.

Rəy inşa ilə bağlı mənimsənilmiş biliyin möhkəmləndirilməsi və zənginləşdirilməsi konkret nümunə əsasında reallaşdırılır. Haqqında inşa yazılacaq əsərin həcminin yığcam olması məqsədəuyğundur. Burada nümunə kimi şagirdlərin öyrəndikləri "İlyas" nağılı seçilmişdir. Mövzu "İlyas" nağılının təhlili" şəklində formalaşdırılmışdır. Nağlın məzmunu ilə bağlı yığcam müsahibədən sonra şagirdlərin fəal iştirakı ilə plan tərtib edilir. Girişdə əhatə olunacaq məsələlər xatırladıldıqdan sonra yazının əsas hissəsində əksini tapmalı olan məsələlər tezis şəklində ifadə edilir. Bura əsərin təhlili ilə bağlı mühüm komponentlər (nağılın mövzu və ideyası, obrazları, bədii keyfiyyətləri, janr xüsusiyyətləri) daxildir.

Şagirdlərə planın bəndləri üzərində düşünmək və ilkin qeydlərini ardıcıl yazmaq təklif edilir. Onlara məlumdur ki, icra olunan iş inşanın ilk, qaralama variantı hesab olunur. Burada başlıca məqsəd inşanın ümumi mənzərəsinin təsəvvür edilməsi və görüntüsünün yaradılmasıdır. Bu mərhələdə fikirlərin ilkin əsaslandırılmasına, fakt və dəlillərdən daha mühüm olanların seçilməsinə cəhd edilir. Fikirlərin aydınlığına diqqət yetirilsə də, "xırda" qüsurlara – orfoqrafik səhvlərə, sözlərin yersiz təkrarına və s. hələ sonra qayıdılacaqdır. Bütün bunlar, eləcə də tamamlama işinin aparılması növbəti dərsdə həyat keçirilir. İcra olunmuş işlər dərs üçün müəyyənləşdirilmiş standartların əsasında qiymətləndirmənin aparılmasına imkan verir.

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Fakt və dəlilləri müqayisə edərək mühüm olanları seçir. | Yazı | Dərslik, iş vərəqləri |
| Rəy xarakterli inşada fikirlərini nümunələrlə əsaslandırır. | Yazı | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**RƏY İNŞANIN YAZILMASI –**

**1 saat**

**Təlim məqsədləri**
- Fakt və dəlilləri müqayisə edərək seçir (3.1.1).
- Əsərdəki başlıca fikri dəyərləndirir (3.1.2).
- Rəy xarakterli inşada fikirlərini əsaslandırır (3.1.3).

**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.

**Dərsin qısa planı**
1. Yazının ilkin (qaralama) variantının hazırlanması.
2. İlkin variantın gözdən keçirilməsi.
3. Yazının tamamlanması.
4. Yazının oxunması, düzəlişlərin edilməsi.
5. Yazının müzakirəsi və özünüqiymətləndirmə.
6. Formativ qiymətləndirmə.

**Dərsin məzmunu.** Rəy xarakterli inşanın hazırlanması, müzakirəsi və qiymətləndirməsi üzrə işin təşkili reallaşdırılır.

Dərsdə yazının ilkin – qaralama variantının üzərində iş davam etdirilir və tamamlanır. Sonrakı iş yazının gözdən keçirilməsi olur. Başqa sözlə, şagirdlər yazılarının dərinləşdirilməsi istiqmətində işi davam etdirirlər. Fikirlərin aydın ifadə olunmasına, aralarındakı əlaqələrin məntiqli olmasına səy edirlər. Rabitəli nitqə nail olmaq, fikir aydınlığı bu mərhələdəki işin əsasını təşkil edir. Əsərin mövzusunun, başlıca ideyasının aydınlaşdırılması məqsədilə mətndən faktların müqayisə əsasında seçilməsi diqqət mərkəzində olur. Ədəbi qəhrəmanların, xüsusən İlyas və padşah obrazlarının davranış və əməlləri, nitqləri, başqalarına münasibətləri təhlil obyektinə çevrilir, hər biri haqqında əsərdən seçilmiş nümunələr əsasında rəy bildirilir.

Təhlildə diqqət yetirilən başlıca məsələlərdən biri nağılın bədii keyfiyyətləri olur. Şagirdlərin diqqətini nağılın dil və janr xüsusiyyətləri cəlb edir. Dilin aydınlığı, danışıq dilinə yaxınlığı, nağıl janrına məxsus cəhətlərin – hadisələrin sürətli inkişafı, gözlənilməz dönüm barədə misallar əsasında rəy bildirilir.

Yazıda şagirdlərin tənqidi rəylərinə də yer verilir. Hökmdar obrazının bəzi davranışları, verdiyi qərarlar əsaslandırılmamış qalır. Bunun nağıl janrının özünəməxsusluğu ilə izah etməyə çalışanlar da olur.

Yazılarda nağılın yaratdığı təəssüratlar da yer alır. İlyasın ağıl və fərasəti, çətin vəziyyətlərdən çıxması şagirdləri mütəəssir edir.

Yazını tamamlayan şagirdlər onu oxuyurlar. Bu, vacibdir. Ərsəyə gəlmiş yazının bütövlükdə oxunması, zəruri düzəlişlərin, xüsusən dil-üslub baxımından dəqiqləşdirmənin aparılması onun keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edir.

Yazı müzakirəyə çıxarılmazdan əvvəl özünüqiymətləndirmə həyata keçirilə bilər. Bunun üçün fərqli məzmunda meyarlar təklif edilir. Variantlardan birini aşağıdakı məzmunda müəyyənləşdirmək olar:

| s. | Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|---|
| 1. | Mövzu haqqında aydın təsəvvür yarada bilmişəm. | | |
| 2. | Mövzu ilə bağlı hiss və düşüncələrimi əhatəli ifadə etmişəm. | | |
| 3. | İşlətdiyim söz və cümlələrlə yazının məzmunu ilə bağlı aydın təəssüratın yaranmasına nail olmuşam. | | |
| 4. | Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin qısa və aydın yazılmasına, fikrin tez başa düşülməsinə nail olmuşam. | | |
| 5. | Yazının hissələri arasında əlaqəni nəzərə almışam. | | |
| 5. | Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |
| 6. | Yazının həcmini tələbə uyğundur. | | |

Müzakirədə fəal dinləmə, fərqli fikirlərə dözümlü münasibət təmin olunur.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Fakt və dəlilləri müqayisə edərək məzmuna uyğun olanları seçir. | Yazı | İş vərəqləri |
| Əsərdəki baçlıca fikri nümunələr əsasında dəyərləndirir. | Yazı | İş vərəqləri |
| Fikirlərini nümunələrlə əsaslandırır. | Yazı | İş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Xəlil Rza Ulutürk. LAYLAM MƏNİM, NƏRƏM MƏNİM –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU, ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1).<br>• Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (1.1.5).<br>• Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Mövqeyini əsaslandırmaqla şeirlə bağlı müzakirədə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Xəlil Rza Ulutürkün əsərlərindən nümunələr. “Laylam mənim, nərəm mənim” şeiri ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Bu başlıq altında verilmiş suallardan mövzu üzrə mənimsənilmiş biliklərin bərpa edilməsi, maraqoyatma üçün istifadə olunur.<br>2. **Oxu. Anlama.** Şeirin ilkin oxusu, yaranmış təəssüratların müəyyənləşdirilməsi, dərslikdə təklif edilmiş sualların əsasında dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin test tapşırıqları ilə yoxlanması və dərinləşdirilməsi.<br>4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Nəzəri anlayışlarla bağlı öyrənilənlərin möhkəmləndirilməsi, zənginləşdirilməsi üzrə işin təşkili.<br>5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Yazılı nitqin inkişafı üzrə müstəqil işin təşkili, şeirin və müəllifin ilkin dəyərləndirilməsi.<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə şeirin məzmununun öyrənilməsi aşağıdakı ardıcıllıqla həyata keçirilir: şeirini ilkin oxusundan sonra şagirdlər təəssüratlarını suallar əsasında bölüşürlər, ardınca dərslikdəki sualların üzərində düşünən şagirdlər dərinləşdirilmiş oxu məqsədilə mətnə müraciət edirlər.

**Müəllim üçün əlavə məlumat.** *Şeirin ilkin oxusunun səsli, yaxud səssiz olmasından asılı olaraq, fərqli vəziyyət yaranır; səssiz oxudan sonra ayrı-ayrı misra və bəndlərin necə qavranıldığı təəssüratların bölüşülməsi mərhələsində, əsasən, aydınlaşmış olur. Səsli oxunun tətbiq edilməsi prosesində isə bəzi misraların izah edilməsinə diqqət yetirilir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Diqqət “Yadasalma” başlıqlı suallara (Ana dilimizə həsr olunmuş hansı şeirlərlə tanışsınız? Xatırladığınız şeirdə sizə daha çox təsir edən nə olub?) cəlb edilir. Şagirdlər müəllimin istiqamətləndirici sualları əsasında nümunələri xatırlayırlar. Sual səsləndirilir: Bu mövzuda yazılan əsərlərdə daha çox hansı məsələlərə önəm verilir?

Fikirlər dinlənilir. Müəllim qeyd edir ki, öyrənəcəkləri əsər bu tipli suallara cavab tapılması baxımından tutarlı nümunədir.

İlkin oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlərə dərslikdəki sualların əsasında təəssüratlarını bildirmək təklif olunur:

– Şeir sizdə maraq oyatdımı? Nə üçün?
– Anlamaqda çətinlik çəkdiyiniz məqamlar oldumu?
– Şeirin sizdə yaratdığı ovqatı izah etməyə çalışın.

Məktəbdə uzun illər tədris olunan bu şeiri şagirdlər maraqla mütaliə edirlər. Əsərin əvvəli onlar üçün, xüsusilə cəlbedicidir. Həmin parçadakı “Dörd qulac ip Bir yüyrüyü bənd eləmiş kəhkəşana” misralarında ifadə edilmiş fikir onlara aydın olmasa da, məzmunu ümumilikdə qavrayırlar.

İkinci parçadakı fikirlərin əksəriyyəti kiçik oxuculara konkret təsir bağışlayır. Çənlibel, onun igidləri barədəki məlumatları asanlıqla xatırlayan şagirdlər son misralardakı ümumiləşdirməni izah etməkdə çətinlik çəkirlər.

Üçüncü parçadakı fikirlərə münasibətdə fərqli vəziyyət müşahidə olunur. Şagirdlərin əksəriyyəti "ana dili məhv olarsa, böyük fəlakət olar" fikrini şeirin sözləri ilə, ondan nümunələr gətirməklə izah etməkdə çətinlik çəkirlər. Onların az qismi burada ifadə olunmuş fikri ümumi şəkildə də olsa, izah edə bilir.

Son iki parça şagirdlərdə zəngin təəssürat yaradır. Yalnız son misraların mənasını izah etməkdə şagirdlərin böyük əksəriyyəti tərəddüd edir: O sahili bu sahillə birləşdirən polad körpüm, qılıncımdır, günəşimdir mənim dilim!

Bütün bunların aydınlaşdırılması dərinləşdirilmiş oxunun aparılmasını zəruri edir. Bu, həmçinin belə oxunun səmərəli keçməsini təmin edən sualların hansı məzmunda hazırlanmasına da istiqamət verir.

Dərslikdə təklif edilmiş suallar aşağıdakılardır:

– Sizcə, şair nə üçün ilk olaraq ana laylasını xatırlayır?

– Bu səhnəni necə təsəvvür etdiniz? Onu sözlə təsvir edə bilərsinizmi?

– Şeirdəki "Dörd qulac ip bir yüyrüyü bənd eləmiş kəhkəşana" misralarındakı fikri necə anladınız?

– Əsərdəki "Bayaq ana südü əmib, İndi ana ruhu əmir" misralarının üzərində düşündünüzmü? Burada hansı fikir ifadə edilib?

– Sizcə, şairdə ana dilinə məhəbbət necə yaranıb?

– Şairin fikrincə, ana dili "məhv olarsa" nə baş verər?

– Vətənimizin tarixi, xalqımızın taleyi şeirdə necə əks etdirilib? Fikrinizi təsdiq edən nümunələr göstərin.

– Doğma yurduna, ana dilinə laqeyd olanlara şair necə münasibət bəsləyir? Suala əsərdən nümunələr göstərməklə cavab hazırlayın.

– Şeirdəki "O sahili bu sahillə birləşdirən polad körpüm, qılıncımdır, günəşimdir mənim dilim!" misralarında ifadə olunmuş fikri necə izah edərsiniz?

Göründüyü kimi, müstəqil oxudan sonra şagirdlərin çətinlik çəkdikləri məsələlərə suallarda xüsusi diqqət yetirilib. Suallara cavab hazırlayan şagidlərin fikir mübadiləsi aparmalarına, əməkdaşlıq etmələrinə şərait yaradılır. Məktəbin imkanı varsa, internet resurslarından istifadə edilməsinə diqqət yetirilir. Bu baxımdan şeirlə bağlı fikirlərlə tanış olmaq, ifadəli oxu nümunələrini dinləmək şagirdlərin təsəvvürünü zənginləşdirir.

Suallara cavabların hazırlanması fərqli iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Bütün hallarda sualların üzərində şagirdlərin fərdi olaraq düşünmələrinə imkan yaradılır. İlkin cavabları təsəvvür edən şagirdlər işi əməkdaşlıq etməklə (cütlük şəklində, yaxud kiçik qruplarda) davam etdirirlər.

Nəticənin yoxlanması da fərqli şəkillərdə reallaşdırıla bilər. Müsahibənin aparılması, yaxud təqdimatların müzakirəsi yollarından birini seçmək mümkündür. Tapşırığın icrası çox vaxt aparıbsa, müsahibənin tətbiqi məqsədəuyğundur.

Öyrənilənlərin nəticəsi barədə test tapşırıqlarının fərdi yerinə yetirilməsi daha etibarlı vasitə hesab edilə bilər:

## II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Fikirlərdən biri doğrudur.

A) Uşaq doğma dilin şirinliyini ilk dəfə anasının danışığından duyur.
B) İşğalçıların yurdumuza qəsd etməsi ana dilimizi sarsıtmışdır.
C) Çənlibel igidləri ana dilini məhv olmaqdan xilas ediblər.
D) Ana dilinin məhv olması doğma yurdun varlığına təsir etməz.
E) Dilimizdən yalnız bu sahildə – Şimali Azərbaycanda istifadə olunur.

2. Fikirlərdən biri səhvdir.

A) Uşaq doğma dilə və doğma yurda sevgini ilk dəfə anasından öyrənir.
B) Şair doğma dilinə biganə olan, onu qorumayan insanları görmək istəmir.
C) Ölkəmizə hücum edən işğalçılar dilimizi məhv edə bilməyiblər.
D) Doğma yurd və ana dili insan üçün eyni dərəcədə əzizdir.
E) Ana öz övladına dilimizi qorumağı tövsiyə edir.

Artıq müəyyən təcrübə qazanan şagirdlər cavab variantlarının hər birinə münasibət bildirməyin vacib olduğunu bilirlər. Cavabların dinlənilməsi, variantların təhlili müsahibənin tətbiqi ilə gerçəkləşdirilir.

Dərslikdə "Möhkəmləndirmə. Zənginləşdirmə" başlıqlı növbəti tapşırıq nəzəri anlayışlarla bağlı bilik və bacarıqların, məzmun üzrə mənimsənilənlərin, eləcə də yazılı nitqin möhkəmlənməsinə, zənginləşməsinə töhfə verir:

### III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

- Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misraları müəyyənləşdirin.
- Sözləri saxlamaqla həmin misralardakı fikri nəsr şəklində yazın.

Sonrakı tapşırığın yerinə yetirilməsi şagirdlərdən müstəqil düşüncə və ümumiləşdirmə bacarığı tələb edir:

### IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən bir neçəsini cümlələrdə işlədib yazın. Cümlələrin şeirin məzmununa aid olmasına çalışın.

2. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.
   a) Şeirdə ana dili haqqında yeni nə öyrəndim.
   b) Şeirin müəllifi haqqında nə düşünürəm.

3. İşlərinizin nəticəsini müzakirə edin.

4. Çıxışlara münasibət bildirin.

Tapşırığın tələblərini ümumiləşdirilmiş şəkildə ifadə etmək olar:
– mənası yeni öyrənilmiş sözlərin nitqə daxil olması, əsərin məzmunu ilə bağlı öyrənilənlərin zənginləşdirilməsi;
– şeirin və müəllifinin ilkin dəyərləndirilməsi.

Tapşırığın birinci tələbinə əsasən mənasını yeni öyrəndiyi sözlərdən bir neçəsini cümlədə işlədən şagird yazdıqlarının şeirin məzmununa aid olmasına çalışmalıdır. Deməli, bu, müəyyən mənada məzmunla bağlı münasibətin ifadə edilməsi deməkdir. Bunun icra olunması müstəqil yanaşmanın mövcudluğunu tələb edir. Məsələn, mənası yeni öyrənilmiş *məğrur* sözü cümlədə bu şəkildə işlədilir: Şairin fikrincə, dilimiz də xalqımız kimi, tarix boyu məğrur olmuşdur.

Tapşırıqdakı "Şeirdə ana dili haqqında yeni nə öyrəndim" tələbinə məzmunla bağlı aparılmış işlər əhatəli cavab verməyə imkan yaradır. Buna baxmayaraq, şagirdlər mətnə yenidən müraciət etməli olurlar. Ana dilinin tarix boyu məğrur olması, babaların nəfəsində, igidlərin nərəsində yaşaması kimi fikirlər şagirdlər üçün yenidir.

Şeirin müəllifi haqqında aşağı siniflərdən müəyyən məlumat əldə edən şagirdlər onun azadlıq mücahidi olduğunu, vətənini, xalqını sönməyən məhəbbətlə sevdiyini ifadə etməkdə çətinlik çəkmirlər.

Çıxışların fəal dinlənilməsi, mənası yeni öyrənilmiş sözlərdən istifadə olunması, fərqli fikirlərə hörmətlə yanaşılması müzakirədə diqqət yetirilən məsələlərdən olur.

## Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını yeni aydınlaşdırdığı sözlərdən yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövqeyini əsaslandırmaqla şeirlə bağlı müzakirədə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Xəlil Rza Ulutürk. LAYLAM MƏNİM, NƏRƏM MƏNİM –**<br><br>**2 saat**<br><br>**İkinci saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Şeiri ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (1.1.2).<br>• Təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Şeirlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Xəlil Rza Ulutürkün əsərlərindən nümunələr. “Laylam mənim, nərəm mənim” şeiri ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Şeirin mövzusu, ideyası, ədəbi-nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin aparılması.<br>**2. İfadəli oxuya hazırlaşın.** Şeirin ifadəli oxusu üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** İkinci dərsdə əsərin mövzu və ideyasının araşdırılması və aydınlaşdırılması, nəzəri anlayış, eləcə də ifadəli oxu ilə bağlı bilik və bacarıqların tətbiqi, zənginləşdirilməsi üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Ana dilinə həsr olunmuş şeirlərdən bir neçəsi, onların müəllifləri xatırladılır. Sual səsləndirilir: Bu mövzuya çoxlu sayda müraciət olunmasına səbəb, sizcə, nədir?

Şagirdlər fikirlərini səsləndirirlər. Müəllim qeyd edir ki, bu dərsdə icra olunacaq işlər sualın cavabının aydınlaşdırılmasına əhəmiyyətli təsir edəcəkdir.

Dərslikdə əks olunmuş “Araşdırma. Təhlil” başlıqlı tapşırığın hər bəndini bir kiçik qrupa həvalə etməklə araşdırmanı təşkil etmək mümkündür. Bu, vaxta qənət etməyə imkan verir. Tapşırığın bəndlərinə əlavə edilmiş tövsiyələrin şagirdlərin səmərəli işləməsində ciddi rolu olur. Birinci bənd və onun üçün nəzərdə tutulmuş tövsiyələr aşağıdakı kimidir:

- Şeirin mövzusunu müəyyənləşdirin. Tövsiyələrə diqqət edin:

– şeirin hər parçasında nədən danışıldığını xatırlayın;
– həmin parçaları birləşdirən başlıca fikri yada salın;
– hansı fikrində şairin daha qətiyyətli olduğunu nəzərə alın.

Şeirin məzmunu barədə dolğun təsəvvürə malik olan şagirdlər mətnə yenidən müraciət edirlər. Onlar hər parçada nədən danışıldığını izah etməkdə çətinlik çəkmir, başlıca fikrin ana dilinə sonsuz sevginin olduğunu da asanlıqla müəyyənləşdirirlər. Sonuncu tövsiyə fikir ayrılığına səbəb olur. Şagirdlərin əksəriyyəti şeirin sonuncu parçasındakı fikirlərə üstünlük verir, şairin məhz bu mövqeyində daha qətiyyətli olduğunu sübut etməyə çalışır. Bir qrup isə şeirin bütün parçalarında müəllifin qətiyyətli olduğunu əsaslandırmağa səy edir.

Tapşırığın ikinci sualı daha qızğın mübahisəyə səbəb olur:

- Sizcə, ana dilinə dərin sevginin yaranmasına səbəb nə ola bilər? Tövsiyələri nəzərə alın.

– ana laylası ilə bağlı deyinlənləri yada salın;
– ana ilə övladın doğma dildə ünsiyyətini təsəvvür edin;
– doğma yurdun tarixi və xalqın taleyi ilə bağlı deyilənləri xatırlayın.

Şagirdlərin böyük əksəriyyəti şeirin məzmunundan çıxış edir, bu sevginin ana laylası, ana südü ilə yarandığını bildirirlər. Daha sonra uşaq anasından eşitdiyi kəlmələri təkrar edir, zaman ötdükcə bu dilin babaların, xalqın varlığının ifadəsi olduğunu anlayır. Onun ruhuna hopan, qəlbində özünə yer edən bu sevgi əbədi olur.

Tapşırıqdakı növbəti sual şeirdə ifadə olunmuş mühüm fikrin dəyərləndirlməsi məqsədini güdür:

- Ana dili öz varlığını necə qoruyub saxlaya bilər? Tövsiyələrə diqqət edin.

– ana dili məhv olarsa, nəticəsinin necə olacağı barədə deyilənləri yada salın;
– doğma yurdun qorunmasına şairin münasibətini xatırlayın;
– ana dilinin qorunması ilə bağlı şairin mövqeyini nəzərə alın.

Vətənlə ana dilinin qırılmaz bağlılığını başa düşmək və dəyərləndirmək baxımından sual əhəmiyyətli və maraqlıdır. Cavabın daha tutarlı olması üçün şeirdən nümunələrin seçilməsi vacibdir.

Sonrakı tapşırıqla bağlı bacarıqlara yiyələnmiş olan şagirdlər onun yerinə yetirilməsində xüsusi fəallıq göstərirlər:

- Əsərdə maraqlı hesab etdiyiniz təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni aydınlaşdırmağa çalışın. Cədvəldən istifadə edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələr | Bədiiliyin artamasında onların rolu |
|---|---|
| | |

Tapşırığın sonuncu bəndi şeirin ideyasının aydınlaşdırılması ilə bağlı olub, şagirdlərdən idraki fəallıq, müstəqil düşüncə tələb edir. Şagirdlər variantları təhli etmək, geniş müzakirə aparmaq imkanına malik olurlar. Üzərində dayanılmış variant, yaxud yeni təklif edilənlər əsaslandırılmalıdır.

- Şeirdə ifadə olunmuş əsas fikri – ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Əsərin əsas ideyası üçün fikirlərdən hansı daha uğurludur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Ana dili o dildə danışanlar üçün əzizdir. | | |
| 2 | Ana dilini sevmək və yaşatmaq hamının borcudur. | | |
| 3 | Ana dilini sevmək azdır, onu yaşatmaq üçün doğma yurdun qorunub saxlanması da vacibdir. | | |

Dərslikdəki sonuncu tapşırıq ifadəli oxuya hazırlıq və icrası üçün nəzərdə tutulmuşdur. Mətnlə, nümunə ilə tanış olan şagirdlərin yığcam müzakirə aparmalarına vaxt ayrılır. Daha sonra onlara şeirdən seçdikləri parçanın üzərində işləmək təklif olunur. Müəllimin istiqamətləndirici suallarla yardımına ehtiyac vardır.

## II. İFADƏLİ OXUYA HAZIRLAŞIN

1. Aşağıdakı tövsiyəni və nümunəni müzakirə edin.

Bilirsiniz ki, əsər məzmunundan asılı olaraq, uca, yaxud aşağı səslə, sürətlə və ya aramla oxunur. Eləcə də məzmuna uyğun olaraq, səsdə dəyişilmələr (sevinc, fərəh, yaxud kədər, qəzəb və s.) baş verir. Oxuda müəyyən məqamlarda fasilələrin edildiyini də bilirsiniz. Məsələn, şeirlərin oxusunda misra daxilində, misranın sonunda fasilələrin edilməsi vacib olur. Bunlara əməl edilməsi oxunun təsirli olmasına imkan yaradır.

Mətnin üzərində şərti işarələrin qoyulması ifaçının (şeiri oxuyanın) işini xeyli asanlaşdırır. Nümunəyə baxaq:

Layla axır... | çocuq baxır. |
Bəs nə üçün | mürgüləmir? |
Bayaq ana | südü əmib, |
İndi ana | ruhu əmir. ||

Aramla
Təəccüblə
Hərarətlə

2. Şeirdən seçdiyiniz bir parçanın ifadəli oxusuna hazrlaşın. Şərti işarələrdən istifadə etməyi unutmayın.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeiri ideya məzmununa və düzgün ədəbi tələffüz qaydalarına uyğun ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Mahirə Nağıqızı. ANA DİLİM –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Şeiri ideya məzmununa uyğun səs çalarları və düzgün ədəbi tələffüz qaydalarına əməl etməklə ifadəli oxuyur (1.1.2).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br><br>**Köməkçi vasitələr:** Mahirə Nağıqızının əsərlərindən seçmələr, şeirlərinə çəkilmiş illüstrasiyalar, yaradıcılığından nümunələrin ifadəli oxusunu əks etdirən videogörüntülər.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Şeirin oxusu, ilkin qavranılma səviyyəsinin aşkara çıxarılması. Mətnə aid sualların və onlara cavabların hazırlanması. Dərinləşdirilmiş oxu məqsədilə mətnə müraciət edilməsi.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Şeirin məzmunu üzrə tərtib edilmiş sualların və cavablarının yoxlanması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Məzmunun öyrənilməsinin dərinləşdirilməsi üzrə müstəqil işin təşkili.<br>4. **Müzakirə.** Şeirin mövzusunun, ideya məzmununun dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>5. **İfadəli oxuya hazırlaşın.**<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Şagirdlərin bədii əsərin oxusu, məzmununun öyrənilməsi, təhlili üzrə mənimsəmiş olduqları bilik və bacarıqların yeni təlim materialının əsasında tətbiqi ön plana çəkilir. Onların müstəqil fəaliyyətinə geniş yer verilən bu dərsdə əsərin məzmununa aid sualların tərtibi, onlara cavabların hazırlanması, dərinləşdirilmiş oxunun nəticələrinin möhkəmləndirilməsi, araşdırma, təhlil xarakterli sualların əsasında müzakirənin təşkili diqqət mərkəzində saxlanılır.

İfadəli oxu üzrə tövsiyənin və nümunənin öyrənilməsi, əsərdən parçanın oxusu üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Məqsəddən, sinfin səviyyəsindən, vaxt büdcəsindən asılı olaraq, tapşırıqlara yaradıcı münasibət məqsədəuyğundur. Məsələn, şagirdlər məzmuna aid suallar tərtib etmədən də mətnə dərinləşdirilmiş oxu niyyətilə müraciət edə bilərlər. Bunun üçün ilkin oxudan sonra yığcam müsahibənin aparılması kifayətdir. Eləcə də "Müzakirə" başlığı altında verilmiş sualları birləşdirmək, yaxud onlardan bəzilərini ixtisar etmək mümkündür.*

Şagirdlər "Oxu. Anlama" tapşırığının tələbləri ilə tanış olurlar. Şeirin səsli, yaxud səssiz oxunması sinfin səviyyəsindən, məlumat mənbələri ilə təchiz olunmasından asılıdır. Məsələn, səssiz oxuda "qıpçaq çölləri", "oğuz elləri", "qopuz", "qaramat", "fitrət", "yasa" kimi söz və ifadələri lüğətlərin köməyi ilə aydınlaşdıran şagirdlər misra və bəndlərin mənasını anlamağa cəhd edirlər. İlkin oxudan sonra aydınlaşır ki, şeirin bəndlərindəki mətnaltı mətləblərin bir qismini izah etmək şagirdlərin əksəriyyətinə müyəssər olmur. Dərinləşdirilmiş oxuda həmin mətləblərə müraciət etməyə yönləndirən sualların nəzərdə tutulması məqsədəuyğundur.

Dərslikdəki növbəti tapşırıq tərtib edilmiş sualların, onların cavablarının, dolayısı ilə dərinləşdirilmiş oxunun müzakirəsinə xidmət edir:

### II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Daha uğurlu saydıqlarınızı qeyd edin.

Müzakirədən aydınlaşır ki, bu mətləblərin, eləcə də şeirdəki digər incəliklərin mahiyyəti qədərincə qavranılmayıb. Buna nail olmaq üçün dərslikdəki növbəti tapşırığın üzərində işin təşkili zəruri olur:

### III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Kiçik qruplarda iş.

**I qrup:** Mətnaltı mənaları aydınlaşdırmaqla **ş**eirin ilk bəndini nəsrə çevirin. Məzmununa əlavələr etməklə yaradıcı nağıletməyə hazırlaşın.

**II qrup:** Mətnaltı mənaları aydınlaşdırmaqla **ş**eirin ikinci bəndini nəsrə çevirin. Məzmununa əlavələr etməklə yaradıcı nağıletməyə hazırlaşın.

**III qrup:** Mətnaltı mənaları aydınlaşdırmaqla **ş**eirin üçüncü bəndini nəsrə çevirin. Məzmununa əlavələr etməklə yaradıcı nağıletməyə hazırlaşın.

**IV qrup:** Mətnaltı mənaları aydınlaşdırmaqla **ş**eirin dördüncü bəndini nəsrə çevirin. Məzmununa əlavələr etməklə yaradıcı nağıletməyə hazırlaşın.

**V qrup:** Mətnaltı mənaları aydınlaşdırmaqla **ş**eirin beşinci bəndini nəsrə çevirin. Məzmununa əlavələr etməklə yaradıcı nağıletməyə hazırlaşın.

2. Yazılı qeydlər əsasında təqdimatların edilməsi.
3. Təqdimatların müzakirəsi.

Tapşırığın bu məzmunda müəyyənləşdirilməsi mətn üzərində daha dərindən və ciddi işləməyə səbəb olur. Ayrı-ayrı bəndlərin nəsrə çevrilməsi, üstəlik, məzmununun yaradıcı nağıl edilməsi daha dərin qatlara nüfuz edilməsinə əlverişli imkan yaradır. Unutmaq olmaz ki, şeir mühüm mətləblərlə zəngindir. Ana dili əsərdə çox geniş anlamda mənalandırılmışdır. Şairin fikrincə, dədə-baba əmanəti olan ana dilinin tarixi qədimdir, onun "bu dünyanın yaşı qədər tarixi var". Bu dilin sirlərini, dərin qatlarını öyrənmək, başa çatdırmaq mümkün deyildir. Ana dilinin yayıldığı ərazilər isə ucsuz-bucaqsızdır. O, qıpçaq çöllərindən, oğuz ellərindən pərvazlanıb, qopuzun səsi ilə yayılıb...

Millətin, böyük sənətkarların formalaşmasında, ölməz sənət əsərlərinin yaranmasında ana dilinin misilsiz rolu dil vasitələrindən şeirdə məharətlə istifadə edilməklə diqqətə çatdırılıb.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra yazılı qeydlər əsasında hazırlanmış təqdimatların dinlənilməsi həyata keçirilir. Qrupların hər bir üzvünün təqdimatlarda, yaradıcı nağıletmədə iştirakı təmin edilir. Diskussiya şəraitində keçən müzakirədə müəllimin çevik fəaliyyətindən, çıxışları səmərəli istiqamətə yönəltməsindən çox şey asılıdır.

Tapşırığın qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi təhlil, araşdırma məzmunlu növbəti işin səviyyəsinə ciddi təsir edir:

### IV. MÜZAKİRƏ

1. Müzakirədə aşağıdakı tələbləri əhatə etməyə çalışın:

a) Şeirin mövzusu nədir.
b) Ana dili nə üçün qədim hesab edilir.
c) Şairin ana dili haqqındakı "Yurd yaratdın, xalqıma ev-eşik oldun, Laylalarla ruhumuza beşik oldun" fikirləri sizdə hansı hiss və düşüncənin yaranmasına səbəb oldu?
d) Şair nə üçün ana dilini "dədə-babadan qalan" əmanət hesab edir?
e) Tanınmış sənətkarların: Nizami, Nəsimi, Füzulinin şeirdə xatırladılmasının səbəbini necə izah etmək olar?
f) Vətənin dar günündə ana dilinin rolu necə dəyərləndirilə bilər?
g) Ana dilinin vətən qədər əziz sayılmasının səbəbini necə izah etmək olar?
h) Bu şeiri yazmaqda şairin əsas niyyəti nə olmuşdur?

2. X.R.Ulutürkün "Laylam mənim, nərəm mənim" əsəri ilə M.Nağıqızının "Ana dilim" şeirini müqayisə edin.

| X.R.Ulutürk "Laylam mənim, nərəm mənim", M.Nağıqızı "Ana dilim" | | | |
|---|---|---|---|
| Hansı mövzuda yazılmışdır? | Şeirlərdə oxşar fikirlər hansılardır? | Şeirlərdə fərqli fikirlər hansılardır? | İfadə etdikləri əsas fikir – ideya arasında oxşarlıq, yaxud fərq varmı? |
| | | | |

3. Müzakirədə fəal olun.

Müzakirənin – tapşırığın əhəmiyyətini ümumiləşdirmək olar:

– Şeirin mövzusu, ideyası ilə bağlı dəyərləndirmələrin həyata keçirilməsi.

– Əsərlə bağlı mənimsənilmiş bilik və bacarıqlardan fərqli niyyətlərin aydınlaşdırılması üçün istifadə olunması.

– Şeirdə ana dili haqqında şəxsi qənaətin ifadə edilməsi.

Müzakirəyə hazırlıq üçün vaxt ayrılır. Şagirdlər cavabların üzərində əvvəlcə fərdi olaraq düşünür və işləyirlər. Daha sonra cütlük şəklində fikir mübadiləsi aparıb cavablarında konkretliyə, dəqiqləşdirməyə nail olurlar.

Tapşırığın müqayisə tələb edən ikinci bəndi üzrə işi kiçik qruplarda təşkil etmək faydalıdır. Müzakirənin fəal dinlənilməsi və daha çox şagirdi əhatə etməsi onun səmərəliliyinin göstəricisi kimi dəyərləndirilə bilər.

Növbəti tapşırıq ifadəli oxu ilə bağlıdır. Bu oxu üzrə mənimsənilmiş bilik və bacarıqlar tapşırığın yerinə yetirilməsində mühüm rol oynayır. İfaçılıq vəzifəsinin müəyyənləşdirilməsi və yerinə yetirilməsi ciddi yanaşma tələb edir. O, oxunacaq parçadakı əsas fikri özündə əks etdirməlidir. Oxu prosesində isə ifaçının bütün fəaliyyəti məhz bu vəzifənin reallaşmasına hesablanmalıdır.

Şeirin ayrı-ayrı bəndlərinin oxusunda səs məzmundan asılı olaraq, fərqli çalarlar qazanır. Oxuda bunun özünü təbii göstərməsi mətndəki hiss və düşüncələrə ifaçının – şagirdin münasibətindən asılıdır. Əsəri duymaq, ondakı hiss-həyəcana ortaq olmaq ifanın səmimi və inandırıcı olmasına təsir edən başlıca şərtdir. Buna nail olmaq üçün ardıcıl işin aparılması vacibdir.

Şərti işarələrdən düzgün istifadə mətnin başa düşülməsi, ifanın qarşısında duran vəzifənin aydın təsəvvür edilməsi sayəsində mümkün olur.

## VI. İFADƏLİ OXUYA HAZIRLAŞIN

**Şeirin ilk iki bəndinin oxusuna hazırlıq.**

– Əvvəcə ifaçılıq vəzifəsini – dinləyiciyə nə çatdıracağınızı müəyyənləşdirin.
– Hər bəndin oxusunda səsinizin aldığı çalarları iş vərəqində (şeirin mətninin kənarında) yazın.
– Fasilələrin yerini, səsin ucalığını, sürətini və s. müəyyənləşdirib nümunədə olduğu kimi şərti işarələrlə göstərin.

Nizaminin hikmətini | sən yaratdın, |
Nəsiminin qüdrətini | sən yaratdın, |
Füzilinin fitrətini | sən yaratdın, |
Hikmət dolu söz büsatı, | ana dilim, |
Dədəm-babam amanatı, ana dilim! ||

**İFAÇILIQ VƏZİFƏSİ**

Ana dilinin qüdrətinə inam hissinin ifadəsi

Təntənəli

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeiri ideya məzmununa uyğun səs çalarları və ədəbi tələffüz qaydalarına əməl etməklə ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlədən şeirlə bağlı müzakirə və təqdimatlarda istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Səməd Behrəngi. BALACA QARA BALIQ –**<br><br>**4 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayənin məzmununu plan əsasında yığcam nağıl edir (1.1.3).<br>• Hekayədə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (1.1.5).<br>• Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.2.1).<br>• Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Səməd Behrənginin əsərlərindən nümunələr. "Balaca Qara Balıq" hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Başlığa aid olan sualdan maraqoyatma vasitəsi kimi istfadə edilməsi.<br>2. **Oxu. Anlama.** Hekayədən verilmiş parçanın ilkin oxusu, təəssüratların bölüşülməsi, dərslikdə təklif edilmiş sualların əsasında dərinləşdirilmiş oxunun reallaşdırılması.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunla bağlı öyrənilənlərin test tapşırıqları əsasında yoxlanması.<br>4. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Əsərdən seçilmiş parçanın müxtəlif formalarda (yığcam və geniş) nağıl edilməsi.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** *Birinci variant.* Dərsdə hekayənin bir parçasının məzmunu öyrənilir. Bu məqsədlə ilkin oxu, onun nəticəsinin aşkara çıxarılması, dərslikdə təklif olunmuş suallara cavab hazırlamaq niyyətilə mətnə yenidən müraciət edilməsi həyata keçirilir. Öyrənilənlərin test tapşırıqları əsasında yoxlanması, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi və zənginləşdirilməsi üzrə işin təşkili, məzmunun fərqli formalarda nağıl edilməsinin reallaşdırılması diqqət mərkəzində saxlanılır.

*İkinci variant.* Hekayədən nəzərdə tutulmuş parçanın məzmununun öyrənilməsi fərqli dərs modeli və təlim metodlarının tətbiqi ilə həyata keçirirlir. Bu variant dərslikdə təklif edilmiş suallara və tapşırıqlara fərqli yanaşmanı zəruri edir. Belə ki, dərslikdəki tapşırıqların bir qisminin (məsələn, "Öyrəndiklərinizi yoxlayın") tətbiqinə ehtiyac qalmır. Çünki tətbiq olunan metodlar hekayənin məzmununun mənimsənilmə səviyyəsi barədə aydın təsəvvür yaradır.

**Müəllim üçün əlavə məlumat.** *Onlarla dilə tərcümə olunan, bir çox ölkələrdə təhsil proqramına daxil edilən Səməd Behrənginin "Balaca Qara Balıq" hekayəsi maraqlı məzmunu, qəhrəmanının yüksək idealı, müəllifin mütərəqqi ideyaları ilə böyük rəğbət qazanmışdır. Əsərin öyrədilməsi müəllimdən metodik ustalıq, pedaqoji məharət, incə psixoloji duyum tələb edir. Bütün bunların mövcudluğu əsərin oxusu, təhlili və dəyərləndirilməsi də daxil olmaqla bütün mərhələlərdə vacibdir.*

*Hekayədə elə bir kəlmə, cümlə yoxdur ki, qəhrəmanın, yaxud müəllifin niyyətinin açıqlanmasına əhəmiyyətli təsir etməsin. Bu, oxu prosesində diqqətli olmağı, yerinə yetirilməsi nəzərdə tutulmuş işlərin səmərəli təşkilinə məsuliyyətli yanaşmağı tələb edir.*

*Dərslikdə tətbiq edilmiş dərs modeli barədə kifayət qədər təcrübə qazanıldığından bu hekayənin öyrənilməsində ondan istifadə edilməsi çətinlik yaratmayacaqdır. Müəllim dərslikdə təklif olunmuş sual və tapşırıqlardan istifadə etməklə dərsi həmin model əsasında təşkil edə bilər. Burada isə ikinci variantın – fərqli metodların tətbiqi ilə keçilən dərsin qısa təsviri verilmişdir.*

Dərsin səciyyəvi məqamlarının təsvirinə nəzər salaq.

Dərsin ilk – düşünməyə yönəltmə (gözlənti yaratma) mərhələsində təlim materialının öyrənilməsinə hazırlıq işləri həyata keçirilir. Bu mərhələdə qarşıya iki məqsəd qoyulur:

a) Şagirdləri əsərin müəyyən bir anlayışı ilə tanış etmək (məna xəritəsi metodundan istifadə);

b) Şagirdlərin mövcud bilik və məlumatlılıq səviyyəsini dəyərləndirmək (terminə görə təxmin etmə metodunun tətbiqi).

Şagirdlərə su gölməçəsinin təsviri əks olunmuş yığcam mətni oxumaq, yaxud "gölməçə" anlayışı ilə bağlı bildiklərini xatırlamaları təklif olunur. Sonra şagirdlərdən həmin anlayışla bağlı məlumatlarını siniflə bölüşmələri xahiş edilir. Aşağıdakı məzmunda müsahibənin baş tutmasına nail olunur:

**Müəllim:** Gölməçə haqqında ilk fikriniz necə oldu?

**Şagird:** O, suyun bir yerdə toplanıb qalmasıdır.

**Müəllim:** Daha hansı cəhətləri var?

**Şagird:** Gölməçədən suyun axması mümkün olmur.

**Müəllim:** Bəs gölməçənin suyu qurumur?

**Şagird:** Ola bilsin ki, ona kiçik arxla su gəlir, yaxud suyunu yağış artırır.

**Müəllim:** Gölməçədə canlılar yaşayırmı?

**Şagird:** Əlbəttə, yaşayır. Gölməçə böyükdürsə, kiçik balıqlar, çömçəquyruqlar, qurbağalar yaşaya bilir.

**Müəllim:** Gölməçələri görünüşü necə olur?

**Şagird:** Gölməçələrin suyu çox vaxt sarı rəngdə olur, çirkli olduğu aydınca görünür.

Deyilənlərin əsasında aşağıdakı məzmunda məna xəritəsi yaradılmış olur:




Müəllim şagirdlərə aşağıdakı dörd əşya – anlayış haqqında düşünüb, onların yer aldığı bir neçə cümlədən ibarət əhvalat fikirləşməyi təklif edir: arx, gölməçə, çömçəquyruq, kiçik balıq. Əhvalatın iştirakçıları, hadisələrin baş verdiyi məkan haqqında məlumat əksini tapa bilər.

Təklikdə düşünmək üçün şagirdlərə bir neçə dəqiqə vaxt ayrılır. Fərdi fikirləşən şagirdlər az sonra cütlük şəklində birləşərək düşündüklərini bir əhvalat şəklinə salırlar. Dörd-beş dəqiqədən sonra müəllimin təklifi ilə şagirdlər formalaşdırdıqları əhvalatı siniflə bölüşürlər. Fərqli məzmunda əhvalatlar səsləndirilir:

– Havalar çox isti keçdiyinə görə meşənin yaxınlığındakı gölməçə qurumağa başladı. Susuzluqdan ölmüş balıq, çömçəquyruqlar göründü.

– Gölməçəyə arxla gələn azca su onu qurumağa qoymurdu. Amma orada yaşayan canlılar çox əziyyət çəkirdilər. Suyun çirkli olması, qidanın olmaması onların ölməsinə səbəb olurdu.

Dərsin ikinci mərhələsində – biliyin ərsəyə gətirilməsi (biliyin qurulması) mətnin oxusu həyata keçirilir. Bunun üçün istiqamətləndirilmiş oxu metodundan istifadə olunur. Müəllim qeyd edir ki, hekayədə haqqında danışılan dörd əşya-anlayış yer alıb. Qayda şagirdlərə izah olunur: bitkin parçalara bölünmüş hekayə səssiz oxunur. Hər parçanın oxusundan əvvəl suallar veriləcək. Oxu prosesində həmin suala cavabın tapılmasına səy göstəriləcəkdir.

Şagirdlərə ilk parçanı oxumaq və aşağıdakı suala cavab hazırlamaq təklif olunur: Ana və bala harada yaşayır, bu yer maraqlı, cəlbedici sayıla bilərmi?

*Çillə axşamı idi. Qoca Balıq dənizin dibində on iki min nəvə-nəticəsini ətrafına yığıb nağıl deyirdi: "Biri var idi, biri yox idi, bir Balaca Qara Balıq var idi. Bu Balaca Qara Balıq anası ilə bərabər kiçik bir arxda yaşayırdı. Arxın suyu sal qayalardan çıxıb dərənin dərinliyinə axırdı.*

*Ana və bala səhərdən axşama qədər bir-birinin dalına düşüb üzür, hərdən başqa balıqlara qoşulub sürətlə balaca bir yerdə gəzişir və geri qayıdırdılar. Balaca Qara Balıq anasının yeganə övladı idi. Bir*

*neçə gün idi, Balaca Qara Balıq dalğın, fikirli görünür, çox az danışırdı. Demə, Balaca Balığın dərdi varmış...*

**Müəllim:** Ana balıq və onun yeganə övladı olan Balaca Qara Balığın yaşadıqları yer barədə nə düşünürsünüz?

**I şagird:** Onlar kiçik bir arxda yaşayırlar. Onlar bütün günü balaca bir yerdə gəzişirlər.

**II şagird:** Onların yaşadıqları arx çox kiçikdir. Suyun hara axdığını heç bilmirlər də...

**III şagird:** Onlar hər gün eyni yerdə üzür və geri qayıdırlar.

**IV şagird:** Bu yer darıxdırıcıdır.

**Müəllim:** İndi ikinci parçanı səssiz oxuyacaqsınız. Belə bir suala cavab hazırlayın: Balaca Balığın dərdi nə imiş, onun haqqında sizdə hansı hiss və düşüncə yarandı?

*Bir gün səhər tezdən, günəş doğmamış, Balaca Balıq anasını yuxudan oyadıb:*

*– Anacan, – dedi, – sənə bir neçə kəlmə sözüm var.*

*– Eh, sən də vaxt tapdın! Danışmağı sonraya saxla. Yaxşı olar ki, gəzməyə çıxaq, – deyə Ana Balıq gözlərini ovuşdurdu və əsnədi.*

*– Yox, anacan, mən daha belə gəzməyi istəmirəm. Gərək buradan gedəm, – deyə Balaca Balıq etiraz etdi.*

*Anası heyrətlə ona baxıb soruşdu:*

*– Doğrudan, getmək istəyirsən?*

*– Bəli, anacan, hökmən getməliyəm!*

*– Axı, ala-qaranlıqda hara getmək istəyirsən?*

*– İstəyirəm, gedim görüm, arx harada qurtarır. Belə qərara gəlmişəm ki, özüm gedim arxın qurtaracağını tapım. Bilmək istəyirəm, başqa yerlərdə nə var, nə yox...*

**Müəllim:** Balaca Balığın dərdi nə imiş, o, yaşadığı yeri nə üçün tərk etmək istəyir?

**I şagird:** Balaca Balıq getmək fikrini anasına birdə-birə demir. O, günlərlə fikir edir.

**II şagird:** Balaca Balıq yorucu, bezdirici yerdə qalmaq istəmir. O, hər gün üzdüyü arxın hara getdiyini bilmək istəyir.

**III şagird:** Balaca Balıq yeni yerlər görməyi arzulayır, bilmək istəyir ki, başqa yerlərdə həyat necədir.

**IV şagird:** Balaca Balıq cəsarətlidir. Onun arzusunu, istəyini başa düşürəm.

**Müəllim:** Balaca Balığın arzusunu anası və qonşular necə qarşılayırlar? Onu nə üçün başa düşmürlər?

*– Mən də uşaq olanda belə fikirlərə düşmüşəm, balacan! Arxın nə əvvəli var, nə axırı. Elə gördüyün nə varsa, odur. Arx həmişə axır və qurtarmır.*

*– Yox, anacan, mən belə gəzintidən yorulmuşam. Buradan uzaqlaşmaq və başqa yerlərdə nələr olduğunu bilmək istəyirəm. Bilmək istəyirəm görüm, həyat elə bir qarış yerdə o yan-bu yana gedib-qayıtmaqdanmı, qocalıb heç nə görməməkdənmi ibarətdir, yoxsa başqa dünya da mövcuddur?*

*– Balaca, dəli olmusan? Dünya! Dünya! O başqa dünya nə deməkdir? Dünya elə həmin dünyadır ki, biz yaşayırıq, həyat da ki elə gördüyün yaşayışdan ibarətdir!*

*Bu zaman iri bir Balıq onların evinə yaxınlaşdı:*

*– Qonşu, – dedi, – uşaqla nəyin üstündə belə höcətləşirsən? Deyəsən, bu gün gəzmək fikriniz yoxdur?*

*Ana Balıq qonşunun səsini eşidib cavab verdi:*

*– Gör zəmanə necə dəyişib?! Uşaqlar öz analarına cib-cib öyrətməyə başlayıblar.*

*– Necə məgər? – deyə qonşu iri Balıq soruşdu.*

*– Gör, bu cırtdan haralara getmək istəyir?! Hey deyir ki, istəyirəm gedim görüm dünyada nələr olur?*

*Qonşu iri Balıq:*

*– Balaca, – dedi, – de görüm, sən nə vaxtdan belə filosof və alim olmusan ki, bizim xəbərimiz yoxdur?!*

*Balaca Balıq dedi:*

*– Hər gün təkrar olunan cansıxıcı gəzintilərdən cana doymuşam. Belə yorucu həyatı davam etdirmək istəmirəm. İstəmirəm ki, bir də gözümü açanda görüm, sizin kimi qocalmışam, özü də göz-qulaqları bağlı balıqlar kimi qalmışam.*

*Qonşu Balıq:*

*– Vay, - dedi, – gör bu nələr danışır?!*

**Müəllim:** Balaca balığın vəziyyətini anladınızmı?

**I şagird:** Anası ona dərhal etiraz edir. İstədiklərinin uşaq arzusu olduğunu bildirir.

**II şagird:** Balaca Balığın anası başqa dünyanın olması fikrini qəbul etmir. Qonşu Balıq da başqa dünya haqqındakı fikri mənasız hesab edir.

**III şagird:** Balaca Balığı inandırmaq çətindir. O, fikrində qətidir. Onu başa düşməsələr də, fikrindən asanlıqla əl çəkən deyil.

**Müəllim:** Oxuyacağınız növbəti parçada diqqətli olun: Balaca Balığa kimlər, necə təsir etmək istəyirlər?

*Ana Balıq dilləndi:*

*– Heç düşünməmişdim ki, bircə uşağım ola, o da belə çıxa! Bilmirəm, balamın qulağını kim doldurub…*

*Balaca Balıq dedi:*

*– Heç kim mənim qulağımı doldurmayıb. Anlamaq üçün mənim özümün ağlım, görmək üçün də gözüm var!*

*Qonşu Balıq Balaca Balığın anasına dedi:*

*– Bacı, o pıç-pıç danışan İlbiz yadındadırmı?*

*– Yaxşı yadıma saldın, yadımdadır! Tez-tez uşağımın yanına gələrdi. Görüm onu gorbagor olsun!*

*Balaca Balıq dedi:*

*– Bəsdir, ana! O mənim dostum idi!*

*– Balıqla İlbizin dostluğunu eşitməmişdik, bunu da eşitdik!*

*Balaca Balıq:*

*– Mən də balıqlarla İlbizin düşmənçiliyini eşitməmişdim. Ancaq siz o biçarənin başını yediniz! – dedi.*

*Qonşu dilləndi:*

*– Bu, keçmişin söhbətidir.*

*– Keçmişi siz özünüz yada saldınız!*

*Anası dedi:*

*– Elə ölməli idi! Məgər oturub-durub danışdıqları yadından çıxıb?!*

*– Onda məni də öldürün. Çünki mən də onun dediklərini deyirəm, – deyə Balaca Balıq gileyləndi.*

**Müəllim:** Hansı nəticəyə gəldiniz?

**I şagird:** Balaca Balığa anası və qonşu təsir etməyə çalışırlar.

**II şagird:** Onlar Balaca Balığı kiminsə öyrətdiyini düşünürlər.

**III şagird:** Vaxtilə Balaca Balıqla dostluq edən İlbizin də bu cür söhbətlər etdiyini xatırlayıb haqqında danışırlar.

**IV şagird:** Balaca Balıq anasına və qonşuya ağıllı cavablar verərək onları susdurmağa çalışır.

**Müəllim:** Balaca Balığın inadkarlığını gördünüz. Amma o daha böyük təzyiqlərə məruz qalır. İndi oxuyacağınız parçada onun keçirdiyi hiss, həyəcana diqqət edin.

*Axır ki, nə başınızı ağrıdım, səs-küyün sədası başqa balıqları da oraya çəkib gətirdi. Balaca Balığın sözləri hamısını əsəbiləşdirmişdi. Qoca balıqlar bir-bir söhbətə qarışıb Balaca Balığa acıqlandılar.*

*Balıqlar yerbəyerdən çığırdılar:*

*– Başqa dünya yoxdur! Dünya elə gördüyün bu dünyadan ibarətdir. Qayıt!*

*Ana Balıq doluxsunaraq dilləndi:*

*– Mənə rəhmin gəlsin, bala! Getmə! Getmə!*

*Balaca Balıq onların dediklərinə etina etmədən uzaqlaşdı. O, dostlarından ayrılarkən dedi:*

*– Görüşənə qədər, dostlar! Məni unutmayın!*

*Dostları:*

*– Heç unudarıqmı? Sən bizi qəflət yuxusundan oyatdın. Bizə elə şeylər öyrətdin ki, heç yuxumuza da girməzdi. Görüşənə qədər, ağıllı və cəsur dost!*

*Balaca Balıq aşağı sürüşüb suyu arxa nisbətən çox olan gölməçəyə düşdü. Əvvəlcə özünü itirdi. Sonra üzməyə və gölməçədə dolanmağa başladı. Balaca Balıq bu vaxtadək bu qədər suyun bir yerə*

*yığıldığını görməmişdi. Suda minlərlə çömçəquyruq gəzişirdi. Balaca Balığı görən kimi onu məsxərəyə qoydular:*

*– Bir bunun təhər-tövrünə bax! Sən nə məxluqsan?!*

*Balaca Balıq ani olaraq fikirləşib:*

*– Xahiş edirəm təhqir etməyin, - dedi, - mənim adım Balaca Qara Balıqdır. Siz də adınızı deyin, tanış olaq!*

*– Biz bir-birimizi "Çömçəquyruq" deyə çağırırıq.*

*Balaca Balıq soruşdu:*

*– Siz ki gölməçədən qırağa çıxa bilmirsiniz, dünyanı gəzib dolanmaqdan necə dəm vura bilərsiniz.*

*Çömçəquyruqlar təəccübləndilər:*

*– Məgər gölməçədən başqa da özgə dünya var?*

*– Bəs necə? Özünüz fikirləşin, görün yaşadığınız su haradan axıb gəlir və sudan kənarda nələr var?*

*– Sudan qıraqda da yer olar? Biz indiyə qədər sudan başqa heç yeri görməmişik. Ha, ha ha! Sən dəli olubsan, nədir?!*

*Balaca Qara Balığı da gülmək tutdu. Fikirləşdi ki, çömçəquyruqları başa salmadan çıxıb getsin. Sonra belə qərara gəldi ki, onların anaları ilə də bir-iki kəlmə danışsın.*

*– Ananız haradadır?*

**Müəllim:** Bir neçə dostundan başqa hamı Balaca Balığa qarşı çıxır. O, səfərə çıxdıqdan sonra da çətin anlar yaşayır. Bütün bunlar ona necə təsir edir?

**I şagird:** Anası və bütün qonşular Balaca Balığa acıqlanır, başqa dünyanın olmadığını əsəbi şəkildə israr edirlər. Bütün bunlar onu həyəcanlandırsa da, səfərindən qalmır.

**II şagird:** Balaca Balığın dostları da var. O, dostlarını qəflət yuxusundan oyadıb. Onlarla səmimi vidalaşan Balaca Balıq yeni məkana gəlib çıxır. Suyu daha çox olan gölməçəyə düşən Balaca Balıq özünü itirsə də, yeni yerdə cəsarətlə üzməyə, dolanmağa başlayır.

**III şagird:** Balaca Balığın yeni yerdə tanış olduğu çömçəquyruqlar da balıqlar kimi düşünürlər. Onlar üçün başqa dünya, özgə həyat yoxdur. Bütün bunlar Balaca Balığı həyəcanlandırsa da, onların gözlərini açmağa çalışır.

Dərsin sonuncu – möhkəmləndirmə (birləşdirmə) mərhələsində obrazlar xəritəsi hazırlanır. Onda iştirakçıların xarakterindəki başlıca cəhətlər və əsərdən bunları təsdiq edən nümunələr əks etdirilir.




Bu istiqamətdə aparılan işin sonunda dərslikdə təklif edilmiş tapşırıqlardan ikisinin üzərində işin təşkilinə vaxt ayırmaq olar:

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Əsərdən seçdiyiniz iki cümləyə epitet və ya bənzətmə artırın.
2. Cümlələri müzakirə edib dəyərləndirin.

Fərdi yerinə yetirilmiş tapşırığın cavablarının müsahibə ilə yoxlanılması vaxta qənaət baxımından sərfəlidir. Sonrakı tapşırıqla bağlı təcrübə qazanmış şagirdlər ona hazırlaşmağa az vaxt sərf edirlər:

## IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Əsərdən seçdiyiniz parçanı əvvəl *yığcam,* sonra *yaradıcı* nağıletməyə hazırlaşın.

2. Çıxışlara münasibət bildirin.
Səciyyəvi cavablardan bir neçəsinin dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayənin məzmununu plan əsasında əsas fikri ifadə etməklə yığcam danışır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitəlrini yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Səməd Behrəngi. BALACA QARA BALIQ –**

**4 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**
- Hekayədən bitkin parçanın məzmununu yığcam nağıl edir (1.1.3).
- Hekayədə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrini şifahi nitqində istifadə edir (1.1.5).
- Müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).

**Köməkçi vasitələr:** Səməd Behrənginin əsərlərindən nümunələr. “Balaca Qara Balıq” hekayəsi ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Oxu. Anlama.** Hekayənin ardının oxunması, ilkin qavranma səviyyəsinin aşkara çıxarılması, dərinləşdirilmiş oxunun həyata keçirilməsi.
2. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mətnin məzmunu, bədii təsvir və ifadə vasitələri ilə bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi.
3. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Ümumiləşdirmə bacarığının inkişaf etdirilməsi məqsədilə şifahi nitq üzrə işin təşkili.
4. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** *Birinci variant.* “Balaca Qara Balıq” hekayəsinin məzmunu öyrənilir, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi, şifahi nitq üzrə işin təşkili zəminində ümumiləşdirmə bacarığının inkişaf etdirilməsi həyata keçirilir.

*İkinci variant.* Əsərin məzmununun öyrənilməsinə *fasilələrlə oxunun* tətbiqi ilə başlanılır. Nəzəri anlayışlarla bağlı möhkəmləndirmə, zənginləşdirmə, eləcə də şifahi nitqin inkişafı üzrə işin təşkili gerçəkləşdirilir.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin ardının öyrənilməsi üçün dərslikdə təklif edilmiş dərs modeli tətbiq oluna bilər. Yəni əsərin ilkin qavranılması səviyyəsinin aşkara çıxarılması, dərslikdə təklif edilmiş suallar əsasında dərinləşdirilmiş oxunun reallaşdırılması mümkündür. Burada fasilələrlə oxunun tətbiqi üzrə işin səciyyəvi məqamları təsvir edilmişdir.*

Şagirdlərə izah olunur ki, hekayədən dərsdə oxunacaq hissə üç parçaya ayrılmışdır. Hər parçanın oxusundan sonra fasilə ediləcək və məzmunun necə qavranıldığını aşkara çıxarmaq məqsədilə suallar veriləcəkdir.

Mətni əvəzlənməklə şagirdlərin oxuması məqsədəuyğundur. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsinə diqqət yetirilir.

**BİRİNCİ PARÇA**

*Bu zaman Qurbağanın gur səsi onu diksindirdi. Qurbağa gölməçənin qırağında iri daşın üstündə oturmuşdu. Suya baş vurdu, gəlib Balığın qarşısında dayandı:*

*– Mən burdayam, – dedi, – qulluq?*

*– Möhtərəm xanım, salam!*

*– Ey əsil-nəcabətsiz vücud! Nə əllaməlik edirsən? Bunları uşaq görüb axmaq-axmaq danışırsan. Bir belə ömür eləmişəm, görmüşəm ki, dünya elə bu gölməçədən ibarətdir. Yaxşı olar ki, işinin dalınca gedəsən, mənim uşaqlarımı yoldan çıxarmayasan.*

*– Yüz il də ömür eləsən, yenə geri qalmış, nadan Qurbağa kimi qalacaqsan!*

*Qurbağa hirsləndi və Balaca Qara Balığın üstünə cumdu. O zaman gölməçənin dibi bir-birinə qarışdı. Balaca Balıq aldığı təkandan dığırlandı, özünü dərədən axan enli arxda gördü. Dərənin bir yerində dağdan qopub düşmüş iri bir daş suyu iki yerə bölürdü. İri bir kərtənkələ də qarnını daşa söykəmişdi. Günəşin hərarətindən ləzzət alır, suyun təkində ovladığı qurbağanı yeyən iri, yumru Xərçəngə tamaşa edirdi. Elə bu an oradan keçmək istəyən Balaca Qara Balığın gözləri Xərçəngə sataşdı. O, bərk qorxdu və uzaqdan Xərçəngə salam verdi. Xərçəng Balaca Balığı görüncə:*

*– Nə ədəbli Balıqsan, – dedi, – gəl qabağa. Balaca, qabağa gəl!*

*– Mən dünyanı gəzməyə gedirəm, – deyə Balaca Balıq Xərçəngə cavab verdi, - cənabınızın yeminə çevrilmək istəmirəm!*

*Balaca Balıq Xərçəngdən aralandı. Bu zaman suyun üzərinə kölgə düşdü. Gözlənilməz zərbədən Xərçəng səndələyə-səndələyə suyun dibinə batdı. Xərçəngin bu halını görən Kərtənkələni elə gülmək tutdu ki, az qaldı sürüşüb suya düşsün. Xərçəng isə artıq suyun üzünə çıxa bilmədi. Balaca Balıq gördü ki, suyun kənarında balaca bir çoban dayanıb ona və Xərçəngə tamaşa edir. Qoyun-keçi sürüsü də suya yaxınlaşdı.*

*Balaca Balıq sürü su içib qurtarana qədər gözlədi. Sürü gedəndən sonra Kərtənkələni səsləyib:*

*– Kərtənkələcan, – dedi, – mən arxın qurtaracağını axtarmağa gedən Balaca Qara Balığam. Sən bilikli, zəkalı heyvansan. Buna görə də səndən bəzi şeylər soruşmaq istəyirəm.*

*– Xətrin nə istəyir, soruş.*

*– Yolda məni Nərə balıqla, Saqqa quşu ilə, Balıqudan quşla çox qorxudublar. Bunlar haqda bir şey bilirsənsə, mənə de!*

*Kərtənkələ dedi:*

*–Nərə balıqlar və balıqudanlar bu tərəflərdə tapılmazlar. Xüsusilə Nərə balıqlar. Çünki onlar dənizdə yaşayırlar. Amma Saqqa quşuna elə bu həndəvərdə də rast gəlmək olar. Nəbadə aldanıb onun kisəsinə girəsən.*

Oxunmuş parçaya aid suallar:

- Balaca Balıq Qurbağa ilə nə barədə danışmaq istəyirdi?
- Qurbağa onu necə qarşıladı? O, Balaca Balığa dediklərində haqlıdırmı?
- Balaca Balıq Qurbağanı nə üçün "geri qalmış nadan" adlandırdı?
- Enli arxa düşən Balaca Balıq orada nə müşahidə edir?
- Kərtənkələyə müraciət edən Balaca Balıq ondan nə barədə soruşur?
- Balaca Balıq Kərtənkələdən hansı məlumatları öyrəndi?

**İKİNCİ PARÇA**

*– Kisə nədir? – Balaca Balıq onun sözünü kəsib soruşdu.*

*– Saqqa quşunun boğazının altında xeyli sututan kisə var. Bəzən təcrübəsiz, xam balıqlar suda üzən quşun kisəsinə girib birbaşa qarnına gedirlər.*

*– Deməli, onun qarnına gedəndən sonra xilas olmaq üçün çarə yoxdur?*

*– Yoxdur. Kisəni parçalamaqdan başqa heç bir yol yoxdur. Sənə bir xəncər verərəm. Saqqa quşunun çənginə düşsən, dediyim kimi edərsən.*

*Kərtənkələ qayadakı yarığa sürünüb xəncərlə qayıtdı. Balaca Qara Balıq xəncəri alıb dedi:*

*– Kərtənkələ, sən çox mehribansan, bilmirəm, sənə necə təşəkkür edim?*
*– Canım, təşəkkür nəyə lazımdır, mənim belə xəncərim çoxdur, sənin kimi ağıllı balıqlara bağışlayıram.*
*– Məgər məndən qabaq da buradan keçən olub?*
*– Çoxları keçib. İndi onlar özləri üçün böyük dəstə düzəldiblər...*
*Kərtənkələ bunları deyib qulağını daşdakı yarığa dayadı:*
*– Di, sağ ol, – dedi, – balalarım yuxudan ayıldığı üçün getməliyəm.*
*Kərtənkələ yarığa girdi. Balaca Balıq çarəsiz qalıb yola düşdü. Hey öz-özünə suallar verirdi: "Doğrudanmı, arx dənizə tökülür? Saqqa quşunun gücü gərək elə mənə çatsın? Balıqudan quşun bizimlə nə düşmənçiliyi var?"*
*Balaca Balıq üzə-üzə gedir və fikirləşirdi. Yol boyu təzə şeylər görür, öyrənirdi. Şəlalənin başı üstə axmağından həzz alır, yenidən üzürdü. Kürəyində günəşin hərarətini hiss edir və möhkəmlənirdi.*
*O, sonra elə bir yerə gəlib çatdı ki, burada dərə enlənir, su isə kolluqların arasından axıb gedirdi. Balaca Balıq suyun çoxalmasından ləzzət alırdı. Xeyli gedəndən sonra o, çoxlu balığa rast gəldi. Anasından ayrıldığı gündən balıq görməmişdi. Bir neçə Rizə balığı onu dövrəyə aldı. Kiçik bir balıq ondan soruşdu:*
*– Deyəsən, qəribsən?*
*Balaca Qara Balıq dedi:*
*– Hə qəribəm. Uzaqdan, çox uzaqlardan gəlirəm.*
*– Hara getmək istəyirsən?*
*Balaca Qara Balıq dedi:*
*– Arxın sonunu tapmağa gedirəm.*
*Kiçik balıqlar dedilər ki, bu, arx deyil, onlar buna çay deyir. Balıqların arasında səs yayıldı ki, Balaca Qara Balıq uzaqlardan gəlib və çayın qurtaracağını tapmaq istəyir. Balıqudan Saqqa quşundan da qorxmur!*
*Rizə balıqlardan bir neçəsi Balaca Qara Balığa qoşulub getmək istədi, lakin böyüklərinin qorxusundan səslərini çıxarmadılar. Hətta bir neçəsi Balaca Qara Balığa dedi:*
*– Saqqa quşu olmasaydı, biz də səninlə gedərdik.*

İkinci parçaya aid suallar:
- Balaca Balıq Saqqa quşunun sututan kisəsi haqqında nə öyrəndi?
- Kərtənkələ ilə tanışlığın Balaca Balığa xeyri nə oldu?
- Səfərin Balaca Balığa faydası nə olurdu, o, yolboyu nə görürdü?
- Rizə balıqlarla qarşılaşan Balaca Balıq onlardan nə öyrəndi?
- Rizə balıqların ona münasibəti necə olur?

**ÜÇÜNCÜ PARÇA**
*Balaca Qara Balıq dedi:*
*– Siz çox fikirləşirsiniz. Gecə-gündüz oturub sadəcə fikirləşmək doğru deyildir. Yola düşdükdən sonra qorxu hissiniz yox olacaq.*
*Yola düşmək istəyirdilər ki, dövrələrindəki su yuxarı qalxdı və başlarının üstünə qara örtük çəkildi. Hər yer qaranlıqlaşdı, qaçmağa imkan qalmadı. Balaca Qara Balıq o saat başa düşdü ki, Saqqa quşunun kisəsinə düşüblər.*
*Balaca Qara Balıq dedi:*
*– Dostlar, biz Saqqa quşunun kisəsinə düşdük, lakin xilas yolu var.*
*Rizə balıqlar ağlayıb, ah-zar etməyə başladılar:*
*– Artıq bizim qaçmağa yolumuz yoxdur! Təqsir səndədir. Bizi yoldan çıxartdın!*
*Balıqlardan biri dedi:*
*– İndi balıqudan quş bizim hamımızı udacaq. Yazıq olduq. İşimiz bitdi.*
*Birdən qorxunc qəhqəhə səsi eşidildi. Bu, Saqqa quşu idi, gülür, öz-özünə deyirdi:*
*– Rizə balıqlar necə də girimə keçib! Nə qədər dadlıca balıqlardır bunlar...Ha ha ha... Sizin halınıza yanıram, heç ürəyim gəlmir sizi "qırt" eləyib udum.*
*Rizə balıqlar yalvarmağa başladılar:*

– *Saqqa quşu, biz sizin tərifinizi çoxdan eşitmişik. Əgər lütf edib mübarək dimdiyinizi bir azacıq aralasaydınız, biz buradan xilas olub ömrümüzün sonuna qədər də sizə dua edərdik.*
*Saqqa quşu dedi:*
*– Mən sizi hələ udmayacağam. Hələ qarnım toxdur. Qarnıma baxsanız, görərsiniz. Sizi bir azdan yeyəcəyəm.*
*Rizə balıqlar balıqudanın mədəsinə baxıb bir neçə iylənmiş Rizə balıq gördülər. Qorxudan zağ-zağ titrəyərək dedilər:*
– *Saqqa quşu, bizim günahımız yoxdur. Bizi yoldan çıxaran bu Balaca Qara Balıq oldu.*
*Balaca Qara Balıq dedi:*
– *Qorxaqlar! Elə bilirsiniz bu qəddar balıqudan sizin bu acizanə yalvarışlarınıza rəhm edəcək?*
*Saqqa quşu dedi:*
*– Azadlığınızı bu boşboğaz balığı öldürməklə əldə edə bilərsiniz.*

Üçüncü parçaya aid suallar:
- Saqqa quşunun kisəsinə düşən Balaca Balıq özünü necə aparırdı?
- Kisədə Rizə balıqların davranışları necə oldu?
- Rizə balıqları daha çox qorxudan nə oldu?
- Rizə balıqları Balaca Balığa qarşı qoymaqda Saqqa quşunun məqsədi nə idi?
- Balaca Balıq onun niyyətini başa düşürmü? Hansı tədbirə əl atır?

Hər suala bir şagirdin verdiyi cavabın digərləri tərəfindən zənginləşdirilməsinə, əsərdən nümunələr gətirilməsinə diqqət edilir.
Növbəti addım dərslikdəki tapşırığın üzərində işin təşkili olur:

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ
1. Əsərdən seçdiyiniz iki cümləyə epitet və ya bənzətmə artırın.
2. Cümlələri müzakirə edib dəyərləndirin.

Yığcam müsahibə işin icra vəziyyəti barədə təsəvvürün qazanılmasına səbəb olur. Bir neçə cavabın təhlili şagirdlərin öz işlərinə tənqidi yanaşmaları üçün kifayət edir.
Növbəti tapşırığın icrasına vaxt ayrılır:

## IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN
1. Əsərdən seçdiyiniz parçanı *yığcam* nağıl etməyə hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

Bir neçə çıxışın təhlilinə şagirdlərin cəlb edilməsi işin sinif üzrə icra vəziyyəti barədə təsəvvürün əldə edilməsinə səbəb olur. Müzakirənin səmərəli keçməsi, başqalarının fikirlərinə hörmətlə yanaşılması təmin edilir.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Başlıca fikri çatdırmaqla hekayədən bitkin parçanın məzmununu yığcam nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədə müəyyələşdirdiyi bədii təsvir və ifadə vasitələrini şifahi nitqində məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövqeyini əsaslandırmaqla müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlməyə səy edir. | Şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Səməd Behrəngi. BALACA QARA BALIQ –**<br><br>**4 saat**<br><br>**Üçüncü saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1).<br>• Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı diskussiyalarda istifadə edir (2.1.1).<br>• Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Səməd Behrənginin əsərlərindən nümunələr. “Balaca Qara Balıq” hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Oxu. Anlama.** Hekayənin ardının oxunması, ilkin qavramanın yoxlanması, dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>**2. Yaradıcı iş.** Əsərin davamının yazılması.<br>**3. Müzakirə.** Əsərin qəhrəmanının ilkin qiymətləndirilməsi üzrə işin təşkili.<br>**4. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** *Birinci variant.* Əsərin məzmununun öyrənilməsi, yaradıcılıq bacarığının inkişaf etdirilməsi, qəhrəmanın ilkin qiymətləndirilməsi üzrə işin təşkili reallaşdırılır.

*İkinci variant.* Əsərin məzmununun öyrənilməsinə *ikihissəli gündəliyin* tətbiqi ilə başlanılır. Şagirdlərdə yaradıcılıq bacarığının inkişaf etdirilməsi, ədəbi qəhrəmanın ilkin qiymətləndirilməsi üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin ardının öyrənilməsi dərslikdə əks olunmuş dərs modeli tətbiq edilməklə reallaşdırıla bilər. Burada ikihissəli gündəliyin tətbiqi üzrə işin səciyyəvi məqamları təsvir edilmiş, ardınca dərslikdə təklif edilmiş tapşırıqların icrası üzrə tövsiyələr verilmişdir.*

Şagirdlərə izah olunur ki, hekayənin dərsdə oxunması nəzərdə tutulmuş hissəsi üç parşaya bölünmüşdür. Onlar ardıcıl oxunacaq və ikihissəli gündəliyin tələblərinə uyğun qeydlər ediləcəkdir. Şagirdlər mətndə onlara aydın olmayanları birinci sütunda, bununla bağlı suallarını ikinci sütunda yazırlar. Eləcə də daha çox bəyəndikləri məqamları (birinci sütunda) və bunun səbəbini (ikinci sütunda) qeyd edirlər.

Hər parçanın üzərində iş tamamlandıqdan sonra şagirdlərin cütlük şəklində fikir mübadiləsi aparmalarına vaxt ayrılır. Ardınca şagirdlərin təqdimatları dinlənilir, münasibət bildirilir.

**BİRİNCİ PARÇA**

*Balaca Qara Balıq bir qədər kənara çəkilib Rizə balıqlara dedi:*

*– İnanmayın, bu hiyləgər bizi öz əlimizlə öldürmək istəyir, mənim başqa fikrim var.*

*Ancaq Rizə balıqlar azadlığa çıxmaq istəyi ilə Balaca Qara Balığı dinləmədən ona hücüm etmək istədilər. Balaca Qara Balıq yavaş-yavaş arxaya çəkilib :*

*– Qorxaqlar, – dedi, – hər halda, siz əsir düşmüsünüz, qurtuluş yolunuz da yoxdur. Mənə də gücünüz çatmaz.*

*– Biz azadlığa çıxmaq istəyirik, ona görə də səni öldürməliyik!*

*– Ağlınızı başınıza yığın. Siz məni öldürsəniz də, yenə də qaçmaq üçün yol tapa bilməyəcəksiniz. Hiyləgər quşa inanmayın.*

*Rizə balıqlar dedilər:*

*– Sən bu sözləri canını qurtarmaq üçün söyləyirsən. Sən bizim həyatımızı düşünmürsən.*

*Balaca Qara Balıq dedi:*

*– Diqqətlə qulaq asın. Mən Saqqa quşunun qarnındakı ölü balıqların içində özümü ölmüşlüyə vuracağam. Ondan sonra baxaq görək balıqdan sizi azad edəcəkmi? Əgər mənim sözlərimi dinləməsəniz, bu xəncərlə hamınızı öldürəcəyəm. Sonra da quşun qarnını söküb gedəcəyəm .*

*Balaca Qara Balıq xəncərini çıxarıb onların gözləri önünə tutdu. Rizə balıqlar çarəsiz qalaraq Balaca Qara Balığın təklifini qəbul etdilər. Yalandan bir-biri ilə dalaşmağa başladılar.Balaca Qara Balıq özünü ölülüyə vurub uzandıqda onlar yuxarı qalxdılar:*

*– Saqqa quşu, – dedilər, füzul Balaca Qara Balığı öldürdük.*

*Saqqa quşu quş gülərək dedi:*

*– Çox yaxşı iş gördünüz. Gördüyünüz bu işin əvəzinə sizin hamınızı diri-diri udacağam.*

*Rizə balıqlar göz açmamış saqqa quşu onları uddu. Balaca Qara Balıq cəld xəncəri çəkib möhkəm zərbə ilə quşun kisəsini yırtdı və deşikdən çıxıb qaçdı.*

*Saqqa quşu aldığı zərbənin ağrısından fəryad qopardı, başını suya salıb Balaca Qara Balığı yenidən tutmaq istədi, ancaq gücü çatmadı, suya bataraq öldü.*

*Günorta idi. Artıq nə dağ görünürdü, nə dərə. Çay axıb geniş bir düzənlikdən keçirdi. Balaca Qara Balıq suyun çoxluğundan heyrətlənir, ləzzət alırdı. Birdən ayılıb gördü ki, suyun dibi görünmür. Nə qədər çabaladısa, suyun dibini görə bilmədi. Birdən burnunda mirvari dişləri olan uzun bir heyvanın ildırım sürəti ilə ona hücum etdiyini gördü. Tez suyun üzünə qalxdı. Bir az sonra yenidən dənizin dibini görmək üçün suyun dərinliyinə daldı.*

*Yolun yarısında minlərlə balıq sürüsünə rast gəldi. Onların birindən soruşdu:*

*– Qardaş, qəribəm, uzaqlardan gəlirəm. Bura haradır?*

| **Birinci parçada** | |
|---|---|
| diqqətimi daha çox cəlb edənlər | bunun səbəbi |
| | |

**İKİNCİ PARÇA**

*Balıq dedi:*

*– Bütün çaylar və arxlar bura tökülür.*

*Başqa bir balıq isə dedi :*

*– Nə zaman istəsən, bizim dəstəmizə qoşula bilərsən.*

*Dənizə çatdığı üçün sevinən Balaca Qara Balıq dedi:*

*– İzin versəniz, dənizi seyr edib, sonra sizə qoşularam.*

*Balıqlardan biri dedi:*

*– Get gəz, ancaq dənizin üzünə çıxanda Balıqudandan özünü gözlə. Onun heç nədən qorxusu yoxdur. Hər gün dörd-beş balıq yeyir.*

*Balaca Qara Balıq balıqlar sürüsündən ayrılıb üzməyə başladı. Az sonra dənizin üzünə çıxdı. Günəşli bir gün idi. Balaca Qara Balıq günəşin hərarətini belində hiss edərək ləzzət alırdı. Böyük bir sevinc içində ətrafı seyr edir və fikirləşirdi: "Ölüm hər an məni yaxalaya bilər. Ancaq mən bacardıqca çox yaşamalı, ölümdən qaçmalıyam.Əlbəttə, ölümlə də qarşılaşa bilərəm. Əsas odur ki, mənim həyatım və ya ölümüm başqalarının həyatına necə təsir göstərəcək".*

*Balaca Qara Balıq fikir və düşüncələrini sona çatdıra bilmədi.*

*Balıqudan gəlib onu uzun dimdikləri ilə yaxaladı. O nə qədər çabalasa da, dimdiklərdən xilas ola bilmədi. Balıqudan onun belini yekə dimdikləri ilə elə sıxırdı ki, az qala, canı çıxacaqdı.*

*Balaca Qara Balıq fikirləşdi ki, balıqudan onu tez udsa, mədəsindəki rütubət üzündən bir az diri qala bilər. Buna görə Balıqudana dedi:*

*– Niyə məni diri-diri udmursan? Mən o balıqlardanam ki, öldükdən sonra bütün bədənləri zəhərə dönür.*

*Balıqudan heç nə deməyib fikrə getdi, öz-özünə dedi:*

*– Ay hoqqabaz, istəyirsən məni söhbətə tutub, ağzımdan çıxıb qaçasan?*

*Sahil uzaqdan görünür və naqqa sahilə tərəf gedirdi. Balaca Qara Balıq fikirləşdi ki, sahilə çatanda onun işi bitəcək. Balıqudana dedi:*

*– Bilirəm, məni balalarına yedirtmək üçün aparırsan. Ancaq mən sahilə çıxdıqdan sonra öləcəyəm, bədənim başdan-ayağa zəhər olacaqdır. Balalarına yazığın gəlmir?*

*Balıqudan düşündü : "Ehtiyatlı olmaq yaxşı şeydir. Bunu özüm yeyərəm, balalarıma başqa balıq ovlaram... Ancaq baxım görüm məni aldatmır ki".*

*Balıqudan Balaca Qara Balığın tərpənmədiyini görüb öz-özünə dedi:*

*– Doğrudanmı, öldü? Vay-vay artıq özüm də yeyə bilməyəcəyəm. Bu qədər dadlı balığı nahaq əldən çıxardım.*

| İkinci parçada | |
|---|---|
| diqqətimi daha çox cəlb edənlər | bunun səbəbi |
| | |

**ÜÇÜNCÜ PARÇA**

*O, bir daha əmin olmaq üçün Balaca Qara Balığa səslənmək istədi:*

*– Hey, kiçik balıq, bir azcıq canın varmı səni yeyim, yoxsa ölmüsən?*

*Ancaq sözünü bitirə bilmədi. Ağzı açılar-açılmaz Balaca Qara Balıq özünü dənizə atdı. Balıqudan gördü ki, Balaca Qara Balıq onu aldadıb. Onun arxasına düşüb təqib etməyə başladı.*

*Balaca Qara Balıq özünü qurtulmuş sanırdı, ancaq Balıqudan ildırım sürəti ilə onun arxasınca suya baş vurdu, aman verməyib balığı yenidən uddu.*

*Bu elə sürətlə baş verdi ki, Balaca Qara Balıq bir xeyli vaxt başına nə gəldiyini hiss etmədi.*

*Bircə onu hiss etdi ki, hər yer rütubətli və qaranlıqdır. Elə ki gözləri qaranlığa alışdı bir küncə sıxılıb ağlayan, anasını çağıran bir Rizə balıq gördü. Yaxınlaşıb ona nəsihət verdi:*

*– Mən Balıqudanı öldürüb bütün balıqları təhlükədən qurtarmaq istəyirəm. Ancaq mənim işlərimə qarışmamaq, əl-ayağıma dolaşmamaq üçün əvvəlcə səni buradan xilas etməliyəm.*

*– Sən özün ölüm ayağındasan. Balıqudanı necə öldürəcəksən?*

*Balaca Qara Balıq xəncəri göstərib dedi:*

*– Bu xəncərlə onun qarnını cıracağam. İndi diqqətlə məni dinlə. Mən Balıqudanın qarnında o tərəf-bu tərəfə hərəkət edəcəyəm. Bu zaman o, məni məsxərəyə qoyub gülməyə başlayacaq. Dimdiklərini aralayıb gülməyə başlayanda cəld özünü bayıra at.*

*– Bəs sən?*

*– Mənim fikrimi çəkmə. Bu qəddarı öldürməmiş burdan çıxmayacağam.*

*Balaca Qara Balıq bu sözləri dedikdən sonra naqqanın qarnında o tərəf-bu tərəfə var-gəl eləməyə başladı. Balıqudan dimdiklərini aralayıb gülməyə başladı. Rizə Balıq özünü bayıra atdı və dənizə düşdü. Çox gözlədi, xilaskarından xəbər çıxmadı. Bir də gördü ki, Balıqudan göydə mayallaq vurub fəryad qoparır. Nəhayət o, şappıltı ilə suya düşdü, bir qədər çabalayandan sonra canı çıxdı. Ancaq Balaca Qara Balıqdan yenə də xəbər çıxmadı və indiyə qədər də bir səs-soraq yoxdur.*

*Burada Qoca Balıq nağılını bitirdi. Üzünü on bir min doqquz yüz doxsan doqquz nəvə-nəticəsinə tutub dedi:*

*– Daha yatmaq vaxtıdır, balalarım, gedin, yatın.*

*Nəvə-nəticələri ondan soruşdular:*

*– Nənəcan, axı sən Balaca Qara Balığın başına sonra nə gəldiyini demədin?*

*– Övladlarım, o da qalsın gələn gecəyə. İndi isə gedib yatın. Gecəniz xeyrə qalsın!*

*On bir min doqquz yüz doxsan doqquz kiçik balıq bir ağızdan:*

*– Sənin də gecən xeyrə qalsın, nənə! - deyib yatmağa getdi.*

*Nənəni də yuxu apardı. Balaca Qızıl Balıq isə nə qədər çalışdısa, yata bilmədi. Sübhədək dəniz barədə fikirləşdi...*

| Üçüncü parçada | |
|---|---|
| diqqətimi daha çox cəlb edənlər | bunun səbəbi |
| | |

Dərsin sonrakı mərhələsində aşğıdakı tapşırıq üzərində işin təşkili həyata keçirilir:

**II. YARADICI İŞ**

1. Hekayənin davamını qısaca yazın. Balaca Balığın sonrakı taleyini təsəvvür etdiyiniz kimi təsvir edin.
2. Yazılardan nümunələri müzakirə edin.

Tapşırıq şagirdlər üçün cəlbedicidir. Hekayənin məzmununa böyük maraq göstərən şagirdlər ondan zəngin təəssüratla ayrılırlar. Onları Balaca Balığın taleyi ciddi maraqlandırır. Elə buna görə də

tapşırığın yerinə yetirilməsinə həvəslə qoşulurlar. Hekayənin davamını şagirdlərin fərqli təsəvvür etmələri təbiidir. Başlıca mətləb qəhrəmanın davranış, arzu və istəyinin necə qavranılması və ifadə edilməsidir. İşlərin müzakirəsində də bu yanaşma diqqət mərkəzində saxlanır.

Dərslikdəki növbəti tapşırıq ədəbi qəhrəmanın hansı səviyyədə qavranılması, əsərin ilkin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir:

**III. MÜZAKİRƏ**

1. "Balaca Balıq səfərə çıxmaqda haqlıdır" mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla dəlillərinizi hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

Debatda tərəflərin öz mövqelərini ifadə etmələrinə imkan yaradılır. Əsərdən nümunələrin gətirilməsi, dəlillərin çoxluğu və əsaslı olması mühüm göstərici kimi dəyərləndirilir.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində ardıcıl istifadı edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı debatda məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən ardıcıl istifadə etməklə şərh edir. | Şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Səməd Behrəngi. BALACA QARA BALIQ –**

**4 saat**

**Dördüncü saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**

- Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsuslu-ğu səciyyələndirir (1.2.2).
- Hekayənin başlıca mövzusunu və və əsas ideyasını şərh edir (1.2.4).
- Hekayə ilə bağlı müzakirədə səsləndirilən fikirlərə həssas və diqqətli münasibət nümayiş etdirir (2.2.1).

**Köməkçi vasitələr:** Səməd Behrənginin əsərlərindən nümunələr. "Balaca Qara Balıq" hekayəsi ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının səciyyələn-dirilməsi, araşdırmanın aparılması.
**2. Müzakirə.** Ədəbi qəhrəmanın, müəllif niyyətinin fərdi-şəxsi yozumu ilə bağlı işin təşkili.
**3. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** Dördüncü dərs saatında hekayənin mövzu və ideyasının aydınlaşdırılması, obrazlarının səciyyələndirilməsi, müəllif niyyətinin yozumu üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, hekayənin məzmununun öyrənilməsi müəllifin əsas niyyətinn başa düşülməsi yolunda ciddi addımların atılmasına səbəb olmuşdur. Lakin elə suallar da var ki, onların araşdırılması vacibdir. Axı Balaca Balıq nə istəyir? Yaşadığı təhlükəsiz yerdə, anasının yanında, dostlarının əhatəsində niyə rahat ömür sürmək istəmir? Bu sualların cavabının aydınlaşdırılması araşdırmanın aparılmasını tələb edir.

Araşdırmanın aparılması üçün təklif edilmiş tapşırıq hekayənin məzmunu ilə bağlı mənimsənil-miş bilik və bacarıqların tətbiqini zəruri edir, həm də ona əsaslanır.

Tapşırığın tələblərinin əksəriyyətinə əlavə edilmiş tövsiyələr şagirdlərin cavablarında konkretliyin artmasına əhəmiyyətli təsir edir. Tapşırığın birinci bəndi və onun üçün nəzərdə tutulmuş tövsiyələr aşağıdakı kimidir:

• Əsərin mövzusunu müəyyənləşdirin. Tövsiyələrə diqqət edin:
– hadisələrin harada baş verdiyini, iştirakçıları xatırlayın;
– ayrı-ayrı hadisələrdə nədən danışıldığını, aralarındakı əlaqələri yada salın;
– iştirakçıların davranış və əməllərini bir daha yaddaşınızda canlandırın.

Tövsiyələr şagirdləri əsərin mətninə yenidən müraciət etməyə yönləndirir. Hekayədə ilk növbədə adi məişət təsviri diqqəti cəlb edir. Lakin tədricən ziddiyyətlər meydana çıxır və dərinləşir. Deməli, hadisələr adi məişət təsvirindən uzaqlaşır, ictimai məzmun qazanır. Hekayədəki hadisələri izlədikcə onların hamısında qəhrəmanın azad, sərbəst ömür sürməyə, dünya ilə təmasda olmağa can atdığı aydınca müşahidə edilir.

İkinci bənddə Balaca Qara Balıq obrazının təhlili tələbi əks olunub. Tövsiyələr şagirdləri obrazın hərtərəfli təhlilinə yönləndirir:

• Balaca Balığı səciyyələndirin. Tövsiyələri nəzərə alın:
– daha çox nə barədə düşünür;
– müxtəlif vəziyyətlərdə keçirdiyi hisslər, qəbul etdiyi qərarlar;
– nitqi – danışığı;
– fərqli məqamlarda başqaları ilə davranışı.

Baş qəhrəman əsərdə hərtərəfli təsvir edilib. Onun düşüncələri, fərqli vəziyyətlərdə nitqi və keçirdiyi hisslər, davranışı barədə əhatəli məlumat qazanmaq olur. Yeni yerlərlə, fərqli həyatla tanış olmaq, çox şey öyrənmək, zənginləşmək Balaca Balığın düşüncəsinə hakim kəsilib. O bunu gizlətmir, həm də fikirlərini hamının yanında və hər yerdə məntiqli danışığı ilə müdafiə edir.

Balaca Balıq anası ilə, qonşu iri Balıqla, dostları ilə, Kərtənkələ, Rizə balıqlar, Saqqa quşu və b. ilə ünsiyyətdə olur. O, müsahiblərinin hər biri ilə danışığında ədalətli və haqlı olduğunu sübut edə bilir.

Qəhrəmanın başqaları ilə davranışı da nitqi kimi məntiqlidir. Onun davranış və hərəkətləri vəziyyətə uyğun olur. Kərtənkələ ilə nəzakətli olan Balaca Balıq amansız Saqqa quşu ilə ehtiyatla, ustalıqla davranır.

Ana Balıq obrazı əsərdə az görünsə də, yadda qalır. Övladına münasibəti, digər obrazlarla müqayisə edilməsi onun haqqında əsaslandırılmış fikir söyləməyə imkan verir.

Tapşırıqda onunla bağlı sual və tövsiyələr aşağıdakı məzmunda formalaşdırılıb:

• Ana Balığı necə səciyyələndirərsiniz? Aşağıdakı tövsiyələri nəzərə almaqla fikrinizi açıqlayın:
– Balaca Balığa münasibəti;
– İri Balıqla, Qurbağa ilə oxşar cəhətləri;
– nitqi-danışığı.

Ana Balıq yeganə övladını çox sevir, onu gözündən uzaq qoymaq istəmir. Ananın fikrincə, Balaca Balıq başqalarının təsiri ilə dəyişilib, ağlagəlməz fikirlərə düşüb. Ana ürəkdən inanır ki, yaşadığı məkan – kiçik arx elə dünya deməkdir. Başqa bir dünyanın mövcudluğunu İri Balıq, digər yaşlı balıqlar, Qurbağa, əksər Riza balıqlar qəbul etmirlər.

Ana Balığın nitqi-danışığı onun mövqeyi, niyyəti, bütövlükdə xarakteri barədə aydın təsəvvür yaradır. Övladı ilə yalvarışla danışan Ana Balıq İlbizin qarasınca sərt sözlər işlədir.

Balaca Balıq azadlığa gedən yolda yalnız anasının, ətrafında olanların müqaviməti ilə üzləşmir. O daha güclü düşmənlərlə: Saqqa quşu, Balıqudanla qarşılaşır. Onların təhlili yazıçının niyyətinin açıqlanmasına əhəmiyyətli dərəcədə təsir edir:

• Saqqa quşu və Balıqudanın oxşar cəhətlərini müəyyənləşdirin. Sizcə, onlardan hansı daha hiyləgərdir? Nə üçün? Tövsiyələrə diqqət edin:
– onların zəif, gücsüz balıqlara və digər canlılara münasibəti;
– qurbanları ilə davranışları;
– nitqləri-danışıqları.

Saqqa quşu və Balıqudan əsərdə mühüm obrazlardır. Onlar zəiflərin, gücsüzlərin qənimidirlər. Hər ikisi öz qurbanları ilə amansız rəftar edir, onlara heç nədə güzəştə getmirlər. Saqqa quşu Balıqudandan da hiyləgər və amansızdır. O, başqalarını üz-üzə qoymaqda, onları bir-biri ilə vuruşdurmaqda mahirdir. Bunda məqsədi qarşı tərəfi bir-birindən ayırmaq, zəif salmaqdır. Azadlığa gedən yol hamar deyildir.

Balaca Qara Balıq onların düşmənçiliyinin, başqalarına zalım münasibətlərinin səbəbini anlaya bilmir. Özünə suallar verir: "Saqqa quşunun gücü gərək elə mənə çatsın? Balıqudan quşun bizimlə nə düşmənçiliyi var?"

Lakin o bu güclü düşmənlərə qarşı mübarizədə zəiflik göstərmir.

Tapşırıqdakı növbəti sual hekayədə müəllifin başlıca niyyətini, əsərin ideyasını aydınlaşdırmaq tələbidir. İstər məzmun üzrə, istərsə də təhlil məqsədilə aparılan işlər sualın cavabının hazırlanması üçün kifayət edir. Bunu aşağıda verilmiş cədvəlin üzərində fikirləşən şagirdlər hiss edirlər:

- Sizcə, bu əsərdə müəllifin başlıca niyyəti nə olmuşdur? Oxuculara hansı əsas fikri, ideyanı çatdırmağı qarşısına məqsəd qoymuşdur? Cədvəldən seçdiyiniz fikri, yaxud öz variantınızı əsaslandırın.

| s. | Əsərin əsas ideyası hansıdır? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Dünyanı öyrənmək, dərk etmək, onun üçün faydalı olmaq ilk növbədə azad, müstəqil yaşamaqdan asılıdır. | | |
| 2 | Mənalı, faydalı ömür yaşamaq üçün daim inkişafda olmaq vacibdir. | | |
| 3 | Həyatlarını daha maraqlı, mənalı qurmaq arzusu ilə yaşayanlar heç bir çətnlikdən qorxmurlar. | | |

Cədvəldəki variantları araşdıran, təhlil edən şagirdlər öz variantlarını da təklif edə bilərlər. Başlıca məsələ şagirdlərin öz mövqelərini hansı səviyyədə əsaslandıra bilmələridir.

Dərslikdəki növbəti tapşırıq müzakirənin təşkili ilə bağlıdır. Rollu oyunun mahiyyəti, tətbiqi qaydaları barədə məlumatı olan şagirdlər müəllimin yığcam izahından sonra müzakirəyə başlayırlar. Rolların bölünməsi, hər birinin vəzifəsi barədə məlumatın verilməsi işi həyata keçirilir. Oyunun necə keçməsi – məzmunu və nəticəsi müəllimin istiqamətləndirici sualları əsasında yığcam müzakirə edilir.

### II. MÜZAKİRƏ

1. "Balaca Balığım mühakiməsi" mövzusunda rollu oyun. Balaca Balıq adət-ənənəyə xor baxmaqda, gənc Balıqları başdan çıxarmaqda təqsirləndirilir.

İştirakçılar:

a) Hakim
b) İttihamçı
c) Balaca Balığın birinci vəkili
ç) Balaca Balığın ikinci vəkili
d) Birinci oxucu
e) İkinci oxucu
f) Balaca Balıq

2. Oyunun məzmununu və nəticəsini müzakirə edin.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu əsərdən nümunələr göstərməklə səciyyələndirir | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin başlıca mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Mövqeyini əsaslandırmaqla hekayə ilə bağlı müzakirədə səsləndirilən fikirlərə həssas və diqqətli münasibət nümayiş etdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Qarlı gündə" əsəri üzrə aparıla bilər.*

*Yusif Əzimzadə*

**QARLI GÜNDƏ**

Dünəndən yağan qar hər tərəfi bürümüşdü. Evlərin damları, küçələr, meydançalar, şəhər bağları... ağappaq idi. Uşaqlar həyətlərdə qardan şaxta babanın heykəlini düzəldir, qar topası oynayırdılar. Xizəklərdə sürüşənlər də vardı...

Küçələrdən birinin səkisində bir neçə uşaq oynayırıdı. Onlar səkinin yuxarı tərəfindən yüyürərək ayaq üstə sürüşürdülər. Səkinin üstü ayna kimi parıldayırdı. Səməd də bu uşaqların arasında idi. Şaxtadan yanaqları, burnu qızarmışdı. Anası neçə dəfə qapıya çıxıb onu çağırmışdısa da, Səməd getməmişdi. O, səkidə hamıdan yaxşı sürüşürdü. Uşaqlardan biri dedi:

– Gəlin səkinin üstünə qar səpələyib sürüşdüyümüz yeri gizlədək.

– Nə üçün? – deyə Səməd təəccüblə soruşdu.

– Bir tərəfdə dayanıb tamaşa edərik. Yoldan adamlar keçəndə, yəqin ki, sürüşkən yeri görməyib yıxılacaqlar. Heç bilirsiniz, necə gülməli olur?!

Uşaqların çoxu dərhal razılaşdı. O birilər tərəddüd etdilər. Səməd dedi:

- Birdən yıxılıb əzilən olar ha!

Bayaqkı uşaq:

– Heç bir şey olmaz! – deyə əlini yellədi. – Dağdan, qayadan yıxılırlar ki?..

Uşaqlar sürüşkən yerə qar tökdülər. Sonra çəkilib bir tərəfdə durdular. Elə bu vaxt döngədən qol-qola tutmuş iki qız çıxdı. Onların əllərində çanta da vardı. Yəqin ki, məktəbə gedirdilər. Qızlar danışa-danışa sürüşkən yerdən keçəndə özlərini saxlaya bilmədilər. Onlardan biri yıxıldı, o birisi isə sürüşüb səkidən kənara çıxdı. Əlini yoldaşına uzatdı, kömək eləyib onu ayağa qaldırdı. Qızlar uşaqların gülüşlərinə etina etmədən uzaqlaşdılar.

Arxadan gələn və bu hadisənin şahidi olan bir kişi oğlanlara acıqlandı:

– Axı siz məktəblisiniz! Heç utanmırsınız?!

Kişinin bu sözləri artıq dərsə getmək vaxtının gəlib çatdığını Səmədə xatırlatdı. O, yoldaşlarından ayrılıb evə getdi. Çantasını götürüb məktəbə yollandı.

Dərsin başlanmasına çox az qalmışdı. Səməd küçələrdən yüyürərək keçirdi. Kişinin dediyi ağır sözlər yadından çıxmırdı. Ancaq qızların necə yıxıldıqlarını xatırlayanda özünü gülməkdən saxlaya bilmirdi.

Məktəbə çatmağa az qalmışdı. Səməd dar bir səkinin üstü ilə yüyürəndə sanki yer ayağının altından qaçdı. Müvazinətinin saxlamaq istəyəndə çantası əlindən düşdü. O, əllərini havada oynadıb səkiyə çırpıldı. Elə bu zaman gülüş səsləri eşitdi. Ayağa qalxıb çantasını yerdən götürdü, üstünü çırpmağa başlayanda gözaltı ətrafına baxdı. O biri səkidə iki oğlan dayanmışdı. Onlar Səmədə baxıb gülürdülər. Yəqin ki, bu uşaqlar da sürüşdükləri yeri qarla örtüb yıxılanlara tamaşa edirdilər...

Səməd başını aşağı əyib heç bir söz demədən yoluna davam etdi. Onun dirsəyi yerə bərk dəydiyindən ağrıyırdı. İndi o, yan-yörəsindən ötən adamların üzünə baxa bilmirdi. Sanki hamı onu tanıyırdı, hamı bu saat onu danlamağa başlayacaqdı.

– Hə, görürsən? – deyəcəkdilər, – yarım saat bundan əvvəl özün kimi yıxılan adamlara gülürdün. – Necədir, sürüşüb yıxılmaq yaxşı şeydir?

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Əsərdə hansı məsələyə daha çox önəm verilmişdir?**

A) Qış fəslinin gətirdiyi çətinliklər
B) İnsanların bir-birinə münasibəti
C) Böyüklərin uşaqlarla sərt rəftarı
D) Uşaqların davşranışındakı qüsurlar
E) Savadsızlıq

**2. "Tərəddüd etmək" və "etina etmək" sözlərinin mənasını izah edin.**

**3. Aşağıdakı cümlələrə bənzətmə artırın.**

*a) Evlərin damları, küçələr, meydançalar, şəhər bağları... ağappaq idi.*
*b) Şaxtadan yanaqları, burnu qızarmışdı.*

**4. Əsərdə təsvir və ifadə vasitələrinin işləndiyi cümlələrə aid nümunələr yazın.**

| | |
|---|---|
| Bənzətmə | |
| Epitet | |
| Bədii sual | |

**5. Mətndə çərçivəyə alınmış hissənin planını tərtib edin.**

**6. Səmədin "Birdən yıxılıb əzilən olar ha!" sözləri hansı fikri ifadə edir?**

1. Təkliflə həvəslə razılaşdığını
2. Təklifi maraqla qarşıladığını
3. Bir qədər narahat olduğunu
4. Onun da tərəddüd etdiyini
5. Xoş həyəcan keçirdiyini

A) 1, 4 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 4, 5

**7. Səmədin xarakterindəki başlıca xüsusiyyətləri müəyyənləşdirib qısaca yazın.**

**8. Aşağıdakı hansı fikri təklif verən uşağa aid etmək olmaz?**

A) Əməlinin nəticəsini düşünmür.
B) Başqalarının pis vəziyyətə düşməsindən zövq alır.
C) Əyləncəni çox sevir.
D) Zarafatçıldır.
E) İnsanların sağlamlığı üçün təhlükə yaratmaqdan çəkinmir.

**9. Klasteri tamamlayın.**

Əsər hekayədir, çünki

**10. Hansı atalar sözləri hekayənin məzmununa və ideyasına uyğundur?**

1. Gülmə qonşuna, gələr başına.
2. Ehtiyat igidin yaraşığıdır.
3. Özü yıxılan ağlamaz.
4. Özgəyə quyu qazan özü düşər.
5. Tələsən təndürə düşər.

A) 1, 4 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 4, 5

# 5.
# TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Elçin Hüseynbəyli. QƏSD EDİLMİŞ GÖZƏLLİK –**<br><br>**3 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayənin məzmununu plan əsasında yaradıcı nağıl edir (1.1.3).<br>• Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. “Qəsd edilmiş gözəllik” hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>**1. Yadasalma.** Suallardan biliklərin xatırlanması, maraqoyatma vasitəsi kimi istfadə edilməsi.<br>**2. Oxu. Anlama.** Hekayədən parçanın ilkin oxusunun təşkili, təəssüratların bölüşülməsi. Dərslikdə verilmiş suallar üzrə işin təşkili.<br>**3. Öyrəndiklərinizi yoxlayın.** Məzmunla bağlı test tapşırıqlarının yerinə yetirilməsi, məzmunun öyrənilməsi səviyyəsinin yoxlanması.<br>**4. Nitqinizi və düşüncənizi zənginləşdirin.** Yaradıcı nağıletmənin əsasında məzmunun qavranılmasının dərinləşdirilməsi, şifahi nitqin inkişafı.<br>**5. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Hekayənin məzmununun mənimsənilməsi, tapşırıqların və yaradıcı nağıletmənin tətbiqi ilə öyrənilənlərin yoxlanılması və dərinləşdirilməsi, şifahi nitqin zənginləşdirilməsi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Hekayədə yaxın keçmişdən – sovet dönəmində baş vermiş hadisələrdən danışılır. Yazıçı mühüm bir mətləbə diqqəti cəlb etmişdir: bu elə bir ictimai quruluşdur ki, hər şey siyasi məqsədlərə qurban verilir. Nə insanların rifahı, nə də təbiət gözə görünür... Təsvirlər, obrazların yaradılmasında istifadə olunan bütün vasitələr bu fikrin, başlıca ideyanın ifadəsinə xidmət edir.*

*Yoxlama-sınaq dərslərindən aydınlaşmışdır ki, hekayənin məzmununda şagirdlər üçün yeni olan cəhətlər onun maraqla mütaliə edilməsinə səbəb olur. Cənubi Azərbaycanla ərazi, sərhəd yaxınlığının bu səviyyədə olması, tərəflərin o zamanlar çətinliklə də olsa, ünsiyyətə girə bilmələri, rus generalının bu yerlərin sahibi kimi davranması, Azərbaycan təbiətinin misilsiz gözəlliyi bu qəbildəndir. Zaman və məkanla bağlı izaha, çox az ehtiyac duyulur. Tarixiləşmiş sözlərlə – “kolxoz”, “kolxoz sədri”, “birinci katib”, “büro” bağlı hekayədə verilmiş izah mətnin başa düşülməsinə imkan yaradır. “Kolxozun pambıq sahəsi”, onun toxunulmazlığı barədə hekayədə səsləndirilən fikirlərin izahı məqsədəuyğundur. Kolxoz əmlakının, əslində, kolxozçuların yox, dövlətin ixtiyarında olduğu aydınlaşdırılır. Həyata keçirilən bütün tədbirlərdə zərər yalnız kolxozçunun, kəndlinin şəxsi təsərrüfatına dəyirdi. Bunun antihumanist mahiyyətinin aydınlaşdırılması müəllif niyyətinin dərk edilməsinə imkan yaradır.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Mövzuya marağın yaradılması üçün müxtəlif yollardan istifadə etmək mümkündür. Məsələn, dərslikdəki “Yadasalma” başlıqlı sualların (“Təbiətə laqeyd münasibətin əks olunduğu hansı əsərləri oxumusunuz? Onlarda razılaşmadığınız məqamlar olubmu?”) əsasında müsahibənin aparılması, sonda düşündürücü, cavabının aydınlaşdırılmasına ehtiyac duyulan sualın müəyyənləşdirilməsi faydalıdır. Hekayənin öyrənilməsində belə bir sualın aydınlaşdırımasının təklif edilməsi məqsədəuyundur: Təbiətə sərt müdaxilə etməkdə insanlar həmişə haqlıdırlarmı?

Hekayənin hansı formada – səsli, yaxud səssiz oxunması müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Formasından asılı olmayaraq, oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki sualların əsasında təəssüratlarını bölüşürlər:

– Əsər xoşunuza gəldimi? Nə üçün?
– Hansı yeniliklərlə qarşılaşdınız?
– Təsvir və hadisələri anlamaqda çətinlik çəkmədiniz?

Hekayənin əvvəlindəki təbiət təsvirinə münasibət fərqli olur. Şagirdlərin bir qismi suyun səthində uzanan işıq selindən, Araz çayının və ətrafının təsvirindən heyranlıqla danışır, bir qismi isə yalnız hadisələri izlədiklərini etiraf edirlər. Yenilik kimi sərhədlə bağlı məlumat, Sabirlə Əlinin tanışlığı, rus generalının hökmü, əmri daha çox xatırladılır. Şagirdlərdən az qismi Araz boyu uzanan yaşıl zolağın insanlar üçün əhəmiyyətini qeyd edirlər. Elə buna görə də kənd adamlarının təşvişə düşmələrinin əsl səbəbini izah etməkdə çətinlik çəkirlər.

Bütün bunların aydınlaşdırılması dərinləşdirilmiş oxu üçün sualların tərtibində nəzərə alınır. Odur ki müəllim konkret situasiyadan çıxış etməklə dərslikdəkindən fərqlənən suallar da təklif edə bilər. Yoxlama-sınaq dərslərinin nəticələrinə əsasən dərsliyə aşağıdakı suallar daxil edilmişdir:

– Təsvir olunan yeri təsəvvür edə bildinizmi?
– Gözlərinizin qarşısında hansı mənzərələr canlandı?
– Araz çayının, onun ətarfının təsviri sizdə hansı hiss, ovqat yaratdı?
– Sabiri heyrətləndirən nə idi?
– Onu Araz kənarına çəkən hansı istək idi?
– Meşə zolağının "təbiətin möcüzəsi" hesab edilməsinə səbəb nə idi?
– Sabir haqqında ilk təəssüratınız nə oldu?
– Arazın o tayında olan Cəfərli kəndi haqqında sizdə hansı təsəvvür yarandı?
– Bu tayda yaşayanların Cəfərlilərlə ünsiyyət yaratmasına kimlər mane olurdu? Nə üçün?
– Əlinin taleyi sizi düşündürdümü?
– İki dostun "sarıqulaq" sözü ilə bağlı söhbəti sizdə hansı təəssürat yaratdı? Bu barədə nə düşündünüz?
– Maşınlarla gələn hərbçilər kimlər idi?
– Yüksək rütbəli rus zabiti gördüyü mənzərəyə necə qiymət verir?
– Onun əsəbiləşməsinə səbəb nə olur?
– Şişmanın dedikləri Sabiri nə üçün qorxudur?
– Kənddə yayılan şayiələr nə barədə idi?
– İnsanları həyəcanlandıran əsl səbəb nə idi?

Şagirdlərin sualların üzərində fərdi olaraq düşünmələri, ilkin cavablarını hazırlamaları faydalıdır. Yalnız bundan sonra cütlük şəklində, yaxud kiçik qruplarda – əməkdaşlıq şəraitində işləmələri səmərəli olur. Ehtiyac yaranan hallarda müəllim istiqamətləndirmələrinə yer verilir. Nəticənin yığcam müsahibə, yaxud təqdimatlar əsasında müzakirə edilməsi məqsədəuyğundur.

Test tapşırıqları isə fərdi olaraq yerinə yetirilir və məzmunun qavranılma səviyyəsi barədə etibarlı vasitə kimi dəyərləndirilir:

## II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN

1. Fikirlərdən biri doğrudur.
   A) Arazboyu torpaq sahəsindən yalnız otlaq kimi istifadə olunurdu.
   B) O tay və bu tayda yaşayanlar bir-biri ilə sərbəst əlaqə saxlayırdılar.
   C) Yüksək rütbəli rus zabitini əsəbiləşdirən kəndlilərin ixtiyarında geniş torpaq sahəsinin qalması idi.
   D) Arazboyu meşə və torpaq zolağı yüzlərlə kəndin yaşayışını təmin edirdi.
   E) Kənd adamları baş verə biləcək hadisənin acı nəticələrini əvvəlcə dəyərləndirə bilmirlər.

- Fikirlərdən biri səhvdir.
  A) Arazboyu meşə və yaşıllıq gözəlliyi ilə məşhur idi.
  B) Bu ərazidən otlaq, meyvə-tərəvəz əkini üçün əlverişli torpaq sahəsi kimi istifadə olunurdu.
  C) Kənddə yaşayan insanlar gözlənilən fəlakəti, onun ağır nəticələrini dərhal anlayırlar.
  D) Yüksək rütbəli rus zabitinin məqsədi o tayla, bu tayın heç bir əlaqəsinin olmaması idi.
  E) Gözlənilən faciəni ilk eşidən və təşvişə düşən Sabir olur.

Tapşırığın səmərəliliyi cavab variantlarının ayrı-ayrılıqda təhlil edilməsindən asılıdır. Bu, məzmunun əhəmiyyətli dərəcədə əhatə olunmasına imkan yaradır.

Müəllimin təklifi ilə şagirdlər hekayədən seçdikləri bitkin parçanı yaradıcı nağıletməyə hazırlaşırlar. Məqsəd çoxlu sayda şagird dinləmək olmamalıdır. Səciyyəvi nümunələrdən bir neçəsinin dinlənilib müzakirə edilməsi kifayətdir.

### III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Mətndən seçdiyiniz parçanın məzmununu *yaradıcı* danışmağa hazırlaşın.
2. Çıxışlara münasibət bildirin.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayənin məzmunu ilə səsləşən əlavələr etməklə bitkin parçanı yaradıcı nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən məqamında istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Elçin Hüseynbəyli. QƏSD EDİLMİŞ GÖZƏLLİK –**

**3 saat**

**İkinci saat: OXU. ANLAMA**

**Təlim məqsədləri**

- Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).
- Müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).

**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. “Qəsd edilmiş gözəllik” hekayəsi ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**

**1. Oxu. Anlama.** Əsərin ardının oxunması, təəssüratların bölüşülməsi, dərinləşdirilmiş oxunun sualar əsasında həyata keçirilməsi.
**2. Nitqinizi və düşüncənizi zənginləşdirin.** Hekayənin ideya məzmununun əsasında şagirdlərdə dünyagörüşün inkişaf etdirilməsi.
**3. Müzakirə.** Əsərin ideya məzmununun əsasında şagirdlərdə həyati bacarıqların inkişaf etdirilməsi.
**4. Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə hekayənin məzmununun öyrənilməsi davam etdirilir. Əsərin ideya məzmununa əsaslanmaqla şagirdlərdə dünyagörüşün, həyati bacarıqların inkişaf etdirilməsi üzrə işin təşkilinə diqqət yetirilir.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin səssiz oxusunun təşkili vaxta qənaət baxımından məqsədəuyğundur.*

Şagirdlərin mətnə necə münasibət bəslədikləri oxu prosesində müşahidə edilir. Tanış olmayan sözlərin aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinə diqqətin yetirilməsi müəllimin nəzarəti ilə reallaşdırılır. İlkin oxudan sonra şagirdlər dərslikdə təklif edilmiş sualların əsasında təəssüratlarını bölüşürlər:

– Hekayənin davamını oxumaq maraqlı oldumu? Nə üçün?

– Hadisələrin bu cür inkişafı sizdə hansı təəssürat yaratdı?
– Sizə daha çox təsir edən epizod hansı oldu? Nə üçün?

Hekayədə hadisələr tədricən gərginləşir. Rus generalının göstərişi, kənddə şayiələr, büro iclasında katiblə sədrin söz döyüşü, ağır texnikanın yaşıllığı, ağacları məhv etməsi, insanların etirazı, nəhayət, Ağakişiyevin kənd adamlarının ümidini puç edən etirafı... Şagirdlər bu gərginliyi duyurlar. Sarı rəngli iri buldozerin böyük şam və küknarları, budaqları meyvə dolu ağacları ard-arda yıxması onları mütəəssir edir və bunu canıyananlıqla, təəssüflə dilə gətirirlər.

Şagirdlərin əksəriyyəti hadisələrin bu şəkildə davam edəcəyini gözləmədiyini etiraf edir. Onların fikrincə, bu gözəlliyi məhv etmək ağılsızlıqdır. Məktəblilərin çoxu hekayənin sonundakı epizoddan daha çox təsirləndiyini etiraf edir: buldozer yaşıllığı məhv edərək irəliləyir, ardınca bomboz çöllük buraxır...

Mətndə sezilməyən mətləblər hələ çoxdur: Əkin-biçin yerlərinin, otlaq sahələrinin məhv edilməsinin ağır nəticələri, tikanlı məftillərin yerinin dəyişdirilməsi əsl səbəbi, rayonun rəhbər işçilərinin hadisəyə laqeyd münasibəti qədərincə duyulmayıb... Dərslikdə təklif edilmiş suallarda bütün bunlar nəzərə alınmaqla diqqət daha dərin qatlara yönləndirilib:

– Sizcə, katib "lap yuxarı" sözləri ilə nəyə işarə edir?
– Gözlənilən hadisənin ağır nəticələrini anlayan sədr hansı hissləri keçirir?
– Sədrin narahatlığının əsl səbəbi nə idi?
– Nümayəndənin danışığından iclasdakılara nə məlum oldu?
– Tikanlı məftilin şimala çəkilməsinə ehtiyac var idimi?
– Katib nə üçün Ağakişiyevin çıxış etməsini istəmirdi?
– Katibin ona qarşı kobudluq etməsinə səbəb nə oldu?
– Katib nə üçün pambıq əkininə ayrılmış sahənin toxunulmaz olduğunu qətiyyətlə bildirirdi?
– Katibin sədrə dediyi "Gedin əhalini hazırlayın" sözlərində hansı fikir ifadə edilib?
– Meşənin qırılmasına, yaşıllığın məhv edilməsinə insanların münasibəti necə oldu?
– Rayonun rəhbər işçilərinin hadisəyə münasibəti necə idi?

Sualların üzərində ilk növbədə fərdi olaraq düşünən, müstəqil cavab hazırlayan şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda fəaliyyətlərini davam etdirirlər. Bütün hallarda mətndən nümunələrin gətirilməsinin vacib olması diqqət mərkəzində saxlanılır. Nəticənin müzakirəsi müsahibə, yaxud təqdimatların dinlənilməsi əsasında reallaşdırılır.

Növbəti tapşırıq yalnız şifahi nitqin deyil, həm də şagirdlərdə ümumiləşdirmə bacarığının, dünyagörüşün inkişafı üçün əhəmiyyətlidir:

## II. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın:

a) Əsərdən yeni nə öyrəndim.
b) Təbiətə amansız münasibətin nəticəsi nə olur.

Dərslikdə müzakirə – debat üçün təklif edilmiş mövzu şagirdlərdə məntiqi düşüncənin ikişafı üçün əhəmiyyətlidir. Mövzu ciddi diskussiyanın yaranmasına səbəb olur. Dəlilləri daha məntiqli olanlar üstünlük əldə edirlər. Tərəflərin, eləcə də münsiflərin fəaliyyəti müəllimin müşahidələrinin nəticələri və bələdçilik fəaliyyətinin tələbləri əsasında tənzimlənir.

## III. MÜZAKİRƏ

1. "İnsanlar meşəni xilas edə bilərdilər" mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla dəlillərinizi hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Müzakirədə mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir. | Şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Elçin Hüseynbəyli. QƏSD EDİLMİŞ GÖZƏLLİK –**<br><br>**3 saat**<br><br>**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (1.1.2).<br>• Hekayənin janr baxımından əfsanə ilə oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirir (1.2.1).<br>• Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Hekayənin başlıca mövzusunu və və əsas ideyasını şərh edir (1.2.4).<br><br>**Köməkçi vasitələr:** Elçin Hüseynbəylinin əsərlərindən nümunələr. "Qəsd edilmiş gözəllik" hekayəsi ilə bağlı illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının səciyyələndirilməsi, janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi üzrə araşdırmanın aparılması.<br>**2. İfadəli oxu.** Hekayədən bitkin parçanın ideya məzmuna uyğun ifadəli oxusu üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazlarının səciyyələndirilməsi, janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi, ifadəli oxunun gerçəkləşdirilməsi üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, hekayədə oxucunu düşündürən məsələlər çoxdur. Lakin müəllifi daha çox narahat edən nədir? O daha çox hansı problemə diqqəti cəlb etmək istəmişdir?

Şagirdlərin fikirləri dinlənilir. Müəllim əlavə edir ki, hekayə haqqında öyrənilənlər tətbiq edilməklə araşdırmanın aparılması sualın cavabının aydınlaşdırılmasına səbəb ola bilər.

**Müəllim üçün əlavə məlumat.** *Hekayədə hadisələrin təsvirinə daha geniş yer verilmişdir. Yəni burada portret hekayələrinə məxsus xüsusiyyətlr müşahidə olunmur. Qəhrəmanların mənəvi-psixoloji durumu barədə çox xəsisliklə deyilmiş bir-iki fikir istisna olunmaqla əhəmiyyətli təsvirə, məlumata rast gəlinmir. Lakin bu qısa fikirlər elə ustalıqla ifadə edilmişdir ki, hansı obraza aiddirsə, onun haqqında dolğun təsəvvür qazanmaq olur. Məsələn, Sabirin həssaslığını, təbiətə vurğunluğunu, Ağakişiyev soyadı ilə təqdim edilən kolxoz sədrinin insanlara, doğma yurduna sonsuz məhəbbətini duymaq çətin deyil. Tapşırığın icrasında, müzakirələrdə şagirdlərin diqqətinin bu cəhətlərə cəlb edilməsi məqsədəuyğundur.*

Araşdırma, təhlil xarakterli tapşırığın yerinə yetirilməsində fərqli iş formalarından istifadə etmək olar. Şagirdlər cütlük şəklində işləyərsə, hər cütlüyə tapşırığın bir sualı təklif edilə bilər. Eləcə də sualların kiçik qrupların arasında bölüşdürülməsi mümkündür.

Tapşırığın birinci bəndi aşağıdakı məzmundadır:

• Əsərin mövzusunu müəyyənləşdirin. Tövsiyələrdən faydalanın:
– əsərdəki əsas hadisələri və onlarda daha çox nəyə diqqət edildiyini yada salın;
– kənd adamlarını daha çox narahat edən məsələləri xatırlayın;
– müəllif üçün ən mühüm olanı müəyyənləşdirməyə çalışın.

Tapşırığın bütün tövsiyələri şagirdlərin diqqətini bir mətləbə – təbiətə qarşı çevrilmiş ədalətsiz qərara yönləndirir. Lakin hekayənin alt qatında başqa, həm də az əhəmiyyətli olmayan mətləb də vardır. Yazıçını ölkənin asılı vəziyyəti ciddi şəkildə düşündürür, gözlənilən fəlakətin əsl səbəbini bunda görür. Müəllif birinci katibin dili – eyhamı ilə bunun "lap yuxarının" tapşırığı olduğuna diqqəti çəkir. Dərsdə bu iki mətləb – təbiətə (dolayısı ilə əhaliyə) amansız münasibət və ölkənin müstəmləkə vəziyyəti qarşılıqlı əlaqədə ön plana çəkilməlidir.

Hekayədə kolxoz sədri obrazı oxucunu dərhal cəlb edir. Bu obrazın ətraflı təhlilinin həyata keçirilməsi nəzərdə tutulmuş tədbirin nə qədər təhlükəli, zərərli olduğunu anlamağa kömək edir. Suala əlavə edilmiş tövsiyələr şagirdlərin fəaliyyətinin səmərəliliyi üçün faydalıdır:

- Sədr obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:

– müxtəlif vəziyyətlərdə keçirdiyi hiss-həyəcan;
– fərqli məqamlarda düşüncələri, davranışı və nitqi;
– insanlara, təbiətə münasibəti,
– mühüm qərarlar verməsinin səbəbləri.

Oxucu bu obrrazı müxtəlif məqamlarda görür və ətraflı tanımaq imkanı qazanır. Büro iclasında birinci katibin açıq hədələri onu susdura bilmir. Yüzlərlə kəndi gözləyən fəlakəti dərhal anlayan sədr insanların dolanışıq, yaşayış mənbəyindən məhrum olacaqlarını, doğma yerləri tərk edəcəklərini bildiyindən geri çəkilmir. İyirmi ildən yuxarı böyük bir təsərrüfata rəhbərlik edən Ağakişiyev təbiətə səbəbsiz müdaxiləni dayandırmaq, bu gözəlliyi xilas etmək üçün gücsüz olduğunu anlayır. Elə buna görə də insanlara bu faciənin mahiyyətini çox tutarlı şəkildə çatdırır: Bu qəsdin qarşısını almaq mümkün olmadı...

İclasda həyəcanlanan, əlləri əsən sədr buldozerin işləməsinə mane olmaq üçün yığılmış yüzlərlə adamın qarşısında ürəyini didib-parçalayan qəzəbini, çoşqun hisslərini heç cür gizlədə bilmir.

"Lap yuxarıların" göstərişinin yerinə yetiriləcəyini bilən sədr evində otura bilmir, ruslardan ibarət sərhədçilərin insanlara əl qaldıracaqlarını düşünür, həmyerliləri ilə birlikdə olmağa qərar verir.

Tapşırıqda növbəti sual Sabir obrazının təhlili ilə bağlıdır:

- Sizcə, Sabirin xarakterindəki başlıca cəhətlər hansılardır? Tövsiyələrə diqqət edin:

– fərqli məqamlarda hiss və düşüncələri;
– təbiətə və insanlara münasibəti;
– müxtəlif vəziyyətlərdə davranışı.

Bu obraz şagirdləri maraqlandırır. Təbiətə vurğunluğu, onun mənzərələrindən zövq alması, Əli ilə söhbəti, rus generalının göstərişindən həyəcanlanması şagirdlərin diqqətini cəlb edir. Araz boyu gözəlliyi duyan, ondan zövq alan Sabirin keçirdiyi hissləri anlamaq çətin deyildir. Təbiəti sevən bu məktəbli yaşıllıq məhv edilərsə, insanların düşəcəkləri fəlakəti də yaxşı hiss edir və bundan kədərlənir.

Hekayədə digər obrazlar barədə geniş məlumata, qeyd edildiyi kimi, yer verilməmişdir. Lakin oxucu onların hər biri barədə aydın təsəvvür qazana bilir. Əsərin məzmunu öyrənilərkən bu barədə məlumat əldə edən şagirdlər tapşırığın növbəti sualına əhatəli cavab hazırlamaqda çətinlik çəkmirlər:

- Birinci katib, general, mərkəzdən gələn nümayəndə obrazları haqqında hansı nəticəyə gəldiniz? Fikirlərinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın. Tövsiyələrdən faydalanın:

– təbiətə və insanların həyatına böyük ziyan vuran qərarlara münasibətləri;
– oxşar və fərqli cəhətləri;
– bu obrazlar həmin dövr haqqında hansı təsəvvür yaradır?

Onların hər üçünü birləşdirən ortaq cəhət insanların hayatına və təbiətə laqeyd olmalarıdır, maraqları isə fərqlidir. Rus generalını düşündürən siyasi məqsəddir: iki qardaş bir-biri ilə danışmamalı, onların arasında heç bir əlaqə olmamalıdır. Əks halda, yaxınlaşma baş verər, yaddaş dirçələr, müstəqillik, bütöv Azərbaycan ideyaları düşüncələrə hakim olar...

Birinci katib buyruq quludur, həmin dövrün manqurt tipli məmurudur. Yaranmış vəziyyətdən çıxış yolu axtarmaq, fəlakətdən yüngül itki ilə yaxa qurtarmaq barədə nəinki fikirləşmir, bu barədə düşünənlərə hədə-qorxu da gəlir.

Nümayəndə obrazında diqqət çəkiləsi məqamlar var. Bu adam ana dilini bilmir. Yaranmış vəziyyətlə bağlı araşdırma aparmaq, təcrübəli adamların fikrini öyrənmək barədə heç fikirləşmir də... "lap yuxarıdan" gələn tapşırığın icra edilməsini təxirəsalınmaz vəzifə hesab edir.

Tapşırığın növbəti bəndi ədəbi-nəzəri anlayışla bağlı bilik və bacarıqların tətbiqi, möhkəmləndirilməsi ilə bağlıdır:

- Əsəri oxuduğunuz əfsanələrdən biri ilə müqayisə etməklə hekayə janrında olduğunu əsaslandırın.

| s | Hansı cəhətlərinə görə müqayisə olunurlar | "Qəsd edilmiş gözəllik" | |
|---|---|---|---|
| | | | |
| 1 | Mövzu | | |
| 2 | İştirakçılar | | |

| | | | |
|---|---|---|---|
| 3 | Hadisələrin özünəməxsusluğu | | |
| 4 | Təsvirlərin özünəməxsusluğu | | |
| 5 | Sonluğun özünəməxsusluğu | | |

Müqayisə üçün əfsanənin seçilməsində şagirdlər sərbəstdirlər. Lakin bu sinifdə öyrəndikləri əfsanələrdən birinin üzərində dayanmaları daha səmərəli işləmələrinə səbəb olar. Şagirdlər bu qəbildən tapşırıqla bağlı təcrübə qazanmışlar. Onların diqqəti hər iki əsərdən fikirlərini təsdiq edən nümunələrin seçilməsinə yönləndirilməlidir.

Tapşırığın sonuncu sualı hekayənin ideyasının müəyyənləşdirilməsi və əsaslandırılması ilə bağlıdır:

- Sizcə, əsərdəki əsas fikir – ideya nədir? Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı nümunələrlə əsaslandırın.

| s. | Aşağıdakı fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Vətənin, onun təbiətinin qədrini yalnız xalq bilir. | | |
| 2 | Təbiəti siyasətə qurban vermək olmaz. | | |
| 3 | Təbiətə amansız münasibətin sonu fəlakətli olur. | | |

Cavab variantlarının üzərində fərdi olaraq fikirləşən şagirdlərə fikir mübadiləsi aparmaları üçün vaxt ayrılır. Seçilmiş, yaxud müstəqil müəyyənləşdirilmiş variantın müzakirəsində əsaslandırılmış fikirlərə üstünlük verilir.

**II. İFADƏLİ OXUYA HAZIRLAŞIN**

1. Aşağıdakı parçanın ifadəli oxusuna hazırlaşın. Məzmununu bir daha yadınıza salın. Düşünün: bu parçanı oxuyarkən dinləyicilərə nə çatdırmalıyam, onlarda hansı hiss və düşüncənin yaranmasına nail olmalıyam...

Oxuda fasilə edəcəyiniz yerləri, səsinizin yüksəlib-alçaldığı məqamları, məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin. Unutmayın ki, oxuduğunuz parçanın məzmunundan asılı olaraq, səsinizdə fərqli çalarlar: sevinc, fərəh, heyranlıq və s. duyulacaq. Bunları mətnin kənarında müvafiq cümlələrin qarşısında qeyd edin.

| İfadəli oxunacaq mətn | Səsin aldığı çalarlar |
|---|---|
| Dan yeri çoxdan ağarmışdı. Yenə təbiət günəşin qızılı tellərinə qoyun açmışdı. Araz boyunu həzin bir musiqi – təbiətin sirli-sehrli səsi bürüyürdü. Budaqdan-budağa qonaraq səs-küy salan quşlar da sanki bu yolla təbiətin gözəlliyinə heyranlıqlarını bildirirdilər. Lal sularında bir qırçın belə görünməyən Araz elə bil səhər yuxusundan ayılmaq istəmir, günəş yüksəldikcə üzərinə düşən parlaq işıq sütununun mülayim istisini canına çəkirdi. Adətən, nərilti-gurultu qopararaq axan çay parıltısı Soltanlı kəndinin tut bağlarını aşan və göz işlədikcə uzanan bu işıq selini ürkütməmək üçün yatağına sığınmışdı... | |

2. İfalara münasibət bildirin.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları və ədəbi tələffüz qaydalarına əməl etməklə ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin janr baxımından əfsanə ilə oxşar və fərqli xüsusiyyətlərini nümunələr əsasında müəyyənləşdirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu nümunələrlə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin mövzusunu və ideyasını nümunələr əsasında fərqləndirir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Ramiz Qusarçaylı. PAYIZ –**<br><br>**2 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində istifadə edir (1.1.5).<br>• Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Əsərdəki başıca fikri digərlərindən fərqləndirir (3.1.2).<br><br>**Köməkçi vasitələr:** Ramiz Qusarçaylının əsərlərindən nümunələr. "Payız" şeiri ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Suallardan müxtəlif məqsədlər üçün (bilik, bacarıqların yada salınması, maraqoyatma vasitəsi kimi) istifadə edilməsi.<br>2. **Oxu. Anlama.** İlkin oxunun və qavranılma səviyyəsinin müəyyənləşdirilməsi, məzmunun öyrənilməsinin dərinləşdirilməsi.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Məzmunun mənimsənilmə səviyyəsinin yoxlanması, mənimsənilənlərin dərinləşdirilməsi.<br>4. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Şeirin məzmununun, eləcə də nəzəri anlayışlarla bağlı bilik və bacarqların möhkəmləndirilməsi və zənginləşdirilməsi.<br>5. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Şagirdlərdə məntiqi düşüncənin, ümumiləşdirmə bacarığının, şifahi və yazılı nitqin inkişaf etdirilməsi üzrə müstəqil işlərin təşkili.<br>6. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə şeirin məzmununun öyrənilməsi, mənimsənilmə səviyyəsinin yoxlanılması, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdiriməsi, ümumiləşdirmə, nitq inkişafı, məntiqi təfəkkürün inkişafı istiqamətində işlərin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Şeirin məzmunu ilk oxunun fərdi-səssiz formada reallaşdırılmasına imkan verir. Əgər ayrı-ayrı misralarla bağlı suallar yaranarsa, şagirdlərə istiqamət vermək lazım gəlir.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Şagirdlər "Yadasalma" başlıqlı sualların (Payız fəslinə həsr edilmiş şeirlərdən hansını xatırlayırsınız? Onun sizdə yaratdığı təəssüratı unutmamısınız?) üzərində düşünürlər. Müəllimin yardımçı sualları öyrənilmiş nümunələrin xatırlanmasına, yığcam müsahibənin təşkilinə imkan yaradır. Şagirdlər mühüm sualın formalaşdırılmasına cəlb olunurlar: Payız fəslinin insanlarda yaratdığı hansı hiss və düşüncələrə şeirdə daha çox önəm verilib?

İlkin oxudan sonra şagirdlərə aşağıdakı sualların əsasında təəssüratlarını bölüşmək təklif olunur:

– Şeiri maraqla oxudunuzmu? Nə üçün?
– Şeirdə payızla bağlı təəssüratınızı xatırladan təsvirlər varmı?
– Hansı misralar, bəndlər sizi daha çox təsirləndirdi?

Ramiz Qusarçaylının təbiət mövzusunda yazdığı maraqlı şeirlərindən olan "Payız"da fəslin özəllikləri təsirli bədii lövhələrə əks etdirilmişdir. Təbiətin payızda öz donunu dəyişməsi elə konkret cizgilərlə təqdim edilmişdir ki, təkcə təcrübəli oxucuların deyil, məktəblilərin də təsəvvüründə zəngin mənzərələr canlanır.

Şagirdlər şeiri maraqla oxuduqlarını etiraf edir, fəsillə bağlı başqa təəssüratlarının olmadığını bildirirlər. Dolayısı ilə şeirin məzmunca zəngin olduğunu təsdiq edirlər. Daha çox təsirləndikləri misra, bəndlərə gəlincə fikirlər haçalanır və şagirdlərdən hər biri mövqeyini əsaslandırmağa çalışır.

İlkin qavramanın nəticələri nəzərə alınmaqla müəyyənləşdirilmiş sualların cavabları üzərində düşünən şagirdlər tez-tez mətnə müraciət edirlər:

– Şeirin ilk misrasındakı fikri necə izah edərsiniz?
– Təbiət yalnız payızdamı "donunu dəyişir"?

– İkinci bəndin ilk iki misrasına diqqət edin. Onlarda payızın gəlişi necə əks olunub? Belə ifadə, təsvir maraqlıdırmı?

– Durna qatarı nə üçün “qərib-qərib” ötüb-gedir? Onları vəfasız saymaq olarmı?

– “Qayğısı azalmır boş yuvaların” misrası ilə şair hansı fikri çatdırmaq istəmişdir?

– Dördüncü bəndə diqqət edin: Quşlar, çöl heyvanları payızı necə qarşılayırlar? Quşların səsində kövrəkliyin duyulmasına səbəb nədir?

– Təbiətdə canlı, cansız – hər şey payız həyatını yaşayır, onun təsirinə məruz qalır. Beşinci bənddə bu fikrin necə ifadə olunduğunu izah etməyə çalışın.

– Payız ziddiyyətləri şeirin altıncı bəndində necə əks olunub? Sizdə “Payızın da öz gözəlliyi var” fikrinə rəğbət yarandımı?

– Şeirin sonuncu bəndində ifadə olunmuş başlıca fikri izah etməyə çalışın. Bu bənddə əksini tapmış fikir şeirdə deyilənlərin yekunu kimi səslənirmi?

Suallar, göründüyü kimi, fərqli tələbləri özündə əks etdirir: məzmunla bağlı öyrənilənlərin dərinləşdirilməsi, təsvir obyektlərinə münasibət bildirilməsi, təsəvvürün zənginləşdirilməsi bu qəbildəndir.

Suallara cavabların hazırlanması fərqli iş formalarından istifadə ilə həyata keçirilə bilər. Əvvəlcə fərdi olaraq düşünən, ilkin cavablar hazırlayan şagirdlər fəaliyyətlərini cütlük şəklində, yaxud kiçik qruplarda davam etdirə bilərlər. Nəticənin müsahibənin tətbiqi ilə müzakirə olunması vaxta qənaət etməyə imkan verir. Növbəti tapşırıq öyrənilənlərin yoxlanması baxımından faydalıdır:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.

A) Payız fəsli şairdə sevinc, fərəh hissi doğurur, xoş ovqat yaradır.
B) Payız mənzərələrindən şairə xoş gəlməyənlər də var.
C) Payız canlıların həyatına təsirsiz ötüşür.
D) Quşlar, heyvanlar aləmində payızın gəlişinə bir laqeydlik olur.
E) Payızın gəlişi ilə bütün canlılar yaşadıqları məkanı dəyişirlər.

2. Fikirlərdən biri səhvdir.

A) Bağçanı-bağı talayan payız təbiəti bütünlüklə öz ahənginə tabe edir.
B) Təbiətin aldığı payız mənzərəsi şairin qəlbinə bir soyuqluq gətirir.
C) Yaşıl libasını soyunan təbiətdə qəmgin bir ovqat duyulur.
D) Quşlar və heyvanlar öz yuvalarına, yaşayışlarına qayğılarını artırırlar.
E) Payızda bağ-bağça bəhrəsiz olur.

Cavab variantlarının hər birinin üzərində düşünən şagirdlər onların təhlilində fəallıq göstərirlər.

Dərslikdəki növbəti tapşırıq nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqinə, yazılı nitqin inkişafına əhəmiyyətli təsir edir.

**III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ**

1. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.
2. Daha maraqlı hesab etdiklərinizi cümlələrdə işlədin. Cümlələrin şeirin məzmunu ilə əlaqəli olmasına diqqət edin.
3. İşinizin nəticəsini müzakirə edin.
4. Çıxışlara münasibət bildirin.

Bədii təsvir və ifadə vasitələrinin cümlələrdə işlədilməsi, cümlələrin şeirin məzmunu ilə əlaqələndirilməsi yaradıcı yanaşmanın mövcudluğu şəraitində mümkündür. Cümlələrin məzmunu şeirdəki başlıca fikrin hansı səviyyədə başa düşüldüyü barədə müəyyən təsəvvür yaradır.

Sonuncu tapşırığın səmərəli icrası şagirdlərdə məntiqi təfəkkürün, ümumiləşdirmə bacarığının, nitqin inkişafı baxımından faydalıdır.

## IV. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. Mövzulardan birini seçib yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.
   a) Şeir payız fəsli haqqındakı təsəvvürümü necə zənginləşdirdi.
   b) Payız fəslini şeirdə təsvir olunanlardan fərqli necə təsəvvür edirəm.
2. Çıxışlara münasibət bildirin.

Şeirin məzmunu üzrə aparılmış işlər şagirdlərin təxəyyülünü fəal işə qoşur. Canlı müşahidələrini tədricən bərpa edən şagirdlər təqdimatın ikinci mövzusu ilə bağlı artıq fikir səsləndirməkdə çətinlik çəkmirlər.

Çıxışların fəal dinlənilməsi, müzakirəyə daha çox şagirdin cəlb edilməsi təmin olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeirdə müəyyənləşdirdiyi bədii təsvir və ifadə vasitələrindən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda məqamında istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirdəki başlıca fikri digərlərindən nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

**Mövzu:**

**Ramiz Qusarçaylı. PAYIZ –**

**2 saat**

**İkinci saat: ARAŞDIRMA. TƏHLİL**

**Təlim məqsədləri**
- Şeiri ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (1.1.2).
- Təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).
- Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).
- Şeirlə bağlı müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).

**Köməkçi vasitələr:** Ramiz Qusarçaylının əsərlərindən nümunələr. “Payız” şeiri ilə bağlı illüstrasiyalar.

**Dərsin qısa planı**
1. **Araşdırma. Təhlil.** Şeirin mövzusu, ideyası, nəzəri anlayışlar üzrə araşdırma və dəyərləndirmənin aparılması, müəllifə münasibətin ifadəsi.
2. **İfadəli oxu.** İfadəli oxu bacarığının inkişafı üzrə işin təşkili.
3. **Formativ qiymətləndirmə.**

**Dərsin məzmunu.** İkinci dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqi, müəllifə münasibətin bildirilməsi, ifadəli oxu bacarıqlarının inkişafı üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Şeirdə payız fəslinin özəllikləri, insanlarda yaratdığı təəssürat maraqlı bədii lövhələrlə əks etdirilmişdir. Buna necə nail olunmasının araşdırılması müəllif niyyətinin, bütövlükdə əsərin ideyasının dəyərləndirilməsinə imkan yaradır. Şeirdəki təsvirlərdən bir neçəsini xatırladan müəllim şagirdlərin iştirakı ilə mühüm sualı formalaşdırır: Payız fəslinin özünəməxsusluğu şeirdə uğurla ifadə olunubmu?

Şagirdlərin fikirlərinin dinlənilməsinə vaxt ayrılır.

Nəticə çıxarılır: Sualın əsaslandırılmış cavabının aydınlaşdırılması əsər üzrə araşdırmanın dərinləşdirilməsi istiqamətində işin aparılmasını zəruri edir.

**Müəllim üçün əlavə məlumat.** *Müəllifin təsvir olunanlara münasibətinin aydınlaşdırılması başlıca niyyətinin, əsas ideyanın dəyərləndirilməsinə əhəmiyyətli təsir edir. Bu məqsədlə tapşırığa daxil edilmiş sualın tövsiyələrinə həssas yanaşma, onlara əlavələrin edilməsi faydalıdır.*

Dərslikdəki “Araşdırma. Təhlil” başlıqlı tapşırığın tələbləri tövsiyələrin nəzərə alınması zəminində araşdırılır. Buna görə də tövsiyələrlə tanışlıq, onlarda nəzərdə tutulanların yerinə yetirilməsinə həssas yanaşma təmin edilir. Artıq qeyd edildiyi kimi, məqsədindən, sinfin səviyyəsindən asılı olaraq, müəllimin tövsiyələrə yaradıcı yanaşması arzuolunandır. Tapşırığın birinci tələbi və onunla bağlı tövsiyələr aşağıdakı məzmundadır:

- Şeir hansı mövzuda yazılıb? Tövsiyələrə diqqət edin:

– şeirin ayrı-ayrı bəndlərində əks olunmuş təsvirləri yada salın;
– bu təsvirlərdə ifadə olunmuş fikirlərin arasındakı oxşarlığı xatırlayın;
– bütün təsvirlərin nəyə aid olduğunun üzərində düşünün.

Şagirdlər bu tip tapşırığın icrası ilə bağlı xeyli təcrübə qazanıblar. Tövsiyələrin əsasında işləmək onlar üçün çətin deyildir. Tövsiyələrin tələblərinin yerinə yetirilməsinə şeirin məzmununun mənimsənilməsi prosesində qazanılmış bilik və bacarıqlar əhəmiyyətli dərəcədə təsir edir. Şeirin bütün bəndlərində diqqət payız fəslinin təsvirinə yönəlmişdir. Əsərdəki fikirlər bir-biri ilə qarşılıqlı əlaqədə olub payız fəslinin təbiətdə özünü necə göstərdiyini ifadə edir. Bütün bunları nümunələr əsasında izah edən oxucu-məktəbli mövzunu müstəqil müəyynəşdirməkdə çətinlik çəkmir.

Tapşırığın ikinci bəndi şeirdə təzahür edən sənətkarıq məsələlərinə münasibət bildirməyi tələb edir:

- Payız fəslində baş verənlər şeirdə uğurla təsvir edilibmi? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın. Tövsiyələrdən faydalanın:

– bağlarda, bağçalarda baş verən dəyişiklik təsirli ifadə edilibmi?
– bu fəsildə quşlar, heyvanlar aləmində hiss olunan təlaş inandırıcı əks olunubmu?
– təbiətin bu fəsildə aldığı mənzərənin təsviri oxucuda müəyyən hiss və düşüncə yaradırmı?

Tövsiyənin hər biri bədii mətnə müraciət olunmasını tələb edir. Nümunənin seçilməsi işin bir tərəfidir. Əsas mətləb nümunədə əks olunanların uğurlu olub-olmadığının əsaslandırılmasıdır. Bağda, bağçada payızın nəfəsinin duyulması hansı dəyişikliyə səbəb olur, bu, inandırıcı, təsirli ifadə edilibmi? Payızın yetişməsi ilə quşlar, heyvanlar aləmində nələr baş verir, bu, oxucuya hansı ustalıqla çatdırılır?

Şeirdə elə təsvirlər var ki, coşqun hisslər oyadır, oxucunu xəyalən ya keçmişə, ya da gələcəyə aparır. Bunu şeirin məktəbli oxucusu duya bilirmi?

Bütün bunların araşdırılması, dəyərləndirilməsi şagirdlərdə söz sənətinə maraq və məhəbbətin formalaşmasına az təsir etmir.

Şeirin müəllifi incə müşahidə qabiliyyəti, zəngin təxəyyül sahibi olan, həssas bir insan kimi diqqəti cəlb edir. Onun müşahidələrini, təbiətdə nəyi gördüyünü və necə təqdim etdiyini aydınlaşdırmaq şeirin ideya məzmununun dəyərləndirilməsində mühüm rol oynayır:

- Əsər müəllif barədə sizdə hansı təsəvvür yaratdı? Tövsiyələrə əsaslanmaqla onun haqqında təəssüratınızı zənginləşdirib izah edin:

– təbiətə münasibəti;
– payızda baş verən dəyişikliyin onda yaratdığı təəssürat;
– quşlar və heyvanlar aləminin müşahidəsində və təsvirində həssaslıq.

Tapşırığın növbəti bəndi nəzəri anlayışla bağlı bilik və bacarıqların tətbiqi ilə əlaqəlidir. Təsvir və ifadə vasitələrinin bədiiliyin artmasında rolunun nümunələrin əsasında aydınlaşdırılması şagirdlər üçün həm asan, həm də maraqlı iş növüdür:

- Sizə daha maraqlı görünən təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni izah edin. Cədvəldən istifadə edin.

| Bədii təsvir və ifadə vasitələrinin işləndiyi misralar | Bədiiliyin artmasında onların rolu |
|---|---|
| | |

Tapşırığın sonuncu bəndi şeirin əsas ideyasının müəyyənləşdirilməsi, əsaslandırılması ilə bağlıdır. Təklif edilmiş variantları fərdi olaraq araşdıran, təhlil edən şagirdlər fəaliyyətlərini cütlük şəklində,

yaxud kiçik qruplarda davam etdirirlər. Fərqli, yeni variantın müəyyənləşdirilməsi, müzakirəyə cəlb edilməsi məqsədəuyğundur:

- Şeirdə ifadə olunmuş əsas ideyanı müəyyənləşdirin. Cədvəldəki fikirlərlə tanış olun. Seçdiyinizi, yaxud öz variantınızı əsaslandırmağa çalışın.

| s. | Fikirlərdən hansı əsərin ideyası üçün daha uyğundur? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | Təbiəti, canlıları qışa hazırlayan payız fəslinin gözəlliyinə vurğunluq ifadə olunub. | | |
| 2 | Payız fəslinin təbiət, quşlar və heyvanlar aləmində yaratdığı dəyişikliyə diqqəti çəkir. | | |
| 3 | Payız fəslinə insanların necə münasibət bəslədiklərini əks etdirir. | | |

İfadəli oxu ilə bağlı müəyyən bacarıqlara yiyələnən şagirdlər növbəti tapşırıqla bağlı fərdi olaraq işə başlayırlar. Onlar şeirin ilk üç (yaxud iki) bəndinin üzərində düşünür, birinci növbədə hansı ifaçılıq vəzifəsini yerinə yetirəcəklərini müəyyənləşdirirlər. Bəndlərin ideya məzmunu barədə dolğun təsəvvürləri olan şagirdlər hər misranın, bəndin oxusunda səsin alacağı çalarları müəyyənləşdirir və mətnin sağ tərəfində (nümunədə olduğu kimi) qeyd edirlər. Artıq şərti işarələrin tətbiqi qaydalarını mənimsədikləri üçün onlardan istifadədə çətinlik çəkmirlər:

## II. İFADƏLİ OXUYA HAZIRLAŞIN

**Şeirin ilk üç bəndinin oxusuna hazırlıq.**

1. İlk növbədə ifaçılıq vəzifəsini – dinləyicilərə nə çatdıracağınızı müəyyənləşdirin.
2. Sonra hər bəndin oxusunda səsinizin aldığı çalarları mətnin kənarında yazın.
3. Fasilələrin yerini, səsin ucalığını, sürətini və s. müəyyən edib nümunədə olduğu kimi şərti işarələrlə göstərin.
4. İfalara münasibət bildirin.

Tül kimi dumana | bürünür dağlar, |
Buludlar toqquşur, | guruldayır göy. |
Bayram xonçasına | bənzəyir bağlar |
Narı qıpqırmızı, | göyəmi gömgöy. ||

**İFAÇILIQ VƏZİFƏSİ**

Payız mənzərələrinin təsəvvür edilməsinə nail olmaq.

Heyranlıqla

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Şeiri ideya məzmununa uyğun səs çalarları və ədəbi tələffüz qaydalarına əməl etməklə ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir və ifadə vasitələrinin şeirdə bədiiliyin artmasına verdiyi töhfəni nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirlə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir. | Tapşırıq, şifahi sual-cavab | İş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**RƏY ESSENİ NECƏ YAZMALI**<br>–<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Faktları müqayisə edərək seçir (3.1.1).<br>• Rəy xarakterli essedə fikirlərini əsaslandırır (3.1.3).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Rəy xarakterli esse ilə bağlı mətnin oxunması.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Mətnin məzmununun qavranılma səviyyəsinin yoxlanılması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.<br>4. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Rəy xarakterli essenin icrası ilə bağlı mətnin məzmununun öyrənilməsi, mənimsənilənlərin tətbiqi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *İlk növbədə şagirdlərin rəy xarakterli esse üzrə bacarıqlarının aşkara çıxarılması məqsədəuyğundur. Bu, sonrakı mərhələlərdə işin hansı məzmunda təşkilinə əhəmiyyətli dərəcədə təsir edir.*

Dərslikdəki "Esseni necə yazmalı" mətnində rəy xarakterli yazı ilə bağlı hissənin oxusu həyata keçirilir. Materialın həcminin az olması onun səsli oxunmasına imkan verir:

*"Rəy esse hər hansı bir mövzu ilə bağlı şəxsi mövqeyi, hiss və düşüncəni ifadə edən yazı nümunəsidir. Bu yazı bütövlükdə mövzu ilə bağlı müəllifin mövqeyinin ifadəsidir. O həm ədəbi mövzuda, yəni bədii əsərlə bağlı, həm də sərbəst mövzuda yazılır. Bədii əsərlə bağlı rəy xarakterli esseyə hazırlıq mərhələsində mənbələrin öyrənilməsi, məlumat və materialın toplanması həyata keçirilir. Toplanmış məlumat və materiallar şəxsi hiss və düşüncənin yaranmasına xidmət edir. Bədii əsərlə bağlı esse bütövlükdə əsərlə (məsələn, "Tənha nar ağacı" hekayəsi haqqında düşüncələrim"), yaxud müəyyən bir ədəbi qəhrəmanla ("Murad obrazı barədə nə düşünürəm") əlaqədar yazıla bilər.*

*Bədii əsərlə bağlı rəy essedə onun komponentlərinin əhatə edilməsinə səy göstərilir. Yəni məzmunun təhlili (mövzu, ideya, süjet, obrazlar, növ və janr), formanın təhlili (kompozisiya elementləri), əsərin bütövlükdə dəyərləndirilməsi (bədii-estetik, əxlaqi-mənəvi xüsusiyyətlər) sinfin səviyyəsinə uyğun olaraq həyata keçirilir. Bütün bunlarla yanaşı, essedə yazıçının mövqeyinə esse müəllifinin dəlillərə əsaslanan rəyi öz əksini tapır.*

*Ədəbi qəhrəmanla bağlı rəy essedə onun xarakteri, davranış və əməlləri, nitqi, xarici görünüşü, başqalarına münasibəti, yazıçının ona münasibəti nümunələr əsasında şərh edilir.*

*Sərbəst mövzuda rəy esse ətraflı müşahidənin aparılması, çoxlu sayda mənbələrin öyrənilməsi ilə səciyyələnir. Bu növ essedə obyektin mahiyyəti ilə yanaşı, xarici görünüşü də əhatə olunur və onların dəyərləndirilməsinə xüsusi diqqət yetirilir".*

Mətndəki fikirlərin qədərincə başa düşülməsi müəllimdən istiqamətləndirmələr, izahlar tələb edir. Bu məqsədlə şagirdlərə oxudan sonra aşağıdakı suallara cavab hazırlamaları təklif edilir:

– rəy esseni necə izah edərsiniz?
– o hansı mövzularda yazılır?
– bədii əsərlə bağlı essenin yazılması üçün hansı hazırlıq işləri aparılır?
– ədəbi mövzuda yazılan essedə hansı məsələlər əhatə olunur?
– ədəbi qəhrəmanla bağlı essedə hansı məsələlərə diqqət yetirilir?
– sərbəst mövzuda rəy esse üçün mühüm cəhətlər hansılardır?

Sualların əsasında yığcam müsahibənin aparılması, cavabların əlavələrlə zənginləşdirilməsi məqsədəuyğundur. Məsələn, esse müəllifinin fikirlərini sərbəst şəkildə ifadə etməsinin mümkünlüyü, nəticə barədə əvvəlcədən məlumat verməyin qüsur sayılmadığı, gözlənilməz dönüşlər etməklə oxucunu

maraqlandırması və təəccübləndirməsi məqbul sayılır. Bütün bunlar digər esse növləri kimi, rəy essedə də *giriş, əsas hissə və nəticənin* şərti xarakterdə olduğunu deməyə əsas verir.

Müsahibə prosesində aydınlaşır ki, rəy essedə yazıçının mövqeyinə münasibətin bildirilməsi mümkün və vacibdir. Onunla müəyyən məsələlərdə razılaşmamaq, yaxud mövqeyini təqdir etmək məqsədəuyğun sayılır.

Esse müəllifi əsərin onda yaratdığı təəssüratı bildirməklə rəyini ifadə etmiş olur. Əsərin mövzusu, ideyası, obrazları, bədii xüsusiyyətləri barədə esse müəllifinin rəyi bütün bunları dəyərləndirməsi anlamında özünü göstərir.

Müsahibədə qeyd olunur ki, sərbəst mövzuda rəy esse daha əhatəli müşahidələrin aparılmasını, müxtəlif növ mənbələrin öyrənilməsini tələb edir.

Rəy esse ilə bağlı mənimsənilmiş biliyin bacarığa çevrilməsi konkret nümunələr üzrə işin aparılmasından asılıdır. Burada nümunə kimi M. Abdullayevin Nizami metrostansiyasında Nizami əsərləri əsasında yaratdığı mozaikalar haqqında rəy essenin hazırlanmasının səciyyəvi məqamları təsvir edilmişdir. Mövzu “Yeraltı muzey” adlanır. Şagirdlərə mozaikaların görüntüləri əks olunmuş şəkillər təqdim olunur. Şəkillərlə ətraflı tanışlıqdan sonra təsvirlərin necə qavranıldığı müsahibə ilə aşkara çıxarılır. Suallar aşağıdakı məzmunda ola bilər:

- Təsvirlərdən hansı haqqında məlumat vermək istərsiniz?
- Onlardan hansı haqqında ətraflı məlumatınz var?
- Ayrı-ayrı təsvirlər sizdə aydın təsəvvür yaradırmı?
- Təsvirlərdən hansını daha uğurlu hesab edirsiniz? Nə üçün?
- Təsvirlər haqqında iradınız varmı?
- Təsvirlər bütövlükdə sizdə hansı təəssürat yaratdı?

Müsahibədə müəllim şagirdlərin təsəvvürünün zənginləşməsinə imkan yaradan izah və istiqamətləndirilmiş suallardan istifadə edir. Müəllim qeyd edir ki, özünüzü mozaikaların önündə təsəvvür edin. Baxdığınız təsvirlər buna yardımçı olacaq. Keçirdiyiniz hissləri, təsəvvürünüzdə canlananları, düşündüklərinizi səfərbər edin. Aşağıdakı sualların üzərində düşünün, ilkin cavablarını tapmağa çalışın:

- Mən yazıya necə başlayacağam, nə barədə yazacağam?
- Necə yazacağam?
- Hansı ardıcıllıqla yazacağam?
- İşimin uğurlu olub-olmadığını necə müəyyənləşdirəcəyəm?

Suallarla bağlı bir neçə şagirdin fikri dinlənilir. Sonrakı mərhələdə şagirdlərə ilkin – qaralama variantın üzərində işləmələri təklif edilir. Şagirdlərin fəaliyyətini müşahidə edən müəllim onların hansı faktlara daha çox diqqət yetirdiklərini, fikirlərini necə ifadə etdiklərini və əsaslandırdıqlarını aşkara çıxarmağa çalışır. Bu, şagirdlərə vaxtında istiqamət vermək üçün lazımdır. Artıq ilkin variantın üzərində işlə bağlı təcrübə qazanan şagirdlər daha çox məsələni əhatə etməyə, sonra üzərində əməliyyat aparmaq üçün bir növ material bolluğu yaratmağa səy edirlər.

Dərsin sonuna kimi yerinə yetirilmiş işlər seçilmiş standartların əsasında qiymətləndirmənin aparılmasına imkan verir.

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Faktları müqayisə edərək mühüm olanları seçir. | Yazı | Dərslik, iş vərəqləri |
| Rəy xarakterli essedə fikirlərini nümunələrlə əsaslandırır. | Yazı | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**RƏY ESSENİN YAZILMASI –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Fakt və dəlilləri müqayisə edərək seçir (3.1.1).<br>• Rəy xarakterli essedə şəxsi hiss və düşüncələrinə geniş yer verir (313).<br><br>**Köməkçi vasitələr:** 1) Dərslik. 2) İnternet mənbələri.<br><br>**Dərsin qısa planı**<br>1. Yazının ilkin (qaralama) variantının hazırlanması.<br>2. İlkin variantın gözdən keçirilməsi.<br>3. Yazının tamamlanması.<br>4. Yazının oxunması, düzəlişlərin edilməsi.<br>5. Yazının müzakirəsi və özünüqiymətləndirmə.<br>6. Formativ qiymətləndirmə. |

**Dərsin məzmunu.** Rəy essenin hazırlanması, müzakirəsi və özünüqiymətləndirmə üzrə işin təşkili.

Dərsdə yazının ilkin – qaralama variantın üzərində iş davam etdirilir və tamamlanır. Növbəti addım ilkin variantın gözdən keçirilməsi olur. Artıq müəyyən təcrübə qazanan şagirdlər yazılarının dolğun şəklə salınması istiqamətində çalışırlar. Fikirlərin aydınlığına, aralarındakı əlaqələrin gücləndirilməsinə, faktların yerində işlənib-işlənmədiyinə xüsusi diqqət yetirilir. Hər bir şagird üzərində dayandığı təsvirlə bağlı rəyini əsaslandırmağa, bunun üçün fikrini təsdiq edən nümunələr göstərməyə çalışır. Şagirdlər "yeraltı muzeyin" onlarda yaratdığı təəssüratı, heyranlıq hissini ifadə etməklə məhdudlaşmırlar. Təsvirlərin hər biri haqqında düşündüklərini, onlara münasibətlərini bildirməyə çalışırlar:

*"Qatardan heç vaxt görmədiyim qeyri-adi, ecazkar bir aləmə düşdüm. Bu yeraltı salonun divarları başdan-başa rəngli şəkillərlə bəzənmişdi. Mən onları şəkil hesab etdim, amma axı onlar şəkil deyil... Nağıllardakı əhvalatları xatırladan bu təsvirlərin gözəlliyi, bəzəyi məni heyrətə gətirdi. Padşaha və onun vəzirinə bənzəyən atlılar, əjdaha ilə vuruşan qəhrəman, nəhəng bir heyvanı çiynində saxlayan qız, yanında bel torpağın üstündə oturmuş, iri əllərinin sümükləri çıxmış qoca və başını aşağı dikib dayanan gənc oğlan... Mən ki bunu tanıyıram! Bu, dahi şairimiz N.Gəncəvinin "Kərpickəsən qoca və cavan oğlan" adlı hekayəsindəndir. Budur, lap başdakı divarda da şairin əzəmətli portreti..."*

Yazılar tədricən ərsəyə gəlir, məzmunca zənginləşir, fikirlər konkretləşir:

*"Qolları kəndirlə bərk-bərk sarınıb başıaşağı tulladılan bu adama dəhşətli zülm edildiyini, şirlərin arasında qılınca söykənib dayanan adamın simasındakı məğrur ifadəni, atlıların qarşısını kəsib nədənsə şikayət edən qarını dinləyib fikrə gedən adamın üzündəki pərtlik və peşmançılıq hisslərini... duymamaq mümkün deyil..."*

Təsvirlərin təhlili onlar haqqında ifadə edilmiş rəylərin inandırıcı olmasına imkan yaradır:

*"Alın təri ilə, ləyaqətlə dolanmağı hər şeydən uca tutan bu qocanın müdrikliyi alnının qırışlarından bəlli olur, üzündəki qətiyyət cavanla razılaşmadığını göstərir. Oğlanın peşman, günahkar duruşu səhvini anladığından xəbər verir. Müəllimimiz demişdi ki, şair bununla demək istəyir ki, hər bir insan ağıllı sözü dinləməli, yanlış düşüncələrdən uzaqlaşmağı bacarmalıdır..."*

Yazının tamamlanmasından sonra onun oxusuna vaxt ayrılır. Bu, yazının bütövlükdə bağışladığı təsirin aydınlaşdırılması baxımından faydalıdır. Yol verilmiş orfoqrafik və durğu işarələri səhvləri aradan qaldırılır. Başlıcası isə məzmunun mövzu ilə uyğunluğu, mövzunun açılmasında rolu aydınlaşdırılır, zəruri əlavələr edilir. Yazı təxminən aşağıdakı məzmunu qazanır:

**"YERALTI MUZEY"**
(esse-rəy)

*Mən istərdim ki, həmyaşıdlarım da böyük Nizaminin əsərlərini öz sənətinin dili ilə yenidən yaradan Xalq rəssamı M.Abdullayevin yaradıcılığı ilə tanış olsunlar...*

*Qatardan heç vaxt görmədiyim qeyri-adi, ecazkar bir aləmə düşdüm. Bu yeraltı salonun divarları başdan-başa rəngli şəkillərlə bəzənmişdi. Mən onları şəkil hesab etdim, amma axı onlar şəkil deyil... Nağıllardakı əhvalatları xatırladan bu təsvirlərin gözəlliyi, bəzəyi məni heyrətə gətirdi. Padşaha və*

*onun vəzirinə bənzəyən atlılar, əjdaha ilə vuruşan qəhrəman, nəhəng bir heyvanı çiynində saxlayan qız, yanında bel torpağın üstündə oturmuş, iri əllərinin sümükləri çıxmış qoca və başını aşağı dikib dayanan gənc oğlan... Mən ki bunu tanıyıram! Bu, dahi şairimiz N.Gəncəvinin "Kərpickəsən qoca və cavan oğlan" adlı hekayəsindəndir. Budur, lap başdakı divarda da şairin əzəmətli portreti...*

*Metronun Nizami stansiyasında gördüklərim məni valeh etdi. Bəs bu gözəlliyi kim yaradıb, nə zaman yaradıb?*

*Sən demə, metro stansiyasının "salonunu" bəzəyən bu* möhtəşəm *mozaik təsvirlərin müəllifi Azərbaycanın Xalq rəssamı Mikayıl Abdullayevdir. Dünyanın bir çox şəhərlərində bu istedadlı rəssamın fərdi sərgiləri keçirilib. Mikayıl Abdullayev N.Gəncəvidən başqa, bir çox böyük şair və yazıçılarımızın da portretlərini yaratmış, onların əsərlərinə, "Kitabi-Dədə Qorqud" dastanlarına da illüstrasiyalar çəkmişdir.*

*Metro stansiyasındakı mozaikaları rəssam 1973-1976-cı illərdə yaradıb. Bu mozaikalar Nizaminin poemalarındakı əhvalatları, qəhrəmanların başlarına gələn hadisələri illüstrasiya dili ilə "nağıl edir". Mən bu əsərləri oxumadığım üçün gözlərimi iri açıb maraqla tamaşa edir, nədən bəhs edildiyini başa düşməyə çalışıram. Qolları kəndirlə bərk-bərk sarınıb başıaşağı tulladılan bu adama dəhşətli zülm edildiyini, şirlərin arasında qılınca söykənib dayanan adamın simasındakı məğrur ifadəni, atlıların qarşısını kəsib nədənsə şikayət edən qarını dinləyərək fikrə gedən adamın üzündəki pərtlik və peşmançılıq hisslərini... duymamaq mümkün deyil.*

*Bu görüntü isə mənə gün kimi aydındır. Burada cavan bir oğlan kərpic kəsərək zəhmətlə çörək pulu qazanan qocaya irad bildirir, deyir ki, nahaq yerə bu qədər zəhmətə qatlanır, kimdən istəsə, ondan bir qarın çörəyin pulunu əsirgəməz. Qoca ona belə cavab verir:*

*Cavansan, belə cahillik etmə.*
*Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə.*
*Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,*
*Əlimin zəhmətilə toxdur gözüm, deyil ac.*
*Onunçün öyrətdim ki əlimi bu sənətə,*
*Bir gün sənə əl açıb düşməyim xəcalətə.*
*Məni bu ruzi üçün günahkar sayma, bəsdir,*
*Düşünsən bilərsən ki, dediklərin əbəsdir.*

*Şəklə baxır və heyrətlənirəm. Mənə elə gəlir ki, bu misralarla tanış olmasan belə, görüntü səni məsələdən hali edər. Alın təri ilə, ləyaqətlə dolanmağı hər şeydən uca tutan bu qocanın müdrikliyi alnının qırışlarından bəlli olur sanki, üzündəki qətiyyət cavanla razılaşmadığını göstərir. Oğlanın peşman, günahkar duruşu səhvini anladığından xəbər verir. Müəllimimiz demişdi ki, şair bununla demək istəyir ki, hər bir insan ağıllı sözü dinləməli, yanlış düşüncələrdən uzaqlaşmağı bacarmalıdır...*

Yazı müzakirəyə təqdim edilməzdən əvvəl özünüqiymətləndirmə həyata keçirilir.
Burada təklif olunan meyarlar şərtidir, müəllim fərqli meyarlar hazırlayıb tətbiq edə bilər.

| s. | Özünüqiymətləndirmə meyarları | Bəli | Xeyr |
|---|---|---|---|
| 1. | Mövzu haqqında aydın təsəvvür yarada bilmişəm. | | |
| 2. | Mövzu ilə bağlı hiss və düşüncələrimi əhatəli ifadə etmişəm. | | |
| 3. | Uğurla seçdiyim söz və cümlələrin köməyi ilə oxucuda yazının məzmunu ilə bağlı aydın təəssüratın yaranmasına nail olmuşam. | | |
| 4. | Sözlərin yersiz təkrarına yol verməmiş, cümlələrin qısa və aydın yazılmasına, fikrin asanlıqla başa düşülməsinə nail olmuşam. | | |
| 5. | Fikirlərimin arasında əlaqənin olmasını nəzərə almışam. | | |
| 5. | Sözlərin düzgün yazılışına, durğu işarələrindən yerində istifadəyə əməl etmişəm. | | |
| 6. | Yazının həcmini tələbə uyğun müəyyənləşdirmişəm. | | |

Müzakirədə fəal dinləmə, fərqli fikirlərə dözümlü münasibət təmin olunur.

**Formativ qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Fakt və dəlilləri müqayisə edərək məzmuna uyğun olanları seçir. | Yazı | İş vərəqləri |
| Rəy xarakterli essedə əsaslandırılmış şəxsi hiss və düşüncələrinə geniş yer verir. | Yazı | İş vərəqləri |

BEŞİNCİ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ
*Qiymətləndirmə "Ağacın dili olsaydı..." əsəri üzrə aparıla bilər.*

*Qasım Qasımzadə*

**AĞACIN DİLİ OLSAYDI…**

Üzü təbəssümlü, fikri xatalı
Dəlisov odunçu, əli baltalı
Yetirir özünü hər gün meşəyə,
Göz-qulaqdan **iraq, xəlvət** guşəyə.

Çəkərək **şövq** ilə o burda nərə
İkicə zərbəylə yendirir yerə
Şümal palıdlardan, boylu şamlardan,
Baltası bilmərrə düşmür ovxardan.

Meşəni talayır o, bala-bala -
Ondan nişanədir böyük bir **tala.**

Bu böşluq faş edir gizli əməli,
Yeri görünmədə hər bir ağacın.
Yıxılı tirlərin olsaydı dili,
Bitili tirlərə deyərdi: "Qaçın,
Qaçın, o sizləri kəsməyə gəlir.
Əyri ağaclara məhəl də qoymur,
Özünü meşənin ağası bilir,
Doğrayıb tökməkdən doymur ki doymur".

Yıxılı tirlərin olsaydı dili,
Deyərdi: "Tez olun, gəlir o dəli,
Gəlir seçə-seçə –
Fikri xatalı,
Seçir bircə-bircə əli baltalı.

Yeriyir, gözaltı baxır yuxarı -
Başını dik tutan qovağa sarı.
Növbəsi yetişib yazıq vələsin,
Ey bitili tirlər, vaxtdır, tələsin.
Qırın rişənizi, siz qırın, qaçın,
Yerdən kökünüzü qoparın, qaçın…
Əyrilər qorxmasın, çəkməzlər zərər,
Onlar yaranışdan təzimdədirlər…"

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Nöqtələrin yerinə uyğun olan sözü yazın.**
*Əsər ... mövzusunda yazılmışdır.*

**2. Aşağıdakı parçanın oxusunda səsdə hansı çalar duyulmalıdır?**

*Tez olun, gəlir o dəli,*
*Gəlir seçə-seçə –*
*Fikri xatalı,*
*Seçir bircə-bircə əli baltalı.*
*Yeriyir, gözaltı baxır yuxarı -*
*Başını dik tutan qovağa sarı.*
*Növbəsi yetişib yazıq vələsin,*
*Ey bitili tirlər, vaxtdır, tələsin.*

*Qırın rişənizi, siz qırın, qaçın,*
*Yerdən kökünüzü qoparın, qaçın…*

**3. Mətndəki bu sözləri hansı kəlmələrlə əvəz etmək olar?**

İraq - Xəlvət - Şövq - Tala -

**4. Əsərdə işlənmiş "Ovxardan düşmək", "faş etmək", "məhəl qoymamaq" ifadələrinin mənasını izah edin.**

**5. "Əyrilər qorxmasın, çəkməzlər zərər; Onlar yaranışdan təzimdədirlər" misralarında hansı fikir ifadə olunmuşdur?**

A) Şair əyri budaqların zərər görməyəcəyinə əmindir, çünki onları kəsmək çətindir.
B) Əyri budaqlar heç kimə lazım olmadığı üçün heç kim onları kəsib-doğramayacaq.
C) Şair əyri budaqları sədaqətli adamlara bənzədir, onların zərər görməyəcəyinə inanır.
D) Əyri budaqlar yaltaq adamlara bənzədilir, onlara isə dəyib-toxunan olmur.
E) Əyri budaqlar daim ehtiyatlı adamlar kimi qorunmağı bacarırlar.

**6. Əsər müəllifi haqqında hansı fikri əminliklə söyləmək olmaz?**

A) Təvazökardır.
B) Sədaqətlidir.
C) Təbiətə qayğı ilə yanaşır.
D) Vətənpərvərdir.
E) Yalnız özünü düşünən adamlara qarşı barışmazdır.

**7. Əsərin məzmunu ilə bağlı olan cümlələrə bənzətmə və epitet artırıb yazın.**

*Əli baltalı adam meşəyə şıyığıb nərə çəkdi.*
*Kəsilmiş tirlər dil açıb ağaclara söylədilər.*

**8. Aşağıdakı hansı fikirləri odunçu obrazına aid etmək olmaz?**

1. Zəhmətkeşdir.
2. Əyri ağacları kəsib meşəni gözəlləşdirmək istəyir.
3. İstirahət üçün meşədə tala yeri düzəldib.
4. Güclü-qüvvətlidir.
5. Özünü meşənin sahibi kimi hiss edir.

**9. Əsəri oxuyarkən təsəvvürünüzdə canlanan səhnəni – talanan meşəni qısaca təsvir edin.**

**10. Əsərin ideyası nədir?**

# TƏTBİQ • ÜMUMİLƏŞDİRMƏ

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Rahil Məmməd. İLİN QIZIL FƏSLİ –**<br><br>**1 saat** | **Təlim məqsədləri**<br>• Şeirdə tanış olmayan sözlərin mənasını lüğət və sorğu kitablarından istifadə ilə izah edir (1.1.1).<br>• Şeirdə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (1.1.5).<br>• Şeirin başlıca mövzusunu və əsas ideyasını şərh edir (1.2.4).<br>• Öyrəndiyi yeni sözlərən şeirlə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Bədii nümunələrlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Rahil Məmmədin əsərlərindən nümunələr, şeirlərinə çəkilmiş illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Şeirin ilkin oxusu, təəssüratların bölüşülməsi.<br>2. **Öyrəndiklərinizi yoxlayın.** Şeirin məzmunu ilə bağlı müstəqil yazılmış sualların və cavablarının yoxlanması.<br>3. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Əsərin məzmununun öyrənilməsinin dərinləşdirilməsi, nəzəri anlayışların və tanış olmayan sözlərin mənasının aydınlaşdırılması üzrə müstəqil işin təşkili.<br>4. **Müzakirə.** Şeirin mövzusunun, ideyasının, bədii xüsusiyyətlərinin dəyərləndirilməsi üzrə müzakirənin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Oxu, məzmununun öyrənilməsi, təhlil üzrə mənimsənilmiş bilik və bacarıqların tətbiqi həyata keçirilir. Əsərin məzmununa aid sualların və onlara cavabların hazırlanması, nəzəri anlayışların, növlərinin aydınlaşdırılması və s. şagirdlərin müstəqil fəaliyyətləri zəminində gerçəkləşdirilir.

**Müəllim üçün əlavə məlumat.** *Dərslikdə təklif olunmuş sual və tapşırıqlara müəllimin yaradıcı yanaşması məqsədəuyğundur. O, məqsədindən və sinfin səviyyəsindən asılı olaraq, tapşırıqlarda ixtisarlar aparmaqda sərbəstdir, yaxud onlara əlavələr edə bilər.*

Dərslikdəki “Oxu. Anlama” başlıqlı tapşırığın tələblərinə uyğun olaraq şagirdlər mətni oxuyurlar. İlkin oxudan yaranan təəssüratın bölüşülməsi müəllimin ciddi müdaxiləsi olmadan reallaşdırılır. Növbəti addım şeirin məzmununa aid sualların (ikidən az olmayraq) və onlara cavabların yazılması olur. Müstəqil hazırlanmış suallar və onların cavabları müzakirə olunur:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Yazdığınız sualları və cavablarını müzakirə edin.
2. Çıxışlara münasibət bildirin.

Sualların necə hazırlanması və şeirin məzmununun hansı səviyyədə qavranılması müzakirədə diqqət yetirilən başlıca məsələlər olur. Müzakirə prosesində sualların dəqiqləşdirilməsinə, cavabların konkretləşdirilməsinə diqqət yetirilir.

Növbəti tapşırıq məzmunla bağlı mənimsənilənlərin möhkəmləndirilməsi və zənginləşdirilməsinə geniş imkan yaradır:

## III. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Kiçik qruplarda iş.

**I qrup:**

a) Şeirdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması.

b) Birinci bənddə ifadə edilmiş fikrin və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.

**II qrup:**

a) Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin, onların növlərinin müəyyənləşdiriməsi, qısaca qeyd edilməsi.

b) İkinci bənddə ifadə edilmiş fikir və mənzərənin aydınlaşdırılması, qısaca təsvir edilməsi.

**III qrup:**

a) Şeirdə işlənmiş həmqafiyə sözlərin müəyyənləşdirilməsi, daha uğurlu hesab olunanların qeyd edilməsi.

b) Üçüncü bənddə əksini tapmış başlıca fikir və mənzərənin aydınlaşdırılması, yığcam təsvir edilməsi.

**IV qrup:**

a) Dördüncü və beşinci bəndlərdəki əsas fikir və mənzərənin aydınlaşdırılması, yığcam təsvir edilməsi.

**V qrup:**

a) Əsərin altıncı və yeddinci bəndində əksini tapmış əsas fikir və mənzərənin aydınlaşdırılması, yığcam təsvir edilməsi.

2. Yazılmış qeydlərin əsasında təqdimatların edilməsi.

3. Təqdimatların müzakirəsi.

Tapşırığın hər bəndi bir qrupa təqdim olunur. Cavabların yazılı qeydlərin əsasında hazırlanması barədə təlimat verilir. Tapşırığın tələbləri şeirin hər bəndində ifadə olunmuş başlıca fikrin aydınlaşdırılmasını, təsvir olunmuş mənzərənin təsəvvürdə canlandırılmasını ön plana çəkir. Bu, kiçik qruplarda işin səmərəli icrasına əhəmiyyətli təsir edir.

Kiçik qrupların təqdimatları əsasında müzakirə aparılır. Müzakirənin diskussiya xarakterli olmasına, şagirdlərin maksimum fəallıq göstərmələrinə nail olunur.

Dərslikdəki sonuncu tapşırıq da şagirdlərin müstəqil fəaliyyəti üçün məqsədəuyğundur. Tapşırıq bədii əsərin dəyərləndirilməsi üzrə bilik və bacarıqların tətbiqinə əlverişli imkan yaradır. O, şeirin mövzu və ideyasının şərh edilməsi ilə yanaşı, bədii xüsusiyyətlərinin aydınlaşdırılması, müəllif mövqeyinə qiymət verilməsi, müqayisə əsasında ən xırda detallarının qiymətləndirilməsi kimi vəzifələrin reallaşdırılmasına səbəb olur:

**IV. MÜZAKİRƏ**

1. Müzakirədə aşağıdakı sualları əhatə etməyə çalışın:
   a) Şeirin mövzusu nədir?
   b) Əsərin əsas ideyası nədir?
   c) Əsəri maraqlı edən cəhətlər hansılardır?
   ç) Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı?

2. R.Qusarçaylının “Payız” və R.Məmmədin “İlin qızıl fəsli” şeirlərini cədvəldəki sualların əsasında müqayisə edin.

3. Cavabları müzakirə edin.

| **Müqayisə olunan əsərlər** | **Payızın ilk addımları** | **Payız mənzərələri** | **Payızda quşlar və heyvanlar aləmi** | **Payızın bəhrəsi** | **Payız fəslinin müəlliflərdə yaratdığı hiss və düşüncələr** |
|---|---|---|---|---|---|
| R.Qusarçaylı. “Payız” | | | | | |
| R. Məmməd “İlin qızıl fəsli” | | | | | |

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Şeirdə mənasını aydınlaşdırdığı sözlərdən şifahi və yazılı nitqində ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab, yazı | Dərslik, iş vərəqləri |
| Şeirdə müəyyənləşdirdiyi təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Şeirin başlıca mövzusunu və əsas ideyasını nümunələrlə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən şeirlə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Bədii nümunələrlə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən məqamında istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Bayram Həsənov. BULAQ BAŞINDA –**<br><br>**3 saat**<br><br>**Birinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayədə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində istifadə edir (1.1.1).<br>• Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Hekayə ilə bağlı müzakirədə səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir (2.2.1).<br><br>**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. "Bulaq başında" hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Yadasalma.** Suallardan öyrənilmiş biliklərin yeni dərsə cəlb olunması, maraqoyatma vasitəsi kimi istfadə edilməsi.<br>2. **Oxu. Anlama.** İlkin oxunun və qavranılma səviyyəsinin aşkara çıxarılması, dərslikdə təklif edilmiş sualların əsasında dərinləşdirilmiş oxunun reallaşdırılması.<br>3. **Öyrəndiklərinizi yoxlayın.** Test tapşırıqlarının tətbiqi ilə məzmun üzrə mənimsənilənlərin yoxlanması və dərinləşdirilməsi.<br>4. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Şifahi və yazılı nitqin inkişaf etdirilməsi, əsərdəki təsvirlərin və ədəbi qəhrəmanın ilkin dəyərləndirilməsi üzrə işin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Hekayənin məzmununun öyrənilməsi, tapşırıqların tətbiqi ilə öyrənilənlərin yoxlanılması və dərinləşdirilməsi, şifahi nitqin zənginləşdirilməsi üzrə işin təşkili.

**Müəllim üçün əlavə məlumat.** *Süjet baxımından zəngin olan hekayəni çoxmövzulu adlandırmaq olar. Yazıçı bu mövzuların hər birinə eyni qayğı ilə yanaşmışdır. Təbiətə sevginin, qayğının vacib olması, alicənablıq və bunun dəyərləndirilməsinin əhəmiyyəti, əxlaqi-mənəvi keyfiyyətlər və onun formalaşmasına təsir edən amillər bu kiçik hekayədə ustalıqla ifadə olunmuş məsələlərdir. Yoxlama-sınaq dərslərindən aydın oldu ki, bütün bunları məktəbli-oxucunun anlaması, araşdırması, təhlil edib qiymətləndirməsi, başlıca mövzunu fərqləndirməsi mətn üzərində xüsusi diqqət və həssaslıqla işləməyi tələb edir. Bu, əsərin ilkin oxusunun nəticələri üzərində ciddi düşünməyi, sonrakı mərhələlərdə tətbiq olunacaq işləri səmərəli təşkil etməyi mühüm vəzifə kimi qarşıya qoyur.*

**Mövzuya yönəltmə (maraqoyatma).** Buna fərqli yollardan istifadə ilə nail olmaq mümkündür. Prosesin daha canlı olması üçün müsahibədən istifadə olunması faydalıdır. Müsahibənin əsasında dərslikdə "Yadasalma" başlığı altında verilmiş fikirdən istifadə etmək olar: Təbiətə amansız münasibətin acı nəticələri barədə eşitdiklərinizi, yaxud oxuduqlarınızı xatırlayın, buna münasibət bildirin.

Müsahibənin sonunda şagirdlərin fəal iştirakı ilə araşdırılmalı olan sual formalaşdırılır: Təbiətin qorunmasına necə nail olmaq mümkündür?

Hekayənin hansı formada – səsli, yaxud səssiz oxunması müəllimin məqsədindən, sinfin səviyyəsindən asılıdır. Formasından asılı olmayaraq, oxuya ayrılmış vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki sualların əsasında təəssüratlarını bölüşürlər:

– Oxuduğunuz parçadan hansı ovqatla ayrıldınız? Fikrinizi nümunələrlə izah edin.
– Hansı epizod sizə daha maraqlı göründü? Nə üçün?
– Sizi heyrətləndirən, yaxud sizin üçün gözlənilməz olan təsvirlərə rast gəldinizmi?

Elə ilk oxudan meşəbəyi obrazı şagirdlərin diqqətini cəlb edir. Meşəni sevməsi, onun haqqında düşüncələri, canlılara münasibəti, məsuliyyətli olması məktəbli-oxucuda maraq doğurur. Şagirdlərin əksəriyyəti yaralı ceyran balasının xilas edilməsi epizodunu xatırladır, bu təsvirdən heyrətləndiklərini etiraf edirlər.

Oxunmuş parçanın məzmunu haqqında ümumi təsəvvür qazanan şagirdlər təsvirlərdəki incəliklərin çoxunun üstündən sükutla keçirlər. Bu, konkret sinifdən asılı olaraq, dərinləşdirilmiş oxu məqsədilə müəyyənləşdirilən suallarda nəzərə alınır. Yoxlama-sınaq dərslərinə əsasən dərslikdə təklif edilmiş suallar aşağıdakılardır:

– Səfdər kişinin peşəsi, işinə münasibəti sizdə hansı hiss və düşüncə yaratdı?

– Sizcə, onun ağacları, quşlar aləmini, meşə həyatını "beş barmağı" kimi bilib-tanıması, bilməsi nəyin sayəsində mümkün olmuşdur?

– "Səfdər dayı meşəni çox sevirdi, ruzgarın hansı çağı olur-olsun, meşə hər zaman onun üçün doyulmaz bir aləm idi" cümləsindəki fikri necə başa düşdünüz?

– Səfdər dayı meşənin gözəlliyini, "zəngin dünyasını" necə təsvir edir?

– Meşəyə dəymiş zərər Səfdər dayıya necə təsir edir? Bu zərərin aradan qalxması üçün o hansı tədbirlərə əl atır?

– Zootexnik kimi fəaliyyəti gənc Səfdər haqqında hansı təəssürat yaradır?

– Hansı hadisə onun daha da məşhurlaşmasına səbəb olur?

– Meşəbəyi kimi işə başlayan Səfdərin fəaliyyətini necə dəyərləndirərsiniz? Fikrinizi təsdiq edən nümunələr göstərin.

– Səfdərin xeyirxah adam kimi tanınması nə ilə bağlı idi? Misallar göstərə bilərsinizmi?

– Artıq yaşlaşan, "dayı" deyə çağırılan Səfdər kişi nələri özünə qazanc sayır?

Suallar çoxməqsədlidir. Şagirdləri açıq və gizli mətləbləri sezməyə, münasibət bildirməyə, dəyərləndirməyə yönləndirən suallar təsəvvürün zənginləşməsinə geniş imkan yaradır. Sualların üzərində şagirdlərin fərdi olaraq düşünmələri, ilkin cavablar hazırlamaları məqsədəuyğundur. Sonrakı addım cütlük şəklində, yaxud kiçik qruplarda işin davamı ola bilər. Əməkdaşlıq cavabların zənginləşdirilməsi və konkretləşdirilməsinə imkan yaradır.

Yığcam müsahibənin tətbiqi işin nəticəsi barədə xeyli təsəvvür yaratsa da, test tapşırıqlarının yerinə yetirilməsi lazım gəlir. Bu yalnız məzmunun necə mənimsənildiyini yoxlamağa deyil, həm də onu dərinləşdirməyə və möhkmləndirməyə xidmət edir:

**II. ÖYRƏNDİKLƏRİNİZİ YOXLAYIN**

1. Fikirlərdən biri doğrudur.
   A) Səfdər zootexnik olduğu üçün ağacları, bitkiləri tanıyıb öyrənə bilir.
   B) Ağac və bitkiləri yaxşı tanıyan meşəbəyi quşlar aləminə bələd deyildi.
   C) Zootexnik kimi çalışanda Səfdər təşəbbüskar olmur.
   D) Yaşlaşması, saç-saqqalının ağarması Səfdər kişini çox məyus edir.
   E) Səfdər kişi həm gəncliyində, həm də yaşlı vaxtında xeyirxah əməlləri ilə seçilir.

2. Fikirlərdən biri səhvdir.
   A) Səfdər kişi çox işgüzar, diqqətli, həssas adam olduğu üçün uğur qazanır.
   B) O, meşənin talan olunmasının qarşısını almaqda çətinlik çəkir.
   C) Səfdər kişiyə həm yaşlılar, həm də gənclər hörmət edirlər.
   D) Sərt qış günlərində Səfdər kişi kəndə layiqincə yardım edir.
   E) Səfdər mal-qaranı kütləvi qırğından istedadı və yaşlı nəsildən öyrəndikləri sayəsində xilas edir.

Tapşırığın icrasına ayrılmış vaxt başa çatdıqdan sonra aparılan yığcam müsahibədə cavab variantlarının hər birinə münasibət bildirilir.

Dərslikdə təklif edilmiş növbəti tapşırıq fərdi olaraq yerinə yetirilir. Mənası yeni öyrənilmiş sözlərin cümlələrdə işlədilməsi onaların nitqə daxil olmasına və möhkəmlənməsinə əhəmiyyətli təsir edir. Öyrənilən əsərlə bağlı fikirlərin cümlələrdə ifadə edilməsi tələbi isə mətn üzərində bir daha düşünməyə sövq edir. Hazırlanmış cümlələrdən nümunələrin oxunması və müzakirəsi həyata keçirilir.

Şifahi təqdimatın hazırlanması üçün təklif edilənlər ədəbi qəhrəmanın və hekayənin başlıca mövzusunun ilkin dəyərləndirilməsi ilə bağlıdır:

**III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN**

1. Mənasını yeni öyrəndiyiniz sözlərdən ikisini cümlələrdə işlədin.
   a) Cümlələrdə əsərlə bağlı fikirlərinizi ifadə etməyə çalışın.
   b) Cümlələrdən nümunələri oxuyub müzakirə edin.
2. Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.
   a) Səfdər dayı obrazına münasibətim.
   b) Əsər təbiətlə bağlı təsəvvürümü necə zənginləşdirdi.
3. Təqdimatlardan nümunələri müzakirə edin.

Məqsəd obrazla bağlı əsaslanıdılmış dəyərləndirmənin aparılması deyildir. Başlıca niyyət əsərdən seçilmiş nümunələrə əsaslanmaqla obraz barədəki mövqeyin ifadə edilməsidir.

**Formativ qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Qiymətləndirmə üsulları** | **Qiymətləndirmə materialı** |
|---|---|---|
| Hekayədə mənasını aydınlaşdırdığı sözlərdən yazılı nitqində məqamında istifadə edir. | Tapşırıq, yazı | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirədə mövqeyini əsaslandırmaqla səsləndirilən fikirlərdə ortaq rəyə gəlinməsinə səy edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Bayram Həsənov. BULAQ BAŞINDA –**<br><br>**3 saat**<br><br>**İkinci saat: OXU. ANLAMA** | **Təlim məqsədləri**<br>• Hekayənin məzmununu plan əsasında yaradıcı nağıl edir (1.1.3).<br>• Hekayədə bədii təsvir və ifadə vasitələrinin növlərini fərqləndirir (1.1.5).<br>• Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda istifadə edir (2.1.1).<br>• Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən istifadə etməklə şərh edir (2.1.2).<br><br>**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. "Bulaq başında" hekayəsi ilə bağlı illüstrasiyalar.<br><br>**Dərsin qısa planı**<br>1. **Oxu. Anlama.** Əsərin ardının oxunması, nəticənin təəssüratların bölüşülməsi əsasında müəyyənləşdirilməsi, dərinləşdirilmiş oxunun həyata keçirilməsi.<br>2. **Möhkəmləndirmə. Zənginləşdirmə.** Nəzəri anlayışlarla bağlı bilik və bacarıqların möhkəmləndirilməsi, zənginləşdirilməsi.<br>3. **Nitqinizi və düşüncənizi zənginləşdirin.** Yaradıcı bacarıqların inkişafına yönəlik işin təşkili.<br>4. **Müzakirə.** Məntiqi təfəkkürün formalaşdırılması üzrə işin təşkili.<br>5. **Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə hekayənin məzmununun öyrənilməsi davam etdirilir. Nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqi, yaradıcı düşüncə zəminində şifahi nitqin inkişaf etdirilməsi, məntiqi təfəkkürün formalaşması üzrə işin təşkili həyata keçirilir.

**Müəllim üçün əlavə məlumat.** *Hekayənin ilkin oxusunun hansı formada təşkilindən asılı olmayaraq, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır.*

İlkin oxuya ayrılan vaxt başa çatdıqdan sonra dərslikdəki sualların əsasında təəssüratların bölüşülməsi həyata keçirilir:

– Hekayənin davamı sizin üçün maraqlı oldumu? Nə üçün?
– Hadisələrdən, yaxud təsvirlərdən hansı diqqətinizi daha çox çəkdi? Nə üçün?
– Əsərin belə tamamlanmasını gözləyirdinizmi? Nəyə görə?

Hekayənin ikinci dərsdə oxunan hissəsi hadisə və təsvirlərlə zəngindir. Şagirdlər meşənin təsvirini, "Nazlı bulaq"la bağlı deyilənləri, İmranın düşüncə, hiss və həyəcanlarını, Səfdər kişinin düşdüyü psixoloji durumu böyük maraqla oxuyur, əsərin necə tamamlanacağını intizarla izləyirlər.

Sezilməyən incəliklər dərinləşdirilmiş oxu məqsədilə hazırlanan suallarda nəzərə alınır. Bu, müəllimin diqqət yetirdiyi mühüm cəhətlərdəndir və konkret sinfin səviyyəsindən asılı olaraq, suallar fərqli məzmunda ola bilər.

Yoxlama-sınaq dərslərinin təhlili hekayə ilə bağlı aşağıdakı sualların müəyyənləşdirilməsinə səbəb olmuşdur:

– Pöhrəli dərə, meşə haqqında sizdə hansı təsəvvür yarandı?
– Meşəbəyi ilə İmranın qarşılaşmasını necə təsəvvür etdiniz?
– Onların bir-birinə münasibəti barədə sizdə hansı təəssürat yarandı?
– İmran haqqında ilkin təəssüratınız nə oldu?
– Meşə ilin müxtəlif fəsillərində İmranda hansı hiss və düşüncə yaradır?
– "Nazlı bulağ"ın təsvirinə diqqət etdinizmi? Onu necə təsəvvür edirsiniz?
– Pul tapmış İmran hansı hisslər keçirir?
– Onun ziddiyyətli fikirlərindən hansı diqqətinizi daha çox çəkdi?

– İmranın qəti qərara gəlməsinə səbəb nə oldu?

Göründüyü kimi, suallar məzmun və tələblərinə görə fərqli olub, şagirdlərin fəaliyyətini müxtəlif istiqamətlərə yönləndirir. Onlar təxəyyülün, təsəvvürün, məntiqi və yaradıcı təfəkkürün faydalı, məhsuldar işini təmin edir. Obrazlar haqqında təəssüratın dərinləşməsi, onların hiss və düşüncə aləminə nüfuz edilməsi, təbiətlə bağlı təsvirlərin incəliklərinin duyulması sualların tələbləri sırasındadır. Bütün bunların qavranılma səviyyəsi müsahibə, yaxud təqdimatların əsasında aşkara çıxarılır. Lakin şagirdlərin suallara müstəqil hazırladıqları cavabları ilk növbədə cütlük şəklində, yaxud kiçik qruplarda müzakirə etmələrinə şərait yaradılması vacibdir.

Dərslikdəki növbəti tapşırıq yalnız nəzəri anlayışlarla bağlı bilik və bacarıqların tətbiqi ilə məhdudlaşmır, mətnin məzmununa daha dərindən nüfuz edilməsinə imkan yaradır:

### II. MÖHKƏMLƏNDİRMƏ. ZƏNGİNLƏŞDİRMƏ

1. Oxuduğunuz parçada bədii təsvir və ifadə vasitələri işlənibmi?
2. Onların işləndiyi məqamları və növlərini müəyyənləşdirin.

Tapşırığın üzərində fərdi işləyən şagirdlər gəldikləri nəticəni müəllimin apardığı yığcam müsahibədə səsləndirirlər.

Növbəti tapşırığın uğurla yerinə yetirilməsi hekayənin məzmunu barədə təsəvvürün hansı səviyyədə olmasından xeyli dərəcədə asılıdır. Lakin burada başqa bir incəlik də var: əsərin yalnız məzmunu ilə deyil, həm də dili, üslubu ilə yaxından tanış olan, bütün bunları duyan şagird yaradıcı nağıletməyə nail ola bilir:

### III. NİTQİNİZİ VƏ DÜŞÜNCƏNİZİ ZƏNGİNLƏŞDİRİN

1. "Nazlı bulağ"ın təsvirinə həsr edilmiş parçanın məzmununu *yaradıcı* nağıletməyə hazırlaşın.
2. Əlavələrinizin mətndəki təsvirə uyğun olmasına çalışın.
3. Çıxışlara münasibət bildirin.

Çoxlu sayda təqdimatların dinlənilməsi vacib deyildir. Müzakirə edilən bir, yaxud iki təqdimatın əhatəli təhlili şagirdlərə öz işlərinə tənqidi yanaşmalarına imkan verir.

Dərslikdə sonuncu tapşırıq müzakirənin – debatın təşkili ilə bağlıdır. Vaxtdan səmərəli və qənaətlə istifadə edilmiş dərsdə müzakirənin təşkilinə kifayət qədər vaxt ayırmaq olur. Təbiət mövzusunda xeyli əsərlə tanış olan, digər fənlərdən və mənbələrdən məlumat əldə edən şagirdlər mövzuya böyük maraq göstərirlər. Debatın fikir sərbəstliyi şəraitində keçməsinə, münsiflərin obyektiv olmalarına, öyrənilmiş yeni sözlərdən, obrazlı kəlmə və ifadələrdən necə istifadə edildiyinə diqqət yetirilir:

### IV. MÜZAKİRƏ

1. "Təbiətdə nə varsa, insanların rifahı üçün istifadə edilməlidir" mövzusunda debata hazırlaşın.
2. Lehinə, yaxud əleyhinə olmaqla dəlillərinizi hazırlayın.
3. Münsifləri mövqeyinizin həqiqiliyinə inandırmağa çalışın.
4. Fərqli fikirlərə hörmətlə yanaşın.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayəni ideya məzmununa uyğun əlavələr etməklə yaradıcı nağıl edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir və ifadə vasitələrinin növlərini nümunələr əsasında fərqləndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Öyrəndiyi yeni sözlərdən hekayə ilə bağlı müzakirə və təqdimatlarda ardıcıl istifadə edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayə ilə bağlı müzakirə və təqdimatlarda fikirlərini obrazlı söz və ifadələrdən məqamında istifadə etməklə şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

| | |
|---|---|
| **Mövzu:**<br><br>**Bayram Həsənov. BULAQ BAŞINDA –**<br><br>**3 saat**<br><br>**Üçüncü saat: ARAŞDIRMA. TƏHLİL** | **Təlim məqsədləri**<br>• Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları ilə ifadəli oxuyur (1.1.2).<br>• Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu səciyyələndirir (1.2.2).<br>• Təsvir və ifadə vasitələrinin hekayədə bədiiliyin artmasına verdiyi töhfəni şərh edir (1.2.3).<br>• Hekayənin başlıca mövzusunu və və əsas ideyasını şərh edir. (1.2.4)<br>**Köməkçi vasitələr:** Bayram Həsənovun əsərlərindən nümunələr. “Bulaq başında” hekayəsi ilə bağlı illüstrasiyalar.<br>**Dərsin qısa planı**<br>**1. Araşdırma. Təhlil.** Əsərin mövzu, ideya və obrazlarının səciyyələndirilməsi üzrə araşdırma və təhlilin aparılması.<br>**2. İfadəli oxu.** Hekayənin bitkin parçasının ideya məzmuna uyğun ifadəli oxusu üzrə işin təşkili.<br>**3. Formativ qiymətləndirmə.** |

**Dərsin məzmunu.** Dərsdə əsərin mövzu və ideyasının aydınlaşdırılması, obrazların səciyyələndirilməsi, ifadəli oxunun reallaşdırılması üzrə işin təşkili həyata keçirilir.

**Mövzuya yönəltmə (maraqoyatma).** Müəllim qeyd edir ki, hekayədə əhatə olunan məsələlərin çox olduğu artıq məlumdur. Onlardan hansının daha vacib olduğunu müəyyənləşdirmək üçün araşdırmanın davam etdirilməsi vacibdir. Bunun üçün belə bir sualın üzərində düşünmək və onunla bağlı araşdırıma aparmaq məqsədəuyğundur: Hekayədə müəllifi daha şox düşündürən problem nədir?

**Müəllim üçün əlavə məlumat.** *Hekayədə toxunulan məsələlər çoxdur. Lakin təbiətə, quşlar və heyvanlar aləminə diqqət və qayğı ilə bağlı təsvirlər, epizodlar ön plandadır. Məhz onların araşdırılması, alt qatdakı niyyətin aşkara çıxarılması yazıçı mövqeyini, onu narahat edən problemi aydınlaşdırmağa imkan verir.*

Araşdırma, təhlil xarakterli tapşırığın yerinə yetirilməsinə fərqli yollarla nail olmaq mümkündür. Bütün hallarda şagirdlərin əməkdaşlıq şərairtində işləmələrinə diqqət yetirilir. Tapşırığın sualları ya cütlük şəklində, ya da kiçik qrup halında işləyəcək şagirdlərə təqdim edilir. Cütlər, yaxud kiçik qruplar tapşırığın bir sualı üzərində işləyirlər.

Tapşırığın birinci sualı və onun icrası üçün müəyyənləşdirilmiş tövsiyələr aşağıdakı məzmundadır:

- Əsərin mövzusunu müəyyənləşdirin. Tövsiyələrdən faydalanın.
  – hekayədə daha çox nədən danışıldığını yada salın;
  – iştirakçıların daha çox nə barədə düşündüklərini, nə ilə maraqlandıqlarını xatırlayın;
  – ayrı-ayrı hadisə və təsvirlər üçün ümumi olan cəhətləri yaddaşınızda canlandırmağa səy edin.

Hekayədə birbaşa təbiətlə bağlı olmayan təsvirlərə də yer verilmişdir. Səfdər obrazının həyat tarixçəsi, kənd adamları ilə münasibəti və s. bu qəbildəndir. Lakin süjetdə əsas və aparıcı olan təbiət və onun canlılarıdır. Ədəbi qəhrəmanların da təbiətlə bağlılığı, təbiət haqqındakı düşüncələri önəmli yer tutur. Hadisələri əlaqələndirən də yenə təbiətlə bağlı təsvirlərdir. Bundan çıxış etməklə mövzu haqqında əsaslandırılmış fikir söyləmək şagirdlər üçün çətin olmur.

Tapşırığın ikinci bəndi müşəbəyi obrazının təhlili ilə bağlıdır:

- Meşəbəyi obrazını səciyyələndirin. Tövsiyələri nəzərə alın:
  – müxtəlif məqamlarda hiss və düşüncələri;
  – insanlara münasibəti, müxtəlif vəziyyətlərdə nitqi-danışığı və davranışı;
  – çalışdığı sahəyə, təbiətə münasibəti.

Hekayənin ilk cümlələrindən Səfdər obrazına rəğbət yaranır. Peşəsinin, işinin bilicisi olması, xeyirxahlığı, əməlləri oxucunun diqqətini çəkir. İnsanların, ehtiyac yarananda digər canlıların köməyinə çatan Səfdər sadə, təvazökar adamdır. Onun hisslərinin təsvirinə əsərdə geniş yer verilməsə də, oxucu bu obrazın mənəvi aləminə yaxşı bələd olduğunu düşünür. Səfdərin davranışı, əməlləri bu təsəvvürü yaradır.

Təbiətən azdanışan olan Səfdərin nitqi-danışığı xarakterinin bütövlüyü və işıqlı mənəvi aləmi barədə təsəvvür qazanmağa imkan verir.

Əsərdən bu obrazla bağlı nümunələr seçən şagirdlər onun davranış və əməlləri barədə əsaslandırılmış fikir söyləməkdə çətinlik çəkmirlər.

Əsərin məzmunu üzrə iş prosesində aydınlaşır ki, məktəbli-oxucular pul tapan İmranın tərəddüd keçirməsinin səbəbini birmənalı qarşılamırlar. Şagirdlərdən bir qismi İmranın pulu tapdığı andan sahibini axtarmalı olduğunu israr edir, başqa qrup onun tərəddüd etməsini təbii sayır. Bu obraza əsaslandırılmış münasibətin bildirilməsi onun düşdüyü psixoloji vəziyyətin obyektiv dərk edilməsindən xeyli dərəcədə asılıdır. Gözləmədiyi hadisə ilə qarşılaşan – çoxlu pul tapan İmranın ziddiyyətli fikirlərin içində çaşıb qalmasına təbii baxmaq lazımdır. Hələ hisslər hakimdir, soyuq mühakimə gecikir, sonra yaranacaq. Belə də olur...

Bütövlükdə İmran məktəbli-oxucunu düşündürən obrazdır. Onun saf, səmimi olması, təbiətə münasibəti şagirdlərin dönə-dönə xatırlatdığı fikirlərdəndir. Tapşırığın növbəti tələbi bu obrazın təhlili ilə bağlıdır:

- İmran obrazını səciyyələndirin. Tövsiyələrə diqqət edin:

– fərqli məqamlarda hiss və düşüncələri;
– təbiətə və insanlara münasibəti;
– müxtəlif vəziyyətlərdə davranış və əməlləri.

Mətndən tövsiyələrin tələblərinə uyğun nümunələr seçən şagirdlərə əsaslandırılmış fikir söyləmək çətin olmur.

Tapşırığın növbəti bəndi şagirdlər üçün həm maraqlı, həm də əlyetəndir:

- Təsvir və ifadə vasitələrinin hekayənin maraqla oxunmasına, bədiiliyinin artmasına təsirini dəyərləndirin. Cədvəldən istifadə edin.

| Cümlələr bədii təsvir və ifadə vasitələri ilə | Cümlələr bədii təsvir və ifadə vasitələri olmadan | Fərqin izahı |
|---|---|---|
| | | |

Yazıçının başlıca niyyəti barədə müəyyən nəticəyə gələn şagirdlər tapşırığın növbəti sualı ilə bağlı araşdırma aparmağa maraq göstərirlər. Cədvəldə əks etdirilmiş variantlardan seçilənin, yaxud müstəqil müəyyənləşdirilmiş variantın əsaslandırılması diqqət mərkəzində saxlanılır. Başlıca məqsəd deyilənlərin dəlillərlə, əsərdən gətirilmiş nümunələrlə təsdiq edilməsidir:

- Sizcə, müəllif əsərdə oxuculara hansı əsas fikri, ideyanı çatdırmağı məqsəd seçmişdir?

Cədvəldəki fikirlərə münasibət bildirin. Düşündüyünüz fərqli variantı əsaslandırın.

| s. | Əsərin əsas ideyası hansıdır? | Nə üçün belə düşünürsünüz? | Sizin variantınız |
|---|---|---|---|
| 1 | İnsan təbiəti, heyvan və quşlar aləmini sevməli, onların qayğısına qalmalıdır. | | |
| 2 | İnsanla təbiət bir-birini tamamlayır, onların bir-birinə ehtiyacı var. | | |
| 3 | İnsanın təbiətə amansız münasibəti ağır nəticələr verir, onu sevmək və qorumaq hamı üçün vacibdir. | | |

Dərslikdə sonuncu tapşırıq hekayədən seçilmiş parçanın ifadəli oxusuna hazırlıq və oxusu ilə bağlıdır. Şagirdlər ilk növbədə təlimatla tanış olurlar. Ehtiyac yaranarsa, müəllimin izahına da vaxt

ayrılır. Ardınca şagirdlər mətn üzərində fərdi işləyirlər. Şərti işarələrdən istifadənin necə reallaşdırıldığına diqqət yetirilir. Səciyyəvi ifaların dinlənilməsi və onlara münasibət bildirilməsi məqsədəuyğundur.

## II. İFADƏLİ OXUYA HAZIRLAŞIN

1. Hekayədən seçilmiş aşağıdakı parçanın ifadəli oxusuna hazırlaşın. Onda əksini tapmış fikir artıq sizə məlumdur. Deməli, oxuda hansı vəzifəni həyata keçirəcəyinizi müstəqil müəyyənləşdirə bilərsiniz. Cümlələrin daxilində, cümlələrarası fasilələrin yerini, səsinizin yüksəlib-alçaldığı məqamları, məntiqi vurğulu sözləri müəyyənləşdirib şərti işarələrlə göstərin. Unutmayın ki, oxuduğunuz parçanın məzmunundan asılı olaraq, səsinizdə fərqli çalarlar: sevinc, kədər, fərəh və s. duyulacaq. Bunlar isə mətnin kənarında qeyd olunmalıdır.

| İfadəli oxunacaq mətn | Səsin aldığı çalarlar |
|---|---|
| İndi o, pul sahibinin halına acıyırdı, düşünürdü ki, kim bilir, bəlkə, kədər içində haradasa pulunu axtarır, ya baş sındırır ki, görəsən, harada düşüb qaldı... Birdən fikrindən keçirdi ki, eh, başımı niyə ağrıdım, hardan bilim, kimin puludur?.. Verərəm atama, mənə velosiped alar, qalanını da nəyə xərcləyir, xərcləsin…<br>Bir az yüngülləşdi. Amma həyətlərinə çatanda yenə fikirləri qarışdı. Tərəddüd içərisində evə girdi. Pulu anasına göstərməyib, çantasına qoydu. Həyətə çıxdı, oradan da bağçalarının dərinliyinə çəkildi. Həmişə oturduğu, ağacların sıx olduğu yerə çatanda dayandı. İndiyə kimi heç vaxt keçirmədiyi hisslər qəlbini bürümüşdü. Özü-özündən baş açmırdı, alaşıq-dolaşıq fikirlər onu sanki qovurdu, dayanmağa, sakit düşünməyə qoymurdu... | |

2. İfalara münasibət bildirin.

### Formativ qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə üsulları | Qiymətləndirmə materialı |
|---|---|---|
| Hekayədən bitkin parçanı ideya məzmununa uyğun səs çalarları və ədəbi tələffüz qaydalarına əməl etməklə ifadəli oxuyur. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayədəki qəhrəmanların davranış və əməllərindəki özünəməxsusluğu nümunələrlə səciyyələndirir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Təsvir və ifadə vasitələrinin hekayədə bədiiliyin artmasına verdiyi töhfəni nümunələr əsasında şərh edir. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |
| Hekayənin başlıca mövzusunu və əsas ideyasını nümunələr əsasında şərh edir və əsaslandırır. | Tapşırıq, şifahi sual-cavab | Dərslik, iş vərəqləri |

BEŞİNCİ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə "Maral əfsanəsi" əsəri üzrə aparıla bilər.*

*Mehdi Həsənov*

**MARAL ƏFSANƏSİ**

*(ixtisarla)*

Kərim əmini kənd arasında canlı tarix adlandırırdılar. Doğrudan da, o, tarix idi. Ömrünün yüz otuzuncu baharını yaşasa da, çox iti hafizəsi vardı, xırda, qıyıq gözləri işıqlı, qolları qüvvətli idi.

Kərim əminin gözəl bir xasiyyəti vardı. Baharda bir an da olsun, boş dayanmaz, alın təri ilə düzəltdiyi bağçada əlləşər, gah uşaq kimi dağ çiçəkləri toplayar, gah da balıq ovuna çıxardı. Payızda Kərim əminin məşğuliyyəti dəyişərdi. Uşaqlıqdan ən çox sevdiyi ovçuluq sənəti yadına düşər, qoşalülə tüfəngini çiyninə salıb dağlara ova çıxardı. O, məşhur balıqçı, mahir ovçu idi. Elə ki qapını qar aldı, Kərim əminin qoca tarixi vərəqlənər, evi qoca və cavanla dolub-boşalardı. Onun duzlu-məzəli söhbətlərindən doymaq olardımı? Bu söhbətlər hamını cuşa gətirər, ulu babalarımızın qəhrəmanlığı gözlərimiz önündə canlanardı.

Kərim əmi ovçuluğu çox sevsə də, ürəyiyumşaq adam idi. Öz dediyinə görə ömründə ceyrana, cüyürə güllə atmamışdı. Hətta yeri düşəndə deyərdi:

– Ceyransız, cüyürsüz meşə, çöl susuz səhra kimi bir şeydir. Təbiətdən zövq almaq istəyirsənsə, onun yaratdığı çöllər gözəlinə qıyma.

Payızın əvvəli idi. Kərim əmi ilə ova çıxmışdıq. Nədənsə, ovumuz çox uğursuz keçdi. Cəmi ikicə qırqovul ovladıq. Bizə rast gələn bir cüt marala isə yalnız tamaşa etməklə kifayətləndik. Evə qayıdarkən yolumuzu "Maral bulağı"ndan saldıq. Bir az sərin su içib dincəldik.

Bulaq mənzərəli yerdə idi. Hər tərəf göz işlədikcə uzanan meşəlik, ortada isə kiçik bir tala. Taladakı yastı təpənin üstündə bitən vahid qocaman çinar maralın buynuzlarını, yanlarından qaynayan bir cüt bulaq onun gözlərini, təpənin özü isə maralın başını xatırladırdı. Bulaqlardan axan su bir az aşağıda batıb yox olur, sonra isə birləşərək mal dili kimi meşənin içi ilə uzanırdı. Mənim bu mənzərəyə aludə olduğumu görən Kərim əmi:

– Oğlum, nə çox baxırsan? – deyə sual etdi.

– Heç, Kərim əmi, – dedim, – doğrudan da, bulağa düz ad veriblər. Görün necə adına oxşayır.

– Elədir, oğlum, elədir, – deyə o, sözə başladı. – Xalqın qoyduğu hər bir ad müəyyən hadisə, rəvayətlə bağlıdır. Bu bulaq haqqında babalarımızdan yadigar belə bir rəvayət vardır:

Bir zamanlar bizim bu meşələr marallar, ceyranlar oylağı imiş. Uzaq-uzaq ellərdən də bura ova gələrlərmiş. Yadellilər zərif məxluqu rəhmsizcəsinə qırıb-tökər, bundan həzz alarlarmış. Hansı ölkədənsə bura mahir bir ovçu gəlir. O, gündə neçə günahsız qana bais olurmuş. İsti günlərdən biri imiş. Göydən od tökülürmüş. Ovçu çoxdan bəri axtardığı bir ana maralın izinə düşür. Deyilənə görə, bu meşədə elə gözəl heyvan yox imiş. Ovçu onu bulağa su içməyə enəndə nişan alıb vurur. Köksündən yaralanmış maral çırpına-çırpına həsrətlə gah suya, gah da meşəyə doğru baxır. Ovun başını kəsmək istəyən ovçu onun gözlərindən axan yaşı görüb sarsılır. O, maralın baxdığı səmtə çevrildikdə qanına bulaşmış anasına doğru boylanan bir cüt bala görür. Özünə lənət oxuyur. Öz çirkin əməlindən peşman olub bir daha ovçuluq etməyəcəyinə and içir. Maralı həmin yerdə basdırır. Üstünə də nişanə üçün bir ağac sancır.

Səhər yaxın kəndin əhalisi bulağın başında bitmiş qollu-budaqlı çinarı görüb heyran qalır. Hamı bu möcüzənin tamaşasına çıxır. Baxırlar ki, köhnə bulaq quruyub. Ondan azacıq aralı kiçik təpəciyin yanlarında isə bir cüt bulaq əmələ gəlib. Ucalan çinar da hər iki bulağın ortasında bitib. Ovçu hadisəni açıb söyləyir. Bunu hərə bir cürə yozur. Bəzisi onun maral donuna girmiş mələk olduğunu, bulaqların da onun göz yaşından əmələ gəldiyini deyir. Bundan sonra "mələy"in canına qəsd etdiyinə görə ovçunun bağrı yarılır. Elə o vaxtdan da bulaq "Maral bulağı" adlanır.

Kərim əmi söhbətini qurtarıb ayağa qalxdı.

Mən hadisənin nə qədər düzgün olduğunu deyə bilmərəm. Amma onu deyim ki, indi də hər günorta Maral bulağına bir cüt maral enib su içir. Heç kəs də onların xatirinə dəymir. Dəyə də bilməz. Axı onlar babalarımızdan bizə qalmış yadigardır.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. "Aludə olmaq" sozünün mənasını müəyyən edib yazın. Həmin sözün sinonimini bir cümlədə işlədib qeyd edin.**

______________________________________________

______________________________________________

**2. Əsərdə əfsanəyə aid hansı cəhətlər əksini tapıb?**

______________________________________________

______________________________________________

**3. Əfsanə ilə bağlı doğru olmayan fikir hansıdır?**

A) Əhvalat obrazın dilindən danışılır.
B) Əfsanədə zəhmətsevərlik, xeyirxahlıq, təbiətə qayğı təbliğ edilir.
C) Əsərdə şifahi xalq ədəbiyyatına aid xüsusiyyətlər var.
D) Kərim əmi mahir ovçu idi, ov etməkdən doymazdı.
E) Əhvalatı nağıl edən obraz dərin düşüncəli və həssasdır.

**4. Cümlənin ifadəli oxusunda səsdə hansı çalar duyulmalıdır?**

*"Ceyransız, cüyürsüz meşə, çöl susuz səhra kimi bir şeydir. Təbiətdən zövq almaq istəyirsənsə, onun yaratdığı çöllər gözəlinə qıyma".*

A) yalvarış B) amiranəlik C) nəsihət D) hökm E) xahiş

**5. Hansı fikir ovçuya aid edilə bilməz?**

A) Ovçuluqda mahirdir.
B) Qəddar və rəhmsizdir.
C) Yad ölkədən gəlmişdir.
D) Sarsıntı keçirir.
E) Maralı dəfn edir.

**6. Əsərdən bədii təsvir və ifadə vasitələrinin işləndiyi cümlələrdən nümunələr seçib yazın.**

| | |
|---|---|
| Epitet | |
| Bənzətmə | |
| Mübaliğə | |
| Bədii sual | |

**7. Təsvir və ifadə vasitələrinin bədiiliyin artmasına verdiyi töhfəni əsərdən seçdiyiniz nümunələrin əsasında şərh edin.**

**8. Əsərdən hansı nəticəni çıxarmaq olmaz?**

A) Babalardan qalan qiymətli yadigarlar yeni nəsillər tərəfindən qorunur.

B) Təbiətdə olan nadir heyvanları qorumaq lazımdır.

C) İnsan boş dayanmamalı, əməkdən, zəhmətdən uzaq düşməməlidir.

D) Yaşa dolmuş insanların hamısının ürəyi müdrik fikirlərlə, ibrətamiz hekayətlərlə dolu olur.

E) Müdrik ağsaqqalların ibrətamiz əməlləri cavanlara örnək olur.

**9. Aşağıdakı hansı fikirlər boş xanalara artırılsa, əsərdəki hadisələrin ardıcıllığı gözlənilmiş olar?**




1. Canlı tarix
2. Duzlu-məzəli söhbətlər
3. Kərim əminin nəsihəti
4. Yaralı maral
5. “Maral bulağı” əfsanəsi

A) 2, 3 B) 1, 5 C) 1, 4 D) 2, 5 E) 1, 3

**10. Əfsanədən seçdiyiniz parçanın məzmununu yığcam yazın.**

BURAXILIŞ MƏLUMATI

ƏDƏBİYYAT – 6
Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün ədəbiyyat fənni üzrə
METODİK VƏSAİT

Tərtibçi heyət:

| | |
|---|---|
| Müəlliflər | Aynur Cəfər qızı Mustafayeva |
| | Soltan Hüseyn oğlu Əliyev |
| Redaktor | Kəmalə Cəfərli |
| Bədii redaktor | Taleh Məlikov |
| Texniki redaktor | Zeynal İsayev |
| Dizayner | Taleh Məlikov |
| Rəssamlar | Elmir Məmmədov |
| Korrektor | Aqşin Məsimov |

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2025-000

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 20,5. Fiziki həcmi: 23,5 çap vərəqi.
Formatı: $57 \times 82^{1}/_{8}$. Kəsimdən sonrakı ölçüsü: 195×275. Səhifə sayı: 188.
Şriftin adı və ölçüsü Times New Roman qarnituru 9-11 pt. Ofset kağızı. Ofset çapı.
Pulsuz. Bakı – 2025.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 10.04.2025

Çap məhsulunu hazırlayan:
"Bakı" nəşriyyatı (Bakı, H.Seyidbəyli küç., 30)